Şirin xanım
Kərimbəyli Şadiman

AY ADAMLAR, MƏN BURDAYAM

ADİLOĞLU
BAKI-2012

Kitaba maddi və mənəvi dəstək göstərdiyinə görə həyat yoldaşım Abdullov Əli Əli oğluna minnətdaram.

Redaktoru: ***Abdullov Əli Əli oğlu***

Şirin xanım Kərimbəyli Şadiman
«**Ay adamlar mən burdayam»**
"Adiloğlu" nəşriyyatı, Bakı 2012. 456 səh

Qeyd: ünvansız şeirlər Pirallahidə yazılıb

Şirin xanım Kərimbəyli Şadiman Azərbaycan ədəbiyyatında öz dəsti xətti olan sənətkarlardan biridir. Onun yaradacılığı təkcə Vətən məhdudiyyətində qalmır. O, öz ürəklər fəth edən yaradıcılığı ilə çoxdan Azərbaycan sərhədlərini aşıb. Dünyanın harasında bir ağrı-acı varsa, Şirin xanımın ilhamlı qələmi orda olur və o ağrıları nəzmə çəkir. Şair istər şeiriyyəti, istərsə də publisist düşüncələri ilə oxucu ürəyini riqqətə gətirən sənətkardır. Nəşriyyatımız adından müəllifə yeni-yeni yaradıclıqlıq zirvələri arzulayırıq.

Şirinxanım Kərimbəyli Şadiman

Sayt: www.shirinxanim-shadiman.net

4722110018
121 - 2012 qrifli nəşr

© "ADİLOĞLU", 2012

QƏLƏMƏ VƏ SÖZƏ MƏCNUN ŞİRİN...

Bir şair fəryadını, ürək yanğılarını, göylərə büləndolub ərşə çəkilən ahını, XX1 əsrin qadın poeziya öndərlərindən olan Şirin xanım Kərimbəyli Şadimanın kitabına qoyduğu «Ay adamlar, mən burdayam» adında gördüm. Bəli, gördüm və duydum. Duydum və mənəvi yükü yaşadım. Fikirin, sözün, məntiqin sanbalını idrak tərəzisinə qoydum. Şirin xanım Şadimanın bugünki ədəbiyyatımızda olması ilə fəxarət hissi keçirdim.

Bəli, ay adamlar, ay ədəbiyyat, poeziya sevərlər, sözə, sənətə qiymət verənlər, Şirin xanım bütöv məntiqi, sivil dünyagörüşü, dünyaya nikbin baxışı ilə burdadır, sizin aranızda, sizin, sıranızdadır. Əcəba, siz hardasınız?! Onu görürsünüzmü, duyursunuzmu, yazdıqlarına dəyər verə bilirsinizmi?! Yəni bir hal-əhval soruşmağa dəyməzmi?! Bu sözləri mən dedim (Fəridə Ləman). Amma müəllif heç onun halını soruşmağı da istəmir və deyir:-Ay yoldan keçən, ay qənşərimə çıxan halımı soruşma, Allah, soruşma deyir. Deyəcəm ki, yaxşı, pis, ya da babat. Şeir yazanın halı necə olacaq, dərdin içində üzənin, bir udum nəfəsə pəncərə gözlüyü bağlanan, qələmə Məcnun olanın halı necə olacaq? Soruşma halımı qoy cızma-qaramla məşğul olum.

Güney arzuları quzeydə qərar tutanın, torpaqları yağı əlində mələyənin, əsir gəlinlərin fəryadına gözləri tor tutdu anaların, çarəsiz bir təəssüb keşiyində qələmini, sözün gücünü, işğal altında qalan Torpaqların «günahkarı» sayan yazarın, təbəssümü üzündə donan körpənin halını görən, dünyanı palaza bükən kimi bir anda bürüb-büküb qabağına alıb aparan sunamilərin, qasırğa və tufanların, nahaq tökülən qanların səbəbini bilən qələm əhlinin halı necə olacaq??

Şirin xanım Şadiman dərdi içinə gülə-gülə sıxıb kəlməyə, misraya döndərir, şeirə çevirir. Bu şeirlərin mənəvi yükü, ali sanbalı çox dəyərlidir. Azərbaycan dilinin söz xəzinəsini özünün Allah vergisi, möcüzə gözü ilə ipə, sapa düzür düşünür, düşündürür.

Haqqın qeydinə qalan az,
Meylini düzlüyə salan az,
Zamanıyla olan az.

Şirin xanım haqq adamıdı. Dünyaya çox vaxt üzüdönük deyirik. Əsla belə deyil! Elə deyəsən üzüdönük biz bəndələrik. «Əzrayıl dalımızca gəzir» deyən müəllif kimsədə bir xof yaratmaq üçün bu sözləri demir, o, «yaltaqlıqdan əyilən qəddləri»; «lovğalıqla keçilən sədləri»; «Sərvəti sərvət üstə yığanları» ayıltmaq istəyir, günahkarları deyəsən İsrafilin suru ayıldacaq. «Biz bu dünyaya nəzir» deyən yazar şeytanın şərindən qorunmaq üçün bir olan Allahı unutmamağı, onun ətəyindən yapışmağı «Vaxtımız dalımızca gəzir» şerində tövsiyyə edir.

Unutmayaq Allahımızı,
Artırmayaq günahımızı,
Rəbb eşitmir heç ahımızı,
Dərdə tutub sabahımızı,
Özümüzü haqqa bağlayaq.

Yaradanın ruzisi ilə qarnı toxların Allahlıq iddiası yeri, göyü, bəşər aləmini qəmə-qadaya sürükləyib. Amma müəllifin iç dünyası o işıqla nurlanır, dili o nurla şükranlanır. Onun «Şükür sənə, Allahım» şeiri elə bu istəklə avazlanır:

Zülmətin qoluzorlu,
Sübhün gözləri nurlu,
Aləm necə qürurlu!
Günəşdən zər saçılır,
Qaranlıqlar qaçılır.
Yenə səhər açılır...
Göydə, yerdə tək şahım,
Şükür sənə, Allahım.

Şirin xanımın heç bir şeirini ötəri oxuyub keçmək olmur. «Məhkumam bu dünyada yaşamağa» deyir şair. Elə bu şeir kitabının özü qədər bu fikirə əsər yazmaq olar. Müəllif ürəyindən axan qanı bu gün bəşəriyyətdə tökülən saysız-hesabsız «qanlara» bənzədir. Toxu acına dırmaşan, əyrisi düzünü əyən, imanı günaha bağlanan, əli Allahın dərgahından boş qayıdan, içinin qarası üzünə çıxan şair «bu dünyada yaşamağa məhkumam» deyir.

Şair şeirlərində tez-tez şahmat gedişi edərək oxucusunu mat qoyur. «Yabısı tufana düşmüş zaman böyürür» deyir müəllif. Onun «Bu dünya üzü» şeiri bizə bu bilməcələri açıqlayır. Amma görəsən zamanın böyürtüsünü duyan varmı, kar qulaqlara bu böyürtünün mahiyyəti nədir?!

Bu dünya üzü nehrətək çalxalanır,
Bilmirəm kimə arxalanır?
Dəlisi ağıllısına hakim,
Xəstəsi loğmanına həkim...

Bu təzadlar dünyasında qərar tutmaq, şair dünyanın taleyini öz fikir dünyasında daha çox çək-çevir edir, olanların düşüncə tərzinin xəlbir-ələyindən keçirir. Dünyanın boz üzündən boş üzünə, daş üzündən xoş üzünə nə varsa ölçür-biçir, dünyanın özü kimi min bir hala düşür.

«Zaman yaşda» şeirində yazır:

Dunya nəçi?
Qanla içi.
Əl pinəçi,
Şərlə suçu,
Ağıl başda,
Zaman yaşda.

Şirin xanım Şadimanın «dünya məfhumu ilə bağlı şeirlərində bu məfhum onunla həmsöhbətə çevrilir. Amma müəllifin tez-tez müraciət etdiyi dünyasında onun iki dünyası var – ilahi dünyası və yaşadığı gerçək dünyası. O, yalnız ilahi dünyasında paklaşır, istədiyi məqama yetişir, nə yazıq ki, gerçək dünyasında onu çox amillər sıxır.

Zərbi min bir daş sındırır,
Gözlərimdə yaş sındırır.
Daşın atıb baş sındırır,
Edib qəmə axır məni,
Dünya yaman sıxır məni.

Şairin yaradıcılıq məqamında sülh, barış, insanlıq, şərdən, qara fikirlərdən uzaq olmaq ön planda gedir. «Açın sərhədləri, qırın sədləri» deyərək müəllif, sanki bir ixlasa əl uzadır, haray çəkir.

Hamımız adamıq bu yuva bizim,
Dinlərdən doğulmuş hər dua bizim,
Allahın verdiyi su, hava bizim,
Gəlsin bir araya dünya mərdləri,
Açın sərhədləri, yıxın sədləri.

Təbii ki, müəllifin fikir dünyasında zaman səddi uzaqlaşdırıla, yaxınlaşdırıla bilər. Mühakiməsinin gücü ilə ayları, illəri, əsrləri aşa bilər, xəyal qanadları ilə dünyanı dolaşar. Söz bədii kontekstdə nə qədər oynaq, emosional olsa da, tarixə dönüş, əsrlərin buz qatını açıb tarixə üz tutmaq, onun həqiqətlərinə söykənmək reallıq və gerçəklik tələb edir..Şair «Ey mağaralar insanı» və tarixi mövzuda yaratdığı əsərlərində deyilənlərə müvəfəqiyyətlə nail olub. Şeirdə bir-birinə silah tuşlayan qardaş qırğınlarını, ərazi iddialarını, insanlara bəla gətirən, qan tökən döyüş sursatlarını icad edənləri yamanlayır. Bəlkə də əlləriniz bunlara öyrəşməsəydi, gözlərimiz tökülən qanları görməsəydi, bu silah, sursatları işlətməyi bilməsəydik yolumuz və əqidəmiz də başqa cür olardı.

Səndən başladı qan-qada,
Silaha sevgi dünyada,
Daşlaşaydın daş qayada,
Olubdu şərə ram huşun,
Ağlına hakim qurğuşun.

Və ya

Öz qardaşına ox atdın,
Qanla yer-göyü çalxatdın,
Ərşi tağından laxlatdın,
Güllələr bənzər yağışa,
Özün dönmüsən qarğışa.

Sözün gücü qılıncdan itidir – deyirlər. İnsanlar insanların haqlarını yeyir, torpaqlarına təcavüz edir, bir ölkə öz hərbi gücünə güvənərək digər ölkənin günahsız, dinc sakinlərini qan içində boğur. Yerdən sanki göyün üzünə qan sıçrayır, bəlkə bu ahvaylardan Tanrı da qulaqlarını tutur. Bu həyasız torpaq iddialı, insan qanına susayan yalquzaqların əqidəsinə hansı söz təsir edər. Amma yenə də qələm adamı sözə və onun gücünə üz tutur. «Dü-

şüb qanlar gölünə üzür Fələstin, ay aman», «Fələstin uşaqları», «Fələstinli qızı», «Qəzzada güllə yağışı» və s. şeirlərində müəllif ürək ağrısı ilə qələmə sarılır.

Yoxdu imdad uşağa, nə qocaya, nə qadına,
Xocalı Soyqırımı düşür adamın yadına!...
Yetməyir heç bir ölkə bu tifillərin dadına,
Bəs görən kim çatacaq haqqın ahu-fəryadına,
İndi dildə ağıtək gəzir Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman!

Siyasi və beynəlxalq hadisələr fonunda şair təkcə oz yurdu, vətənindəki hadisələrlə təcrid olunmur, O, müşahidəçidir, fikir adamıdır. Haqqın üzünə pərdə çəkib yalanı yeridənləri burada da duyur, dünyanın o başında da. «Axdı küçələrə qanı uyğurun» deyə müəllif göyüm-göyüm göynəyir.

Nədəndir elinə sitəm edirlər,
Evinin içini matəm edirlər,
Boğub şadlığını xitam edirlər
Şərin hər işini nə tam edirlər?
Dolub iblislərlə yanı uyğurun,
Axdı küçələrə qanı uyğurun.

Çində Şərqi Türküstanda, Sican-Uyğur bölgəsində baş verən ürək ağrıdan hadisələrə şairin yazdığı «Bir uyğur çocuğu təpiklər altda» şeiri sanki bir haraydır:

Küçədən maşınlar şütüyüb keçir,
O türk olduğuyçün təpiklər altda.
Asfalt bir uşağın qanını içir...
Görən nə baş verir insaniyyatda?

Ölkələrə, onların insanlarına olan isti münasibət müəllifin sinəsində od tutub yanan Vətən torpaqlarından, yurdumuzda tökülən şəhid qanlarındlan irəli gəlir. Zaman-zaman yadellilərin qana bulaşmış əlləriylə başımıza gətirilən faciələr tarixin və qəlbimizin yaddaşındadı. İnsanlığa sığmayan Xocalı Soyqırımı, **20 yanvar** hadisələri öz faciə qiymətini ala bilmədiyi halda zatı qırıq fransızların yaltaq ermənіyə quyruq olaraq zorən türkü soyqırımçı

adlandırması vicdanı korların dilini açmasa da, söz adamının qəlb püskürtülərini dayandıra bilməz.

Türkün tarixindən, şöhrətindən varlığı hürkən, porsumuş erməni, içindən cin-şeytanı çıxart, dünyaya və əməllərinə açıq gözlə bax. Bir gün ruhlar dünyasında səsinin vahiməsindən, boğazına yapışan əllərdən qulağını tutacaqsan, əllərin qalxmayacaq. Onda sənin ağzını türk oğlu türk qapıyacaq.

Cümlə müsəlman dünyasının dərdlərinə şeiri ilə çələng bağlayan, Şirin xanım, bacım. Bu acı həqiqətləri yaza-yaza ürəyini xəstə etdin. O balaca, yarımcıl ürəyi dərdin məngənəsində sıxa-sıxa bu şeirləri yazmısan. «Yoxdur harayına gələn Kərkükün» şerində yazırsan:

Biz də Kərkük təki təkləndik bir vaxt,
Yağı evimizdə qurdu qanlı taxt!
Ayılın, ey Türklər, gözləməyir vaxt...
Qazılır məzarı belnən Kərkükün...

Bu gün müsəlman dünyasında ara qarışdıran şeytanlar tökülən qanlardan, bədxah əməllərindən utanmırlar. Onun «Ərəb ölkələri qalxıb ayağa» şeiri, sanki müsəlman ölkələrinin acılarına bir etirazdır. Bütün bu riyalı üzlərdən usanan müəllif yenə qələmə üz tutur:

Livyanın, Suriyanın, Yəmənin sözü,
Püskürdür qəlblərdən kül altda közü,
Qəmlərdən boylanan müsəlman üzü,
Ürəyi odlayır, əqli çaş edir.

Hərdən mənə elə gəlir ki, Şirin xanım Şadimana təkcə Azərbaycan vətəndaşı demək azdır.

Onun yaradıcılığını oxuyandan sonra mənim kimi qənaətə gələnlər olar ki, bu böyük ürəkli xanıma bütün millətlərin vətəndaşı demək olar. Onun kitabı sanki dövlətlərin xəritəsidi, talelərindən anonslardı. Bu kitabda ümumdünya mənzərəsi, eyni zamanda hər kəsə bölünməz sevgi var. O, ötən il Yaponiyada sunami nəticəsində yaşanan acı fəlakəti «Günəşisevərlər deyirlər sənə» şerində xalqın bu ağrılara qarşı göstərdiyi mətanət və dözüm qələmə alınıb.

Dünyanı çalxatdın məşəqqətinlə,
Ağrını oxşadın şəfaqətinlə,
Ərzi heyrət qoydun sədaqətinlə,
Qəmiylə səkməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

«Dünya mənlə heç ülfətin tutmadı» deyən şair Azərbaycan adını dilinə gətirincə sanki özündə bir güc tapıb qəmlərdən sılkinir, özüdəmiş – könlünün yuvası Vətənin varlığına sevinir.

Məhəbbətin cana dəva,
Sənsiz nədir de su, hava?!
Dodağımdan qopan dua,
Can içində sevdalı can,
Azərbaycan, Azərbaycan!

Müəllif Odlar Yurdunun şəhdu-şəkər ana dilindən sözünün, özünün bütöv varlığının güc aldığını etiraf edir. Onun canına hopan şirin laylalarından anaların səsi yuvalanan, Füzuli haraylı, Nəsimi təbli, Xətai təəssüblü ana dili ilə fəxr edir, fəxarət duyur.

Ana dilim,
Ölərəm sənə çatmasa əlim,
Sən söz-söz alışıb yanan
Füzuli harayı.
Sən yaralı Nəsiminin təb sarayı.
Sən yasımda ağlayan könlümün vayı,
Sən bir anlıq sevincimin nəşə payı.
Dilimdən uçsan bil ki, canım çıxıb,
Fələk ömür taxtımı yıxıb.

Şirinin xanımın «Vətəndən yazaq», «Yolum düşdü Qarabağın elinə», «Mənə meydan verin», «Düşməni köksündən vurdun Mübariz», «Balaca şəhid Farizin hekayəti və s. şeirlərində onun vətəndaşlığı, vətən övladlarına verdiyi ali dəyər qələmə alınmışdı.

Şairin «Tağayım» poeması son dövürdə yazılmış bir elin, bir obanın, etnosun haqqında yazılmış ən dəyərli əsərdir. Ölməz Şəhriyarın «Heydərbabaya salam » poemasına nəzirə yazılan bu əsər ictimaiyyət içində, xalq arasında yüksək nufuz qazanıb. Müəllifin yazdığı bu şirin hekayət ocağında qaynayan qazanı, bərəkətli süfrəsi, gül qoxulu çəmənləri, asmakörpülü çayı,

nəğməli al səhəri, nağıllı axşamları, çərəzli, şor-lavaşlı dəstərxanı, şən məktəb illəri, qohumluq münasibətlərinin isti telləri ilə çox doğmadır.

Böyük-kiçik yeri, qohumlar arasında münasibətlər, qocaların öyüd, hikməti, məişət tərzi, sevinci, kədəri, dolanışığı oxucunu riqqətləndirir.

Toydan qabaq qızların cəm olması,
Yunu didib yorğan-döşək salması,
Kəndimizin bulaması, dolması,
Ağızlarda dada döndü, Tağayım,
Qohumlar da yada döndü, Tağayım.

Şadiman xanım bu əsərlə Bakı həyatına bir kənd, el-oba hərarəti gətirib camaat arasında adamların adına deyilən ayamalar, ayrı-ayrı insanların xarakterik obrazı, bu kənddə yaşayan nəsil şəcərələri, əsilli-nəcabətli tarixini vermişdi. Kəndin nufuzlu insanları, sadə adamları öz igidlərinin, mərdlərinin qəhrəmanlıqları müəllifin yaddaşına həkk olunub. Müəllif özü də sanballı bir nəsilin nümayəndəsidir.

Kərim bəyin ocağının oduyam,
Harda olsam elə onun adıyam,
Torpağının mən də ağız dadıyam,
Ucalaram şərəfinlə, Tağayım,
Öc alaram sələfinlə, Tağayım.

Yurd, yuvamızı bir olan Allahın köməkliyi ilə qoruyan müqəddəs ocaqlarımızdan təbii ki, Tağayda da var. Seyid Camal ocağının hikmətini müəllif belə ifadə edir:

Seyid Camal ağanın pak məzarı,
Nəzir etsən aparardı azarı,
Azalardı sinələrin ah-zarı,
Qəbir evi nurla dolsun, Tağayım,
Ruhu yurda məlhəm olsun, Tağayım.

Böyük vətən müharibəsi illərində xalqın və ailələrin çəkdiyi ağrı-acılarla yanaşı, kənd adamlarının bir-birinə əl tutması, kədərləri, sevincləri bir olan insanların bu bəlanı törədənlərə nifrətin də şair böyük yanğı ilə qələmə almışdı.

Qarı, qoca hey Hitleri söyürdü,
Qara xəbər hər qapını döyürdü,
Zalım ölüm boy-buxunun öyürdü,
Çox üyütdü mərdlərini, Tağayım,
Çox artırdı dərdlərini, Tağayım.

Bu ağır günlərdə insanların faciəsi, gün-güzəranı, çətin həyat tərzi – acından qan qusan adamlar, aclıqdan qayalara doluşan canavarların kənd yolunda ana-balanı parçalayıb yeməsi, kənd məscidinin taxıl anbarına çevrilməsi, qəmin çoxunun qapısını döyməsi əsəri oxuduqca adamın içini silkələyir.

Kənd yerində ana-bala gedəndə.
Ac canavar qəfil hücum edəndə,
Sinələrin parçalayıb didəndə,
Bu dərd dildə ağı oldu, Tağayım,
Elin sinə dağı oldu, Tağayım.

Şair Tağay kəndinin insanlarını Yurdumuzun başına gələn hadisələrə seyirçi olmamağa çağırır. İşğal altında olan torpaqlarımızın xilasına səsləyir:

İndi Şuşa ermənin əsiri,
Qurub yağı Qarabağda qəsiri,
Özün söylə, ey ocağım, bu sirri!
El yolunda hanı ölən, Tağayım,
Harayına varmı gələn, Tağayım?

Tağayın harayını sənin kimi yazan yetişdi. Bir el-obanın tarixini Tarixin, Zamanın və Azərbaycan xalqının yaddaşına yazdırdı. Şirin xanım atalı-analı, qohumlu-əqrəbalı yurdu Tağaya əbədi bir heykəl qoya bildi, bir ömür yaddaşnaməsi yaratdı. Müəllifin bu kənddə keçirdiyi xoş günlərlə yanaşı, itirdiyi əzizlərini də bu əsərdə can yanğısı ilə yazmışdı.

Ağabala –pak atamın vəfatı,
Yetimliklə qəmə batan həyatı,
Yaman çapdı Əzrayılın bəd atı,
Aldı qaçdı əzizimi, Tağayım,
Necə bükdü dərd dizimi, Tağayım.

Poeziyanın əfsununu özəllikləri ilə açıqlayan, ilham qanadlarında zirvəyə uçan Şirin xanım Kərimbəyli Şadiman yaradıcılığının qarşısında ancaq xoş bir heyrət hissi keçirdim. Vuruldum bu qələmə, bu gözəlliklər aləminə, sehr dünyasına yaxından tanışlığıma çox sevindim. Şairin yenə də özüdemiş – dünyanın sərhədlərini aşmış bir söz, qələm adamının ürəyinin səsini eşitdim, çiçək-çiçək işıq saçan, gözünün nurunu gördüm.

Mən dunyanın sərhədlərini
çoxdan aşmışam,
Bütün duyğularımla
Yerdə – göydə dolaşmışam,
Buludların başının üstündə
qaynayıb daşmışam.

Şirin xanım «Sözün meydanı savaş» dı deyib şeirlərinin birində və sözün savaş meydanında onun mənəm deməyə haqqı var. Onun şeiriyyəti poeziyamızın tələblərini tam mənada cavablandırır.

Şeriyyət olsun gərək,
Misraya dolsun gərək,
Ağızda qalsın gərək,
Qalanda kef saz olar,
Can deyəni az olar.

Bu gün Azərbaycan şeirinin üstündə haqqı olan Şirin xanımla qürur duyuram...

06.02.2012

Fəridə Ləman
Filologiya üzrə fəlsəfə doktoru

SƏNƏ AÇILIBDI ƏLLƏR, İLAHİ

SƏCDƏ NƏ GƏRƏK HƏR BÜTƏ ALLAH OLAN YERDƏ?

Səcdə nə gərək hər bütə Allah olan yerdə?
Rəbdən nə xilas insana günah olan yerdə?

Bulmaz bir əlac ağrıya heç bir dəva-dərman,
Loğman nə edər ürəyə min ah olan yerdə?

Zülmət bürüsün göylərə qapqarə çadırın,
Qarə gecəyə bir nurlu sabah olan yerdə.

Kim eşqi və əhlini sayar şeytana qulluq?
Allahı buyuran kəbin-nigah olan yerdə.

İnsana səcdə eləyən bilmir, bu xətadır,
Tanrı evi adəmə səcdəgah olan yerdə.

Səbir edən, nicata çatar, deyirlər nahaq,
Heç kəs səbir etməsin zülümgah olan yerdə.

Qoy çırpmasın ələm özünü daşə, divarə,
Bu Şadimanın bağrı nişangah olan yerdə.

28.01.2007/ Neft Daşları

İLAHİ, SƏN MƏNİ ODA SALMİSAN

Ya Rəbbim, yetişdi haqqa ibadət,
Etmişəm var ikən eşqinə adət,
Qəfildən qapımı döyür səadət,
Mənim ürəyimi yada salmısan,
İlahi, sən məni oda salmısan.

O ulu sevginə sadiq bəndəyəm,
Sənin ülfətinə mən daməndəyəm,
Mənim özümdədi, özüm məndəyəm!...
Bütün vücuduma səda salmısan,
İlahi, sən məni oda salmısan.

Ürəyim ahıma baxa bilməyir,
Ahım diləymi yaxa bilməyir,
Donur gözdə yaşım axa bilməyir,
Ağla ruh titrədən nida salmısan,
İlahi, sən məni oda salmısan.

Şadiman səcdədə sənə hər zaman,
Çəkmə nəzərini qulundan aman,
Sənin cövhərindən gəlir bu iman,
Ürəyə eşq adlı qada salmısan,
İlahi, sən məni oda salmısan.

13.03.2008

ALLAH ÖZ SİRRİNİ BİZƏ VERMƏYİR

Allah öz sirrini bizə verməyir,
O demək deyil ki, heçnə görməyir.
O bizi torpaqdan, sudan yaratdı,
Yaradıb dünyanın içinə atdı.
Biz nə ediriksə, O, bizə bağlı,
Belədən-beləyə fırladır ağlı.
Sınaqdan-sınağa zehni oynadır,
Ürəyi odlayır, qanı qaynadır.
Hər bir insan beyni - Ona aynadır.
Hər addım çağlayan fikir, düşüncə,
Onun nəzərində həm gündüz, gecə!

Gözümüz yumulu yataqda ikən,
Dörd tərəfi bağlı otaqda ikən,
Girir tənimizdən canı aparır,
Canda min bir yerdən tufan qoparır.
Gah payıza qaçır, gah qışa, yaza,
Biz yuxuda ikən dönür ulduza.
Ağlagəlməz yerdə parlayır, solur,
Ölüylə, diriylə təmasda olur.
Gözünü açırsan görürsən otaq,
Səni qollarında yatırır yataq.
Bəs nədir yatarkən beyni qaynadan?
Beyinin içində tufan oynadan!
Demək tən yataqda, canınsa oyaq,
Sən yuxuda ikən açıbdı ayaq.
Ağlına gəlməyən yerlərə uçur,
Yorulub dönəndə tənini qucur.
Bu nədir – Allahın bizə eyhamı?
Dirilik zənn edir dünyanı hamı!

***

Cahan bir bağçadır, bizsə bəhəri,
Uçub gedən zaman ömrün qəhəri.
Var üstə oturub varı yığanlar,
Allahın gözündə xarı yığanlar,
Fələyin kefinə soğan doğrayır,
Var-sərvət içində canı ağrıyır.
Həkimdən həkimə qaçır hər zaman,
Bilmir ki, günaha batıbdı iman.
Unudub haçandan haqla peymanı,
Dərdinə əlacı sanır dərmanı!
Ağrıyan tənina şəfa bulayır,
Anlamır içində canı ulayır,
Ağrıyan bədən yox, Allah verən can,
Çırpınır vəhşətdə qalıb yarımcan.

***

İnsan bir ağacdır, şirəsi qanı,
Beynə qida verən meyvəsi canı.
Vaxtı çatmayanda təndən dərməyir,
Allah öz sirrini bizə verməyir.

12.05.2007 Neft Daşları

BAĞIŞLA, ALLAHİM, BAĞIŞLA

Sən mənə çox görmə səcdəgahımı,
Üzümə bağlama qibləgahımı,
Ömrümə açılan sabahımı,
Dəmlərdə hıçqıran günahımı,
Ürəkdən qopan ahımı,
Apar yağmurla, yağışla,
Bağışla, Allahım, bağışla.

***

Zülmlər doğur Ay kimi,
Göz yaşlarım dəli çay kimi,
Fəryadım sənə çatmır hay kimi,
Bu dünya çoxuna vay kimi,
Təndir acılarım yay kimi,
Köməyimə kimi çağırım, kimi?
Dövran məni öldürür şeytan baxışla,
Bağışla, Allahım, bağışla.

***

Hər şey həddindən keçib,
Sitəm səddindən keçib,
Bu dünya dindən keçib,
Ağrı qəddindən keçib,
Dərdi sinədə min bir naxışla,
Bağışla, Allahım, bağışla.

***

Sən yerdə, göydə ali,
Bitmir cahanın qeylü-qalı,
Haçan sona yetər zavalı?
Ərz edirəm dərgahına halı,
Zamanın tərsinə fırlanır valı,
Axı, bu dünyada qalır dünya malı,
Hara gedirik belə baxışla?
Bağışla, Allahım, bağışla.

***

Tox sənə səcdəyə gedir Haca,
Varından bir qism vermir aca,
Tüstü içində göyünə açılan baca,
Layiqsiz pərçim olub oğurladığı taca,
Loğman göndər bu dərdlərə əlaca,

Sən bütün aləmlərdən uca,
Canımı al, gəlim dərgahına uça-uça,
Ruhumun yerini naxışla,
Bağışla, Allahım, bağışla.

***

Suyun üstündə gedirəm,
Baxtıma düşən anları
qorxulardan güdürəm,
Ağlımda baş qaldıran
şübhələri didirəm,
Ömrüm boyu sənə sitayiş edirəm,
Sənə doğru gedirəm!
Məni tənbeh etmə bu baxışla,
Bağışla, Allahım, bağışla!

***

Şadiman heç vaxt həddini aşmadı,
Təbsiz heç vədə qaynayıb-daşmadı,
Heç kəsin önündə ucuzlaşmadı,
Şeytana, iblisə ulaşmadı,
Yazında yazladı, qışında qışla,
Bağışla, Allahım, bağışla,
Bağışla, Allahım, bağışla.

23.05.2007/ Gəmidə

ALLAH BİZİM YANİMİZDA

Allah bizim yanımızda,
O, hər şeyin özündədir.
Ağlımızda, canımızda,
Göydə və Yer üzündədir.

Ondan başlar səadət də,
Vicdanlarda itaət də,
Ocaq çatar məhəbbətdə,
Hər bir kəsin közündədir.

İlahidən can çağlayıb,
Gahdan gülüb, gah ağlayıb,
Tənə könül eşq bağlayıb,
O, Adəmin gözündədir.

Onu danan kimi bəşər,
Yer üzünə qırğın düşər,
Ayaq tutub gəzər də şər,
Haqqın nuru izindədir.

Şadimanın can nəfəsi,
Bu dünyaya düşən səsi,
Həyatına eşq həvəsi –
Dilinin ilk sözündədir!

01.01.2009

VAXTİMİZ DALİMİZCA GƏZİR

Vaxtımız dalımızca gəzir,
Bu hiss ağlımızı əzir.
Ürəyimiz duyğularla,
Köklənib qayğılarla,
Ömrümüzə sayğılarla.
Anlarımız axıb gedir,
Qəlbimizi yaxıb gedir.
Kimi haqqı ram edir,
Kimi heç bilmir qədir.
Özü kimdir, haqqı nədir?
Baxışından cin tökülür,
Baxanda canın sökülür.



***

Vaxtımız dalımızca gəzir,
Etsək də canımızı sağlığına nəzir.
Ömrümüz sona gələr,
Dünya bizə qəh-qəhlə gülər.
Yatağımıza od tökülər,
Bir gün doğulan, bir gün də ölər!
Bunu vecinə alan az,
Haqqın qeydinə qalan az,
Meylini düzlüyə salan az,
İmanıyla olan az.

***

Vaxtımız dalımızca gəzir,
Bir qism süd gölündə üzür,
Bir qism Allahdan diləyir üzr–
bir qismət çörəyə möhtac,
Doğulandan qarını ac,
Ölümə vermək istəmir bac.
Varlıdan keçir taxtı-tac,
Yoxmu bu dərdlərə əlac?
Sevdası batmışlar,
Yorğanı başına çəkib yatmışlar,
Özünü oda-közə atmışlar,
Aləmi bir-birinə qatmışlar,
İblis yanında vüsala çatmışlar,
Allah dərgahında başıbatmışlar,
Bilmirmi sonu yoxdur ömürün?
Niyə unudurlar bəs Xilqətin əmrin?

***

Vaxtımız dalımızca gəzir,
Bəzən elə canımızdan bezir,
Allah əmri gəlmədən
aparmaq istəyir bizi.
Buraxmaq istəmir əlimizi.
Biz harda oluruqsa olaq,
Lap göyün yeddinci qatında qalaq,
Mehrini əbədi bu dünyaya salaq,
Zirvədən-zirvəyə ucalaq,
Təyyarədə, bərədə, gəmidə,
Çöldə, tarlada, zəmidə,
Körpə, cavan, qoca yaşında,

Ağlın olsa da başında,
Canımızı təndən qoparacaq,
Bizi bir gün özüylə aparacaq.
Eləsək də evimizə, pulumuza,
Damımıza, daşımıza, yolumuza,
Sağımıza, solumuza nəzir,
Əzrayıl dalımızca gəzir,
Boş başlara ağıl dolsun,
Bunu unudanlara yazıqlar olsun!
Sərvəti sərvət üstə yığanlar,
Dolu təki bir-birinin üstünə yağanlar,
Canımız tənə əmanətdi,
Haqdan bizə zəmanətdi,
Bu dünyada qiyamətdi,
O dünyada cəhənnəm, cənnətdi!

***

Aramızda qoruyaq həddi,
Yaltaqlıqla əyməyək qəddi,
Lovğalıqla keçməyək səddi,
Unutmayaq Allahımızı,
Artırmayaq günahımızı,
Rəbb eşitmir heç ahımızı,
Dərdə batırıb sabahımızı.
Özümüzü Haqqa bağlayaq,
Yalanlarla dolu günümüzə ağlayaq,
Şərin qapısın bağlayaq.
Qalın etməyək gönümüzü,
Rəbb eşitsin ünümüzü,
Unutmayaq dinimizi,
Haqqa tutaq günümüzü.
Sən, ey bəşər,
Bir gün canın Rəbb əlinə düşər,
Uymayaq şeytanın məşqinə,
Allah eşqinə!
Biz bu dünyaya nəzir,
Vaxtımız dalımızca gəzir.

11.05.2007

DOLAŞİR YERİ-GÖYÜ QƏM-QADALAR

Dolaşır yeri-göyü qəm-qadalar,
Qoparır ürəkdə min bir nidalar.
Səhərin gözləri qan-yaşlı olub,
Canımız dərd ilə sirdaşlı olub.
İblisə bənzəri var çoxlarının,
Allahlıq iddası toxlarının.
İlahi, çarə elə qəmlərə bir,
Əlində açılmayan hər cürə sirr.

07.06.2008

ŞÜKÜR SƏNƏ, ALLAHİM

Zülmətin qoluzorlu,
Sübhün gözləri nurlu,
Aləm necə qürurlu?
Günəşdən zər saçılır,
Qaranlıqlar qaçılır,
Yenə səhər açılır,
Göydə, yerdə tək şahım,
Şükür sənə, Allahım.

***

Sevda dolu ürəyim,
Coşur min bir diləyim.
Hara büküm-bələyim?
Yandırıb nəfəsimi,
Qırıram qəfəsimi,
Təbdən qopan səsimi,
Etmədin sinə ahım,
Şükür sənə, Allahım.

***

Ağlımın can yuvası,
Başda sevgi havası,
Ürəyimin duası,
Tikir haqqa qəsiri,
Dərgaha bəlli sirri,
Bədən can üstə diri,
Açılır xoş sabahım,
Şükür sənə, Allahım.

***

Bu dünya, dolu dünya,
Yarıdan çoxu röya,
Kim doymaya, kim doya?
Dərd-bəlanı aşıram,
Təblə coşub-daşıram,
Yollar uzun, çaşıram,
Ey hər şeydə pənahım,
Şükür sənə, Allahım.

***

Bu zaman sürətdədir,
Ömür amanətdədir,
Şadiman heyrətdədir,
O böyük qüdrətinə,
O sevmək adətinə,
Bəşər səadətinə,
Səvabdan az günahım,
Şükür sənə, Allahım,
Şükür sənə, Allahım.

29.05.2008

***

Sənə açılıbdı əllər, İlahi,
Sənin hüzuruna gələsiyik biz.
Səni soraqlayır dillər, İlahi,
Günün bir günündə öləsiyik biz.

15.12.2009

EY BİR DƏLİ SEVDA, DÜNYA

EY BİR DƏLİ SEVDA DÜNYA

Nələr gəldi bu başıma?
Nələr etdim fəda dünya?
Gah döndün can sirdaşıma,
Gah könlümdə nida dünya.

Ağladanda güldürmədin,
Heç eşqini bildirmədin,
Ağrı verdin, öldürmədin,
Sandın mənə qida dünya.

Hara gedir bu cığır, yol?
Ürəyimdə alovun bol,
Boyunundan asılıb qol,
Qoyma qıra əda dünya.

Əzəlin heç, sonun puçdu,
Ağlım səvab, hissim suçdu,
Günlər əldən quştək uçdu,
Doğdu min bir səda dünya.

Hesab etdin qəlbdə kamla,
Səadətin damla-damla,
Nə oynadın hər adamla
Etdin cana vida dünya?

Doğulanlar vuruldular,
Yollarında yoruldular,
Torpağına soruldular,
Heç bitmədi cida dünya.

Şadimana sən baxmadın,
Can evinə buraxmadın,
Nədən dildən düşmür adın?
Ey bir dəli sevda dünya.

22.07.2009

DÜNYANİN QƏMİNƏ QƏM KİMİ BAXDİM

Dünyanın qəminə qəm kimi baxdım,
Dünyanın sevinci güldürdü məni.
Bütün ağrıları qəlbə buraxdım,
Bu ağrı-acılar öldürdü məni.

Gözümdən damlayan yaş dərya oldu,
Düşüb bu dəryaya boğulub qaldım.
Sanki boğulmağım bir röya oldu,
Yenidən sabaha doğulub qaldım.

Zaman kül üfürdü gözümə mənim,
İşığı acışdı baxışlarımın.
Atəşim qarışdı közümə mənim,
Buzları əridi sərt qışlarımın.

13.10.2007

MƏHKUMAM BU DÜNYADA YAŞAMAĞA

Məhkumam
bu dünyada yaşamağa,
Müvəqqəti ömrün ağrılarını daşımağa,
Bəşərin tökülən qanı mənim ürəyimdən axır,
Ağlayan gözlərin gürşadı
bəbəklərimi yandırıb yaxır.
Könlümün göylərində şimşəklər çaxır.
Haradasa ağlar baxışlar-
Buludları hönkürdən yağışlar!
Acı toxla yarışan,
Toxu aca daraşan,
Dunyanın bir üzü ağ,
Bir üzü qara.
Çəkir sinəyə dağ,
Getmir sinədən yara!

Bəxtimə düşən para zəhər dadır,
Bugün sabahıyla adamı aldadır.
Zaman öz köçünü sürüb gedir,
İnsanı canbezar edir.
Ürək arzular içində,
Arzular da ürəyi biçində.
Göydən yerə ah dolu gurşad ələnir,
Sanki gurşad yox imdad ələnir!
Bu imdad şad ələnir.
Göyü yeri hamarlayan,
Sərhədləri damarlayan,
Dünyanı qamarlayan
nə dil anlar?
Edər ağıllı başlara divanlar.
Qanı su ilə yuyanlar,
Zənn edər Allah onun özü,
Hökmü könlünün közü,
Çətindir dərk etmək düzü-
Bu bilməcələri,
Bitib-tükənməyən necələri.

***

Ağlım cəhd edir ürəyimin yarasın qaşımağa.
Canım amadə sevdalar içində aşınmağa,
Müvəqqəti ömrün ağrıların daşımağa!
Məhkumam bu dünyada yaşamağa.

04.2007/ Neft Daşları

BU DÜNYA ÜZÜ

Bu dünya üzü,
Haqqın korlaşmış közü.
Tanrının gözündən uzaq düşən guşə,
Odur ki, sinəsin yıxır əndişə.
Hicranları bitməz,
Ələmləri ötməz,
Əlim haqqına yetməz.
Ürəyim haray çəkib bağırar,
Allahı köməyinə çağırar.
Tufanları çəkilməz dəryalardan,
Gözləri qurtulmaz röyalardan.
Ağrı içində çırpınan canlar çarpışmada,
Haqqın ətəyindən yapışmada.
Zülmü bayraq edənlər – iblisə dayaq,
Hər şeyin ölçüsü baş-ayaq.
Haqqın kitabları əllərdə oyuncaq,
Fitnələr ocaq-ocaq.
Hamı Allahı öyür,
Düzəm, deyib sinəsinə döyür.
Bu dünya boş qalmış xanə,
Haqq-hesab gününə qədər qəmxanə.
Ağlın açmadığını dodaqlar əyirir,
Yabısı tufana düşmüş zaman böyürür.
Tökülən qanlar üzünə ələnir,
Dəmləri qana bələnir.
Tərəzisi bir gündə min dəfə əyilir,
Hər gün başına döyülür.
Ömrümüzü xalça kimi toxuyur,
Günahlarımızı qulağımıza oxuyur.
Biz də dəli-dolu adamlar,
Sinəmizdə aşıb-daşan kamlar,
Sonu çatanda əriyən şamlar,
Nə gündüz bilərik, nə də axşamlar.
Özümüzü zirvədə görərik,
Həyat bəhərini dərərik,
Başımızı ayaqlara sərərik.



Bir andan sonranı anmadan,
Nə etdiyimizi qanmadan
Zehniyyəti atarıq,
Onun-bunun kölgəsində yatarıq,
Aləmi bir-birinə qatarıq.
Sanki Allah yoxmuş kimi,
Ağlımız çoxmuş kimi,
Yaradan bizdən qorxmuş kimi!

***

Bu dunya üzü nehrətək çalxalanır,
Bilmirəm kimə arxalanır?
Dəlisi ağıllısına hakim,
Xəstəsi loğmanına həkim,
Bəndəsi Yaradan önündə məhkum.
Atını çapan zaman yorulmur,
Göyə sovurduğu ömürlər ondan sorulmur,
Dunyanın bulanıq selləri durulmur.
Anlarımız yorğun düşmüş yollarda yorulmur,
Bu dünya neçə yol məhv olub qurulmur?!
Yaman buz tutub üzü,
Batıracaq bir gün bizi.

29.04.2007 /Neft Daşları

ZAMAN YAŞDA

Dünya nəçi?
Qanla içi,
Əl pinəçi,
Şərlə suçu,
Ağıl başda,
Zaman yaşda.

Haqqdan əmir,
Nahaq demir,
Ölüm dəmir,
Udur, yemir,
Bu çaş-başda,
Zaman yaşda.

Bəxt atı var,
Saatı var,
Büsatı yar,
Can sirdaşda,
Zaman yaşda.

Haqqı atan,
Şəri tutan,
Ara qatan,
Dərdə yatan,
Qəm göz-qaşda,
Zaman yaşda.

Sevinc, ya ah,
Gəlir sabah,
Eyləmə ah,
Cana günah,
Çatlar daş da,
Zaman yaşda.

Ey Şadiman,
Haqqa güman,
Eylə iman,
Ondan fərman,
Odur başda!
Zaman yaşda.

11.07.2008

MİN BİR HALA DÜŞDÜ DÜNYA

Min bir hala düşdü dünya,
Düşər ikən can ağladı.
Gördüm quduz dişdi dünya,
Canın özü qan ağladı.

Heyrət etdim mən bəşərə,
İçindəki gizli şərə,
Ayaq qoydum düzü dərə,
Həm şöhrət, həm şan ağladı.

Zaman ömrü çəkdi dara,
Yaxdı ona min bir qara,
Deməyəndə ağa qara,
Vaxtı çəkən an ağladı.

Tanrı məndən ucadadı,
Əl çatmayan bacadadı,
Yetməyəndə aca dadı,
Ümidlə hər yan ağladı.

Dünya, girdim çox işinə,
Dözdüm qəlblə gərdişinə,
Çəkdin məni qurd dişinə,
Bu dəhşətdən qan ağladı.

Şadimana ələm güldü,
Dərdlərinə hər dəm güldü,
Nəş'əm qaldı, naləm güldü,
Günlərim san-san ağladı.

28.06.2008

EY EHRAMLAR GÖZƏLİ-ŞANLİ MİSİR

Ey ərəb torpağı – növrağlı diyar,
Gələn pak hüsnünə gördükcə uyar,
O günəş atəşinə könlü qoyar,
Nazənin görnüşünə baxsa doyar,
Fironla, çarlarla nişanlı Misir,
Ey ehramlar gözəli – şanlı Misir.

***

Miladdan əvvələ gedir sorağın,
Hələ çox tarixə düşər çırağın,
Yazılıbdır, yazılacaq varağın,
Fəth edib qəlbləri xoşsima çağın,
Həm qədim, həm təzə dövranlı Misir,
Ey ehramlar gözəli – şanlı Misir.

***

Tutub eşqə elə tək Allahını,
Qurana bəxş elədin sabahını,
Sildin büt eşqilərin günahını,
Atdı islam sinədən hər ahını,
Tarixi turistə ünvanlı Misir,
Ey ehramlar gözəli – şanlı Misir.

***

Qahirə – zamanlar elçisi şəhər,
Nilə açar sinəsin gecə-səhər,
Bu çayın gur suları bəhri-bəhər,
İsti qumlarına verdikcə qəhər,
Açılar çəmənlərin canlı Misir,
Ey ehramlar gözəli – şanlı Misir.

***

Sənin övladların din qardaşımız,
Qoca şərq bizimlə can sirdaşımız,
Sevir yurdunu hər vətəndaşımız,
İslama-dinə bağlı dam-daşımız,
Dosta, yoldaşa istiqanlı Misir,
Ey ehramlar gözəli – şanlı Misir.

***

Şadiman eşqini saldı kitaba,
Yazılan hər zaman qaldı kitaba,
Sevənin yox əlacı səbri-taba,
Sənin heç ehtiyacın yox xitaba,
Günü çağ, dövranı xoş anlı Misir,
Ey ehramlar gözəli – şanlı Misir.

19.06.2008

ADAMİN SÖZÜNÜ GÖYƏRDƏRLƏR

Adamın sözünü göyərdərlər,
İçindəki dözümü göyərdərlər,
Səbrinin canını dərərlər,
Haqqın ayaqlar altına sərərlər,
Belədir qayda,
Bu dünyada.

***

Fələyin əlində ələyi,
Öldürüb-dirildir diləyi,
Zülmət gözü yaşlı mələyi,
Yatırır qucağında ürəyi,
Haqqı haya-hayda,
Bu dünyada.

***

Sözümüz dilimizə yağı,
Çəkir bəzən sinəmizə dağı,
Pozulur hərdən bəşərin növrağı,
Qızanda gözümüz görmür sol-sağı,
Gah toyda, gah vayda,
Bu dünyada.

***

Kimimiz milyonlar içində üzürük,
Dünənimizi unudub hamını
yuxardan aşağı süzürük,
Özümüzü dahi sanıb
başqasına ağız büzürük,
Günümüzün möhnət dəryasında üzürük,
Zaman ömrümüzü saya-sayda,
Bu dünyada.

***

Olmasa adamın adamı,
Başına uçub tökülər damı,
Sönər bəxtinin şamı,
Gözündə qalar kamı,
Yatana nə çatar röyada?
Bu dünyada.

***

Ürək ağrılara möhtac,
Ağrılar ürəkdən alır hər gün bac,
Tapılmır heç dərdlərə əlac,
Fani zaman xülyada,
Bu dünyada.

14.03.2008

İLAHİ DÜNYANİN EŞQİ

İlahi dünyanın eşqi –
İnsanın ömürlə məşqi.
Sevdası axar su kimi,
Öz canından ası kimi,
Ağlar gözünün yası kimi,
Üzünün insanlıq həyası kimi,
Ağlının min bir boyası kimi,
Yorğun gözlərinin röyası kimi,
Çağlayan duyğularının xülyası kimi,
İnsanın hər iki dünyası kimi –
Canı bədəndə titrədər,
Qoyular haqqına qədər,
Ağıl nə istəyər edər,
Etdikləri çox vaxt hədər,
O biri dünyada bu əməllərinin
haqqını ruhu ödər!
Allahın qapısı ağzına gedər,
Min bir fəryadla diz çökər,
Gözlərindən hönkür-hönkür yaş tökər,
Harayı yerin, göyün bağrın sökər,
Günahlardan özünə bir saray tikər,
Bu sarayın içində
qanadı qırılmış quş təki səkər,
Ağlamağı gözlərinə eyləyər şakər,
Dilindən tökülər bal, şəkər.
Bu hıçqırtılar Allaha əsər eləməz,
Haqqın ürəyinə kəsər eləməz.

***

İlahi dünyanın eşqi,
İnsanın ömürlə məşqi.
Min bir hava çalar könül avazı,
Ağlında vuruşar çoxu, azı,
Canlar çıxardar nazı.
Ürəkdə şeytan yuvası,
Çətinə düşəndə dilində Allah duası,
Nəş'əyə yetəndə kef havası,

Bitib-tükənməz nə bu dünya ilə,
nə o dünya ilə davası?
Can bədəndən çıxanda,
Təni yerə yıxanda,
Həyatı əldən buraxanda,
Ruhu bir su təki axanda –
Dil ağızda dolaşar,
Gözlər zülmətə bulaşar,
İçində və çölündə bayquşlar ulaşar,
«Filənkəs öldü... » deyilib
dillərdə dolaşar,
Ya yaxşı, ya pis adla
sağ qalanların beynində yaşar.
Bunu bilə-bilə biz,
Çirkaba girir qəlbimiz,
Yamanı söyləyir dilimiz,
Haramdan yapışır əlimiz,
Belə qurulub təməlimiz.
İnsanın ömürlə məşqi-
İlahi dünyanın eşqi.

12.05.2007/ Neft Daşları

DÜNYA YAMAN SİXİR MƏNİ

Ürəyimə qor toxuyur,
Gözüm yaman tor toxuyur.
Görə-görə kor toxuyur,
Səadətdən çıxır məni,
Dünya yaman sıxır məni.

Diri-diri canı alır,
Cəhənnəmə tutub salır,
Yenə elə mənlə qalır,
Hər sıxanda yıxır məni,
Dünya yaman sıxır məni.

Zərbi min bir daş sındırır,
Gözlərimdə yaş sındırır,
Daşın atır baş sındırır,
Edib qəmə axır məni,
Dünya yaman sıxır məni.

Öndə neçə bəndi-bərə,
Şiş sıldırım, sonsuz dərə,
Alıb başı üstə yerə
Təpəsindən qaxır məni,
Dünya yaman sıxır məni.

Şadimanın yox əlacı,
Başda dərdin ahdan tacı,
Verdiyi bu ağrı-acı
Öldürəcək axır məni,
Dünya yaman sıxır məni.
Dünya yaman sıxır məni.

17.09.2008

OLİMPİYA

Pekində keçrilən 8-24.08.2008-ci il yay olimpiya oyunlarının şərəfinə!

Olimpiya – millətlərin birliyinin təməl daşı,
İnsanların bir-biriylə güc yarışı.
Qaliblərin sevinc yaşı.
Məğlubların sinəsinə çökər başı.
Udan ilə uduzanın can təlaşı.
Yunanlardan dunyamıza bir ərmağan,
Bu eşq ilə coşub, daşır həm günbatan,
həm gündoğan.

***

Olimpiya – ürəklərdə gücü coşar,
İdman canda eşqi aşar.
Ağıllarda zəfər yaşar,
Bəxtəvərlik aşıb-daşar.
Olimpiya – güclülərin zəfər marşı,
Çıxa bilməz qalib naşı.
Ölkə-ölkə insanları bir araya yığa bildin,
Hər ürəkdə, hər sinədə doğa bildin.
Bir neçə gün olsa belə
ölkələrin adamların
Bir amala sığa bildin.

***

Olipiya – bu idmandan çıxan savaş,
Tankı, topu, qurğuşunu,
güllələri yıxan savaş.
Bu bir ağıl fəlsəfəsi,
Burda vuruş gücün səsi,
Burda yoxdu ölüm, qada,
Müharibə düşməyəydi
heç vaxt yada,
Futbol ilə,
Güləş ilə,
Qaçış ilə,
Tennis ilə,
Duyğuları xoş hiss ilə
çataydı hər dilək dada,
Bu dunyada
yetişəydi hər an haya,
Olimpiya,
Olimpiya.

24.08.2008

BU DÜNYA BAŞI KƏSİLMİŞ AĞAC KÖTÜYÜ

Bu dünya başı kəsilmiş ağac kötüyü
Əllərdə qalıb silahının tətiyi.
Xeyirin burda nə itiyi?
Şərin çatar hər kəsə yetiyi.
Gülənlə çağlar,
Ölənlə ağlar,
Sinəsində çalın-çarpaz dağlar!
Evi abad olanı var,
Aralıqda qalanı var.
Yetimtək boynu bükülü,
Hər anı qorxulu-hürkülü,
Bəxtimizin boğçası əlində bükülü.
Əzabdan o yana yolu yox,
Haqqına uzanan qolu yox.
Yaxşı yamanla köklənmiş bəşər,
İçində döyüşür xeyirlə şər.
Ömrü zamanın qolları üstə ötər,
Bəxtinə qoyulmuş vaxt bitər.
Gah içi pak, gah kirli,
Gah sevdalı, gah məkirli.

***

Təmizləri divanə,
Alışır peymanə.
Əllərdə müntəzir sılahının tətiyi,
Bu dünya başı kəsilmiş ağac kötüyü.

05.04.2008.

AÇIN SƏRHƏDLƏRİ, QİRİN SƏDLƏRİ

Çoxalıb dünyanın ahu-naləsi,
Hər baxış bəşərin qəm piyaləsi,
Sızlar yaraların qandır laləsi,
Əyir ölüm, qırğın niyə qəddləri?
Açın sərhədləri, yıxın sədləri.

Dünya öz-özünə vuruşan deyil,
Ağrıya-acıya sarışan deyil,
Min bir dəhşətlərlə yarışan deyil,
İnsan öz başına açır dərdləri,
Açın sərhədləri, yıxın sədləri.

İlahi bir ömür veribdir bizə,
Çıxıb ağlımızla qan-qırğın dizə,
Qan töküb gəlirik sonra üz-üzə,
Aşırıq Yaradan qoyan hədləri,
Açın sərhədləri, yıxın sədləri.

Dünya altı qitə, dördcə okean,
Haqqın varlığını unudub insan,
Göy lərzəyə gəlib doğurur leysan,
Uçurub dağıdır bərə-bəndləri,
Açın sərhədləri, yıxın sədləri.

Bəsdir bir-birini nalan eylədik,
Sülhü yox, savaşı elan eylədik,
Haqqa ibadəti yalan eylədik,
Gah qurduq, gah yıxdıq şəhər, kəndləri.
Açın sərhədləri, yıxın sədləri.

Dünya bapbalaca qadası böyük,
Hamımız xalvartək boyununda yük,
Hər bəxti saxlayır kəndir yox, bir tük,
Məhv edir şeytani feil-fəndləri,
Açın sərhədləri, yıxın sədləri.

Hamımız adamıq bu yuva bizim,
Dinlərdən doğulmuş hər dua bizim,
Allahın verdiyi su, hava bizim,
Gəlsin bir araya dünya mərdləri,
Açın sərhədləri, yıxın sədləri.

Siz allah qınamın bu Şadimanı,
Haqqına bağlıdır dini-imanı,
Saxlaya bilməyir ömür zamanı,
Qovun içimizdən şər namərdləri,
Açın sərhədləri, yıxın sədləri.

30.10.2009

QARA FİKİRLƏR OLMASA...

Qara fikirlər olmasa...
Heç ürəklərə dolmasa,
Ağıla zəfər çalmasa,
Adamlar olar silahsız,
Dünya sayılar günahsız.

Gəlməsə başdan sorağı,
Sönməsə haqqın çırağı,
Paslanar qırğın yarağı,
Qalar gecəsi sabahsız,
Dünya sayılar günahsız.

Qara fikirlər dağılsa,
Şərin evinə yığılsa,
Haqqını qucan ağılsa?
Özünü görməz Allahsız,
Dünya sayılar günahsız.

Körpə gözləri güləndə,
Aləm sevincə gələndə,
Şər pisliyindən öləndə,
Ömürdən keçər gün ahsız,
Dünya sayılar günahsız.

22.04.2011

EY MAĞARALAR İNSANI

Ey mağaralar insanı,
Tökəydi göyün leysanı,
Verəydi qandan ehsanı,
Yox olaydı daş silahın,
Olmazdı indi günahın.

Səndən başladı qan-qada,
Silaha sevgi dünyada,
Daşlaşaydın daş qayada,
Olubdu şərə ram huşun,
Ağlına hakim qurğuşun.

Odu tapanda yanaydın,
Düşüb şaxtaya donaydın,
Nə etdiyini qanaydın,
Şərə quraydın edamı,
Ey mağaralar adamı.

Ruhundan çıxdı şər-xəta,
Qırğını saldı həyata,
Nəyi verdin kainata?
Toplardan savaş doğuldu,
Cahan qanlarda boğuldu.

Mağaraların bataydı,
Çöküb başına yataydı,
Səni məzara tutaydı,
Bu günə həsrət olaydın,
Torpaqlar içrə qalaydın.

Əvvəl duruşu öyrəndin,
Sonra vuruşu öyrəndin,
Qəpik-quruşu öyrəndin,
Ağlında bitdi hərislik,
Başdan getmədi heç pislik.

Öz qardaşına ox atdın,
Qanla yer-göyü çalxatdın,
Ərşi tağından laxlatdın,
Güllələr bənzər yağışa,
Özün dönmüsən qarğışa.

Heç nəyə yoxdu inamın,
Dinlərə çatmır imanın,
Dilində dona fərmanın,
Ağlına köçüb daş guşə,
Hiylələrinə daş düşə.

Başda mağara yürüşün,
Dəyişməyibdi yerişin,
Cəncəl-xatadı hər işin...
Heç qurtarmadın bölümü,
Taxtda oturtdun ölümü.

Daş ağlındanmı savaşın?
Qandanmı çıxır daş-başın?
Harda cızılıb başdaşın?
Dəfn eləyəydin ehkamı,
Özün ağlının nakamı.

Odu tapanda yanaydın,
Düşüb şaxtaya donaydın,
Nə etdiyini qanaydın,
Başına çöküb şər damı,
Ey mağaralar adamı...

22.04.2011

DÜŞÜB QANLAR GÖLÜNƏ ÜZÜR FƏLƏSTİN, AY AMAN

Neçə gündür ki, İsrail Fələstini qan içində boğur!

Düşüb qanlar gölünə üzür Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Qəzzanın bağrı yara - axır qanları sel kimi,
Uçur güllə yağışı başları üstə yel kimi,
Qırılır bədən-bədən növrəstə canlar tel kimi,
Çəkilib gözlərinə bu fəlakətlər tül kimi,
Elə bil qurğuşuna nəzir Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Neçə gündür tökülür üstünə güllə yağışı,
Çəkilibdi sinəyə min cürə ölüm naxışı,
Bəs siyasətçilərin bumu həyata baxışı?
Köçübdü sinələrə dünyanın boranlı qışı,
Dərdiylə ürəkləri əzir Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Yoxdu imdad qocaya, nə uşağa, nə qadına,
Xocalı Soyqırımı düşür adamın yadına!..
Yetməyir heç bir ölkə bu tifillərin dadına.
Bəs görən kim çatacaq haqqın ahu-fəryadına?
İndi dildə ağıtək gəzir Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Kimdə ki, çoxdu silah aləmə tüğyan eləyir,
Salır haqqı ayağa min cürə hədyan eləyir,
Yandırır ürəkləri oduyla büryan eləyir,
Gücsüzə öz gücünü bu yolla bəyan eləyir,
Düşünən beyinləri üzür Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Özgə torpaqlarına göz dikənin həyası yox,
Kökü şeytana gedir, nə xəmri, nə mayası yox.
Nədən haqqin şər başa düşəcək bir qayası yox?
Dərdlərə çarə bulub bu cahanı sayası yox,
Diləsin yağıdanmı üzr Fələstin, ay aman?
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Burda «balam» deyənlər gözlərdən yaşlar axıdır,
Doğulan körpələrin o ilğımlar can ahıdır,
Bilənlər yaxşı bilirlər, bu kimin günahıdır?
Hamımıza, ey bəşər, bir göyün tək Allahıdır!
İndi döyür qapısın hüzr - Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Şadiman, nədir belə dünyanı xiffətə salan?
Əqli başdan aparıb aləmi nifrətə salan,
Haqq mənəm, deyənləri min cürə sifətə salan,
Ələdib qan yağışı Yeri Ərəsata salan,
Şəhidin qəbr evinə düzür Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

Düşüb qanlar gölünə üzür Fələstin, ay aman,
Bu qədər müsibətə dözür Fələstin, ay aman.

04.01.2009

FƏLƏSTİN UŞAQLARI

Gözün gülləyə açır,
Güllə içində qaçır,
Dər-divarda od saçır,
Dərd dolu qurşaqları,
Fələstin uşaqları.

Analar saçın yolur,
Ürəklərə qəm dolur,
Yenə təqsirkar olur,
Yox sakit bir çağları,
Fələstin uşaqları.

Top-tüfəngin gur səsi,
Kəsib orda nəfəsi,
Andırır bir qəfəsi,
Sinəsində dağları,
Fələstin uşaqları.

Harayın biləni yox,
Bilib də gələni yox,
Əcəllə öləni yox,
Olub illər ağları,
Fələstin uşaqları.

Şadiman, fəhmi hanı?
Dünyanın rəhmi hanı?
Haqqının zəhmi hanı?
Kəsilib şaqraqları,
Fələstin uşaqları.

05.01.2009

BU FƏLƏSTİNLİ QIZI

Ekranda səslən fələstinli qızcağazın iniltili nəğməsinə

Yandırır ərzi səsi,
Batır ahdan nəfəsi,
Qəzzasi qəm qəfəsi,
Həyata yox həvəsi,
Haqqına dinli qızı,
Bu fələstinli qızı.

Yeri-Göyü ağladır,
Dərdi sinə dağladır,
Şərə qapı bağladır,
Neçə il bu dağladır,
Haqqına dinli qızı,
Bu fələstinli qızı.

İsrailin silahı,
Yoxmu heç bəs Allahı?
Qırğının min bir ahı,
Qanla açır sabahı,
Haqqına dinli qızı,
Bu fələstinli qızı.

Sanki dünya yuxudu,
Köksündə şər oxudu,
Elə nəğmə oxudu,
Qəlbimə qəm toxudu,
Haqqına dinli qızı,
Bu fələstinli qızı.

İman Allaha dürdü,
Ərəb ilə yəhudi,
Axı, köklə bir idi,
Arada kimdi, nədi?
Haqqına dinli qızı,
Bu fələstinli qızı.

Şadiman, uşaq qəmi,
Dünya gözünün nəmi,
Səsinin üsyan dəmi!
Çalxadır bu aləmi –
Haqqına dinli qızı,
Bu fələstinli qızı.

05.01.2009

QƏZZADA GÜLLƏ YAĞIŞI

Deyirlər dünyada müharibə yoxdu,
Amma o, daha artıb, daha çoxdu.
İndiki müharibələrin adı Terrordu,
Məzlumlara qurulan tələdi, tordu,
Hər tərəfdə yanğındı, atəşdi, qordu.
Bu müharibələr çox uzun çəkmir,
Amma qandan doymadıqca əl çəkmir.
Balkanlarda atəş səngidi,
Bu hiylənin rəngidi.
İraq qan çanağına döndü,
Qarabağın çırağı söndü.
Gürcüstanda beş-on günlük dava başladı,
Ruslar o ki, var Gürcistanı güllə ilə daşladı.

Asetinə kömək adıyla torpağını zəbt etdi,
Özgənin yuvasında tikan təki bitdi.
Anaların gözünü yaşladı,
Dünyaya öz xilaskarlığını aşıladı.

***

1947-ci ildə İsrail dövlət yaratdı,
Fələstinin taxtı-tacı batdı,
Bəxti yatdı.
Yəhudi hissə-hissə
qopartdı torpaqlarını,
Artırdı qəm dağlarını.
Bir neçə gündür yenə,
Bürünüb ahlara sinə.
Fələstinə güllə yağışı yağır,
Od tutub yanır bağır.
Həsbullah beş yəhudi öldürür,
Dünyaya gücsüzlüyün bildirir,
Yəhudi beş yüz ərəbi qırır,
Aləmi bir-birinə vurur.
Bu qırılanlar mülkü insanlar,
Silahsız evində tökülür qanlar.
Susur dünyanın başbilənləri,
Axı özlərinin orda yox ölənləri!

***

Yenə repartyorlar bu müsibəti çəkir,
Yenə analar gözlərindən yaş tökür.
Haqq insanının müharibəyə nifrətdir baxışı,
Şər insanının isə bolluca alqışı.
Çəkilir Fələstin sakinin
ürəyinə qəm naxışı,
Deyirlər, gec-tez Yer insanını
tutacaq Allahın qarqışı,
Əslində xeyr-şər davasıdır dünyada,
Deyəsən, İlahini uydurublar xülyada,
Məzlumları məhkum etmək üçün,
Özlərini hakim etmək üçün.
Ona görə heç kəs kəsmək istəmir
cahandan qanlı göz yaşı,
Çatladır düşünən başı,
Ağladır bu müsibət dağı-daşı,
Qəzzada güllə yağış.
Qəzzada güllə yağışı.

05.01.2009

XƏYALLARDA YAŞATDIĞIM TÜRKİYƏ

Xəyallarda yaşatdığım Türkiyə,
Yaddaşını oyatdığım Türkiyə.
İstanbulunun, Ankaranın, İzmirinin
adamla dolu küçələri.
Bir tərəfi buludlu,
bir tərəfi ulduzlu gecələri.
Ruhumda dolaşan məcnun vüsallı,
Axşamlarının dilləri şirin,
dodaqları ballı.
Həsrətimlə yol yoldaşı,
Könül daşı, can sirdaşı.
Xoşbəxtinin axar
gözlərindən sevinc yaşı,
Qəminə ağlar ürəyimin başı.
Ata yurdum, ana diyarım,
Ruhumda taxt quran sevgili yarım.
Sənin məhəbbətin
qəlbimdə şirindir niyə?
Xəyallarda yaşatdığım Türkiyə.

***

Əgər torpağına ayaq basaramsa,
Sevdalı mələyintək eşqini
könlümdən asaramsa,
Qara dənizin istəkli sularından
atəş dağılar könlümə.
Munisim ol, bu istəyimə dəlilik demə.
Əsən rüzgarına qarışaram,
Ağaclarının budaqlarından süzülən
şəbnəmlərinlə yarışaram.
Bəxtəvərcəsinə ana qucağına
atılan çocuq kimi,
Vüsalın həsrət əzabına həkimmi?
Oğrun-oğrun yuxularımda qapını açaram,
Azad bir göyərçintək göylərində uçaram.
Sənlə təmasda olmaq üçün,
İstəkli torpağında müsafirintək
qalmaq üçün.

Canımdan boylanırsan
sənə can deyə-deyə,
Ürək bölünməz ikiyə,
Xəyallarda yaşatdığım Türkiyə.

***

Millətinin dili mənə doğma,
Sevdanı könlümdə boğma.
Sənə sarı gələr olsam,
Səndən istək dilər olsam,
Ey sultanların cəhcəlalı Vətəni,
Canın bilib basma bağrına ötəni,
Bir can birləşdirir təni.
Sən tənimizin canısan,
Doğmaca hisslərimizin həyəcanısan.
Ey istəkli yuvamız,
Ey həyat dolu havamız.
Ey harayımıza çatanımız,
Ey könül duyğulu sultanımız.
Sənə bağlı peymanımız,
Şəhidinin qanı tökülüb torpağıma,
Qan uddurdun bir zamanlar yağıma.
Ey qazilər məkanı,
Ey ümidimizin imkanı.
Al qırmızı bayrağın bağrımın içində,
Torpağına döşənmiş şəhidlərinin
məzarı ağrımın içində.
Sənə olan məhəbbətim bitməz,
Nə yazıq əlim əlinə yetməz.
Allahımın sevdiyi məmləkət,
Başın üstən uzaq olsun fəlakət.
Sənə olan peymanın sığmır çəkiyə,
Xəyallarda yaşatdığım Türkiyə...
Xəyallarda yaşatdığım Türkiyə...

27.10.2009

DÜNYANI LƏRZƏYƏ GƏTİRDİ SÖZÜN

Türkiyənin baş naziri
Rəcəb Tarip Ərdoğan cənablarına

Dünyanı lərzəyə gətirdi sözün,
Bu sözü ərz edən cürətə, alqış.
Alışdı qəhr ilə aləmə gözün,
Vicdanlar səsləyən qeyrətə, alqış.

Türkün igid oğlu, ey qəhrəman ər,
Hər kəsin nəsibi olmayır hünər,
Xeyrin ayağına gec-tez şər enər,
Şərə üsyan edən qüdrətə, alqış.

Xərabə sevənlər, küt bayquş oldu,
Bir anın şöləsi sıçrayış oldu,
Haqqın dərgahına sitayiş oldu,
Rəbbə iman edən izzətə, alqış.

İnsan nəvazlığın Qorquddan gəlir,
Ocaqdakı atəş, köz oddan gəlir,
Hər cürə xəyanət, dərd yaddan gəlir,
Onu dəf eyləyən sürətə, alqış.

Ah etdin Qəzzanın qanlı selindən,
Pisə tənələrin qopdu dilindən,
Bütün sülhsevərlər öpür əlindən!
Aləmə car olan şöhrətə, alqış.

Türk Qurddan yaranıb, Qurda nə qorxu?
Fırlanır Yer üzün iblisin oxu,
Qalıbdı ağızı-açıla çoxu,
Cahana saldığın heyrətə, alqış.

Büsbütün dünyanı sədan dolaşdı,
Haqqa munis olan sevdan dolaşdı,
Ağıllı başları nidan dolaşdı,
Türkə Türk doğuran millətə, alqış!

Davosu eylədi düşmən-dost seyr,
Şərə qalib oldu həmən an xeyir,
Haqqın aşiqləri buna haqq deyir,
Şər bağrına düşən illətə, alqış.

Nahaq qan tökənlər qəlbini yaxdı,
Bu ağrı sinəndə şimşəktək çaxdı,
Şadiman qürurla ekrana baxdı,
O dağlar cüssəli qamətə, alqış.

01.02.2009

AXDI KÜÇƏLƏRƏ QANI UYĞURUN

Məqam o məqamdı, zaman o zaman,
Bəs nədən korşalıb, kor olub iman?
Göy türk! Məzardan qalx, et dərdə dərman,
Dolaşır yurdunu kədər, ah, aman,
Qalıb yağı əldə canı uyğurun.
Axdı küçələrə qanı uyğurun.

Hanı babaların qılınc-qalxanı?
Hanı ulusların xaqanı, xanı?
İndi kor edirlər haqqa baxanı,
Ağzından bir qələt söz buraxanı,
Götür dərdlərini sanı uyğurun.
Axdı küçələrə qanı uyğurun.

Dili, əlifbası, kökü, komacı,
Haqqını bulmaqdı Çindən amacı,
Uçub şahlıq quşu, çökübdü tacı,
Ağlar qan içində qız, ana, bacı,
Yetib ölüm-qalım anı uyğurun,
Axdı küçələrə qanı uyğurun.

Nədəndir elinə sitəm edirlər?
Evinin içini matəm edirlər,
Boğub şadlığını xitam edirlər,
Şərin hər işini nə tam edirlər?
Dolub iblislərlə yanı uyğurun,
Axdı küçələrə qanı uyğurun.

Düşüb qeyrət çəkən yurddan didərgin,
Zaman axarında ömürü gərgin,
Haqqını deyənə ya zindan, sürgün,
İlahi, qanlarda bu dünya sərgin!
Göy türklə ölübmü şanı uyğurun?
Axdı küçələrə qanı uyğurun.

Bu bir soyqırımı, bu bir qətliam,
Şəhid oldu gənclər, öldü min bir kam,
Ürəkdə arzular qırıldı nakam,
Hardan Urumçuya gəldi bu ehkam?
Şəhid bədənlərin tanı uyğurun,
Axdı küçələrə qanı uyğurun.

Ey türk, birləşməsən sinən yanacaq,
Göy atlı babanın ruhu donacaq,
Qılıncın əlində düşmən sınacaq,
Birlikçin ürəkdə alışsın ocaq,
Göy Türk imperyası hanı uyğurun?
Axdı küçələrə qanı uyğurun.

Düşüb diyar-diyar ana Rəbiyət,
Dərdinə saplanıb çəkir əziyyət,
Ondakı bu qürur, uca heysiyyət,
Tanrıdan verilib haqqına niyyət,
Qaralıb sabahı, danı uyğurun,
Axdı küçələrə qanı uyğurun.

Şadiman, harayla Qarabağını,
Yanan Kərkükünün sinə dağını,
İndi Urumçiyə de bu ağını...
Dünya susub görmür türk fərağını,
Nədən daha yoxdu xanı uyğurun?
Axdı küçələrə qanı uyğurun.

15.07.2009

BİR UYĞUR ÇOCUĞU TƏPİKLƏR ALTDA

Bir uyğur çocuğu təpiklər altda,
Ağlayır, hıçqırır kor taleyinə.
Zülm evi qanunlar yazır həyatda,
Baxmayır məzlumun heç gileyinə.

Ekrandan hönkürən günahsız bala,
Sanki Yaradanı dada çağırır.
Ətrafdan bir kəs də yanmayır hala,
Yavru haray çəkir, yavru bağırır.

Özün cəsur sayan çinli əmilər,
Uyğur olduğuyçın onu döyürlər.
Dünya belə getsə yerə gömülər,
Haqqın tərəzisin yaman əyilər.

Bir uyğur çocuğu qışqırır nalan,
Ekranı seyr edən yanıb tökülür.
Bu qanı körpəyə eyləyən elan,
Bilmirmi Allahın bağrı sökülür?

Küçədən maşınlar şütüyüb keçir,
O türk olduğuyçın təpiklər altda.
Asfalt bir uşağın qanını içir...
Görən nə baş verir insaniyyatda?

Niyə döyüldüyün uşaq bilməyir?
Harayı ətrafdan yardım gözləyir.
Axan göz yaşını kimsə silməyir,
Anları vahimə, ölüm izləyir.

Körpə əllərini tapdayır yağı,
Başına döşənən yumruqlar ağır.
Yaxır baxanları bu dəhşət dağı,
Yanır mənzərədən vaxt ağır-ağır.

Ruhlar nalə çəkir diksinir orda,
Xanların məzarı ahdan çatlayır.
Qalıbdı Urumçi büsbütün darda,
Orda dəyənəklər başda partlayır.

Sincan-Uyğur yurdu qanlar içində,
Körpə balasına əli çatmayır.
Şadiman sızlayır niyə, neçində?
Misrası ox olub şərə batmayır!...

23.07.2011

YARDIMA GEDƏN GƏMİ

Ey dünyanı fəlakət içində ağladanlar,
Ey insanlıq adıyla haqq yolu bağladanlar,
Ey gözləri yaşladıb sinələr dağladanlar,
Sarsıtdı bu vəhşilik yeri, göyü, aləmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Cahan susub dayanıb haqq yolu azmışlara,
Bəşərin taleyini tərsinə yazmışlara,
Ədalətə, düzlüyə quyular qazmışlara,
Nədir ki, şəhid olmuş adamların ələmi?
Gülləbaran olundu yardıma gedən gəmi.

Fələstin torpağıydı bu yardımın ünvanı,
İsrailə tuş gəldi niyə xeyir karvanı?
Müsibətlər, qırğınlar azğınların divanı,
Qələm nalə içində lənətləyir bu dəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Almanyadan ömürlük təzminat alan ölkə,
Bəs sənin tökdüyün qan qanmı deyilmiş bəlkə?
Fələyin tərəzisi fitnə-felini çəkə,
Dünyamı hər qurulan oyunların sərsəmi?
Gülləbaran olundu yardıma gedən gəmi.

Bu insanlar Fələstin harayına gedirdi,
Otuz iki ölkəni birgə təmsil edirdi,
Sinələrin ahı-zar, nahaq savaş didirdi,
İsraıl əskəriylə biçildi canlı zəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

İki min il çıxmışdın Fələstin torpağından,
Ayırıb yaddaş səni o dünənki çağından,
Çox sinələr darmadağ şəhidliyin dağından!..
Silahlarla danışır bəndə ağıldan kəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Özgə torpaqlarında ey dövlət yaradanlar,
Müharibə oduyla səfalət yaradanlar,
Bu minvalla özünə ədalət yaradanlar,
İndi güllə qoxuyur dünyanın ağız təmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Müsəlman ölkələri qana, qırğına ürcah,
Kağızların üstündə qanunlar çalır gah-gah,
Din Allahdan gəlirsə - müharibə suç, günah,
Şəhidi artan dünya, qurumur gözün nəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Türkiyə yas içində şəhidinə ağlayır,
Ankaranın harayı ürəkləri dağlayır,
Fələstin insanları haqqa ümid bağlayır,
Naləyə batıb nədən dünyanın zili, bəmi?
Gülləbaran olundu yardıma gedən gəmi.

Allahu-əkbər deyib, namazdan qalx, ey ərəb,
Dağıtdığın pullara şərəflə bax, ey ərəb,
Fələstin soydaşınçın bir sinə yax, ey ərəb,
Nə dünya sirli cənnət, nə də suyu zəmzəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Siz məni qınamayın ədalət arayanlar,
Cahanın yaraların ah ilə sarıyanlar,
Haqqı qoyub əbədi nahaqqa yarayanlar,
Yaradana darıdır bütün bəşərin cəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Baş nazir Ərdoğanın səsi gəzir dünyanı,
İsrail işğalçıdır itiribdir həyanı,
Həqiqəti kor edib, çəkib gözə röyanı,
Batdı qana haraya qalxan millətlər cəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

Biz də Qarabağ adlı bir kədəri bəslərik,
Haqqımızı vəhşəti tutanlara səslərik,
Torpağı işğal altda yatıb qalan kəslərik,
Müsəlman olmağınmı dərdi böyük bir gəmi?!
Gülləbaran olundu yardıma gedən gəmi.

Ey Şadiman, bu cahan ağrıların içində,
Ya ədalət, ya fitnə bağırların içində,
Allah necə baş tapır oğruların içində?!
Hər yırtıcı ölkəyə simasız ölkə əmi,
Gülləbaran olundu yardıma gedən gəmi,
Gülləbaran olundu yardıma gedən gəmi.

01.05.2010

İLAHİ, BU GÖRDÜYÜM HƏQİQƏT, YA YUXUMU?

Qardaş xalqlar içinə düşdü qırğın, ədavət,
Bir-birinə etmədi canparələr səxavət,
Yenə gəzdi, dolaşdı türk ellərin xəyanət,
Hansı şeytan əlləri hiylə toru toxudu,
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

Qırğız, özbək o yurdda əsirlərlə yaşamış,
Tarix boyu at çapıb nə sirlərlə yaşamış,
Minarəli, çadırlı qəsirlərlə yaşamış,
Sinələrə tuşlanan yağıların oxudu,
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

Hələ ətəyimizi buraxmır düşmən əli,
Ürəyində küdurət bülbültək ötür dili,
Gözümüzü kor etmək istər çəkdiyi mili,
Ayıq olun, ey türklər, yurdunuz qan qoxudu,
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

Dinbir, dilbir soydaşlar niyə bir-birin qırır?
Türkün goru çatlayır, ulusu ərin qırır,
Qırğız özbək anası ah ilə sinə cırır,
Hər xeyirin üstünə şər özünü toxudu,
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

Biz heç zaman fitvanı, yalanları görmədik,
Ürəyimizdən çalan ilanları görmədik,
Kökümüzə od vuran talanları görmədik,
Odur ki, türk məzarı daim şəhid qoxudu...
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

Qırğızı özbək ilə yağı edən kim oldu?
Daim şeytandillilər bizlərə həkim oldu,
Ya Rəbb, can tərəzimdə bu dağ da çəkim oldu,
Düşmənin etdikləri nə azı, nə çoxudu,
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

Ey türk, elmini artır soydaşına sevda et,
Etdiyin sevdalarla yağılara qada et,
Əgər qüdrətin çatır bu şivəni yada et,
Hansı şeytan bu qanı qulağına oxudu,
İlahi, bu gördüyüm həqiqət ya yuxudu?

İndi Əmir Teymurun dərddən goru çatlayır,
Elmsizlik, cahillik yurd içində partlayır,
Səpilən şər darısın qanlı əllər artlayır,
Qana susan cəlladın həm acı, həm toxudu,
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

Ey Şadiman, türk çəkir ürəkuşağlığından,
O qar düşüncəsindən yada yumşaqlığından,
Bəşərə sevda dolu yeddi qurşaqlığından,
Odur ki, başı üstə fırlanan şər çarxıdı,
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?
İlahi, bu gördüyüm həqiqət, ya yuxudu?

17.06.2010

YOXDUR HARAYİNA GƏLƏN KƏRKÜKÜN

Əli Kərküklünün «Kərkük qan ağlayır, Anavətən isə Qəzza sevdasında» məqaləsinə ithaf

İndi göylərində güllədi uçan...
Yoxdur harayına gələn Kərkükün.
Varmı ağrısına bir qucaq açan,
Axan göz yaşını silən Kərkükün?!

Hanı naləsinə bir hay deyəni?
Keçib şər əlinə göy at yüyəni,
Uzanan savaşlar bitməzmi yəni?!
Olmazmı üzünə gülən Kərkükün?

Yağı gözün dikib malı-mülkünə,
Bürünüb düşməni hiylə kürkünə,
Tuş gəlib fitnəyə, tuş gəlib kinə,
(Şər toru toxunur bu Ərtürkünə...)
Dinməyir halını bilən Kərkükün.

İraqı batıran qana, qırğına,
Hiyləni qaldırır şeytan dağına,
Kim çatır yurdunun ağlar çağına?
Dərdləri yığılır illən Kərkükün.

O, imdad diləyir türk ellərindən,
Asılıb fəryadı can tellərindən,
Nə gələr köməksiz, tək əllərindən...?
Ağrısı deyilmir dillən Kərkükün.

Türk Türkün halına niyə yanmayır?
Yatdığı yuxudan bir oyanmayır,
Türk, Türk arxasında, heç dayanmayır,
Yurdu yağmalanır ellən Kərkükün.

Qalxın məzarlardan yatmış Sultanlar,
İşğallar altında inlər Vatanlar,
Filin qulağına girib yatanlar –
Gəlir düşmənləri sellən Kərkükün.

Ordusuz, silahsız türkmən neyləsin?
Haqqı saymazlara nə ərz eyləsin?
Çocuq harayların kimə söyləsin?
Naləsi oylanır yellən Kərkükün.

İncidib sıxırlar qaçsınlar yurddan,
Keçir ağrıları lap yeddi qatdan,
Düşüb igidləri daha yel atdan...
Alovu basılır küllən Kərkükün.

Orda sinələri ahla sökürlər,
Başbilənlərini əzib-tökürlər,
Dağların üstünə dağlar çəkirlər,
Ağlayır ürəyi tellən Kərkükün.

Biz niyə birləşə bilmirik, Türklər?
Bir-birin göz yaşın silmirik, Türklər?
Daha öncələrtək gülmürük, Türklər?
Çapmır göy atları çöllən Kərkükün.

Haqq dada yetməsə şərlər qollanar,
Bağlı ayaqları attək nallanar,
Qardaş harayına qardaş yollanar,
Başı sığal tutmur əllən Kərkükün.

Biz də Kərkük təki təkləndik bir vaxt,
Yağı evimizdə qurdu qanlı taxt!
Ayılın, ey Türklər, gözləməyir vaxt...
Qazılır məzarı bellən Kərkükün...

Şadiman, «evlərin dalı qayaydı...»
İndi qayalarda min ahı-vaydı,
Bəbəkdən tökülən gurşadı çaydı,
Süzülür göz yaşı göllən Kərkükün.

19.09.2011

TÜRKİYƏ, TƏK QOYMA İRAQ TÜRKÜNÜ

Şəhid olmuş türklərin ruhuna ithaf

Ey ulu soyumun pak ata yurdu,
Mənim məhəbbətim sənə bir ordu,
Adına istəyim daima qordu,
Atam, sənə edir oğul ərkini,
Türkiyə, tək qoyma İraq türkünü.

O da qəlbimizin bir parçasıdı,
Yağı dağlar çəkir, candan asıdı,
Şərə divan tutsaq qan qusasıdı!
Vurur üstbəüstdən düşmən sərkini,
Türkiyə, tək qoyma İraq türkünü.

Sultanlar diyarı – həşəmətli Paşam,
Sənin torpağına qayayam, daşam,
Qoyma bu ağrının selindən daşam,
Düşmənlər zülümün edir bərkini,
Türkiyə, tək qoyma İraq türkünü.

Sən axı qazilər yurdusan, Vətən,
Ulu Bozqurdların Qurdusan, Vətən,
Oyandır içindən qurdu sən, Vətən,
Geyindir əyninə qəzəb kürkünü,
Türkiyə, tək qoyma İraq türkünü.

Harda göy atların, daha çapmayır?
Qardaşı axtarıb qardaş tapmayır...
Haqq yoluna gələn yoldan sapmayır,
Nəfəslər təngişir, götür bürkünü,
Türkiyə, tək qoyma İraq türkünü.

O kimdən diləsin imdadı axı?
Götürüb dünyanı fəryadı axı?
Necə əzə bilər tək yadı axı?
Qandır yağılara haqqın dərkini,
Türkiyə, tək qoyma İraq türkünü.

Sən bütün türklərin böyük Vətəni,
Şər necə ayırar canından təni?
Türkmənlər imdada çağırır səni...
Durdur qanlar tökən hərki-hərkini,
Türkiyə, tək qoyma İraq türkünü.

Bizim birliyimiz səndən başlayır,
Yağı həddi aşıb başlar daşlayır,
Bu ağrı gözləri qanla yaşlayır,
Daşır iblislərin qəzəbi, kini,
Türkiyə, tək qoyma İraq türkünü.

Türkün türkdən başqa dostu olmayır,
Sənsiz iş keçməyir, sənsiz olmayır,
Daha qədəhlərə şərbət dolmayır,
Götürüb aləmi məzlumun ünü,
Türkiyə, tək qoyma İraq türkünü.

Bizim Allahımız birlik olmalı,
Türklükdən doğulan ərlik olmalı,
Bir amala vuran dirlik olmalı,
Düşmən evi sayır şərin tərkini,
Türkiyə, tək qoyma İraq türkünü.

Oturt işğalçını, oturt yerində,
Yarası göynəyir türkün dərində,
Bağrı para-para olur yerin də,
Qayıt əvvəlinə, yad et ilkini!...
Türkiyə, tək qoyma İraq türkünü.

Yağılar diddilər Azərbaycanı,
İndi də qurumur torpaqdan qanı...
Buğün də əzilir Kərkükün canı,
Vermə şeytan udsun Türkün kökünü,
Türkiyə, tək qoyma İraq türkünü.

Şəhidlər məkanı, ey şanlı diyar,
Şadiman səcdənə gəlib baş qoyar,
Sən bizə dünyada bir sevgili yar!
Qaytar el-elata toyu-düyünü,
Türkiyə, tək qoyma İraq türkünü.
Türkiyə, tək qoyma İraq türkünü.

11.12.2011

HAQQLI OLMAQ İSTƏYİRSƏN, GÜCLÜ OL

Haqlı olmaq istəyirsən, güclü ol,
Budur, yalnız haqqa gedən yol!
Bu yoldan keçir ürəklər də,
Coşub-daşan diləklər də.
Bu yola təslim ağıllar da,
Uşaq ikən oxuduğum qorxulu nağıllar da.
Gücə könül verənlər çoxdan
dəf ediblər keçilməzləri,
Dünya saymır seçilməzləri.
Gücünü bilsələr sənə aşiq olarlar,
Duysalar gücsüzsən saçını yolarlar.
Evinə qırğın salarlar,
Əzrayıl qisimdə canını alarlar.
Haqqını sübut eləmək üçün,
Çox fikir eləmək neçin?
Əvvəl silahlan,
Çünki bununla alınır qan!
Canını düşün,
Sənə fəlakət gətirəcək anını düşün.
Güclü olsan sənə dəyməzlər,
Bəxt yolunu əyməzlər.
Allah, Allah deməklə
ağlın çətinliyi aşmaz,
Allah Yaradandır,
o, bəndələrin işinə qarışmaz.
Dünya qan və məkir içindədir,
İndi Rəbb özü də fikir içindədir.
Yəqin ki, öz yaratdıqlarına peşimandır,
Bu da çoxdan verilmiş fərmandır.
Yaşamaq istəyirsənsə
qansız və davasız,
güclü ol,
Silahın varidatından çox olsun,
Sənə gələn təpkilər yox olsun.
Bax elə götür yəhudiləri, bir vaxt
Hitler onları sobaya atırdı,
çünki gücü var idi,
aləmi bir-birinə qatırdı.
Bu güc zehninə yar idi.

***

İndi onlar Fələstini oda-alova atır,
Şeytanın belində yatır.
Çünki silahlanıblar öz güclərini
dünyaya göstərmək üçün,
Yandırırlar fələstinlilərin ciyərinin için.
Ərəb qardaşlarım,
kef dünyası çoxdan keçib,
Cahan qan şərbətini içib.
Neftdən banglara yığdığınız
pullar dadınıza çatmaz,
Nədən sizi bu tökülən qanlar
qəflət yuxusundan oyatmaz?
Heç olmasa Səddam Hüseyini
yadınıza salın,
Onun başına gələnlərdən ibrət alın.
İndi gücü olmayan sayılmaz,
Nədən İslam dünyası
qəflət yuxusundan ayılmaz?

***

Ey hakimiyyətdə oturan islam övladı,
Gör başın üstündə gəzən fəryadı.
Ağlını başına yığ,
Tamahını sığ,
Öz xalqına etdiyin mənəm-
mənəmlikdən qaç,
Millətinlə birlik süfrəsi aç!
Bəsdir başına döydülər,
Eninə, uzununa söydülər.
Hərdən bir mən,
vallah müsəlman olmaqdan utanıram,
Özüm özümə od tutub yanıram.
Fələstin, Livan, Əfqanıstan, İraq,
Kosova, Uyğurlar, Qarabağ
Sinəmizdə çalınçarpaz dağ!
Görəsən bizim başda oturan
kişilərimiz hara baxır?
Qadın, uşaq, qoca qanı sel kimi axır!
Əlimizi tərpədən kimi terrorçu deyirlər bizə,
Haqqa gedən yolu əyirlər bizə.
Alıblar ağıllılar min illər fayda.

Belədir dünyada qayda,
Silah olsun atın, eşşəyin, dəvən,
Oğlun, uşağın, nəvən,
Çoxdan silahlanıb canını, namusunu,
lap elə varını sevən,
Öz gücünə güvən.
Gücü olmayan dövlət,
Dünya tərəfdən qazanar lənət!

***

Budur, qansız, qadasız
yaşamaq üçün haqqına gedən yol,
Haqlı olmaq istəyirsən güclü ol!
Güclü ol!

11.01.2009

BATABATDA

İstedadsız mükafatda.
İstedadlı batabatda,
Nədir görən bu həyatda?
Ağrı dolu hər saatda,
Qəlb partlayır min bir çatda,
Qaçır hiylə çapan atda.
Kimi üzür varidatda,
Kimi qalıb ey bidadda.
Kimi özün gəzir adda,
Ocaq çatıb yanır odda,
Heç bir sözü qalmır yadda,
Hayı-hoyu min bir qatdda,
Baxıb gülür xain, yad da,
Görür ağlın lap abad da.
Yuxulayır hey fəryad da,
Yer üzü dolu səyyad da.
İştahı bol, ovu dad da,
Heç ola bilmir azad da.
Xor baxıbdı yoldaş, yad da.
Hər nəyi var ata-atda,

Kimliyin danıb övlad da,
İlham qalıb ahı-dadda.
İstedadsız mükafatda.
İstedadlı bata-batda.

25.10.2009

MƏDDAHLIQ ZAMANIN ÜRƏYİNƏ OX

Məddahlıq zamanın ürəyinə ox,
O ziyan gətirir beyinlərə çox.
Bitirir dünyada fəlakətləri,
Yerlə-yeksan edir məmləkətləri.
Kirlədir məkriylə bəzən saf suyu,
Qazıyır insana ən dərin quyu.
Məddahlıq insanı Allah eyləyir,
Allahın önündə günah eyləyir.
Beyni zəhərləyir çürük kam ilə,
Zehində dolaşır bu ehkam ilə.
Məddahlıq doğurur fitnə-fəsadlar,
Ona ürcah olur qəlbi kəsadlar.
O alıb sürüyür bəşəriyyəti,
Hər zaman çirkindir onun niyyəti.

26.04.2010

AY ADAMLAR, QINAMAYIN SİZ MƏNİ

Ay adamlar, qınamayın siz məni,
Şirin dilə, şirin sözə möhtacam.
Qəlbim, ruhum ağrıların mədəni,
Gülə dünya, gülüşünə mən acam.

Ölkələrdə ölüm, qırğın səngimir,
Yamanlıqçın heç bir əməl ləngimir,
Qəlbə girən şər nəfəsi təngimir,
Qapanıbdı aləmlərə haqq bacam.

Bu nə dünya, içində qan qoxuyur,
Bəndə əhli hiylə toru toxuyur,
Hərə bir cür öz yazdığın oxuyur...
Bəs hardasan özün göstər, ey Ucam?

Ay adamlar, yanan könlüm şam içi,
Dünya sərxoş, insanları kam içi,
Bilən bilir, ahu-fəğan dam içi,
Can qovrulur ürək üstə, mən sacam.

Dilimizi yalan, hiylə bürüyür,
Tamahımız yıxıb bizi sürüyür,
Sözümüz də ağlımıztək çürüyür,
Ağı deyir həm mübtədam, həm hecam.

Ey Şadiman, hara gəlib gedirik?
Biz sağ ikən bir-birini güdürük,
Özlüyündə zənn edirik bir dürrük,
Dürr də başa bəla, onu nə qucam?!

19.04.2011

KİTAB BİR İŞIQDIR MƏNƏVİYYATA

Kitab bir işıqdır mənəviyyata,
Ondan nur tökülür gözəl həyata.
Bütün bəşəriyyət ondan güc alır,
İnsan bu nur ilə qalxır ucalır.
Sönməz işığıdır tutub dünyanı,
O, nura boyayır eşqlə hər yanı.
Allahın dinləri kitabdan gəlir,
Haqqın dürr varlığı hesabdan gəlir.
Onun çeşməsindən can qidalanır,
Beyindən, şüurdan güc sevdalanır.
Rəbbinə sevdirir ürəyimizi,
Eşqə pərçimlədir dirəyimizi.
Ali həqiqətlər sirdən açılır,
Haqqın nuru təki sübhə saçılır.
Qoymayır korlaşa bu gözümüzü,
Daima eyləyir ağ üzümüzü.

***

Kitabdan qaçanın beyni darlaşır,
Ürəyi, diləyi, zehni darlaşır.
Ondan gözəl barat yox bu həyata,
Kitab bir işıqdır mənəviyyata.

07.04.2008

CAN MƏKANI-DÜNYA
ÖZÜ BİR YOLÇU

Can məkanı – dünya özü bir yolçu,
Hardan gəlib, hara gedir bilən yox.
Boynundakı adam adlı dərd suçu,
Gedən gedir, gedən yerdən gələn yox.

Çox fırlanır öz oxunun başına,
Ələnibdi sümüyümüz daşına,
Dəryaları köçübdü göz yaşına,
Sinəsindən qəm püskürür dələn yox.

Hiyləsindən dönməyəni çoxalıb,
Lovğalıqdan enməyəni çoxalıb,
Hər əzaba dözən qəlbi yuxalıb,
Ağrısını, acısını bölən yox.

Cavanını tabutlayır qocası,
Əskiyinin ayağında ucası,
Qalmıb haqqa əllərini açası,
Könül verib heç dərdindən ölən yox.

O yol gedir bizimlə bir sırada,
Sevinc payın paylaşır da arada,
Əsəbləşib vurur bizə yara da,
Nəş'ə anla, ömrü boyu gülən yox...

Ey Şadiman, yerin artıb nifrəti,
Qan rənginə boyanıbdı sifəti,
Min illərdi incidirik afəti,
Ağladanda göz yaşını silən yox.

26.04.2011

AXIR VAXTLAR ARTIB QƏFİL ÖLÜMLƏR

Axır vaxtlar artıb qəfil ölümlər,
Bu dünyanın havası da çatmayır.
Ağrı qəlbi dilim-dilim dilimlər,
Ona daha dava-dərman batmayır.

Ölüm yaman cin atına minibdi,
Haqqın bizdən tamam üzü dönübdü,
Günəşin də çilçırağı çönübdü,
İstiliyi canımızı tutmayır.

Hamı Allah sevdasıyla gurlayır,
Bu sevdaya düşəni haqq gorlayır,
Yalan dili, dil yalanı zorlayır,
Heç kəs rahat başın atıb yatmayır.

Şər toxumu səpilibdi dünyaya,
Bürünübdü bəndə əhli riyaya,
Dünən olan bugün dönür röyaya,
Dünya bezib, adam başı qatmayır.

Biz hələ də fil qulağın xoşlarıq,
Dəli-dolu xəyallarla huşlarıq,
Fürsət düşdü bir-birini daşlarıq,
Hardan bilək, daş da başa atmayır?

Rəbbə daha xoş getməyir nağılmız,
Yer piltəsin silkələyir çuğulmuz,
Ey Şadiman, anlamayır ağılmız,
Aləm indi bu gedişlə tutmayır.

26.04.2011

ƏRƏB ÖLKƏLƏRİ QALXIB AYAĞA

Ərəb ölkələri qalxıb ayağa,
Qızmış üsyanını ərzə faş edir.
Çalxanan dunyada bənzər mayağa,
Tapdanan haqqını gözə yaş edir.

Livyanın, Suriyanın, Yəmənin sözü,
Püskürdür qəlblərdən kül altda közü,
Qəmlərdən boylanır müsəlman üzü,
Ürəyi odlayır, əqli çaş edir.

Misir taxt maraqlı Mübarəklərin,
Livya Qəddafitək dəyənəklərin,
Xalqla mazağların, şit hənəklərin,
Əzabı dünyanı lap çaş-baş edir.

Şərqin şah sevdası niyə bitməyir?
Hakimlik ədası başdan getməyir,
Düşüb ayaqlara yerdə itməyir,
Min illər bu eşqi lap sirdaş edir.

Niyə Şərq əzilir ayaqlar altda?
Nəyi çatışmayır mənəviyyatda?
Qalıbdı varlığı lap batabatda,
Biyabırçılığı gözə qaş edir.

Vara dəyişiblər Allah eşqini,
Millətlə edirlər güllə məşqini,
Hanı harınların imanı, dini?..
Taxdığı üzüyə onu qaş edir.

Mərami puç olan Qəddafilər var,
Xalqına eşq edən pak sufilər var,
Ədalət yolunda hürufilər var...
Ona ediləni başabaş edir...

Bəs niyə Avropa haqqı girləyir?
Xeyri ələ alıb məkri kürləyir,
Əlinə keçəni tez məngirləyir,
Dünyanı əqlinə bir yoldaş edir.

Ərəb ölkələrin şər ələ salır,
Onlar da şər cana vəlvələ salır,
Harayı aləmə zəlzələ salır,
Məsləkin özünə bir qardaş edir.

26.04.2011

GÜNƏŞİSEVƏRLƏR DEYİLLƏR SƏNƏ

Zəhmətiylə daim fəlakəti üstələyib, işıq kimi parlayan yapon xalqına

Günəşisevərlər deyillər sənə,
Bütün nəcibliyi öyüllər sənə,
Vallah, düzlükdə tay deyillər sənə,
Dərdə yük çəkməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Vardır hər millətin böyük cəfası,
Səndə şüurludur insan vəfası,
Beyini məntiqli, dolu qafası,
Dəhşətə çökməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Nəhrlər titrədi ac canavartək,
Aldı cəhənginə yurdu ovartək,
Neçə şəhərini satıb-sovartək,
Bu dərddən hürkmüyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı,

Dünyanı çalxatdın məşəqqətinlə,
Ağrını oxşadın şəfaqətinlə,
Ərzi heyrət qoydun sədaqətinlə,
Qəmiylə səkməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Zəlzələ oynatdı yurdunu yerdən,
Tərpədə bilmədi qurdunu yerdən,
Fəlakət qorxusun şumlayıb dən-dən
Qəlbinə əkməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Sunami yurdunu çatdı okyana,
Minlərlə insanı atdı okyana,
Fəryadı, vəhşəti batdı okyana...
Belini bükməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Dünyada bir kimsə bilmir sonunu,
Zamana bağlanmış ömür anını,
Sirli təbiətin vəhşət donunu
Əyninə tikməyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

Qurduğun ocaqda alışır közün,
Kimsə ayağına düşməyir sözün,
Vaxt gələr yenə də qalxarsan özün...
Günəşə baş əyən, ey yapon xalqı,
Göz yaşı tökməyən, ey yapon xalqı.

26.04.2011

ÖLMƏKDƏN DƏ AĞIR YAŞAMAQ İMİŞ...

Ölməkdən də ağır yaşamaq imiş...
İnsanlıq adını daşımaq imiş.
Bir çoxu boğulur günah içində,
Günahın özü var sabah içində,
Titrəyir buludlar ah-nalə ilə,
Sanki əzabları gətirir dilə.
Harınlar dünyada at oynadırlar,
Hiylə ocağında şər qaynadırlar.
Şərə boyanıbdı dillər ağızda,
Yalanlar dastana dönür kağızda.
Ürəyə şah olub fitnənin özü,
Çoxunun xeyirdən dönübdü üzü.
Yaxşılıq əzilir ayaq altında,
İblis dövran edir hiylə qatında.
İlhamın gözünə üfürülür kül,
Yanır ah-vay ilə haray salan dil.
Xara bürünübdü cahanda nə var,

Göyün gürşadı da bu xarı yuyar.
Odur ki, həqiqət duman içində,
Haqq özü boğulur aman içində.
Bu büllur saraylar şərhi-qəsirlər,
Haqqın fəryadına düşüb əsirlər.
Dağılır min illik altun miraslar,
Bəşərin başına açılır yaslar.
İnsan öz xətasın silə bilməyir,
Yaradan yoluna gələ bilməyir.
Bu dinlər, kitablar nicat yolumu?
Savaşa aparan höcət yolumu?
Didir parçalayır insan bir-birin,
Heç kəs açа bilmir ağılın sirrin.
Əgər açılsaydı yanan olmazdı,
Hönkürüb ağlayan iman olmazdı.
Dinlərdən doğulan məzhəblər artdı,
Allaha şər atdı, bağrı qanatdı.
Gedir din davası cahanda hələ,
Günbəgün, ilbəil o qalxır zilə.
Əgər Yaradandan yarandıqsa biz,
Bəs niyə bulaşır qana əlimiz.
Əgər Rəbb bəxş etdi cövhər ağılı,
Bəs niyə bizlərə çatmır nağılı?
Ağılla oturub dura bilmirik,
Günahsız bir dünya qura bilmirik.
Silahlar artıqca məzarlar artır,
Hiylədən öc alan azarlar artır.
İlahi, etdiyin bir imtahanmı?
İmtahan önündə bizmi, cahanmı?
İnsanın saldığı şəhər dəyişib,
Bədənin udduğu zəhər dəyişib.
Əyninə geydiyi paltar dəyişib,
Banglara yığdığı yatar dəyişib.
Ağlının donunu dəyişə bilmir,
Haqqın qanununa öyrəşə bilmir.
Hər gün günahının sayın artırır,
Günahlar içinə özün qatdırır.
Ölməkdən də ağır yaşamaq imiş,
İnsanlıq adını daşımaq imiş...

16.07.2010

DÜNYA MƏNLƏ HEÇ ÜLFƏTİN TUTMADI

Gəlib keçən aylarına qul oldum,
Ömür adlı əmanətin tutmadı.
Dərdin gəldi, ayağına yol oldum,
Zülmün ilə mərhəmətim tutmadı.

Ürəyimin başın açıb buraxdım,
Yollarına həsrətiylə çox baxdım,
Şimşək təki göylərində mən çaxdım,
Tufanınla əzəmətim tutmadı.

Zamanınla necə tutdum qurşağı,
Məni çırpdı təpəsindən aşağı,
Sandın qəlbi dilbilməz ev uşağı,
Gedişinlə kəramətim tutmadı.

Səadətin gəlib keçdi yanımdan,
Əzabların heç çıxmadı canımdan,
Sellər təki axıb keçdi qanımdan,
Fəğanınla müsibətim tutmadı.

Gecələrin aha döndü otaqda,
Ocaq çatıb atəş qurdu yataqda,
Alov təki dil-dil oldum hər tağda,
Həsrətinlə məhəbbətim tutmadı.

Şadimanı çox oxladın kürəkdən,
Keçirirsən anlarımı ələkdən,
Bunu sənə bəyan edim ürəkdən,
Dünya sənlə heç ülfətim tutmadı.

01.09.2009

MİN BİR NÖVDƏ İMİŞ İNSANLAR DEMƏ

Min bir növdə imiş insanlar demə,
Bir növü dünyanı bölməyə gəlir.
İblistək güc edir gözlərdə nəmə,
Tökdüyü qanlara gülməyə gəlir.

Bir növü doğumla ölümə açar,
Anadan olandan ağrıya düçar,
Elə ömrü boyu haqqa əl açar,
Sanki doğulan gün ölməyə gəlir.

Bir növü haqqına eyləyir səcdə,
Allahdan kimsəni görməyir gücdə,
Gözündə kamildir aqil də, bicdə,
Tanrı böyüklüyün bilməyə gəlir.

Bir növü ağrıya çuğlanıb qalır,
Özgə dərdlərinə bağlanıb qalır,
Əzabın özünə dağlanıb qalır,
Axan göz yaşların silməyə gəlir.

Beləcə dünyada növbənöv insan,
Heç işin qulpundan yapışmaz asan,
Ağlı baş içində qaynayan qazan,
Hissə qul ürəyin dəlməyə gəlir.

Şadiman, canına ağrı nə fayda,
Kainat sirr dolu riyazi qayda,
Bilmir ki, doğulan fani dünyada,
Haqqın qapısına gəlməyə gəlir...

09.05.2011

KÖNLÜMÜN YUVASI VƏTƏN

AZƏRBAYCAN

Səməd Vurğunun
«Azərbaycan» şeirinə ithaf

Məhəbbətin cana dəva,
Sənsiz nədir de su, hava?!
Dodağımdan qopan dua,
Can içində sevdalı can,
Azərbaycan, Azərbaycan.

Xəzərinin bağrı coşar,
Fırtınalar aşıb-daşar,
Varlığımız sənlə yaşar,
Ürəyimdə dövr edən qan,
Azərbaycan, Azərbaycan.

Abşeronun küləkləri,
Göllərinin ördəkləri,
Coşdurar eşq ürəkləri,
Qaçaq düşər təndən hicran,
Azərbaycan, Azərbaycan.

Çıraqqalan bir aləmdi,
Duman düşdü, gözü nəmdi,
Sənlə keçən nə xoş dəmdi?
Sehirləşir hər saat, an,
Azərbaycan, Azərbaycan.

Könlünə yar istiqlalın,
Qəlbi oxşar bu cəlalın,
Sona yetsin qeylü-qalın,
Çatsın kama yurdda hər yan,
Azərbaycan, Azərbaycan.

Yel atında yal-yəhərin,
Tükənməsin bar-bəhərin,
Ötüb getsin qəm-qəhərin,
Zülmətində parlasın dan,
Azərbaycan, Azərbaycan.

Daim xeyrə olsun yazın,
Ötsün qışın, gəlsin yazın,
Bayrağında Ay-Ulduzun,
Qoy parlasın eşqlə hər an,
Azərbaycan, Azərbaycan.

Sabahımsan, gözəl Vətən,
Ey ürəkdə, canda bitən,
Varmıdır de, eşqinlə tən?
Deyir sənə yer-göy ay can,
Azərbayan, Azərbaycan.

Bakı, Şirvan, Şəki mələk,
Mil-Muğanın arzu-dilək,
Qarabağın-viran ürək,
Düşmənini tutubdu qan,
Azərbaycan, Azərbaycan.

Gözəl Bərdən bir yaraşıq,
Ona baxan olar aşıq,
Eşqindən ver qaşıq-qaşıq,
Tökülübdü Şuşaya qan,
Azərbaycan, Azərbaycan.

Gözəl Şəki bir şahzadə,
Pak cənnəti salır yadə,
Səndən varmı heç dünyadə?
Bulaqların torpağa can,
Azərbaycan, Azərbaycan.

Oğuzunun meşələri,
Cənnət-məkan guşələri,
Qartalların peşələri-
Zirvələrdən qoparmaq san,
Azərbaycan, Azərbaycan.

Təbrizinə çatmır əlin,
Şux Urmiyan, Ərdəbilin,
Var Borçalı – gözəl elin
Sən bu eşqlə alovlan, yan,
Azərbaycan, Azərbaycan.

Cəbrayılın kəhrizləri,
Kəlbəcərin pak izləri,
Laçınının dağ-düzləri,
Yad əlində olub büryan,
Azərbaycan, Azərbaycan.

Sərvətlərin aşıb-daşır,
Dilə düşür, el dolaşır,
Dostun gülür, yağın çaşır,
Dərd ürəyi edir büryan,
Azərbaycan, Azərbaycan.

Abadlaşır kənd, şəhərin,
Yenə artır bar-bəhərin,
Ölüb gedər qəm-qəhərin,
Torpağındır gül-gülüstan,
Azərbaycan, Azərbaycan.

Lənkəranın yamyaşıldır,
Lerikinin üzü aldır,
Qızlarının dili baldır,
Yenə gülür üzə dövran,
Azərbaycan, Azərbaycan.

Gədəbəyin gözəl üzü,
Tovuz, Qazax ceyran düzü,
Nə gözəldir Gəncən özü?-
Səadətlə deyir zaman,
Azərbaycan, Azərbaycan.

Arazın lal, Kürün şaqraq,
Gur suları yurda çıraq,
Tarixini varaq-varaq,
Fəlakətlə alıb-qucan,
Azərbaycan, Azərbaycan.

Durub gəlsən, düş Salyana,
Tellərini bir sal yana,
Aşiqini qoyma yana,
Sənindir, bu şöhrət-şan,
Azərbaycan, Azərbaycan.

Göygölünün dağ vüqarı,
Ram edibdi dostu, yarı,
Qoşqarının bumbuz qarı-
Çeşmələrdən verir nişan,
Azərbaycan, Azərbaycan.

Gözəl Quba bir tamaşa,
Çat Xaçmaza, gir qumaşa,
İstiqlalla, eşqlə yaşa,
Dada yetsin nəş'ə hər an,
Azərbaycan, Azərbaycan.

Qusar, Xudat qoşa şamdır,
Qədim Şabran ehtişamdır,
Qərib düşmüş – Dərbənd kamdır,
Bu kamınla sevdalan, yan!
Azərbaycan, Azərbaycan.

Siyəzənin gül – gülüstan,
Xızın yaşıl – göy bağ-bostan,
Tağayındır – könlə yatan,
Gözüm uymaz görrəm haçan?
Azərbaycan, Azərbaycan.

Şadimanın ürəyisən,
Can içində diləyisən,
Yerin, Göyün mələyisən,
Eşqindəndir hiss, həyəcan,
Azərbaycan, Azərbaycan.
Azərbaycan, Azərbaycan.

26.01.2008

ANA DİLİM

Dərdin itsin ilim-ilim,
Sözümün dünyaya bəyanı,
Yanan ürəyimin həyanı.
Tələtümə gətirirsən ruhu-canı,
Sənin haqqını ayaqlar altına
atanlarını sanı.

Ana dilim,
Səndən öc alır ilim,
Sənsiz keçmir bircə anım,
Sənsiz necə varlığımı anım?
Sənin odunu qəlblərinə çatmayanlar,
Zülmətlərdə daralmış hayını
hayına qatmayanlar,
Heç qədrini bilməzlər,
Sözünün şirinliyinə gəlməzlər.

Ana dilim,
Haqqını tapdalasam yansın dilim.
Anamın sevdalı laylasından doğuldun,
Qətrə-qətrə qanıma, canıma dağıldın,
Beynimin içinə, ağlıma yığıldın.
Sətir-sətir, misra-misra havamsan,
Sən mənim Allahıma duamsan.

Ana dilim,
Ölərəm sənə çatmasa əlim.
Sən söz-söz alışıb yanan Füzuli harayı,
Sən yaralı Nəsiminin təb sarayı.
Sən yasımda ağlayan könlümün vayı,
Sən bir anlıq sevincimin nəş'ə payı.
Dilimdən uçsan bil ki, canım çıxıb,
Fələk ömür taxtımı yıxıb...

Ana dilim,
De, kədərini bilim.
Bir zamanlar düşmənlər səni təklədilər,
Səni susdurub yox etmək üçün gəldilər.
Səni ruhundan ayırmaq üçün cinslərə böldülər,
Bu müsibətlər göldülər.
Bütün bunlara susmaq olmur axı,
Dərd çoxalanda ürəkdə qalmır axı.

Ana dilim,
Söz bağında solmasın gülüm.
İlahi göndərən mələyim.
Ruhu çağladan diləyim.
Sənsiz soyda, kökdə qalmaz heç nəyim,
Sənin səcdəndə titrəyir ürəyim,
Ana dilim...
Ana dilim...

09.04.2009

AH, YAZIQ MƏMLƏKƏT,
AH, YAZIQ VƏTƏN

Ah, yazıq məmləkət, ah, yazıq Vətən,
Könlümün içində eşq ilə bitən,
Adın rüşvətlə talanıb gedir,
Ürəyin ağrıyla bulanıb gedir.
Əzabdan o yana yolun yoxmu heç?!
Varsa müsibətdən bir qurtulub keç.
Dilin haqq arayır cəllad əlində,
Gözlərin boğulur kədər selində.
Rüşvət sevgisiylə çırpınır başlar,
Göydən başımıza tökülür daşlar.
Hər gün aldadan kim, hər gün alan kim?
Kim-kimə oğrudur, kim-kimə məhkum?
Qanuna zülm edən yalançı hakim,
Qanun can verərkən olarmı həkim?
Bizim ağlımıza kim deyəcək can?
Bizim içimizdə şahdı həyəcan!
İşimiz rüşvətsiz keçmir heç yerdə,
Yaxşı vərdiş etdin, ey Vətən, dərdə.
Rüşvət beynimizin həyat qurşağı,
Rüşvətlə oxşanır bağça uşağı,
Məktəbdə rüşvətlə «bilik» alırlar,
Rüşvətlə «elmli» adam olurlar.
Ali məktəb pulla açır qoynunu,
Rüşvətlə fırladır iblis oynunu!
Rüşvətin quludur bütün məmləkət,
Vətən, bundan böyük yoxdu fəlakət!
Beyini rüşvətə qul olan millət,
Kimsədən diləyə bilməz ədalət.
Biz haqqı rüşvətlə əsir etmişik,
Bütün zehnimizi yesir etmişik.
Rüşvətlə maşınlar, evlər alınır,
Rüşvətlə saraylar, mülklər salınır.
Rüşvətə əyilir ağlımız hər gün,
Rüşvət almayana deyirlər miskin.
Vəzifə kürsüsü ona yad olur,
Hər gün təmizliyi bir fəryad olur.
Rüşvətin dəlisi olan millətin,
Tanrı azaltmayıb heç vaxt zillətin.

Əsir torpağımız yağı əlində,
Ölünün, dirinin ağı dilində,
Pulla düzəldirik hər işimizi,
Rüşvətə qul etdik vərdişimizi!
Sonra da yapışıb mikrafonlara,
Tele-radioyla girdik donlara,
Ekrana rəng verib düşdük anlara.

***

Ziyalı deyərək sinə yırtırıq,
Kütlənin gözünə hey kül atırıq.
Kütləsə fəxr edir bizlə hər zaman,
Bizə səcdə edib, gətirir iman.
Ey şair, ey alim, ey boyalı baş!!!
Vətənin gözündən seltək axır yaş!
Bu yaşlar içində boğulur millət,
Bütün yer üzünə dağılır millət!..

***

Dünyaya göz açır rüşvətlə körpə,
Rüşvət yatmır daha heç sapa-ipə.
Ölüyə, diriyə rüşvətdi əlac,
Ölkə başdan-başa rüşvətə möhtac.
Rüşvət verməyənə iş yox, peşə yox,
Rüşvət verənəsə bir əndişə yox.
İblisə, şeytana qul olub qaldıq,
Özmüzü iblisin gününə saldıq.
Ürəyin içində bu dərdlər bitən,
Çarə yox nə sənə, nə mənə Vətən.

11.04.2007 /Neft Daşları

MƏN VƏTƏNƏM

Mən VƏTƏNƏM!
Bu torpaqda doğulanın
harayına yetənəm!
Sinəsində zaman-zaman
bülbül təki ötənəm!
Mən VƏTƏNƏM!

***

Tanrım qədər yüksəkdədir,-
Qanda, canda, ürəkdədir-
Xalqım mənim, elim mənim.
Əzabları ürəyimin ağrısıdır,
Bircə anlıq fəlakəti-
Gözlərimin uçub gedən yuxusudur.
Bir kimsəyə əyilməyən,
Xəyanətdə döyülməyən,
Ayaqlara döşənməyən,
Röyalarda üşənməyən-
Ürəyimin qorxusudur.

***

Bu torpaqda doğulmuşam,
Sevincimlə, kədərimlə
bu aləmə dağılmışam.
Bu xalq mənim, bu el mənim,
Varlığımı məhvərindən yıxıb-sökən,
Əzabımın qanın tökən,
Qəlb evimi qamarlayan,
Yollarımı hamarlayan-
Dəli-dolu təb sel mənim,
Doğulandan yağısının yağısıyam,
Ölər olsam, qız-gəlinin dodağında ağısıyam!
Bu torpağın insanın sinəsində mən bitənəm,
Qorunmasam, yağıların qılıncıyla
parçalanıb mən itənəm,
Mən VƏTƏNƏM!

***

Tanrım qədər yüksəkdədir,
Qanda, canda, ürəkdədir-
Xalqım mənim, elim mənim,
Dağım mənim, çölüm mənim,
İllər keçir, deməyin ki, ölüm mənim.

Anaların laylasında tanrılaşan dilim mənim!
Bunun üçün bəxtiyaram,
Xoşbəxtliyə mən də varam,
Bu müqəddəs məmləkətə,
Başı üstə fəlakətə ahu-zaram.
Məni eşqlə sevənlərə, mən də yaram!
Deməsin ki, düşmənlərim ölüb bir gün
qarışacam bu torpağa!
Mən çörəyəm,
mən ürəyəm –
bərəkətli bağa, dağa,
Bulud təki gurşadımla
suvarıram çölü, düzü.
Çalışmasın yağılarım itirməyə
ayağımdan düşən izi!
Heç qatlaya bilməz dizi!
İnanıram, yetişəcəm azad çağa,
Bir münbütlük gətirəcəm
hər ağaca, hər yarpağa,
Qovuşacam xoş növrağa!
Mən şükürlü deyiləm heç bü günümə,
Bir sehirbaz axtarıram düyünümə,
Od yurdunun bircə qarış
elatı da mənimkidir,
Çəkilməyən dərdlərinin
həyatı da mənimkidir,
Ölənlərin ruhu zərif qanadlarım,
Durun illət yuxusundan, övladlarım,
Mən də deyim bəxtiyaram-
Nə yaxşı ki, bu torpaqda doğulmuşam!
Fəryadımla bu aləmə dağılmışam,
Zülm əlində boğulmuşam,
Daha cana yığılmışam-
Ehey, dünya, eşit məni,
Harayıma salım səni-
Mən də varam,
Köləliklə ərzə xaram,
Yıxıb-söküm bu zavalı,
Oda atım acı halı,
Ələ alım bu torpaqda ixtiyarı,
Olum mən də bu dünyanın bəxtiyarı!

***

Mən VƏTƏNƏM,
Bu torpaqda doğulanın
harayına yetənəm,
Sinəsində zaman-zaman
bülbül təki ötənəm,
Ruhu məndən qidalanmış
insanının sinəsində bitənəm,
Mən VƏTƏNƏM!..
Mən VƏTƏNƏM!..

12.08.2007/ Neft Daşları

QANLARA BOYANDI BAKI AH İLƏ

31 mart 1918-ci ildə Bakı erməni silahlı dəstələri tərəfindən Soyqırımına məruz qalıb və bu heç vaxt ağlımızın yaddaş səhifəsindən silinmədi.

Otuz bir mart min doqquz yüz on səkkiz,
Saldın yaddaşlara necə qanlı iz.
Ağladın, hönkürdün diləyimizdən,
Ağrın heç getmədi ürəyimizdən!
Məzarlar dağıldı, qanunlar susdu,
Hər dəhşət beyində min yol qan qusdu.
Kitablar az yazdı bu cinayəti,
Qocalar yaşatdı bu hekayəti.
Yaddaşın gətirib imdadlarına,
Onlar pıçıldadı övladlarına.
Ağıllar hifz etdi qırğını, ahı,
Arxivlər gizlətdi haqdan günahı!
Fəqət unuduldu vaxtın sabahı,
Aldada bilməyib şeytan Allahı.

***

Qanlara boyandı Bakı ah ilə,
Qırğın gecə ilə, sübh-sabah ilə.
Müsəlman olanın bağrı söküldü,
Bütün arvad-uşaq çölə töküldü.
Qanlar su yerinə axdı şəhərdə,

Boğuldu məmləkət acı qəhərdə.
Hər yeri qışqırtı, nalə bürüdü,
Burda insanları ölüm sürüdü.
Heç vaxt yayındırmır şər qibləgahı,
Aldada bilməyir şeytan Allahı.

***

Min doqquz yüz on səkkizin sədası,
Otuz biri martla oldu qadası.
Ölənlərin say-hesabı yox idi,
Ermənilər, bolşeviklər çox idi.
Ev-ev gəzir əllərində silahı,
Titrətdilər həm gecəni, sabahı.
Ünsüz göylər göz yaşını axıtdı,
Ölüm, qada Allahı da qorxutdu.
Minlər ilə kişi, qadın qırıldı,
Müsibətdən yerin bağrı yarıldı.
Bu fəlakət erməninin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

***

Hər həyətdə su quyusu var idi,
Bu quyular meyitlərə dar idi.
Tökürdülər ölənləri quyuya,
Etdikləri cinayətlər uyuya!
Ermənilər qırdı, çatdı Bakını,
Bircə gündə qana atdı Bakını.
Dalanlardan zarıltılar gəlirdi,
Hər qapıdan inilti yüksəlirdi.
Silahlılar, yaraqlılar at üstə,
Fəryad edib, vay deyənlər can üstə,
İblislərdən qorxusu var divin də,
Müsəlmanlar şəhid oldu evində!
Bu fəlakət ermənin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

***

Mən necə yazmayım bu qanı axı?
Sonrakı günlərdə Səlyan, Şamaxı,
Batdı qan içində Dəvəçi, Quba,
Doldu şəhidlərlə neçə el, oba.

Sanki məmləkətin bəxt çarxı döndü,
Günahsız ellərin çırağı söndü.
Erməni hiyləsi hər yeri aşdı,
Bütün yurd-yuvanı ölüm dolaşdı.
Uşaqlar atıldı oda, atəşə,
Bu qan yağılara bir iyrənc nəş'ə.

***

Osmanlı dözmədi bu müsibətə,
Qəlbindən hayqıran o məhəbbətə,
Yolladı köməyə Nuru Paşanı,
Qardaşın eşqiylə könlü daşanı.
Əskəri qüvvəsi yetdi imdada,
Bu böyük igidlik düşməzmi yada?
Qanı unutmadı millət ağılı,
Tarix dana bilməz qanlı nağılı.

***

Çox ağrılar, çox itgilər ötəcək,
Çox yaralar sinələrdə bitəcək.
Şəhidlərin nə köhnəsi, təzəsi,
Heçnə qalmıb səbrimizdən dözəsi.
Keçmişimiz bu günlərə ağlayır,
Bu dəhşətlər yeri, göyü dağlayır.
Bəşər varsa, iblis, şeytan durmada,
Canımıza min bir hiylə qurmada.
Qoy həqiqət beynimizdən itməsin,
Qəlbimizdən çox uzağa getməsin.
Bu fəlakət ermənin qurumu,
Otuz bir mart-Bakının Soyqırımı!

30.03.2008

ZƏNCİRLƏNMİŞ PROMETEY

Qəhrəman əskərimiz
Ramin Səfərova ithaf

Haqqın ayaqlar altında,
Xəyalın igidlik atında,
Bir fırtına baş verdi həyatında,
Nifrətlər tüğyan etdi könlünün
ən dərin qatında.
Ululların sədası bağrında qopartdı hey,
Zəncirlənmiş Prometey!

***

Düşmənin hərzələrinə,
təhdidlərinə dözə bilmədin,
Məğlub adıyla gəzə bilmədin,
Bu ağrının içində üzə bilmədin,
Müsibətin şiddəti sızlayan ney,
Zəncirlənmiş Prometey!

***

Ey igidim,
Mən bu üsyana can dedim!
Ey qəhrəman ƏSKƏRİM,
Ey nərəsiylə dünyanı titrədən nərim,
Haqqımız key, başımız sərsəm,
Bu ağrını kimə desəm
yanıb tökülər,
Sinəsinə dağlar çəkilər.
Biz hər əzaba dözə-dözə itiririk,
Könlümüzdə fəlakətlər bitiririk,
Bu fəlakətlər sərxoş edən acı mey,
Zəncirlənmiş Prometey!

***

Sən Macar dediyimiz ölkədə,
Lap çoxdan qanımızın qarışdığı bölgədə,
Erməni təhdidlərindən şir təki qızışdın,
Qurd kimi qəzəbindən daşdın,
Bütün qadağaları aşdın,
Qasırgalar təki əsdin,
Murdar düşmənin başını kəsdin!
Bu haqqımızı misqal-misqal,

zərrə-zərrə qul qismində tutanlara,
Neçə ildi könlümüzə çatanlara,
Uşaqlı-böyüklü bizi təslimçiliyə atanlara,
Ağlı-qaralı riyaya,
Bütünlüklə səsimizi boğan dünyaya
Yer-göyü titrədən giley,
Zəncirlənmiş Prometey!

***

Koroğlu hoylum ey,
Haqqına maylım ey,
Öz gücünə hayılım ey,
Qəzəbi sönmüş qurda lazımsan,
Əsir düşmüş yurda lazımsan,
SƏN BİZƏ BURDA LAZİMSAN!!!...
Ora qərib qəfəsidir,
Bu VƏTƏNİN səsidir,
Bu səsi eşit ehey.
Uca boylum, qartal baxışlım ey,
Zəncirlənmiş Prometey!...
Zəncirlənmiş Prometey!...

23.11.2008

DİLİMİZİN DUASI

Vətənin diriliyi,
İnsanının dirliyi.
Gələcəyi, birliyi–
Himnimiz can havası,
Dilimizin duası.

O bizim eşq sevdamız,
Odur yaşam qidamız,
Qəlbdən qopan nidamız,
Himnimiz can havası,
Dilimizin duası.

Doxsan illik zamanı,
Tarixdə ah, amanı,
Heç bitərmi peymanı?
Himnimiz can havası,
Dilimizin duası.

Onun sətiri, sözü,
Ürəyimizin közü,
Girib könlə o özü,
Himnimiz can havası,
Dilimizin duası.

Yurdun dünyaya nuru,
Hər misra sudan duru,
Övladının qüruru,
Himnimiz can havası,
Dilimizin duası.

Üzeyirin, Cavadin–
İki böyük ustadın,
Yazdı tarixə adın,
Dilində dostun, yadın,
Himnimiz can havası,
Dilimizin duası.

Ey Şadiman, qoruyaq,
Qanımızda arıyaq,
Canımıza sarıyaq,
Himnimiz can havası,
Dilimizin duası.

27.07.2008

İNDİ HAMI VARLIYA, PULLUYA TƏ'ZİM EDİR

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Təmizliyi, düzlüyü bəxtinə şüar tutan,
Bəşəri niyyətləri ürəyinə yar tutan,
Rüşvəti, əyriliyi vicdanına xar tutan,
Haqq yolunu ömürlük amalına var tutan,

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Haram yolla özünü tutanlar kefə vurğun,
Hər gün çal-çağırdadır zövqləri dəfə vurğun,
Hiylələr tor toxuyur, dillər kələfə vurğun,
Pul-paraya həsrətlər harın tərəfə vurğun,

İndi hamı pulluya, varlıya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Yaltağlığın kökündə qorxaqlıq rişə atır,
Harınlaşmış bəndələr rişəyə nəş'ə atır,
Kefə soğan doğrayır, haqqını dişə atır,
Yerə, göyə, Allaha hər gün əndişə atır!

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Bir deyən yox bu sərvət hardan, nədən yığıldı?
Bəlkə sənə Rəbb verən ayrıca bir ağıldı?
Ya ki, bu gördüklərim yuxu, röya, nağıldı...
Sərvətinin izzəti nə tez belə dağıldı?

İndi hamı pulluya, varlıya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Bir tərəfdə göz yaşı - kasıb, uçuq komalar,
Sakininin ahını dər-divara komalar,
Bir tərəfdə saraylar - göz qamaşan əmmalar,
Dil ucunda neştərtək durub qalıb ammalar.

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Sorulmur bir yol nədən hardan daşdı sərvətin?
Vəzifədən cibinə işlədi səxavətin,
O yığdığın pul-para sənin deyil, millətin!
Ermənidən güclüdür bu xalqla ədavətin!

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Subayların yaşları artıq qırxa çatıbdı,
Haramzada olanlar abrın dala atıbdı,
Oğrular, narkamanlar öz başların qatıbdı,
Millətin yarısının qara bəxti yatıbdı,

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Haram yeyən dünyanı hey gəzdikcə doymayır,
Deyir millət cəhənnəm, özün gözdən qoymayır,
Yığdığca yığır pulu gözü xeyrə uymayır,
Daha camaatı da adam kimi saymayır,

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Çoxu yaltaq olmağı özünə adət bilir,
Zənn edir ki, bir şərəf böyük səadət bilir,
Bu işi Allahına səcdə, ibadət bilir,
Aləmi şeytan sayır, şeytana hiddət bilir,

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

Ey Şadiman, özümə dinc durmağı söylədim,
Yazan əlim üstündən gürz vurmağı söylədim,
Aləm ilə dil tapıb iş qurmağı söylədim,
Atma heç şər-filana söz qarmağı söylədim,

İndi hamı varlıya, pulluya tə'zim edir,
Bu niyyəti könlündə çox iştahla həzm edir.

17.12.2009

BİR TƏRƏFDƏ ŞƏHİDLƏR, BİR TƏRƏFDƏ DANİŞİQ

Bir tərəfdə şəhidlər, bir tərəfdə danışıq,
Haçan yanar, ey Vətən, yurdumuzda gur işıq.
Şəhid balalarının goru çatlayır axı,
Dözmür ürəklərimiz qəmdən partlayır axı.
Qətrə-qətrə qanımız tökülür yurd-yuvaya,
Öyrəşibdi ağzımız yalvarışlı duaya.
Danışıqlar tükənmir, danışıqlar uzanır,
Biz təslimə öyrəşir, düşmən zəfər qazanır.
Bu dəyirman çox sular aparacaq deyəsən,
Yağı neçə il möhlət qoparacaq, deyəsən?
Uzanır danışıqlar, uzanır sövdələşmə,
Neçə masa önündə kağızla vədələşmə.
Qaçqın balalarından doğulanlar haralı?
Şəhid Qarabağımız min bir yerdən yaralı.
Əsir düşən balalar, şəhid olan balalar,
Yığışmışıq Bakıya ucaldırıq qalalar.
Düşmən içir Şuşanın qanını qaşıq-qaşıq,
Haçan yanar, ey Vətən yurdlarında gur işıq?!...

31.10.2010

DÜŞMƏNİ KÖKSÜNDƏN VURDUN, MÜBARİZ

İnternetdə, erməni saytlarında Azərbaycanın Milli Qəhrəmanı, cəsur əskərimiz Mübariz İbrahimovun nə'şi nümayiş etdirilir. Meyitimizdən qisas alan düşmənin alçaqlığı və qorxaqlığı göz önündədir. Bütün dünya buna tamaşa edir. Səssiz, lal, sükut içində...

Çəkdin yağıların sinəsinə dağ,
Nərəndən titrədi əsir Qarabağ,
Nədən qürurluyuq ölüyük, ya sağ?!
Bu dərddən kükrəyib durdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Qisasın yolunu öyrətdin bizə,
Mənfur iblislərə nifrətin nizə,
Yaradan bu şərdən xilası çözə,
Dərdi nə ağırmış yurdun, Mübariz?
Düşməni köksündən vurdun, Mübariz.

Yetdin şəhidliyə şir ürəyinlə,
Mübarək bahadır, pir ürəyinlə,
Əlləşdi, vuruşdu sirr ürəyinlə,
Bu sirdən bir tarix qurdun, Mübariz,
Düşməni küksündən vurdun, Mübariz.

Dur, EY VƏTƏN OĞLU, boyuna qurban!
Elinə, kökünə, soyuna qurban,
Heç vaxt olmayacaq toyuna qurban,
Bağrından boylandı qurdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Meyitdən qisası alan cəlladlar,
Şər olan yerlərə qədəmin adlar,
Tarixə köçəcək müqəddəs adlar,
Qeyrətçin keşikdə durdun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Çingiz harayına qarışdı sədan,
Əsir Ramildənmi gəldi haqq nidan?!
Yaralı Vətəndən hər gün qəm udan,
Avtomatın oldu ordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

Xain hiyləsindən heç vaxt dönməyir,
Ya kin-küdurəti bir an sönməyir,
Yağı sinəsində qəlb döyünməyir,
Qisası qisasdan sordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

İgidim, olmusan məşhuri-cahan,
Şəninə söyləyir yer-göy də sübhan,
Can şəhidim deyir dil-dodaq, dəhan,
Canların içində qordun, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.

İnternet saytı nə'şinə çıraq,
Verir cəsurluqdan nə'şin də soraq,
Biz də sənə baxıb tilsimi yaraq,
Divin şüşəsini qırdın, Mübariz,
Düşməni köksündən vurdun,Mübariz.

Atanın, Ananın, Vətənin canı,
Nə şərəfli etdin Azərbaycanı,
Şadiman şeir edir hiss-həyəcanı,
Könlün misra-misra sardın, Mübariz,
Düşməni köksündən vurdun, Mübariz.
Düşməni köksündən vurdun, Mübariz.

18.08.2010

VƏTƏNDƏN YAZAQ

Qoy Vətəndən Müdafiə Naziri yazsın deyən, şair həmkarıma...

Vətən can evimiz, Vətən qanımız,
Odur yurd-yuvamız, el ünvanımız,
Onsuz ahı-vayla keçər anımız,
Qanmazdan yaxşıdır yurda qaradaş,
Bu hissi duymayan şairmi qardaş?

Şairin Allahı-Vətən olmalı,
Cana sevda ilə o tən olmalı,
İçində yurduna bir «Mən» olmalı,
Ölkənin gözündə boğulubdu yaş,
Bu hissi duymayan şairmi qardaş?

Bizə çox mətləbi unutdurublar,
İçdə odumuza su qatdırıblar,
Gözə sığal çəkib bərk yatdırıblar,
İndi millət kimi olmuşuq çaş-baş,
Bu hissi duymyan şairmi qardaş?!

Dərbəndim, Borçalım, Təbrizim hanı?
Yağılar itirən mərd izim hanı?
O şahlı, sultanlı gündüzüm hanı?
Yad vuran yumruqdan inildəyir baş,
Bu hissi duymayan şairmi qardaş?!

İşğalda Qarabağ oğul haraylar,
Düşmən qanımızdan yapır saraylar,
Şəhid anasının dilində vaylar...
Vaydan titrəməyən insan deyil - daş,
Bu hissi duymayan şairmi qardaş?!

İtirilmiş yurdlar bizdən gileyli,
Yurdu qamarlamaq yağının meyli,
Bəsdir bu qanları unutduq xeyli,
Vətən işğallarda - ötür keçir yaş,
Bu hissi duymayan şairmi qardaş?!

Bu düşüncə ilə millət olarmı?
Bundan həqarətli zillət olarmı?
Xalq da yad əllərdə alət olarmı?
Salma öz yerini yağı ilə çaş,
Bu hissi duymayan şairmi qardaş?!

Vətən qələmimin söz qalasıdır,
Canımla ürəkdə bir qalasıdır,
Könlümdə ilhamdan yurd salasıdır,
Küfür duyğuların sərhədini aş,
Bu hissi duymayan şairmi qardaş?!

Hadisə sayırsan şairliyini,
Yazar dunyasına dairliyini,
Aləmə faş etdin zailliyini,
Dilin göz çıxartdı, viran etdi qaş,
Bu hissi duymayan şairmi qardaş?!

Sən yad ölkələrdə qala bilərsən,
Ömürlük məskən də sala bilərsən,
Orda işdə uğur çala bilərsən,
Qürbətlər acısı dodaqlarda kaş!
Bu hissi duymayan şairmi qardaş?!

Şadiman odunda yanıb kül olub,
Dərdinin bağında ahı gül olub,
Vətəni unudan başa kül olub,
Yurd bazar deyil ki, edəsən daş-baş,
Bu hissi duymayan şairmi qardaş?!
Bu hissi duymayan şairmi qardaş?!

12.10.2011

BİZİ BU DƏRD İLƏ BARIŞDIRMAYIN

İnsan da öləri bir məxluqatdır,
Yaşadan-öldürən onu həyatdır,
Ruhun özü sirdir, sirri min qatdır,
Canı həyatıyla yarışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Hər ağrı-acıdan keçmək olardı,
Hər zülmü sinədən biçmək olardı,
Zəhəri şərbəttək içmək olardı,
Vətəni bazarla qarışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Quş da yuvasının üstünə gəlir,
Dil də duasının üstünə gəlir,
Düşmən yurd-yuvanın qəsdinə gəlir,
İşğalın min üzün araşdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Hər şeydən üzünü döndərmək olar,
Başına daş-qaya əndərmək olar,
Yağını ayağa endirmək olar...
Dərdi içimizlə vuruşdurmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Başsız yurdlarımız yavrudu, fələk,
Bu imansız yağı gavurdu, fələk,
Ürəyi sac üstə qovurdu, fələk,
Onu qaysaq ilə sarışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

Şadiman içindən bağrıqan olub,
Ağlayan göz olub, yanan can olub,
Qarabağ ah edir, ah hicran olub,
Ey bizim dillilər, duruş durmayın,
Bizi bu dərd ilə barışdırmayın,
Bizi bu dərd ilə barışdırmayın.

05.03.2011

MƏNƏ MEYDAN VERİN...

Mənə meydan verin, mikrofon verin...
Səsimlə aləmi dağıdıb töküm.
Deyin kədərlərin siz mənə yerin,
Dişim-dırnağımla bağrını söküm.

Göynəyən yaramı duzla sarıyım,
Qəlbimdən qopanı gəzim, arayım,
Ağrımın dərdiylə qoyun qarıyım,
Olmayın boş yerə siz ona həkim.

Mənə meydan verin, sızıldayır Şərq...
Zaman bir okean, günlər olur qərq,
Vurur saatımız su içində bərq,
Hər damla üstündə durur can çəkim.

Mənə meydan verin, sözlə oynayım,
Yerdə ocaq olum, göydə qaynayım,
Çarpışım, döyüşüm bir dəm aynayım,
Silkinən ruhumu ardımca çəkim.

Mənə meydan verin məkri olmasın,
Sözümü udmağa fikri olmasın,
Onu ovlamağa zikri olmasın,
Uçum səmasında quş təki səkim...

Şadimana belə ərki etməyin,
Danlağı edəndə bərki etməyin,
Ürəyim doludur sərki etməyin,
Sözün gülzarına gülləri əkim.

11.04.2011

YOLUM DÜŞDÜ QARABAĞIN ELİNƏ...

Yolum düşdü Qarabağın elinə...
Ağrı gördüm kəndlərində vay kimi.
Ahu-fəğan süzülürdü dilinə,
Əzabları top dağıtmaz yay kimi.

Ağdamını kölə edib almışlar,
Qollarına qara qandal salmışlar,
Ürəyindən ilan təki çalmışlar,
Gözlərindən yaşı axır çay kimi.

Kənd-kəsəyi əsirliyin içində,
Qan ağlayır qorxu-hürkü içində,
Dilindəki sözlər bürkü içində,
Təndirində alışırdı yay kimi.

Dondurulmuş müharibə qoxusu,
Ərşə qaçıb adamların yuxusu,
Uşaqların gözlərində qorxusu,
Boylanırdı dodaqlarda hay kimi.

Əsgərimiz səngərlərə düzülüb,
Qarabağın daha səbri üzülüb,
Qanı axıb ürəyinə süzülüb,
Bizə baxır işin bilməz zay kimi.

Güllə səsi qulaqları dəng edir,
Haqqımızı boğanları ləng edir,
Dinsiz haylar uşaqla da cəng edir,
Özlərini şərə tutur tay kimi.

Qarabağın bəxti düşüb düyünə,
Ürək qalmıb sinəsində döyünə,
Bu millətdən olan nəylə öyünə?
Tapdalanır yerdə özü tay kimi...

İrəvanın xanlığın yox etdilər,
O ellərdə daha haylar bitdilər,
Xankəndinin varlığını diddilər,
Yurdlarımız qoparılır pay kimi...

Əhvalımız düşüb dilə gülməli,
Ya hamımız xilas yolun bilməli,
Ya döyüşüb, ya da dərddən ölməli,
Xıncımlanır torpağımız lay kimi.

Bu Vətənin bir tərəfi əsirdir,
Bir tərəfi bər-bəzəkdir, qəsirdir,
Ağlımızda kökün atan nə sirdir?
Çıxıb batır gecə güdən ay kimi.

Niyə bizim haqqımızı alıblar?
Alıb onu qara günə salıblar,
Min bir yerdən düyün vurub çalıblar,
Bu dünyada sayılırıq say kimi.

Neçə ildi çarpmayırıq nəzərə,
Göz önündə ağlamalı mənzərə,
Belə getsə tökülərik Xəzərə...
Yurd ağzında qalarıq lay-lay kimi...

Şadimanı zəncirləyin sözündən,
Ocaq çatıb tonqal tutun közündən,
Sorun dərdi bu Vətənin özündən,
Nə qalacaq yurda haqqı-say kimi?!..

16.04.2011

TAĞAYIM

BİRİNCİ HİSSƏ

«Səlam olsun şövkətüzə, elüzə»
Şəhriyar.

Səndə qalıb uşaqlığın illəri,
Əndirmənin ilan mələr çölləri,
Yaşıdların şirin-şəkər dilləri,
Qızlar gəlsin bulağına, Tağayım,
Səsim yetsin qulağına, Tağayım.

Şən açılan sabahımın özüsən,
Mənim üçün bu dünyanın üzüsən,
Dodağımından qopan yurdum sözüsən,
Çiçəklərdən tül toxuyan, Tağayım,
Gecə-gündüz gül qoxuyan, Tağayım.

Anam Xəzər tellərini hörəndə,
Səhər şehin bağ-bağçaya sərəndə,
Üzümündən, əncirindən dərəndə,
Dad qalardı dilimizdə, Tağayım,
Şirələnmiş əlimizdə, Tağayım.

Gilavarın arxasınca uçardıq,
Çay aşağı dəli kimi qaçardıq,
Qayalara qayadan yol açardıq,
Göy Xəzərdən gün qalxardı, Tağayım,
Gilgilçayı lal axardı, Tağayım.

Asmakörpü çay üstündə durardı,
Qızmar Günəş başımıza vurardı,
Körpə qızlar gəlin-evcik qurardı,
Körpü üstə oynayardıq, Tağayım,
Qarışqatək qaynayardıq, Tağayım.

Gün çıxanda adamların hay-hoyu,
Ötürərdi heyvanları gözboyu,
«Kəndyeri»nə ot çıxardı dizboyu,
Biz də quzu otarardıq, Tağayım,
İsti düşdü yatırardıq, Tağayım.

Hərə bir gün çobanlığı dadanda,
Al səhərin gül havasın udanda,
Quşlar nəğmə oxuyardı hər yanda,
Gün doğardı canımızda, Tağayım,
Alışardı qanımız da, Tağayım.

Çıraqqala dumanlardan çıxanda,
Məsud, məğrur bizə tərəf baxanda,
Uzaqlarda qəfil şimşək çaxanda,
Biz də qorxub qaçışardıq, Tağayım,
Kəpənəktək uçuşardıq, Tağayım.

Bilməz idik xəstəlik nə, mərəz nə?
Dava-dalaş, umu-küsü, qərəz nə?
Dürməclərdik şor-lavaşı, çərəz nə?
Göz olardı el nəzəri, Tağayım,
O illərin yox bənzəri, Tağayım.

Bir zamanlar sellər dağdan gələrdi,
Gilgilçayı kəndi iki bölərdi,
Suya düşən qoyun-quzu mələrdi,
Sel bilməzdi bağça-bostan, Tağayım,
Ötənlərin özü dastan, Tağayım.

Elin ağzı kəndi belə öyərdi,
«Yuxarıbaş », « Aşağıbaş » deyərdi,
Novruz oldu, bir-birinə dəyərdi,
Gur tonqallar alışardı, Tağayım,
Uşaq, böyük yarışardı, Tağayım.

Ətirliydi kəndin gözəl yazları,
Alyanaqlı, ucaboylu qızları,
Yandırardı oğlanları nazları,
Coşdurardı diləkləri, Tağayım,
Oxşayardı ürəkləri, Tağayım.

Uşaqlığım zamanımın qoynunda,
Taleyimiz fələk qoyan qanunda,
Mat qalmalı röyaların oynunda,
Ram edərdi qorxuları Tağayım,
Şirin-şəkər yuxuları Tağayım.

Qız-gəlinlər bulaq üstə gələrdi,
Dərdi-sərin bir-biriylə bölərdi,
Xısın-xısın pıçıldaşıb gülərdi,
Beş addımdı bulaq bizə, Tağayım,
Səs dolardı evimizə, Tağayım.

Anam səhər işə-gücə qaçardı,
Qapımızı ana nənəm açardı,
«Bala» deyib bizi eşqlə qucardı,
«Nənə qurban» kəlməsiylə, Tağayım,
Sevinərdik gəlməsiylə, Tağayım.

Bəy xanımı Səfurənin odundan,
Heç doymadım sözlərinin dadından,
Oğul dağlı loğman-şair qadından,
Bayatılar dinləmişəm, Tağayım,
Dinlədikcə inləmişəm, Tağayım.

İslam əmi muğamatı xoşlardı,
Tarın səsi bəbəklərin yaşlardı,
O yazdığı şeirlərlə huşlardı,
Nura həsrət gözləriylə, Tağayım,
Çox yanıqlı sözləriylə, Tağayım.

İlk müəllim, bizə Sabir dayımız,
Dərsi bir gün bilməsəydik vayımız,
Döyülərdik qalmaz idi hayımız,
Dərsdən evə dönməz idik, Tağayım,
Necə həlim, dinməz idik, Tağayım?

Evə gəldim taxçamıza çıxardım,
Tapşırılan dərslərimə baxardım,
Şeir oldu elə bərkdən oxardım,
Lap ürəkdən alışardım, Tağayım,
Öz səsimlə yarışardım, Tağayım.

O Mənsurə anamın can kəlməsi,
Tikəsini bizim ilə bölməsi,
O Gülsabah bibimin gənc ölməsi,
Onda gördüm fələk üzün, Tağayım,
Qohumların yaşlı gözün, Tağayım.

Hacıbaba qardaşımın zəhimi,
Dərs zamanı müəllimlik fəhimi,
Uşaqlara hərdən qəfil rəhimi-
Keçənlərdən xoş xatirə, Tağayım,
Tarix olub hər sətirə, Tağayım.

Ağabala atamın mərd ərliyi,
Anamızla saf məhəbbət birliyi,
Atalığı, evdarlığı, dirliyi,
Bir örnəkdir bu günlərə, Tağayım,
Bugünki toy-düyünlərə, Tağayım.

Nə düşərdi tərs Fərhadın beyninə?
Təzə paltar geyinməzdi əyninə,
Pis gələrdi onun uşaq eyninə,
Qurban olum cəfasına, Tağayım,
Qardaşımın vəfasına, Tağayım.

Xanimənin dodağında gülüşü,
Gül bacımın o nazənin yerişi,
Sehir idi başdan-başa hər işi,
Çox almısan qadasını, Tağayım,
Canlar üzən ədasını, Tağayım.

Mirvarinin şirin-şəkər yeməsi,
Bişmişləri yeməyəcəm deməsi,
Dür bacımın hələ özün öyməsi,
Dəyməz idi heç xətirə, Tağayım,
Ötənlərdən bir xatirə, Tağayım.

Heyran idim Mətanətin nazına,
Qardaşımın yeddi gözəl qızına,
Mən nə deyim, fələk hər kəc yazına?-
Qəribliyə düşdü canım, Tağayım,
Sənlə keçdi ən xoş anım, Tağayım.

Gül anamın cehiz saxsı nehrəsi,
Gəlinimiz Minanın ay çöhrəsi,
Xanımana nənəmin yun cəhrəsi-
Hanalarda çiçəklərdi, Tağayım,
Xalılarda gerçəklərdi, Tağayım.

Oğlanların çırtma vurub oxması,
Uşaqların dambacadan qorxması,
Qız-gəlinin çal-çəpərdən baxması,
Dil-dodağda noğullaşdı, Tağayım,
Xatirələr nağıllaşdı, Tağayım.

Səbirənin hər sözünün ballığı,
Gəlnimizin böyük-kiçik hallığı,
Kənd qızına xas üzünün allığı,
Bir səadət bağışlardı, Tağayım,
Nə müqəddəs baxışlardı, Tağayım?

Neçə-neçə gəlinin dul qalması,
Qarıların yaslarda saç yolması,
Ağacanın tək dam altda olması,
İranın fars, qərib oğlu, Tağayım,
Bəxti kimi yolu bağlı, Tağayım.

Toydan qabaq qızların cəm olması,
Yunu didib yorğan döşək salması,
Kəndimizin bulaması, dolması,
Ağızlarda dada döndü, Tağayım,
Qohumlar da yada döndü, Tağayım.

O Cəmilə nənə olan somiyə,
Tanış idi sadəliklə hamıyə,
Pişikləri eyləyərək hamiyə,
Tən bölərdi payını da, Tağayım,
Çoxaldardı sayını da, Tağayım.

Kənd məscidi ağzı bağlı olandan,
İmanımız avazıyıb solandan,
Cavanların sərxoş olub qalandan,
Hey boşaldı tabaqların, Tağayım,
Nə yaxşıydı qabaqların, Tağayım?!..

Şəfiqənin qəfil gələn ölümü,
Zalım fələk eləyəndə zülümü,
Gördüm ağlar məzar üstə elimi,
Yazıq bibim şamtək söndü, Tağayım,
Göz yaşımız selə döndü, Tağayım.

Xalam oğlu gənc Teyyubun vəfatı,
Cavan ikən nakam olan həyatı,
Bu fələyin qara gələn saatı,
Aldı Güllü bacısını, Tağayım,
Verdi bəxtin acısını, Tağayım.

On dörd yaşlı canım xəstə düşəndə,
Ürəyimi yaralıyıb deşəndə,
Zalım əcəl yatağımı eşəndə,
Əzrayılın üzün gördüm, Tağayım,
Başım üstə özün gördüm, Tağayım.

Qazı baba kənddən küsüb gedəndə,
Təpə üstə dam salıb yurd edəndə,
Qocalığı, rəhmətliyi güdəndə,
Onda bildim dünya fani, Tağayım,
Hər can üstə ömür ani, Tağayım.

Qarıların yayma-lavaş yayardı,
Qoşalayıb sonra cüt-cüt sayardı,
Kənddə hərə bir ayama qoyardı,
Ağızlara yaraşardı, Tağayım,
Dildən-dilə dolaşardı, Tağayım.

Dəliqanlı cavanların dəlliyi,
Qocaların çalmaları, belliyi,
Toyda, yasda adamların elliyi,
Ev də evə həyan idi, Tağayım,
Bir-birini sayan idi, Tağayım.

Sərincimiz südlə dolub-daşanda,
Ala inək çöl eşqiylə coşanda,
Süd ocağda qazanlardan aşanda,
Anam bizə söylənərdi, Tağayım,
Sonra gülüb əylənərdi, Tağayım.

Bəzənəndə toyxanalar əl-əlvan,
Nüsü dayı olardı cəld, pəhləvan,
Güləşərdi güləşçitək çox rəvan,
Zillənərdi zurna səsi, Tağayım,
Zurnaçının xoş nəfəsi, Tağayım.

Gəlin köçən qızların naz satardı,
Başlarına al örtüklər atardı,
Qayınata belə kəmər çatardı,
Gəlin üzün gizlədərdi, Tağayım,
Bəy evini gözlədərdi, Tağayım...

Novruzgülü torpaq altdan çıxanda,
Buludların bahar gözün sıxanda,
Uşaq ikən mən də dolub baxanda,
Alışardım yellər ilə, Tağayım,
Xoş, müqəddəs illər ilə, Tağayım.

Bayram gəldi elin pilov asmağı,
Torba atıb qapıları pusmağı,
Çərşənbədə damdan qulaq asmağı,
Sancılıb qan yaddaşıma, Tağayım,
Dönüb ürək sirdaşıma, Tağayım.

Aman Allah, elim, obam qanımda,
Ocağımın odu hələ canımda,
Kəndin özü röyalarda yanımda,
Qoynunu aç övladına, Tağayım,
Sal məni də bir yadına, Tağayım.

24-25.03.1998/ Neft Daşları

İKİNCİ HİSSƏ

Salırsansa əgər məni yadına,
Yaddaşını əylə, gətir dadına,
Baş əyirəm pak, müqəddəs adına,
Yansın hər an ocaqların, Tağayım,
Görməyəsən qəm dağların, Tağayım.

Həyəcanla qorxulara gəlmişəm,
Şirin-şəkər yuxulara gəlmişəm,
Ətir saçan qoxulara gəlmişəm,
İlhamıma aç yuvanı, Tağayım,
Ciyərimə səp havanı, Tağayım.

Təb xalısın çalarlara tutmuşam,
Yaddaşımda boyaların qatmışam,
Xatiratı can mülkünə çatmışam,
Çıxmışam söz pişvazına, Tağayım,
Qələmimin döz nazına, Tağayım.

Keçmişini birər-birər izlərəm,
Zəmanənin yoxuşların düzlərəm,
Astarına üz tutaram, üzlərəm,
Vaxt atının könlün allam, Tağayım,
Ötənlərə nəzər sallam, Tağayım.

Bəy adımız tarixlərə köçdülər,
Gədə-güdə qanımızı içdilər,
Varımızın çəkisini ölçdülər,
Sən bunlara şahid oldun, Tağayım,
Hamı üçün vahid oldun, Tağayım.

Kərim bəyin iki oğlu var idi,
Hacıağa, Ağabala car idi,
Ad-sanları el-obaya yar idi,
Bu şöhrəti sən də gördün, Tağayım,
Sərvətinin barın dərdin, Tağayım.

Hacıağa bəyliyin bar-bəhəri,
Yar-yoldaşı Qubanın can gövhəri,
Qonaqlıqda içirtdilər zəhəri,
Öldürdülər bəy kişini, Tağayım,
Vay etdilər gərdişini, Tağayım.

Bəy xanımı qızlarını götürdü,
Özlərini Quba xana yetirdi,
İzlərini düşmənləri itirdi,
Özün gördün bu ağrını, Tağayım,
Sən bilirsən lap doğrunu, Tağayım.

Ağabala oğlu Məmməd babamdı,
Ondan qalan bizə palçıq, gil damdı,
Dünya özü ağı dolu bir camdı,
Şirini az, zəhəri çox, Tağayım.
Kim deyər ki, heç dərdim yox, Tağayım?!

Ata babam bu dərdlərlə göyərdi,
Pıçıltıyla bəy adını öyərdi,
Dönə-dönə baisləri söyərdi,
Keçmişiylə çağlayardı, Tağayım,
Bəxtin haqqa bağlayardı, Tağayım.

Mən babamın heç üzünü görmədim,
Nəvələrə can sözünü görmədim,
Adı qaldı, bir özünü görmədim,
Zindanlara düşdü canı, Tağayım,
Əzablardan dondu qanı, Tağayım.

Yaddaşının tarixini əylədi,
Atam mənə yana-yana söylədi,
Zalım zaman bu adları neylədi?
Çox susmusan bu sorğuma, Tağayım,
Olan olub, sən ağrıma, Tağayım.

Əzizlərim bu dünyadan köçdülər,
Əzrayılın zəhər suyun içdilər,
Əbədilik o dünyanı seçdilər,
Sən də buna durub baxdın, Tağayım,
Ürəyimi yaman yaxdın, Tağayım.

Xiffətlərdən bağırları yarıldı,
Bəy babamın uşaqları qırıldı,
Bədənləri məzarlara sarıldı,
Bu dərdləri sən də bildin, Tağayım,
Gözlərinin yaşın sildin, Tağayım.

Keçmişinə gedib çıxan köküm var,
Bu ölçüdə dağdan ağır çəkim var,
Tarix kimi məlhəm edən həkim var,
Bu həkimin sözü dərman, Tağayım,
Gec-tez haqqa verir fərman, Tağayım.

Qocaların ölüb getdi qalmadı,
Heç birisi bu günlərə qalmadı,
Heç onlardan dilim soraq almadı,
Keçmişləri birər-birər, Tağayım,
Unutqanlıq haqqı gərər, Tağayım.

On səkkizdə Vətən zəfər çalanda,
İstiqlalı al qanıyla alanda,
Pak, üç rəngli bayrağımız olanda,
Bəyli, xanlı bayram etdin, Tağayım,
İyirmüç ay kama yetdin, Tağayım.

Sonra gəldi, bolşevikin havası,
Ermənin müsəlmanla davası,
Dağıdıldı el-obanın yuvası,
Qana döndü çöllərimiz, Tağayım,
Qara geydi ellərimiz, Tağayım.

Ruslar gəlib, qanımıza susanda,
Ermənilər yurdumuzu basanda.
Dağda, düzdə kolu-kosu pusanda,
Yağı qəlbdə yara açdı, Tağayım,
Arvad, uşaq kənddən qaçdı, Tağayım.

Nənəm çaşıb körpəsini atıbmış,
Özün kənddən qaçanlara qatıbmış,
Məmləkətin qara bəxti yatıbmış,
Qarı belə danışardı, Tağayım,
Sonra halı qarışardı, Tağayım.

Xanımana nənəm türkü öyərdi,
Ermənin adı gəldi, söyərdi,
Qaşlarını düyünləyib əyərdi,
Balasını haylayardı, Tağayım,
Yağıları vaylayardı, Tağayım.

Qocaların keçmişlərə varardı,
Kərim, Qasım, Sücəddin bəy arardı,
Deyərdilər, başda bəylər durardı,
Böyük-kiçik bilinərdi, Tağayım,
Yaşlı gözlər silinərdi, Tağayım.

Kərim bəyin ocağının oduyam,
Harda olsam elə onun adıyam,
Torpağının mən də ağız dadıyam,
Ucalaram şərəfinlə, Tağayım,
Öc alaram sələfinlə, Tağayım.

Sonuncu bəy – Hüseynalı əmimiz,
Bəylik getdi, soldu tale zəmimiz,
Gədələrə qaldı büsat gəmimiz,
Ev-eşiyi taladılar, Tağayım,
Qazanları yaladılar, Tağayım.

Səfurən də bəy ərinə ağlardı,
Xanımlığın yada salıb çağlardı,
Hüseynağa ürəyini dağlardı,
Yas tutardı balasına, Tağayım,
Ocağının qalasına, Tağayım.

Hüseynalı körpüsündən keçəndə,
Keçib kəndin evlərini seçəndə,
Yol uzunu gül-çiçəkdən biçəndə,
Oxşayardın üz-gözümü Tağayım,
Qəlbə məlhəm od-közümü Tağayım.

Seyid Camal ağanın pak məzarı,
Nəzir etsən aparardı azarı,
Azalardı sinələrin ah-zarı,
Qəbir evi nurla dolsun, Tağayım,
Ruhu yurda məlhəm olsun, Tağayım.

Hər Gülsurə bibi kəndə gələndə,
Anasıyla dərdlərini bölləndə,
Zemfirası, cavan qızı ölləndə,
Dərd bürüdü ürəyini, Tağayım,
Yıxdı könül dirəyini, Tağayım.

Hacıağa əmimin bəy görnüşü,
El içində ağayana yerişi,
Bu fələyin zalımanə gərdişi,
Etdi onu oğul dağlı, Tağayım,
Heç qalmasın qapı bağlı, Tağayım.

O rəhmətlik əmim məni aparmış,
Körpəlikdə xəstəlikdən qoparmış,
Gəlməsəydi, təni məzar taparmış,
Kəsdiribmiş yanımı da, Tağayım,
Xilas etmiş canımı da, Tağayım.

Deyirlər ki, müharibə başladı,
Başlayanda hər qapını daşladı,
Anaların gözün qanla yaşladı,
Öldü getdi cavanların Tağayım,
Boş qaldı çox ünvanların, Tağayım.

Papaqlılar evlərindən getdilər,
Qan-qadalı cəbhələrə yetdilər,
Arvad-uşaq necə fəğan etdilər?!
Qatı oldu dumanların, Tağayım,
Qanlı gəldi zamanların, Tağayım.

Ata babam Məmmədi də tutdular,
Tutub elə zindanlara atdılar,
Niyə adın xainlərə qatdılar?
Xəstə gəldi, evdə öldü, Tağayım,
Əzrayıl da üzə güldü, Tağayım.

Qarı, qoca hey Hitleri söyürdü,
Qara xəbər hər qapını döyürdü,
Zalım ölüm boy-buxunun öyürdü,
Çox üyütdü mərdlərini, Tağayım,
Çox artırdı dərdlərini, Tağayım.

O vaxt rusun torpağıyçın öldülər,
Tikələrin onlarla tən böldülər,
Evlərinə yüzdən biri gəldilər,
Sitalinçin baş verdilər, Tağayım,
Gözlərindən yaş verdilər, Tağayım.

Anam deyir, aclıq kəsdi amanı,
Elin çıxdı ərşə ahı-amanı,
Bəhram dayı müharibə zamanı,
Neçə aca çörək verib, Tağayım,
Elə ürək-dirək verib, Tağayım.

Kənddə çoxu acından qan qusurdu,
Canavarlar ev-ev qapı pusurdu!
Arvad-uşaq qorxusundan susurdu,
Ot otlardı günlər ilə, Tağayım,
Dərd gələrdi ildən-ilə, Tağayım.

Kənd yoluyla ana, bala gedəndə,
Ac canavar qəfil hücum edəndə,
Sinələrin parçalayıb didəndə,
Bu dərd dildə ağı oldu, Tağayım,
Elin sinə dağı oldu, Tağayım.

Kənd məscidin etdin taxıl anbarı,
Doldu ora neçə illər dən-darı,
Yıxdı bizi İlahinin ah-zarı,
Döydük yasda dizimizə, Tağayım,
Heç gəlmədik özümüzə, Tağayım.

Var əlində İlahinin əsası,
Alır bizdən günbəgündən qisası,
Babı olduq, vallah, sözün qısası,
Açılmadı din qapımız, Tağayım,
Çox qırıldı bəxt sapımız, Tağayım.

Müslüm əmi qızılcayla çarpışdı,
Yandı bədən xəstəlikdən alışdı,
Qızdırmadan gecə halı qarışdı,
Həkim, dərman tapılmadı, Tağayım,
Öldü dərdi çapılmadı, Tağayım.

Meyrənsənin ürəyin qəm bələndə,
Ata nənəm damdan düşüb ələndə,
Atam, əmim yetimliyi biləndə,
Ana deyib haray saldı, Tağayım,
Evlə dolu yetim qaldı, Tağayım!

Tək, köməksiz atam quzu otarmış,
Samanlıqda quzularla yatarmış,
Qurd özünü sürü üstə atarmış,
Canavarı qovlayarmış, Tağayım.
Dəyənəylə hovlayarmış, Tağayım,

Ərsiz qalan gəlinlərin ağladı,
Cavan ikən başa qara bağladı,
Qanlı savaş qapıları bağladı,
İgidləri aldı qaçdı, Tağayım,
Eli dərdə saldı qaçdı, Tağayım.

Cavanların cəbhələrə getdilər,
Gedib orda yoxa çıxıb, itdilər,
Ruhlarıyla obamıza yetdilər –
Dolandılar yuxularda, Tağayım,
Ahın batdı qorxularda, Tağayım.

O illərin qorxusundan çıxmadıq,
Sinəmizdə qorxu hovun yıxmadıq,
Qibləmizə, Tanrımıza baxmadıq,
Sən də güldün ağlımıza, Tağayım,
Tükürpədən nağlımıza, Tağayım.

İndi Şuşa ermənin əsiri,
Qurub yağı Qarabağda qəsiri,
Özün söylə, ey ocağım, bu sirri?
El yolunda hanı ölən, Tağayım?
Fəğanına varmı gələn, Tağayım?

Kəndimizin qutab, küftə-bozbaşı,
Qazanların bəzəyiydi dəm aşı,
Süfrələrin sayılardı lap başı,
Zəfəranın ətirliydi, Tağayım,
Qonaqların xətirliydi, Tağayım.

Yaymaların üstə bıçaq çəkərdik,
Kəsdiyimiz yerlərə ət tökərdik,
Düşbərəni xırda-xırda bükərdik,
Su qazanda qaynayardı, Tağayım,
Düşbərələr oynayardı, Tağayım.

Şorqoğalı, şəkərbura, paxlava,
Səmənidən hazırlanan bərk halva,
Dişimizlə eləyərdi cəng, dava,
Ovcumuzda sıxılardı, Tağayım,
Əlimizə yaxılardı, Tağayım.

Anam tabaq içrə xəmir salardı,
Çırpı yığıb, təndirdə od qalardı,
Suyu səpib, odun közün alardı,
Kündələri tez yapardı, Tağayım,
Üz-gözünü od qapardı, Tağayım.

Yayılardı təndirin xoş ətiri,
Anaciyim xoş tutardı xətiri,
Yana-yana hər yazdıqca sətiri,
Ürək elə alovlanır, Tağayım,
Atəş düşür, od qovlanır, Tağayım.

Kəndə köhnə qəbirsanlıq yar idi,
Albanların xaç məzarı var idi,
Hər qəbirin daşı bir ah-zar idi,
İtib-batdı keçmişimiz, Tağayım,
Belə oldu hər işimiz, Tağayım.

Əncir, üzüm bağları səf durardı,
Hərə orda özünə ev qurardı,
Doşabları küpələrə vurardı,
Mürəbbəsi, irçalı bol, Tağayım,
Oradan da dənizə yol, Tağayım.

Sövet gəldi, hamısını yıxdılar,
Bu bağların axırına çıxdılar,
Öz elində xalqa qultək baxdılar,
Çox dağıldı xanimanlar, Tağayım,
Qayıtmaz ki, keçən anlar, Tağayım?

Kənddən qıraq şimalda bir səd vardı,
Səddin burnun dəniz suyu ovardı,
Quzuları səddə külək qovardı,
Biz də qorxub hürküşərdik, Tağayım,
Çöldə, düzdə bərkişərdik, Tağayım.

Gilgilçayı dəli-dolu axardı,
Yaz zamanı bərəsini yıxardı,
Şahə qalxıb məcrasından çıxardı,
Uçurdardı çal-çəpəri, Tağayım,
Çay da elə şıltaq pəri, Tağayım.

Sel gələndə döndü nağıl divinə,
Qaçdıq-getdik Gəncalının evinə,
Yazdım bunu xatirələr sevinə,
Çay canlarla güləşirdi, Tağayım,
Uşaq-böyük əlləşirdi, Tağayım.

Kənd yerində Tuğay kəndi olubmuş,
Hansı rüzgar tellərini yolubmuş?
Bəlkə yağı, bəlkə rüzgar dolubmuş,
Adı qalıb, özü yoxdu, Tağayım,
Ocağı yox, közü yoxdu, Tağayım.

Kol dibində bənövşələr açardı,
Çöllərində dovşanların qaçardı,
Səmalarda şahinlərin uçardı,
Buludların axışardı, Tağayım,
Bir-biriylə baxışardı, Tağayım.

O şıdırğı yağışların yağardı,
Gecələrə pərvanə Ay doğardı,
Zülmətinin boğazından boğardı,
Ulduzların gözləşərdi, Tağayım,
Öz dilində sözləşərdi, Tağayım.

Çəmin içi lil sularla dolardı,
Camışların özün orda bulardı,
Axşam çağı hamı çaş-baş qalardı,
Qamışlığa hay düşərdi, Tağayım,
Camışlara vay düşərdi, Tağayım.

Məzarların çox üst-üstə qazıldı,
Hər məzara bir baş daşı yazıldı,
Tarixinin yol-ırızı azıldı,
Ölənlərin unuduldu, Tağayım,
Hər ölənçin qəm uduldu, Tağayım.

Qarıların xəşil-quymaq çalardı,
Səmənini döyüb halva salardı,
Xır-xingalı, əriştəsi qalardı –
Gündən-günə, aydan-aya, Tağayım,
Xörəklərin gəlməz saya, Tağayım.

Rəfimizə çini kasa düzərdik,
Bir otağı qonaq üçün bəzərdik,
Dam-daşında səliqəlik gəzərdik,
Həyət-baca kürünərdi, Tağayım,
Hər şey təzə görünərdi, Tağayım.

Nov daşında üzümləri əzərdik,
Sonra onu tavalara süzərdik,
Od üstündə irçallarla közərdik,
Mürəbbələr qaldı qışa, Tağayım,
Küpələrdən daşa-daşa, Tağayım.

İnək doğdu anam ağuz sağardı,
Qazanları ocaq üstə yığardı,
Kələkəsi hər kasaya sığardı,
Pendir təki kəsilərdi, Tağayım,
Kim yeməsə küsülərdi, Tağayım.

Zülmət qaçıb səhər nəfəs dərəndə,
Anam südü ləyənlərə sərəndə,
Günəş qalxıb pəncərəni gərəndə,
İşə-gücə qaçışardıq, Tağayım,
Arı təki uçuşardıq, Tağayım.

Geyinərdik al-qırmızı donları,
İsidərdi bu təzəlik canları,
Yaddaşımda iz qoyan xoş anları,
Heç unuda bilməyirəm, Tağayım,
O zamantək gülməyirəm, Tağayım.

Qonum-qonşu evimizə gələrdi,
Dərdlərini anam ilə bölərdi,
Bir-biriylə pıçıldaşıb gülərdi,
Boy-buxunlu gözəllərin, Tağayım,
Harda qaldı o illərin, Tağayım?

Xalidənin gənc qız ikən ölməsi,
Əzrayılın belə vaxtsız gəlməsi,
Anasının, oy balam, vay kəlməsi!
Tük ürpətdi başımızda, Tağayım,
Sel oldu göz yaşımızda, Tağayım.

Yay gələndə Xəzərə üz tutardıq,
Özümüzü gur sulara atardıq,
İsti qumlar üstündəcə yatardıq,
Heç nə çatmaz ötənlərə, Tağayım,
Xəyalımda bitənlərə, Tağayım.

Şən-sevdalı günlərimiz ötüşdü,
Çox yaralar ürəklərdə bitişdi,
Keçən ömrün qocalığı yetişdi,
Qəbirlərin gülzarlandı, Tağayım,
Ahılların məzarlandı, Tağayım.

Zinyət xalam uca boylu bir xanım,
Bağlı idi tək qızıyla xoş anım,
O Balaca xanımı qəlb mehmanım,
Əlim yetmir çoxdan ona, Tağayım,
Əhvalıma gəlib yana, Tağayım.

Xanımbacı bibimi qəm yoxladı,
Oğul dərdi ürəyini oxladı,
Gözün yumdu, əbədilik yuxladı,
Rəhmətliyi dərd apardı, Tağayım,
Bu dünyadan tez qopardı, Tağayım.

Atam heç vaxt keçirməzdi namazı,
Divarları dolaşardı avazı,
Ürəklərə yayılardı nəvası,
Diləyərdi cana sağlıq, Tağayım,
Örnək idi dinə bağlıq, Tağayım.

Narınc xala çərəkəni alardı,
Avazıyla məclisə səs salardı,
Hüzrə gələn qadınların dolardı,
Bir səs ilə ağlaşardı, Tağayım,
Ruhlar ilə bağlaşardı, Tağayım.

Gecə sıxıb köynəyini sərərdi,
Ulduzları göydən bir-bir dərərdi,
Ay zülmətin qollarını gərərdi,
Baş balışa atılardı, Tağayım,
Səhərədək yatılardı, Tağayım.

Nehrəmizə anam qatıq tökərdi,
Ağzın bərk-bərk sələ ilə bükərdi,
Çalxalayıb yağın üzə çəkərdi,
Yırğalayıb oldurardı, Tağayım,
Yağ bardağın doldurardı, Tağayım.

Quzuları qoyunlardan alanda,
Haraylayıb küzülərə salanda,
Qarıların süddən qatıq çalanda,
Bıçaq vursan kəsilməzdi, Tağayım,
Heç üstündə əsilməzdi, Tağayım.

Deyirlər ki, quleybanı gələrdi,
Qap-bacanı döyüb üzə gülərdi,
Qız-gəlinlər qorxusundan ölərdi,
Tükürpədən nağılları, Tağayım,
Ram edərdi ağılları, Tağayım.

Oğlanların çilingağac oynardı,
Nərlər kimi qaçışardı, qaynardı,
Anaların başı işdən aynardı,
Balaların səsləyərdi, Tağayım,
Ürəkdə eşq bəsləyərdi, Tağayım.

Gəncliyimiz ötdü, keçdi neylədik?
Sevdamıza canı qurban eylədik,
Bir-birinə can deyib, can söylədik,
Yaman ötdü illərimiz, Tağayım,
Yetişmədi dillərimiz, Tağayım.

Keçmişlərə ağı deyən neyimsən,
Ürəyimdə taqətimsən, heyimsən,
Xəyalları sərxoş edən meyimsən,
Qoy dolanım mən başına, Tağayım,
Qurban olum dam-daşına, Tağayım.

Anam sacı ocaq üstə qoyardı,
Kündələri əl içində oyardı,
Lavaşının iyin ərşə yayardı,
Unutmaram ocağını, Tağayım,
Könlə məlhəm qucağını, Tağayım.

Bişən zaman isti təndir çörəyi,
Ətri ilə məst edərdi ürəyi,
Qızarardı qadınların biləyi,
Yanaqları al olardı, Tağayım,
Bişən çörək bal olardı, Tağayım.

Təndir üstü qarılarla dolardı,
Bir-birinə sözlə həyan olardı,
Çörəklərin ətri günlə qalardı,
Nemət idi qarnımıza, Tağayım.
İy dolardı burnumuza, Tağayım,

Sübh gözünü açar-açmaz durardıq,
Səsimizi başımıza vurardıq,
Hörükləri ufa-ufla darardıq,
Tez məktəbə yollanardıq, Tağayım,
Gündəliklə qollanardıq, Tağayım.

Ətirənin, Rəhilənin gülüşü,
Həlimənin, Şükufənin yerişi,
Elmiranın möcüzəydi hər işi,
Nəğiməydi can sirdaşım, Tağayım,
İndi kimlə pıçıldaşım, Tağayım?

Qocaların onda hələ sağ idi,
Məktəbimiz bizə pak ocaq idi,
Hamımızın kef-damağı çağ idi,
Uşaqlığım şirin-şəkər, Tağayım,
Yuxulara məni çəkər, Tağayım.

Sinifmizin vardı bircə Şakiri,
Oxumağa həvəsliydi fikiri,
Dalaşanda heç yox idi məkiri,
Biliyi də yeddi qatdan, Tağayım,
Niyə çıxmır heçnə yaddan, Tağayım?

Atam axşam gündəliyi açardı,
Beş görəndə sevincindən uçardı,
Dilimizdə kitablar od saçardı,
Elmimizi daşdırardı, Tağayım,
Zirvələri aşdırardı, Tağayım.

Kitabxana uşaqlarla dolardı,
Kitab üstə mərəkələr salardı,
Bir-birinin yenə könlün alardı,
Yamanlığı üşüdərdik, Tağayım,
Can deyib, can eşidərdik, Tağayım.

Bir səadət oxum dəydi daşlara...
Gözüm batdı ahlar boğan yaşlara,
Qar ələnir saça, telə, qaşlara,
Uşaqlığı məndə gəzmə, Tağayım,
Qonaq olsam könlü üzmə, Tağayım.

Əqrəb qaçır suya həsrət sel kimi,
Saatlarım ayrılırlar yel kimi,
Nə var söylə, cana şirin el kimi?
Ürəyimi saldın közə, Tağayım,
Çox açmısan qoynu bizə, Tağayım.

Ayazının şaxtasında donmuşam,
Qış gələndə yay-yazını anmışam,
Sevgilitək mən oduna yanmışam,
İstəyimi gətir yada, Tağayım,
Çox alışır düşən oda, Tağayım.

Məhəbbətin ürəyimdə daşırdı,
Dəli təki dağdan, daşdan aşırdı,
Qövr eləyən yaramı dərd qaşırdı,
Eyləmədin buna çarə, Tağayım,
Sağalmayır demə yarə, Tağayım.

Uzaq düşmüş xatirələr uyudu,
Kirin-kirin yaman məndən soyudu,
Xulyaların nə dərin bir quyudu?
Düşüb qalıb zamanlarım, Tağayım,
Pozulubdu səhmanlarım, Tağayım.

Bədnəzərin yaman gördüm üzünü,
Camışımız vurdu yerə özünü,
Onda bildim kəsərdə el sözünü,
Ahı çıxdı yerə-göyə, Tağayım,
Fəryadını boğdu pəyə, Tağayım.

Yamanların, nisgillərin ağladı,
Ürəyimdə köç salıb, söz bağladı,
Közün atıb bağrım-başın dağladı,
Ötənləri harayladı, Tağayım,
Misra-misra sarayladı, Tağayım.

Seyidriza, qərib Məmməd İrandan,
Ayrılıq da dilə düşür sorandan,
Çalışdılar işdə ala-torandan,
Üzlərinin niskilləri, Tağayım,
Açılmadı müşkülləri, Tağayım.

Cənub dərdi qəlblərini oxladı,
Ayrılıqlar ürəklərin qoxladı,
Gözlərində həsrətləri yuxladı,
Vətən eşqi olmur talan, Tağayım,
Kimdir onu qəlbdən alan, Tağayım?!

Cahan nənə tez-tez bizə keçərdi,
Anam onla dərdləşib çay içərdi,
Zalım ölüm cana yovuq nə çərdi?
Aldı-qaçdı qocaları, Tağayım,
Qaldı tüstü bacaları, Tağayım.

Səfurəylə Banu uşaq tutardı,
Doğulanla bir somyədə yatardı,
Ursu nənə tez haraya çatardı.
Əsəbləri darılardı, Tağayım,
Nəvələrlə sorulardı, Tağayım.

Fərrux nənə sakit-səssiz gəzərdi,
Qonşuluqda bizi eşqlə süzərdi,
Laylasına şirin-şəkər düzərdi,
Nəvələrin oxşayardı, Tağayım,
Söz özü də baxşa yardı, Tağayım.

Aynisənin kəndə qonaq gəlməsi,
Yun corabda rəngli naxış ilməsi,
Hər milinin öz dilini bilməsi,
Cəhrəsiylə oxunardı, Tağayım,
Barmaqlarla toxunardı, Tağayım.

Mirfeyzulla-Seyidkübra ocağı,
Zəlil Bahar o evdən bir qəm dağı,
Nəzir edən tez tapardı xoş çağı,
Peyğəmbərin nəsilidi, Tağayım,
Müqəddəslər əsilidi, Tağayım.

Səriyyənin, Gülzadanın zəhməti,
Üzlərində mehribanlıq neməti,
Atamızın xalalara hörməti,
Dodağında səslənərdi, Tağayım,
Qəm sozalıb, süslənərdi, Tağayım.

Rübabənin o oğulsuz harayı,
Tək dam altda uğuldayan ah-vayı,
Qurtarmırdı dərdlərinin heç sayı,
Qəmi ərşi qarsıyırdı, Tağayım,
Qəm özü də yansıyırdı, Tağayım.

Həmayılın haray-həşir salması,
Gur səsiylə yaddaşımda qalması,
Örtüyünü düngə vurub çalması,
O, anama əmiqızı, Tağayım,
Söndü getdi bəxt ulduzu, Tağayım.

Əlkiramın qəfil gələn qəm yası,
Yetim qaldı arvadı, üç balası,
Bibim oğlu Paşa oğul qalası,
Tahirənin yaşın gördüm, Tağayım,
Dərdə düşmüş başın gördüm, Tağayım.

Cabir dayım heyvanları döyərdi,
Cəbirliyi xatirimə dəyərdi,
Əsəbləşib it-pişiyi söyərdi,
Mən də ondan yan qaçardım, Tağayım,
Ürəyimə dərd açardım, Tağayım.

Rıza əmi atamın qan qohumu,
Dava etdi ərşə atdı ahımı,
Dodağımda qopartdı gah-gahımı,
Atam ilə yollaşmadı, Tağayım,
Doğma təki ballaşmadı, Tağayım.

Abdullanın çox davada olması,
Almanyada əsir düşüb qalması,
Mehrin bizim kəndimizə salması,
O, almanla rusu söydü, Tağayım,
Ömrü boyu haqqı öydü, Tağayım.

Qaraçöpü yığıb şələ bağlardıq,
Çətin işin sinəsini dağlardıq,
İlan gördük qorxub, hürküb ağlardıq,
Şələ çiyni ağrıdardı, Tağayım,
Ahımızı bağırdardı, Tağayım.

Qaçıb çaya tor torbalar atardıq,
Xırda çapaq balıqları tutardıq,
Quru biyan yığıb ocaq çatardıq,
İsidərdik əlimizi, Tağayım,
His tutardı telimizi, Tağayım.

Sünbülləri kombayınlar biçərdi,
Biçinçilər ayran, qatıq içərdi,
Xəzər üstən günəş dağa keçərdi,
Qız-oğlanlı toplanardıq, Tağayım,
Əkin boyu saplanardıq, Tağayım.

Kəndçilərin bərəkətlə yaşardı,
Zəmilərin dənlə aşıb-daşardı,
Sünbüllərin boyumuzdan aşardı,
Hürkə-hürkə dən yığardıq, Tağayım,
Bir-biriylə tən yığardıq, Tağayım.

Kolanılı Məmmədbağır at üstə,
Qırmancını haylayardı ahəstə,
Qarovulçu peşəsinə lap xəstə,
Bizi atla qovlayardı, Tağayım,
Dilə tutub tovlayardı, Tağayım.

Kisəmizdə başşağılar daşardı,
Doldurduqca kisələrdən aşardı,
Gözətçinin səsi qızıb coşardı,
Üstümüzə kükrəyərdi, Tağayım,
Kisə beli lap əyərdi, Tağayım.

Şığıyaraq üstümüzü alardı,
Qovub atla kisəmizi çalardı,
Zəhmətimiz gözətçiyə qalardı,
Ot içinə bükülərdik, Tağayım,
Ağlaşaraq əkilərdik, Tağayım.

Uşaqlıq da tezcə gəlib ötüşdü,
Biz böyüdük, gənclik çağı yetişdi,
Bəxtimizə üzümlükdə iş düşdü,
Tale yolum ordan keçdi, Tağayım,
Karvan-karvan ömür köçdü, Tağayım.

Bağlarında meynələrin bol idi,
Qız-gəlinin taleyinə yol idi,
Ağır beldən sızıldayan qol idi,
Zəhmətlərə bürünürdük, Tağayım,
İlan təki sürünürdük, Tağayım.

Məmmədbağır Səliməni yanladı,
Bizim sıra dala qalıb anladı,
Üzün tutub bəy adımı danladı,
Əyilmirsən dedi mənə, Tağayım,
Bu təpkilər nəydi mənə, Tağayım?

Bəy adını başımıza qaxdılar,
Hər addımda bizə qara yaxdılar,
Adımıza eldə ögey baxdılar,
Bu ağrını bizlə çəkdin, Tağayım,
Ocaq yaxan közlə çəkdin, Tağayım.

Qadınların əli suluq atardı,
İşdən sonra belə şələ çatardı,
Qız-gəlinlər şələ altda yatardı,
Bu əzabın özün gördüm, Tağayım,
Hər naqisin üzün gördüm, Tağayım.

Cərgə-cərgə qızlar kətmən vurardı,
Kim yoruldu, nəfəs alıb durardı,
Məmmədbağır o saat vay qurardı,
Şırım açdı bağırımda, Tağayım,
Bunu daddım ağırımda, Tağayım.

Gəlinlərin dözmüb bala salması,
Qəzəblənib bu zülümdən dolması,
Üzlərində gözəlliyin solması,
Ağarardı tellərində, Tağayım,
Əzablıydı illərin də, Tağayım.

Həlmə xala un daşını salardı,
Buğda töküb ondan yarma alardı,
Daşın səsi aləmə səs salardı,
Sıyığından ətir qalıb, Tağayım,
Ürəyimdə xətir qalıb, Tağayım.

İmamilin ağıryana olması,
Xanım kimi xətirləri alması,
Banu ilə birgə günü qalması,
Düşdü elə ağızlara, Tağayım,
Mən də saldım kağızlara, Tağayım.

Qab-qacağı bulaq üstə yuyardıq,
Bir-birini pıçhapıçla duyardıq,
Anamızın gözün yolda qoyardıq,
Uşaqlığa qarışardın, Tağayım,
Könlümüzə sarışardın, Tağayım.

İsmayılın su maşını gələrdi,
Arvadların bəxti üzə gülərdi,
Su üstündə əsəblər də mələrdi,
Vedrələri tez qapardıq, Tağayım,
Uzun yolu su apardıq, Tağayım.

Ağrın keçib ürəyimdən aşardı,
Yaddaşımda xatirələr yaşardı,
Uşaq ikən şadlıqlarım daşardı,
Boy verərdi başım üstən, Tağayım,
Oxşayardın məni pəstdən, Tağayım.

Yay öz köçün gün üstünə çatardı,
El-camaat dam üstündə yatardı,
Gecə oldu yastığa baş atardı,
Xəzər yaman guruldardı, Tağayım,
Fırtınanı gur udardı, Tağayım.

Yağış oldu palçıq damlar damardı,
İşin qoyub hamı dama cumardı,
Ayaq altda çatlar damar-damardı,
İş-gücümüz ötüşməzdi, Tağayım,
Dincliyimiz yetişməzdi, Tağayım.

Axşam anam lampa üstə əsərdi,
Lampamızın piltəsini kəsərdi,
Əl vursaydıq yaman bizdən küsərdi,
İşığımız korlaşardı, Tağayım,
Göz tutulub, kor aşardı, Tağayım.

Dəryazlarla ot biçilib dolardı,
Adamların yabaları olardı,
Həyətlərdə tayaları salardı,
Zəhmət üzdə qırışardı, Tağayım,
İşlər yazda qarışardı, Tağayım.

Zaman ötdü, uşaqların yekəldi,
Sinələrdən min bir qayğı dikəldi,
Gəncliyimiz qapı açdı, tez gəldi,
Saldı bizi cığırlara, Tağayım,
Tale gülməz fağırlara, Tağayım.

Obaşdannan xoruz banı başlardı,
Yatanların qulaqların daşlardı,
Səhər şehi bağ-bağatı yaşlardı,
Qaranlığın içi şərdi, Tağayım,
Sübhümüzə gün düşərdi, Tağayım.

Nöhəddin də al şərabdan içərdi,
Lenini çox söyüb səddi keçərdi,
O da, bir gün bu dünyadan köçərdi,
Sən ki, buna şahid oldun, Tağayım,
Ölənlərə saç da yoldun, Tağayım!...

Zaman elə uçub-gedən quş oldu,
Hər ömürün payızında qış oldu,
Cavan canım qürbətlərə tuş oldu,
Burnumuzun ucu göynər, Tağayım,
Səndən ayrı düşən neynər, Tağayım?

Gəldi, getdi uşağlığın havası,
Sızıltıtək qaldı qəlbdə davası,
Candan çıxmaz heç bir kəsin yuvası,
İyi gələr yellər ilə, Tağayım,
Könlümdəsən illər ilə, Tağayım.

Ev-eşikli oldu bacı-qardaşım,
Dərdlərinə girdi, çapdı çox başım,
Qələm oldu ömürlə can yoldaşım,
Belə yazdı qədər mənə, Tağayım,
Agah etdim bunu sənə, Tağayım.

Ata evdə çox qızların qarıdı,
Ər evində bəxti olan yarıdı,
Ömürmüz də Rəbb əlində darıdı,
Səpdi, biçdi, hissə-hissə, Tağayım,
Tuş olmasın heç kim pisə, Tağayım.

Cavanların vaxt yetəndə toy etdi,
Səadətlə elə, yurda hay etdi,
Sinələrdə sevincləri çay etdi!,
Özün gördün nəş'ələrin, Tağayım,
Canda şadlıq guşələrin, Tağayım!...

İzlərində, cığırında itmədim,
Könlə düşməz haya-hoya getmədim,
Mən bülbüləm, qazlar təki ötmədim,
Sən bilirsən vüqarımı, Tağayım,
Soya olan ilqarımı, Tağayım.

Əzizlərim döndü oldu yad mənə,
Hey verdilər kədər dolu dad mənə,
Bu ömrümü etdilər heç zad mənə,
Hıçqırtılar qəlbdə yatdı, Tağayım,
Yaxşı-yaman, bu həyatdı, Tağayım.

Bir kimsəni təbimtək yar bilmədim,
Ömür ötdü, vaxtını dar bilmədim,
Qələmimi kağıza bar bilmədim,
Misralarım aman etdi, Tağayım,
Bu amanı yaman etdi, Tağayım.

Qönçə-qönçə güllərində ətir var,
İstək olsa, sevgi dolu xətir var,
Şeirlərdə hicran dolu sətir var,
Sən də doğdun xətirlərdən, Tağayım,
Boylanırsan sətirlərdən, Tağayım.

Xıdırzində uca dağlar başında,
Yuyunardı buludun göz yaşında,
Qarıların nəziri dam-daşında,
Boylanardı kəndə sarı, Tağayım,
Yox edərdi ahı-zarı, Tağayım.

Kənd yerinin adı Tuğay deyildi,
Gözüm açdım Tuğay-Tağay deyildi,
Qocaların dillərində öyüldü,
Adı qalıb, özü hanı, Tağayım?
Kim dağıdıb bu ünvanı, Tağayım?

Xatirimdə acılarım vay kimi,
Tuşlanıbdı ürəyimə yay kimi,
Yerdən qopub göyə dəyir hay kimi!
Bu hayımı sən də oxu, Tağayım,
Sinəni çək, dəyər oxu, Tağayım!

Sənlə olan günlərim bir yuxudu,
Bu yuxunu tale mənə oxudu,
Burunumda qalan şirin qoxudu,
Xoş qoxudan boylanırsan, Tağayım,
Başım üstə haylanırsan, Tağayım.

İndi mənə daha izzət vermirsən,
Keçənlərtək artıq ləzət vermirsən,
Peymanıma bir yolluq qət vermirsən,
Damağımda qaldı dadın, Tağayım,
Ürəyimdən çıxmır odun, Tağayım.

Gəlin gəldi, ata evim yadlaşdı,
Ötən günlər ağzımızda dadlaşdı,
Ürəyimdə bu ağrılar odlaşdı,
Yad qızının varmış üzü, Tağayım,
Qaçaq saldı evdən bizi, Tağayım.

Günlər zəhər tökür qeylü-qalıma,
Mən yanıram, sən də bir yan halıma,
Qoca anam gözün dikib yoluma...
Bu sinəmdən dur gəl qopar, Tağayım,
Ürəyimi ora apar, Tağayım.

Səsimizi, səmrımizi itirdik,
Çol-çocuğa əmrimizi itirdik,
Sevda dolu ömrümüzü itirdik,
Nə tez ötdü hünər çağı, Tağayım?
Ötən günlər oldu ağı, Tağayım.

Yaz ayının çiçəkləri açdılar,
Ətirləri burnumuzda saçdılar,
Yay gəlməmiş bağ-bağçadan qaçdılar,
Bihuş etdi məni halın, Tağayım,
Bu olaydı qeylü-qalın, Tağayım.

Yaxşılığı ağlatdılar qul kimi,
Etibarı xərclədilər pul kimi,
Rəbb hər ömrü ötüb keçdi yol kimi,
Bizdən qaldı yaxşı-yaman, Tağayım,
Hər kəsə də gülmür iman, Tağayım.

Ağabala – pak atamın vəfatı,
Yetimliklə qəmə batan həyatı,
Yaman çapdı Əzrayılın bəd atı,
Aldı qaçdı əzizimi, Tağayım,
Necə bükdü dərd dizimi, Tağayım?!

Atam getdi, şanım getdi əlimdən,
Xoş növraqlı anım getdi əlimdən,
Elə bil ki, canım getdi əlimdən,
Sən ahımın özün gördün, Tağayım,
Ürəyimin közün gördün, Tağayım.

Fələk dərdin heç birisin çözmədi,
Əzabları ürəyimdən üzmədi,
Mənim kimi ata deyib gəzmədi...
Atamlaydı dadın-duzun, Tağayım,
Dərdin ağır, dərdin uzun, Tağayım!

Məşədxanım ata evə gələrdi,
Əzizlərlə hey şadlanıb gülərdi,
Kim deyərdi o da vaxtsız ölərdi...
O atama xalaqızı, Tağayım,
Tez qırıldı könül sazı Tağayım.

Əmim qızı Hüsniyyənin ölümü,
Məyus etdi qara xəbər elimi,
Çox yandırdı ağı deyən dilimi,
Bəy əmimin xanım qızı, Tağayım,
Nə dəhşətli oldu yazı, Tağayım?!

Hər Gülbanı bibim qardaş deyəndə,
Ağrı-acı ürəyini yeyəndə,
Zalım əcəl qəlb qapısın döyəndə,
Bağrım-başı parçalandı, Tağayım,
Gözlərimə qan calandı, Tağayım,

Səkinən də itğilərə dözmədi,
Yazıq bibim ömür köçün sezmədi,
Yığın-yığın ağrıları çözmədi,
Sinəsində qəm daşırdı, Tağayım,
Qürbət eldə can tapşırdı, Tağayım.

Bəy babamın balaları getdilər,
Üzü soyuq məzarlara yetdilər,
Keçən günlər niyə belə ötdülər?
Heç qayıtmaz bir də geri, Tağayım,
Onlar ölü, biz də diri, Tağayım.

Ölənlərin ah-vayla can verəndə,
Zalım əcəl cismidən can dərəndə,
Göz yaşını bəbəklərə sərəndə,
Göy üzünü bulud aldı, Tağayım,
Gözüm yurdda, eldə qaldı, Tağayım.

Atam öldü, ev-eşiyi yad oldu,
Ağzımızda ondan qalan dad oldu,
Qardaşım da, şükür, soya ad oldu,
Bu ad üçün can verərəm, Tağayım,
Damarımdan qan verərəm, Tağayım.

Ata evim çox elədi dərd mənə,
Bu ağrını etmədi namərd mənə,
Ömür ki var, oldu sirli nərd mənə,
Günlərimi zərtək atdı, Tağayım,
Ötənlərlə birgə batdı, Tağayım.

Əzizlərim ürəyimi təklədi,
Könlümü çox kədər üstə köklədi,
Yəqin istək nəsillədi, köklədi,
Mən də bunu daddım belə, Tağayım,
Xəyallarım döndü yelə, Tağayım.

Gənclərimiz kənddən çıxıb getdilər...
Bəziləri arzulara yetdilər,
Bəziləri arzudan yan ötdülər,
Sən onları qarşıladın, Tağayım,
İstəyini aşıladın, Tağayım.

Deyirlər ki, şəhər ağlı alandı,
Parlaqlığın ürəklərə salandı,
Yurdun eşqi sinələrdə qalandı,
Mən bu eşqi səndə duydum, Tağayım,
Mehrini də qəlbə qoydum, Tağayım.

Sevda dolu günlərimiz ötüşdü,
Könlümüzə gah sevinc gah, qəm düşdü,
Hər anı da başa vurmaq bir işdi,
İşlərimiz çox dolaşdı, Tağayım,
Hicran gəlib başdan aşdı, Tağayım.

Sevdiklərim çox etdilər naz mənə,
Dərdləri bol, sevincləri az mənə,
Qəlbim oldu simi qırıq saz mənə,
Mən bunları sadaladım, Tağayım,
Yaddaşında qalsın adım, Tağayım.

Yaltağlığı, məddahlığı aldılar,
Bir dəb kimi kitablara saldılar,
Ürəklərdə bu adla da qaldılar,
Hər düz sözün xeyrinə çıx, Tağayım,
Təmizliyin seyrinə çıx, Tağayım.

Saldım sənin pak adını kitaba,
Sığışasan haqq tarixlə hesaba,
Zaman bənzər ət doğrayan qəssaba,
Bu ömrümü alıb kəsər, Tağayım,
Mən gedərəm qalar əsər, Tağayım.

Yolun gedib-gələnlərə astana,
İltifat et şagirdinə, ustana,
Çevirdim ki, pak adını dastana,
Bir sənə də qiymət olsun, Tağayım,
Qoy adına hörmət olsun, Tağayım.

Dədə yurdum, atamın od ocağı,
Aç balana ana kimi qucağı,
Göstərməsin Tanrı sənə qəm dağı,
Nağıllaşan, sehirləşən, Tağayım,
Xəyallaşan, seyirləşən, Tağayım.

Bir gələydim, dolanaydım boynuna,
Sığınaydım doğma, isti qoynuna,
Qatışaydım mən uşaqlı oynuna,
Bağ-bağçadan gül üzəydim, Tağayım,
Tellərimə bir düzəydim, Tağayım.

Gəl söyləmə oxumurlar şeiri,
Şeir olub ağılımın seyiri,
Çox deyirlər nədir mənə xeyiri?
Xeyirimi güdməmişəm, Tağayım,
Heç dalınca getməmişəm, Tağayım.

Ömür-günün keçib cana rişəsi,
Uzun yolda ya qəmi, ya nəş'əsi,
İstəyinin qəlbə girib tişəsi,
Ötənləri qoymur yatsın, Tağayım,
Kədərinin adı batsın, Tağayım.

Sinəmdəki acılarım selləndi,
Yellənçəktək ruhi-canım yelləndi,
Xəyallarım birər-birər dilləndi,
Dərd alanda ürəyimi, Tağayım,
Doğdu ilham mələyimi, Tağayım.

Yeddi qurşaq göylərini çalanda,
Buludların qovub yerin alanda,
Gilavarın ovqatında qalanda,
Mehlərini oxşayardı, Tağayım,
Füsnükarlıq baxşa yardı, Tağayım.

Sevda yolun çəməninin içiydi,
Uşaq könlüm bir dəlicə keçiydi,
Zamanımın yaman biçə-biçiydi,
Ocağında keçdi ömür, Tağayım,
Doğumumuz haqdan əmir, Tağayım.

İndi səni yuxularda gəzirəm,
Ayrılıqla ürəyimi üzürəm,
Yenə, vallah, bu tağda mən dözürəm,
Saralıram həsrətindən, Tağayım,
Ayrı olmaz can bətnindən, Tağayım.

Sənlə olan ötən ömür yaz mənə,
Sənsiz keçən bu günlər ayaz mənə,
Nə dərdin var götür məktub yaz mənə...
Ocaq çatım ürəyimdə, Tağayım,
Kükrəsin təb mələyim də, Tağayım.

Şadimanın atəşindən odlaşıb,
Ayrı düşüb, demə sənə yadlaşıb,
Məhəbbətin həsrətindən dadlaşıb,
Haqqa duam, təmiz havam, Tağayım,
Elim-arxam, yurdum-yuvam, Tağayım.

26.01.2002 - 08.03.2006. Neft Daşları

BALACA ŞƏHİD FARİZİN HEKAYƏTİ

8 martda öz evlərinin həyətində oynayarkən erməni snayperi tərəfindən vurulmuş Ağdam bölgəsinin Orta Qərvənd kənd sakini doqquz yaşlı Fariz Bədəlovun ruhuna!

Biri vardı, biri yox,
Mənzil uzun, hünər çox.
Orta Qərvənd elində,
Söz-söhbəti dilində,
Balaca Fariz vardı,
Ona da həyat yardı.
O uşaq diləkləri,
Nazlardı ürəkləri.
Anası Şirinnazın,
Oxşardı könül sazın.
O Məlahət nənənin,
Yuyardı qəlbdən çənin.
Dayısı Elgiz onu,
Tutardı əziz onu.
Candan bala deyərdi,
Evə qala deyərdi...

***

Körpə vaxtdan taleyi,
Olmuşdu sızlar neyi.
Ata atmış anasın,
Dərdə qatmış anasın.
Dayı, nənə yanında
Həyat eşqi canında,
Böyüyürdü bu körpə,
Nənəsi öpə-öpə,
Bəsləyərdi nəvəsin,
Qoxlayırdı nəfəsin.
Məktəbə də gedirdi,
Anasın şad edirdi.
Kənd düşmənlə üzbəüz,
Atırlar gecə-gündüz.
Məktəbə qorxa-qorxa,
Yol-izə baxa-baxa,
Uşaqlar gedir-gəlir,
Qəmləri sinə dəlir.

Başqa çocuqlar təki,
Anaya edir ərki,
Bu körpəcə balalar,
Gələcəyə qalalar,
Bağ-bağatda qaçışmaq,
Kəpənəktək uçuşmaq,
İstəyirlər beləcə,
Çıxmasınlar bəs necə,
Evdən çölə ay, illə.
Bir gün gələrək dilə,
Fariz dedi: «Ay ana,
Gətir çörək, çay ana.
Mən yemək istəyirəm,
Söz demək istəyirəm.
Bu gün səkkiz mart axı,
Martda çıxır dərd axı.
Burax məni həyətə,
Hə de, bu xoş niyyətə.
İstəyirəm oynayım,
Bağ-bağatla qaynayım.
Versən topu gedərəm,
Yoxsa şuluq edərəm.
Ev-eşiyi qatacam,
Kitabları atacam.
Gündüz erməni atmaz,
Görüb heç məni atmaz,
Axı mən balacayam,
Qoyun oynayıb doyam.
Dava böyüklər işi,
Uşağa batmaz dişi.
Burax gedim, ay ana,
Şadlıq edim, ay ana.
Bu gün analar günü,
Könlümdə qur düyünü.
İstəyirsən sənə bir,
Şer oxuyum et səbir:
«Mənim munisim anam,
Ən gözəl hissim anam,

Mübarəkdir bayramın,
Qalmasın qəlbdə kamın.
Səni candan sevirəm,
Sənsən həyatım, çevrəm.»
Ana güldü sevindi,
Farizə eşqlə dindi.
Dedi: «Oyna həyətdə,
Erməni bəd niyyətdə,
Ayaq üstə gəzmə çox,
Yağılara ümid yox.
Qəfil güllə atarlar,
Qəlbimə dərd çatarlar...»

***

Fariz düşdü həyətə,
Sevinclə ötə-ötə.
Ayaqladı torpağı,
Dərdi otu-yarpağı.
Topunu atdı bağa,
Baxdı çox sola-sağa.
Qaçdı topun dalınca,
Düşmən xəbər alınca,
Snayperi tuşladı,
Sanki quşu daşladı.
Güllə başına dəydi,
Göz qaraldı, qədd əydi.
Fariz çökdü torpağa,
Ahın əkdi torpağa.
Qan bürüdü üz-gözün,
İtirdi uşaq özün,
Çığırtıyla yıxıldı.
Birdən canı sıxıldı.
Gözdə qaraldı dünya,
Sanki daraldı dünya.
Səsə anası gəldi,
Dərdə yanası gəldi.
Çökdü balası üstə,
Bala düşüb can üstə.
Ana balam vay deyir,

Ağlar nənə hay deyir.
Batdı yasa ev-ocaq,
Çəkildi sinəyə dağ.
Kənd haraya töküldü,
Aləm vaya töküldü...
Təcili Yardım gəldi,
Haray-həşir yüksəldi.
Nalədən qopardılar,
Farizi apardılar
Xəstəxanaya onlar,
Ötdü dəhşətli anlar...
Uşaq yolda keçindi,
Dünya qanlı köçündü?...
Bu balaca oğlanın,
Necə götürdün dağın?
Qanı tutdu sabahı...
Nə idi de günahı?
Bu balaca Farizin
Qatladı yağı dizin.

***

Baş həkim Gülnarın da gözündən yaşlar axır,
Maşına tökülən qan qəlbin yandırıb yaxır.
Həkimlər, tibb bacılar qaçdı oyan-buyana,
Çaxnaşdı xəstəxana, aha batdı bir ana.
Doqquz yaşlı bir oğlan boyandı al qanlara,
Bu balaca şəhid də dağ oldu insanlara.
O körpəcə gözündə dondu həyat əbədi...
Soldu bir uşaq ömrü, çökdü həyat məbədi.

***

Baxırsan düşmənə sarı gileyli,
Elin yas içində, ey Orta Qərvənd.
Yağının sönərmi qan tökmək meyli?
Hiylələr biçində, ey Orta Qərvənd.

Bu dünya fitnələr fövqündə ağlar,
İblis sarayında şadlıqlar çağlar,
Ah edir əlimdə dilsiz varaqlar,
Dil niyə-neçində, ey Orta Qərvənd.

Bu yurdlar bizimdi, bu ocaq bizim,
Bəs niyə titrəyir əsəbdən dizim?
Qəzəbə cəng edir yaş tökür dözüm
Dərd qaynar içində, ey Orta Qərvənd.

Ayağım torpağın üstündə əsir,
Düşmən snayperi naləni kəsir,
Şəhid körpə balan məzarda əsir,
Ruhu can köçündə, ey Orta Qərvənd.

Damında-daşında lal sükut gəzir,
Bu sükut elinin ürəyin əzir,
Ağrılı könlümü məlalın üzür,
Yağı öz suçunda, ey Orta Qərvənd.

***

Qurulub həyətdə bir yas çadırı,
Doqquz yaşlı oğlan baxır şəkildən.
İlahi, göylərdən gəl as çadırı!
Bu bala ürəyi yaxır şəkildən...

Gözü ah söyləyir, baxışı qəzəb,
Bir cavab istəyir böyüklərindən.
Doğrayır göräni bu dəhşət, əzab,
Harayı asılıb baş tüklərindən...

Molla yasin deyir, titrəyir səsi,
Balaca oğlana ağlayır səma.
Kəsir bu titrəyiş duyan nəfəsi,
Hər nəfəs içində üsyan var amma.

Ümidsiz baxışlar dikilib səsə,
Quran ayələri haray eyləyir.
Yasa yığılanlar nəfəs-nəfəsə,
Bəbəklər yaş tökür, dil vay eyləyir.

***

Əlləri qoynunda bir ana gördüm
Ağlayır ürəyi kor taleyinə.
Bəxti qara gəlmiş bir sona gördüm,
Toxuyur nifrinlər tor taleyinə.

Dərdi başdan aşır, görkəmi qəmli,
Üzündə kədərin izləri gəzir.
Kirpik ah içində, gözlər ələmli,
Şəhid balasını gözləri gəzir...

Ağlamır, içinə axır yaşları,
Sel-suya dönübdü ana qəlbində.
Donmuş gözlərindən baxır yaşları,
Yenidən alışıb yana qəlbində.

***

Qoca dünya, qanların, qırğınların de nədi?...
Unudubdu adamın insanlıq olan həddi.
Əzabına sarılıb bağrıqan Qarabağın,
İblislərin əliylə olubdu yara bağrın.
Hesabını çəkməyir kimsə kimin başından,
Yuyunur damın-daşın məzlumun göz yaşından.
Min bir uşaq arzusu güllə-boran dünyada,
Diləklər çaxnaşırlar ala-toran dünyada.
Bala dağlı bir ana göz yaşını axıdır,
Sanki bu olanlar da indi ona yuxudur.
Qoltuğunda ovudur qolların bədbəxt ana,
Qışqırsınmı harayı yayılsın qoy hər yana?
Bəlkə o qoynundakı zənn edir balasıdır,
Köksü üstə sığınıb əbədi qalasıdır.
Qoltuğuna sığdığı qollara layla çalır,
Bu laylanı o indi bir ahı-vayla çalır.
Nənənin hönkürtüsü aləmi oyandırır,
Ananın lal sükutu yeri-göyü yandırır.
Yas çadırı balaca Farizə matəm tutub,
Matəm eli yandırır, dünya qulağın tutub.
Öz evində gülləyə tuş gələn bu nakamı,
Basdırdılar torpağa qaldı ürəkdə kamı.

***

Matı-qutu çəkilib bu yurdda adamların,
Dumanı göz yaşıtək əlçimlənir damların.
Bu kənd də əsir kimi yaşayır öz evində,
Bacada gizli tüstü salmayır köz evində.
Gözlərdə həyat eşqi batır-çıxır quyuda,

Bütün ümidlərini sanki sıxır quyu da.
Kənddə heç kim heç nəyi aşkara edə bilmir,
Heç kim yolda-ırızda piyada gedə bilmir.
Atəşkəs olsa belə snayperə tuş gələr,
Biqəfil gələn güllə onu qanına bələr...

***

Bu nə zülüm, ay Allah, bu nə azğın müsibət?
Niyə bizi gözlədi böylə qanlı aqibət?
Biz öz torpağımızda işğala düçar olduq,
Təslimçi bir ovqatla bu dünyaya car olduq.
İndi körpə Farizin o donmuş baxışları,
Salır ürək içinə dərd dolu naxışları.
Dünya susur, dinməyir bu körpənin yasına,
Boyanıbdı bu dünya məkirlərin pasına.

Pas da dəmir çürüdür, nəinki ürək ola,
Ya insanlıq dağıla, ya da gələ haqq yola...

14-15.03.2011

İKİ MƏN ARASINDA

ÜRƏYİM BOŞ DƏYİRMANDIR

Ürəyim boş dəyirmandır,
Sükutuna batıb qaldım.
Birliyimiz bir imandır,
Bu birliyi atıb qaldım.

Sığınmağa otağı var,
Baş qoymağa yatağı var,
Ağac təki budağı var,
Kölgəsində yatıb qaldım.

Haray saldım dağda, daşda,
Heç ağlımı qoymur başda,
Nə edim ki, mən bu yaşda
Qəm yükümü çatıb qaldım.

Dəli hissi, həyəcanı,
Salır köksə çox hicranı,
Çəkir dərdi, üzür canı,
Sevincimə qatıb qaldım.

Boğur qəlbi təbi-təvan,
İşi mənlə getmir rəvan,
Deyir hələ məndə dəvan,
Könlü ora atıb qaldım.

25.10.2005

ÖMÜR QƏRİB DÜŞMÜŞ BİR QUŞA BƏNZƏR

Ömür qərib düşmüş bir quşa bənzər,
Çırpınar damarla qan arasında.
Sirri açılmayan lal daşa bənzər,
Qovrular ilantək can arasında.

Təşnə ağrıları keçər ürəkdən,
Dünyanın əzabın içər ürəkdən,
Gah pıçıltılarla, gah da ki, bərkdən,
Sanyəni qoparar an arasında.

Saatlar zamana dolaşıb gedir,
Haqqın hökmü ilə yollaşıb gedir,
Sinəmin ahına bulaşıb gedir,
Düşər döyüş ilə qan arasında.

Ömür qərib düşmüş bir quşa bənzər,
Yarışı meydanda qaçışa bənzər,
Səyyarə içində uçuşa bənzər,
Bükülüb oduna yan arasında.

Şadiman, eyləmə sən ona sevda,
Bir ucu bədənə, bir cismə qida,
Bir ucu bağırda qoparır nida,
Arıtək bal udur şan arasında.

30.05.2008

HƏR SAAT VAXTDAN GEDİR

Hər saat vaxtdan gedir,
Hər ömür an içində.
Hər insan taxtdan gedir,
Sirri var can içində.

Ürək – gözün əsiri,
Tikər orda qəsiri,
Edər ağlı həsiri
Batar ad-san içində.

Göy üzü ələyir daş,
Gözlərdən tökülür yaş,
Toqquşur ağılla baş
Bu dünya qan içində.

Bəşər Rəbdən aşağı,
Dəlisov yer uşağı,
Tən canının qurşağı
Sevdası şan içində.

Ey Şadiman, hər ürək,
Ola İlahi mələk,
Şərə yox, xeyrə dilək
Ola insan içində!

12.03.2007/ Neft Daşları

AĞILIM KƏNARDAN BOYLANIB BAXIR

Ağılım kənardan boylanıb baxır,
Diləklər ağlayır ürək içində.
Halımız aləmi yandırıb-yaxır,
Əzablar çatlayır kürək içində.

Zaman özü tutur hicrana çıraq,
Vermir ötənlərdən heç zaman soraq,
Ayrılıq dəmlərə göstərir maraq,
Saatlar fırlanır ələk içində!

Dilin harayından ürək alışır,
Gah sevinc, gah kədər cana sarışır,
Tərəzi əyilir, hesab qarışır,
Dünya itib-batıb kələk içində.

Dəyirman daşıtək anlar fırlanır,
Damarlar təntiyir, qanlar fırlanır,
Tənlər üyüldükcə canlar fırlanır,
Ruhlar, sanki itir külək içində!

Ağlımız çalanı oynayırıq biz,
Düşüb hər qazana qaynayırıq biz,
Rəbdən də özünü pak sayırıq biz,
Hər kəs zənn eləyir – mələk içində.

Anlar təbiətin – zaman naxışı,
Hər ömrə gətirir boranlı qışı,
Canın tən içindən ruha axışı,
Şadiman, unutma haqqa baxışı-
Dünyaya gəlmişik ölək içində..!

16.04.2007/ Neft Daşları

ÜRƏYİM AĞLAYIR LAP UŞAQ KİMİ

Ürəyim ağlayır lap uşaq kimi,
Dərdimi könlümə salıb gedirəm.
Ağrılar sinəmdə bir qurşaq kimi,
Qəlbimin içinə çalıb gedirəm.

Əzablar dartılan simə bənzəyir,
Harayı kökləyən himə bənzəyir,
Kimdən boy götürüb, kimə bənzəyir?
Onu da sevdatək alıb gedirəm.

Ötənlər geriyə baxır yad təki,
Boylanır ömrümdən bir fəryad təki,
Aləmə göründüm könlü şad təki,
Amma min əzaba dalıb gedirəm.

Dərd məni buraxmır özündən yana,
Acısı hər zülmün salıbdı cana,
Sinəmdən boylanır qəlb yana-yana,
Bu acı sitəmlə qalıb gedirəm.

Ürəyim açılıb ağrıya çin-çin,
Əridir yağ kimi dərd onun için,
Biçarə Şadiman, bilmirəm neçin?
Ağrıya layla da çalıb gedirəm.

28.04.2007/ Neft Daşları

BİR FIRTINA VAR CAN İÇİNDƏ

Bir fırtına var can içində,
Ömrümü biçində,
Əzabı daşdan keçir,
Gözümün yaşını içir.
Ürəyimin qanı puçur-puçur
teştində qaynayır,
Zamanımla oynayır.



***

Bir fırtına var can içində,
Könlümü axtarıram tər-qan içində,
Günlərim itir-batır an içində,
Sanki bir hayqırtı var hər yan içində.
Min bir avazla oxuyur zamanım,
Saat əqrəbləri saniyələrdən
qopan fərmanım.
Haqqa bağlı peymanım-
Dilimdə dualanır,
İstəklərim havalanır.

***

Bir fırtına var can içində,
Əsim-əsim əsdirir ömür dirəyimi,
Xaraba qoyub ürəyimi.
Acı göz yaşlarımı aləmə dağıdır,
Fələyin ən ağır dağıdır.
Zülümü əskilməz heç zaman,
Günümü göy əskiyə bürüyüb yaman,
Ağzından püskürür ah-aman,
Sakit həyatımı laxladır,
Bütün istəklərimi çalxadır.
Nəfəsim təngiyir
ilğıma düşmüş quş kimi,
Ürəyim buz bağlayıb
səhraya qonmuş qış kimi!
Hər tərəfdən üstümə
kədər buludları axır,
Oda düşmüş şimşəklər çaxır,
Gözlərim bu müsibətə baxır.
Günlərim elə tələsir, tələsir,
Ömür ona ən uca qəsir,
Bilmirəm bu nə sirr?
Ürəyim həyəcan içində,
Bir fırtına var can içində.

30.04.2007/Neft Daşları

ELƏ DARIXIRAM ÖTƏN GÜNLƏRƏ

Elə darıxıram ötən günlərə,
Uşaqlıq çağlarım yadıma düşür.
Küskün xəyallara yetən günlərə,
Xəyal da könültək oduma düşür.

Hicran acıları qəlbimi alır,
Dost təki qolunu boynuma salır,
Ürəyim özüylə tək-tənha qalır,
Bir qərib hıçqırtı dadıma düşür.

Əzabdan o yana yolum qaralır,
Başımın üstünü tufan, qar alır,
Ümidlər sozalır, zaman daralır,
Yalnız şadimanlıq adıma düşür.

28.04.2007/ Neft Daşları

NƏDƏN MƏLALISAN SEVDALI ÜRƏK?

Nədən mələlısan sevdalı ürək?
Ağrını, acını yellər aparsın.
Hönkürən, çırpınan sədalı ürək,
Dolan gurşadını sellər aparsın.

Zaman ömrə edir işgəncəsini,
Həm gündüz gətirir, həm gecəsini,
Ver mənə diləyin ən incəsini,
Onun niskilini dillər aparsın.

Doğulduq həyatda - çarpışmalıyıq,
Nəşəylə, kədərlə tapışmalıyıq,
Bir işin qulpundan yapışmalıyıq,
Hər bir əzabını tellər aparsın.

Demə ki, qapılıb Şadiman hissə,
Onun varlığını ram edib qüssə,
Doğulan bölünüb yaxşıya, pisə,
Dayanıb gözləmə taleydən nəsə –
Bəxtinə düşəni illər aparsın.

29.04.2007/Neft Daşları

DƏRD MƏNİ SALIBDI AĞRIYA YAMAN

Dərd məni salıbdı ağrıya yaman,
Aparın bu dərddən o yana məni.
Qoymayın yaxına gəlsin heç zaman,
Verməyin pis günə qoyana məni.

Çıxıb ürəyimdən getmir heç yerə,
Mənə əzab verir gündə yüz kərə,
Vurur təpəsindən qəlbimi yerə,
Satmayın könlümü soyana məni.

Səadət quşunu uçurub başdan,
Odur ki, hər işim çıxır lap daşdan,
Bilməm nə axtarır qanlı göz yaşdan?
Yar etmin zülmümə uyana məni.

Ağla ortaq edib ağrını zalım,
Bitib-tükənməyir heç qeylü-qalım,
Deyin Şadimana fənadır halım,
Qul edin qəlbimi duyana məni.

29.04.2007/ Neft Daşları

NƏ TEZ ÖTDÜ ZAMANIM?

Uşağlığım yaz kimi,
Könlə xoş avaz kimi,
Bu aləmə naz kimi,
Yox idi heç yamanım,
Nə tez ötdü zamanım?

Gəldi ömrün baharı,
Çox atəşi, aharı,
Etdi canla naharı,
Eşqlə dəli peymanım,
Nə tez ötdü zamanım?

Payız qoynunu açdı,
Elə bildim nur saçdı,
Ömrümü alıb qaçdı,
Acı həbim, dərmanım,
Nə tez ötdü zamanım?

Qış qapımı döyəndə,
Özün şahtək öyəndə,
Tez-tez qəlbə dəyəndə,
İtdi könül səhmanım,
Nə tez ötdü zamanım?

Ömür dörd fəsil imiş,
İnsan bir nəsil imiş,
İblisi əsil imiş,
Haqq aradı imanım,
Nə tez ötdü zamanım?

Ey Şadiman, uca Rəbb,
Həyat şirin, acı həb,
Havalayıb məni təb,
Coşur damarda qanım,
Nə tez ötdü zamanım?

30.04.2007/ Neft Daşları

ÜRƏYİM AĞLAYIR GÜNÜMƏ MƏNİM

Soyuq baxışlardan üşüyür canım,
Zamanım sızlayır ünümə mənim.
Halıma can deyir dəqiqəm, anım,
Ürəyim ağlayır günümə mənim.

Əsən payızımın mehri bilinmir,
Titrəyən bağrımın qəhri bilinmir,
Dərdim öz işində sehri bilinmir,
Ürəyim ağlayır günümə mənim.

Dünyaya vəfasız deyən insanlar,
Nə bir hala yanar, nə dili anlar,
Hara gedirəmsə dərd məni yanlar,
Ürəyim ağlayır günümə mənim.

Bu yazıq könlümə səhman bilmədim,
Kimsəni sinəmə mehman bilmədim,
Hər can yiyəsini rəhman bilmədim,
Ürəyim ağlayır günümə mənim.

Çıxıb Şadimanın tənindən canı,
Titrədir aləmi can həyəcanı,
Buzladır könlümü ağlın üsyanı,
Ürəyim ağlayır günümə mənim.

13.10.2007

İKİ MƏN ARASINDA

Canım asılıb qalıb,
İki mən arasında.
Özünü oda salıb,
Ağrı var yarasında.

***

Biri mənə can deyir,
İnsanlığa yan deyir,
Nə şirindir an deyir?
Yaxşı, pisi qan deyir,
Ötəcək dövran deyir,
Quracaq insan deyir.

***

O birində yox nəş'ə,
Bu qəlbim ona guşə,
Gecə-gündüz əndişə,
Ürəyi çəkir şişə,
Cəhd edir ağlım bişə,
Həyatım oda düşə,
Qarışır hər bir işə,
Qol qoyub bu vərdişə.
Canım tən arasında,
İki mən arasında,
Könlüm çən arasında,
Ağrı tən arasında.

***

Min bir düşüncələrim,
Hər cür işgəncələrim,
Sirr dolu gecələrim,
Haqqıma necələrim?
Anlarım incələrim,
Qızıltək külçələrim.

***

İki mənim ötüşür,
Araya qırğın düşür,
Hisslərim yanır, bişir,
Yenə də hay-küy, həşir,
Ürəyimi ah deşir,
Hər mənim bir cəsur şir!

***

Mən sirrli bir qəsirəm,
İki mənə əsirəm,
Həm aşkaram, həm sirrəm,
Hansına yol kəsirəm?
Hansına canbəsirəm?
Hər iksinə əsirəm!

***

Canım ilişib qalıb
İki mən arasında.
Özünü oda salıb,
Ağrı var yarasında.

11.05.2007/ Neft Daşları

MƏN HARDA GİZLƏYİM İZTİRABIMI?

Gözümdə gizlənib niskilli nəmlər,
Mənə acı verir ağrılı dəmlər,
Canımın sirdaşı ah dolu qəmlər,
Dövranın ağrısı kəsib tabımı,
Mən harda gizləyim iztirabımı?

Kimə can dedimsə, qan dedi mənə,
Saldı ürəyimi dumana, çənə,
Bürünüb ağrıya, acıya sinə,
Fələk qara yazıb bəxt kitabımı,
Mən harda gizləyim iztirabımı?

Əlimdə qələmim ağlar halıma,
Misralar hıçqırar hər zavalıma,
Batmışam özüm də qeylü-qalıma,
İtirib zamanım haqq-hesabımı,
Mən harda gizləyim iztirabımı?

Şadiman zənn etdi bu dünya mələk,
Əlində ağladı binəva dilək,
Şəkəri özünə götürən fələk,
Zəhərlə doldurub könül qabımı,
Mən harda gizləyim iztirabımı?

24.05.2007 /Neft Daşları

BİR QƏRİB ÖMRÜN YOLYOLDAŞIYAM

Bir qərib ömrün yolyoldaşıyam,
Ölçüsünə sığınmış can sirdaşıyam,
Məcburam hicran yüklərini
çiynimdə daşıyam,
Allah verən zamanı yaşayam.
Ürəyim öz havasını çalır,
Başım onu yuvasına salır.
Haqqıma tapına-tapına,
Kədərlərdən sapına-sapına.
Dəmləri dəmlərə calayıram,
Bu dəmlərin atəşindən ocaq qalayıram.

***

Bir qərib ömrün yolyoldaşıyam,
Dəyirmanı fırladan məhək daşıyam,
Ötən ömrün qışıyam.
Ürəyim buzbuzalar bağlayır,
Gözlərim kor olmuş istəklərimə ağlayır,
Sinəmdə yetim qalmış həsrətim çağlayır.

***

Bir qərib ömrün yolyoldaşıyam,
İçimdə fırtınaları tufan qoparır,
Özüylə çəkib məni harasa aparır.
Diləklərim şam kimi,
Könlümü titrədir ehtişam kimi!
Saçlarımda taleyin sır-sıraları,
Pozulur aylarımın, günlərimin sıraları.
Göynər könlümün yaraları.

***

Bilmirəm bəxtimə düşmüş
ağrıları necə daşıyam?
Bir qərib ömrün yolyoldaşıyam.
Yolyoldaşıyam.

01.05.2007/ Neft Daşları

AĞRILARIM DOLAŞIB ÇİYNİMƏ

Ağrılarım dolaşıb çiynimə,
Köhnəlmiş paltar kimi
gəlmir əynimə.
Bir ox təki batır beynimə,
Girir bir yuxu sayaq eynimə,
Gecələrimi talamaq üçün,
Bağrıma od qalamaq üçün,
Hicran atəşində yanan
Qəm zəhərini bulamaq üçün.

***

Ağrılarım dolaşıb çiynimə
bir yük kimi,
Saçımın tellərinə dönüb tük kimi,
Könlümə əmr verir –
başıma böyük kimi.
Oynayır hissimlə,
Ürəyimi tələtümə gətirən simlə,
Savaşa durub köksümlə,
Mağar qurub, şıdırığı
oynayır əksimlə.
Dili dua bilməz,
Ciyəri hava bilməz,
Heç yeri yuva bilməz.
Qanıma düşüb qaynayar,
Canıma girib oynayar.
Havacatını özü yazar,
Zülmü ürəyimə məzar,
Ayağımın altın qazar,
Bütün vücudum edər həzar.

***

Ağrılarım dolaşıb çiynimə,
Ağır bir yük təki aşıb çiynimə,
Ömür yolum sona yetənə kimi,
Həyatım bitənə kimi,
Ruhum tənimdən itənə kimi,
Canımdan tutmuş tənə kimi –

Bütün vücudumu ələ alıb,
Köçünü boynuma salıb.
Əlində nə qədər
zamanım qalıb bilmirəm,
Adını ürəyimdən silmirəm,
Gecə-gündüz əzab verir beynimə,
Ağrılarım dolaşıb çiynimə.

01.05.2007/ Neft Daşları

SEVDASI ÜRƏYİNDƏ BATMIŞLARA

Sevdası ürəyində batmışlara,
Fil qulağında yatmışlara,
Aləmi bir-birinə qatmışlara,
Xoş mərama çatmışlara,
Mənliyini ayaqlara atmışlara,
Nəfsini vara, pula satmışlara,
Haqqın göydən gələn nidası var,
Rəbbin Əzrayıl qadası var,
Allahın can sevdası var.
Yaradanın haqq kitabları,
Hər canla sorğu və hesabları,
Kəsiləndə taqəti-tabları,
Görəsən kimə üz tutacaqlar?
Kimin kölgəsində yatacaqlar?
Canlarını hara atacaqlar?
Beləki orada da
aləmi bir-birinə qatacaqlar.
Deyəsən Allah deyib coşanlar,
Allahın kölgəsində dolaşanlar,
Allah adıyla çirkaba bulaşanlar,
Şeytanla, iblislə ulaşanlar,
Rəbbin varlığına inanmırlar,
Onu bircə kərə təklikdə anmırlar,
Bu atəşlə yanmırlar,
Onun səcdəsinə dayanmırlar.
Bəlkə Allah xofu kütlə, xalq üçündür?
Yer üzündə bir-birini biçindir,
Hamının dilində niyə, neyçündür?

Ağlayan gözlər güləcəkmi?
İman ilə öləcəkmi?
Görəsən günlərin birindən,
Aləmlərdən də dərindən,
Allahdan bir səda gələcəkmi?-
Fil qulağında yatmışlara,
Sevdası ürəyində batmışlara.

12.05.2007/ Neft Daşları

VƏSFİ-HALIM

Vəsfi-halım,
Həyatla qalma-qalım,
Min bir qeylü-qalım,
Sağlıq vüsalım.
Acıları aləmə haray çəkən,
Yatağına hicran yaşı tökən,
Ağrılı günlərim,
Toy-düyünlərim,
Haqqıma hay salan ünlərim.

***

Vəsfi-halım,
Dərdi bir yığın çuvalım,
Dövranla çarpışmada
başına döyülən qavalım,
Ərşdən könlümə qayıtmayan xəyalım.
Gecəsi, gündüzü olmayan,
Canı tənində qalmayan,
Mehrini bu aləmə salmayan,
Heç kəsin önündə alçalmayan,
Yaltaqlıqlara əl çalmayan-
Qatları saralmış ömür kitabım,
Taqəti-tabım,
Vicdanımla haqq-hesabım.
Ağrısı içində dolaşan,
Ürəyimlə ağlaşan,
Ün yetməyən diləklərim,
Göydə, yerdə uçuşan mələklərim,
Ağrımın içində tufan qoparan küləklərim,
Canımı bədənimdən aparan fələklərim.

Uğrunuzda çox çarpışdım,
Şeytanla, iblislə qapışdım,
Haqqın ətəyindən yapışdım,
Min dəfə ruhumla tapışdım.
Şükür Xudaya!
Məni salmadı qadaya,
Könlümü tuş etdi dəli sevdaya,
Sığal çəkdi, canımdan qopan nidaya.
Ağrılarımı könlümdə tumarladı,
Enişli yollarımı hamarladı,
İblisi köksümdə qamarladı.
Tamahımı əlimdən aldı,
Onu dərin quyuya saldı.
Canımın yanında qaldı,
Ruhum dərgaha ucaldı.
İlhamımı sinəmdə oynatdı,
Qanımı coşdurdu, qaynatdı.
Ürəyimi təblə birgə oyatdı,
Anladım bu beşgünlük həyatdı!..

***

Vəsfi-halım,
Başımdan getmədi kamalım,
Düzlükdən o yana keçmədi amalım,
Allah önündə ləkəli deyil cəmalım.
Rəbbin verdiyi ömürə müntəzirəm,
Tənimlə birgə bu dünyaya nəzirəm.
Ağrılar, əzablar içimdə,
Hamısı bir biçimdə,
Ağlım çaşmadı haqqı seçimdə!
Nə qədər ki, sağam,
Kiminə sevda, kiminə dağam,
Hazıram buluda dönüb
gurşadlartək yağam,
Günəş kimi göylərdən doğam,
Bütün pisliklәri beşiyində boğam,
Şeytan xislətliləri bu dünyadan yığam!
Canımı Haqqın ətəyinə sığam.
Budur, həyatla qalma-qalım,
Vəsfi-halım!
Vəsfi-halım!

12.05.2007/ Neft Daşları



HAQQIMA AÇILAN QAPIM BAĞLI

Haqqıma açılan qapım bağlı,
Ağrılar oynadır ağlı,
Ürəyimin sinəsi dağlı,
Kədərim önümdə yaraqlı,
Dərdimin evi çıraqlı.
Zülmətimə işıq salmaz,
Bir anda gecəmlə qalmaz,
Sübhümü xarabazar etmək üçün,
Başımda yel olub ötmək üçün,
Qəlbimin bağında bitmək üçün.
Haqqıma açılan qapımın
ağzında durmuşam,
Ürəyimi saat kimi qurmuşam,
Diləklərimi sinəmin
atəşi ilə qovurmuşam,
Acılarımı küləklərə sovurmuşam.
Qabağıma qaçan yox,
Qapını döyürəm – açan yox.

***

Səadətim dilimdə susur,
Ürəyim qan qusur,
Məni şeytanlar pusur,
Gecələr dilimdən asır,
Gündüzlər harayımtək susur,
Diləklərim özünü qısır,
Canımdan qopub qaçmaq üçün,
Özünə yol açmaq üçün.
Nə qədər saxlayım dilimi bağlı?
Ağrılar oynadır ağlı,
Ürəyimin sinəsi dağlı,
Haqqıma açılan qapım bağlı.

12.05.2007/ Neft daşları

KÖNÜL HÜCRƏM

Dəli-dolu Xəzər,
Bə'zən mələyə,
bə'zən əjdahaya bənzər,
Dirəklər üstündə bomboz meydança,
Dövrəsi dəmir tellərlə haça-haça,
Ruhumuzla birləşib
İlahiyə yol açа-açа!
Meydançaya pərçimlənmiş evciklər,
Canımızı soyuqdan,
istidən qoruyan divciklər.
Hərdən mənə bura
xatırladır zindanı,
Sanki insanların həbs meydanı.
Fırtınalı anlarda içimizdə
ağrıyır Xəzərin vicdanı!
Evciklərimizi tökmür dənizə,
Rəhm eləyir bizə!
Meydança içində evciyim,
Mənə həyan divciyim.
Evciyin içində bapbalaca üç otağım,
Misralar qanadında aləmlərdən sorağım.
Yemək otağımda kiçik masa,
Hərdən qələmimtək batır yasa,
Tufan qopanda, dəniz şahə qalxanda,
Bizə yağı kimi qanlı-qanlı baxanda,
Vərəqlərim ağlaşır,
Ürəyimlə qanı qaynayır daşır,
Duyğularımtək ucalaşır.
Bu mənim iyirmi iki ildir
taleyimə yazılmış könül hücrəm,
Sinəmə tökülən min bir cürəm.
Altun saraylardan uca,
Beynimdən açıb aləmlərə baca.
Zamanı geniş, məkanı bapbalaca!
Ruhumu titrədən sükanım,
Bu davalı dünyamda ədəb-ərkanım,

Təbimi nehrətək çalxadan məkanım.
Sən mənim cəvahiratım,
Gömgöy, dəli-dolu Xəzərə
mehrini salmış busatım,
Bəxtimə yazılmış həyatım.
Odu-atəşi min bir cürəm,
Rəbbimə açılan könül hücrəm,
Könül hücrəm.

16.05.2007/ Gəmidə

ÖZÜNÜ ALLAH SAYAN

Özünü Allah sayan,
Etmə ruhuna ziyan,
Qəflət yuxudan oyan,
Rəbb adı olsun əyan,
Hər an xətaya uyan,
Odur bizləri duyan,
Ondan bizlərə həyan,
Adəmdən gəlir mayan,
Varsa bir azca həyan,
Xaliqə hər şey bəyan,
Özünü Allah sayan.

13.10.2007

KİM DEYİR HEÇ NƏYİ APARMIR İNSAN?

Deyirlər nə qədər yığsan sərvəti,
Sağ ikən olsa da can səadəti.
Yaradan bizlərə qoyubdu qayda,
Qalır bu dünyanın malı dünyada.
Yığdığın olacaq əllərdə asan,
Lüt gəlib lüt gedir həyatdan insan.
Amma bunu deyən yanılır müdam,
Ölərkən, günahın aparır Adam.
Günahlar cürbəcür, günahlar əsir,
Elə günahlar da adamı kəsir.
Dirikən duymayan vicdan əzabı,
Ruha çəkdirəcək can iztirabı.
Günahın ağrısı - ruhun zülmü,
Sağ ikən yaddaşdan silmir ölümü!
Qopur tən evindən hər canın ahı,
Özünə yük edir gedən günahı.
Bu yükü aparmaq deyildir asan,
Kim deyir heç nəyi aparmır insan?!...

06.02.2008

EY MƏNİM RUHUMA CAN OLAN, FƏLƏK

Əsdi səmum yeli könlümü aldın,
Qəlbi tufanların içinə saldın,
Onunla üz-üzə, göz-gözə qaldın,
Sən necə oynatdın min bir cür dilək?
Ey mənim ruhuma can olan, fələk.

Titrətdin eşqimi, məhəbbətimi,
Qurdun ayrılıqla vaxt ülfətimi,
Artırdın hicrinlə sən xiffətimi,
Hönkürdü, ağladı qarşında ürək,
Ey mənim ruhuma can olan, fələk.

Dilindən düşmədi heç zaman adım,
Aləmə hay saldı dəli fəryadım,
Tək sənə yetmədi bəs niyə dadım?
Bu ahı bir kərə duyaydın gərək,
Ey mənim ruhuma can olan, fələk.

Möhnət ağrısından sinəm hıçqırdı,
Arada sevdanı möhlətin qırdı,
Bağrım nəş'ələrin ələmin vurdı,
Əsdi tufanlara öc verən külək,
Ey mənim ruhuma can olan, fələk.

Qaçan zamanımın atəşin aldın,
Verdiyi əzaba mehrini saldın,
Yenə Şadimana eşqinlə qaldın,
Aç bu möcüzənin sirrini bilək,
Ey mənim ruhuma can olan, fələk.

26.03.2008

HƏR GÜN ALLAHIMDAN BİR GÜN ALIRAM

Hər gün Allahımdan bir gün alıram,
Özümü bu günün içinə salıram.
Daha bir gün də bu dünyada qalıram.
Sinəmə saplanmış ağrımı öldürürəm,
Özümü-özümə güldürürəm,
Bütün aləmə varlığımı bildirirəm.
Səadət işığından uzaq,
Ömrümdə min bir cür sazaq,
Haqq tərəzisinə tapınıram ağrımı çəkə,
Qalmışam ömür arabasını çəkə-çəkə.
Mən bu damın altında,
Bəxtimə düşən saatlarım atında.
Vaxtın anları aşınmada,
Misqal-misqal saniyələr daşınmada,
Ağlımın heyrət sütunu əyilib,
Başına min bir dəfə döyülüb.
Qəflət yuxusunun qapıları açılıb,
Bütün əndişələrdən qaçılıb.
Sevda laylasına tutuşub bəbəklər,
Könlümə odunu yağdıra-yağdıra fələklər,
Özümü sabahın gələcək
gününün içinə salıram,
Hər gün Allahımdan bir gün alıram.
Vaxt olacaq aldığım günlər
tale boğçasından boşalacaq,
Ruhla can üz-üzə qalacaq.
Canım tənindən qopacaq,
Öz ruhunu tapacaq.
Allahın mənə ayırdığı günlər tükənəcək,
Canım ruhuma dönəcək.
Hələ ki, hər gün Allahımdan gün alıram,
Özümü bu günün içinə salıram.

24.09.2008

***

Sirli kainatdan zərrətək qopdum,
Məni bu həyatda nə varsa boğur.
Min kərə özümü itirib tapdım,
Nəş'ə məni doğur, dərd vermir uğur.

24.09.2008

GÖYLƏR, MƏNƏ QOLLARINI AÇ

Göylər, mənə qollarını aç,
Təkcə sənə qalıb əlac.
Cismim canımı almır daha,
Ağlıma həmdəm qalmır daha.
Əlcim buludunu yağdır üstümə,
Atəşli günəşini doğdur üstümə.
Durma belə qəsdimə.
Bəbəkdə donan yaşlarım buludlayıb,
Ürəyim həzin bir şərqinin
hönkürtüsünə udlayıb.
Vermərəm kədərə, qüssəyə bac,
Göylər, mənə qollarını aç.

***

Ürəyim bəbəkdən
süzülən dərdə səbətmi?
Çəkdiyim ağrılar məhəbbətmi?
Asiman silkələnir,
Səmanın gözündən yaş ələnir.
Yerlərə bələnir.
Yerdə, göydə zəlzələmi?
Fələyin ahı çıxıb ziləmi?
Gətirim bu fəryadı diləmi?
Başında yeddi rəngli tac,
Ağlım sevginə ac.
Könlüm fikrimi yandıran sac,
Göylər, mənə qollarını aç.

***

Mən də fırtınası can
çıxardan küləyin olum,
Bəndənin çiynində
gəzən mələyin olum,
Torpağı sümükdən
ayıran ələyin olum.
Dünyanı saat əqrəbi üstündə
fırladan zamanın olum,
Haqqına tapınan imanın olum.
Vaxtın əlində çələyin olum,
Əgər istəsən, ürəyin olum,
Bu dünya bazarında artıb hərrac,
Göylər, mənə qollarını aç.
Göylər, mənə qollarını aç.

16.06.2008

ETDİYİM YAXŞILIQLAR QAPAZ OLDU BAŞIMA

Etdiyim yaxşılıqlar qapaz oldu başıma,
Axdı bəbəklərimdən qarışdı göz yaşıma!
Sıxdılar ürəyimi nar təki iştahlara,
Onlar məzə aldılar, könlüm batdı ahlara.
Ömrüm tufana düşmüş qayıqlartək çırpındı,
Nə ağrıya tapındı, nə ağrıdan qırpındı.
Mən xeyirə caladım taleyin varaqların,
Söndürdü yaxın, yadım bəxtimin çıraqların.
Can fəda etdiklərim canıma zərbə vurdu,
Saldı ömrü yoxuşa, yolumda tələ qurdu.
Gecə-gündüz ağlımı anlarla səhər etdim,
Deməmişkən səhərin özünü zəhər etdim.
Fələyin kəndirinə saldılar boğazımı,
Pozub-qaraladılar mənim tale yazımı.
Bu minvalla ömrümü oyuncağa çevirdim,
Yağı olanlarımı mən də belə sevirdim.
İndi neylim sədaqət ürəyimdə yerləşib,
O sevdiyim kəslərin sevdasıyla birləşib.
Nə qopara bilmədim canımı o kəslərdən,
Nə qırıla bilmədim bu divanə hisslərdən.
Gətirdi sevdiklərim könlümə müsibəti,
Dolu döydü xeyirlə açılan məhəbbəti.
Etdiyim yaxşılıqlar qapaz oldu başıma,
Axdı bəbəyə seltək, qarışdı göz yaşıma!...

15.10.2008

EYLƏMƏ KÖNLƏ QADA

Eyləmə könlə qada,
Salma onu fəryada,
Nə qalır bu dünyada,
Tək olan hörmətimiz,
Canla məhəbbətimiz.

Ağlını sal bir işə,
Girmə qəmlə gərdişə,
Qəlbə məlhəmdi nəş'ə,
Ona yar ülfətimiz,
Canla məhəbbətimiz.

Yar etmə dərdi-səri,
Qalarsan sümük-dəri,
Haqq yolunda tök təri,
Onladı izzətimiz,
Canla məhəbbətimiz.

Dilə salma yalanı,
Açıb-tökmə palanı,
Əridir an qalanı,
Bəzəkdir qamətimiz,
Canla məhəbbətimiz.

Qıymayırsan özünə,
Sərhədi qoy sözünə,
Sonra vurma dizinə,
Bu həyat nemətimiz,
Canla məhəbbətimiz.

Şadiman gəldi-gedər,
Hər ömrü zaman güdər,
Hər doğulana qədər,
Sevdalı afətimiz,
Canla məhəbbətimiz.

22.10.2008

SALAMİN CƏFASI

Salamın cəfası ağırmı?
Salamdan hiylələr doğurmu?
Mənə salam vermib,
yanımdan ötənlər,
Guya ki, kamına yetənlər,
Salam ərəb kəlamı,
Onu eşqlə dilə alır hamı.
O sülhün beşiyi,
Dilimiz ona çəkir keşiyi,
Salam dili yandırmaz,
Naqisliyi oyandırmaz.
O qəlbdən ürəyə gələr,
Hamının üzünə gülər.
O da pulnan deyil ki,
Salama əyil ki,
Rəbin dərgahına çatsın,
Səni də sevdiklərinə qatsın.

30.05.2008

İNSAN ELƏ XƏSİSDİR

İnsan elə xəsisdir,
İçində bu bəd hissdir,
Onu yıxan nəfisdir.
Varlı vara yapışar,
Bu bəlayla çarpışar.
Kasıb qayğılarıyla,
Saysız duyğularıyla-
Ölənədək çalışar,
Dərdi-sərlə yarışar.
Varlının varı - bəla,
Verir ona dərd-bəla.
Olmayır rahatlığı,
Daim narahatlığı.
Var ona can qorxusu,
Ərşə uçur yuxusu.
Gecə-gündüz hay-həşir,
Çox vaxt verir vay həşir.
Evini qala yapar,
Öləndə dinclik tapar.



***

Kasıbın əzabları,
Aclıq haqq-hesabları.
Dolanmaqçın çalışar,
Toz-torpağa bulaşar.
Zülmü heç tükənməyir,
Bu ağrıdan dönməyir.
Ac qarınla öcəşir,
Ürəyini qəm deşir.
Dünya dolub-boşalır,
Hansı doğulan qalır
Bu cahanda əbədi?
Bəs bu çarpışma nədi?
Həm kasıb, həm də varlı,
İkisi də qubarlı.
Dərdi-sərin içində,
Zaman ömrü biçində
İksinə də can şirin,
Buraxmaz əldən birin.
Əgər əzrayıl gəlib,
Canın qapısın dəlib,
Həm kasıb, həm də varlı,
Bu həyatdan yararlı.
Ölümü sayar qada,
Ürəkdə qorxunc nida,
Edər həyata sevda.

***

Ey Şadiman, binadan,
Doğulandan anadan,
Bəşər çəkir zilləti,
Budur insan xisləti.
Onu güdən də hissdir,
O hər şeydə xəsisdir.

07.06.2008

***

Dərd çəkdi məni içinə,
İçindən çıxa bilmədim
Bağında düşdüm biçinə,
Çəpərin yıxa bilmədim.

Gözümdə yaşı ağlatdı,
Toy qurub xonça bağlatdı,
Könlümdə ahı çağlatdı,
Üzünə baxa bilmədim.

22.07.2009

***

Ağrılar içində alışıb yandım,
Ahımı bircə an görən olmadı.
Dərd məndən boylandı, mən onu andım,
Onun qollarını gərən olmadı.

Canımız çarpışır acı dövranla,
Dünya da oynayır könlü viranla,
Acılar illədi, xoşbəxtlik anla,
Deyirlər qəmsiz gün sürən olmadı.

05.01.2010

DƏRYALAR İÇİNDƏ CAN AXTARIRAM

Ömrü tufanlara salıb taleyim,
Dilindən qopacaq can axtarıram.
Mənimlə döyüşə qalıb taleyim,
Dəryalar içində can axtarıram.

Doğulduğum gündən bu savaş gedir,
Ya tələsib gedir, ya yavaş gedir,
Bəbəkdən aşağı qanlı yaş gedir,
Dəryalar içində can axtarıram.

Mən tufana möhtac, tufan mənə ac,
Ağlayan könlümə heç verməyir bac,
Duyğuma, hissimə tapmayır əlac,
Dəryalar içində can axtarıram.

Fırtına hayqırır, dalğa tələsir,
Könlümdə Xəzərin yelləri əsir,
Ruhun fəqanına, sanki əl əsir,
Dəryalar içində can axtarıram.

Dənizi sanıram təbimə yuva,
Suların rəngində göydəki hava,
Coşan Xəzər edir aləmlə dava,
Dəryalar içində can axtarıram.

10.04.2007/ Neft Daşları

***

Ürək var abad olur,
İçində təzad olur.
Dilində imdad olur,
Ağılında dad olur.
Hər ahı bərbad olur,
Əzabları yad olur,
Ağrıdan azad olur,
Yaxşı-yaman ad olur.

6.02.2008

AĞLIMIN SELLƏRİ APARIR MƏNİ

Sanki yapışmışam saman çöpündən,
Ağlımın selləri aparır məni,
Ürək tarlasından gedən səpindən,
Ruhumun telləri qoparır məni.

Sükutun içinə girib batıram,
Fikir dəryasına min tor atıram,
Tora gövhər düşür suya qatıram,
Suların içində o arır məni.

Şadiman, üşüyən qucaq kimiyəm,
Mən özüm özümdən qaçaq kimiyəm,
Atəşi yel vuran ocaq kimiyəm,
Ocağın içində od sarır məni.

14.08.2008

ÖMÜR AXIR SU KİMİ

Ömür axır su kimi,
Zamandan ası kimi,
Əzabın yası kimi,
Hicran qidası kimi,
Həyat əsası kimi,
Canın libası kimi,
Tanrı qəvvası kimi.

Ondan alır gücü can,
Boğur içdə həyəcan,
Ya vüsal, ya da hicran.
Könül havası kimi,
Şeytan davası kimi,
Dilin duası kimi,
Zaman da ası kimi,
Ömür axır su kimi.

19.08.2008

NƏDİR BELƏ SİNƏMDƏ ÇIRPINIR İKİ SEVDA?

Nədir belə sinəmdə çırpınır iki sevda?
Biri Rəbbin qüruru adı ruh, haqqdan nida,
O biri cism, bədən nəfsini tutan qida,
Hər ikisi çarpışır bir ömür yuvasında,
Dolaşır haqq şərqisi könlümün havasında.

Bu duyğular içində cana heykəl yonuram,
Ocaq içinə düşən bir kösövtək yanıram,
Sabahın ağrısını mən bu gündən anıram,
Yaradan umacağım dilimin duasında,
Dolaşır haqq şərqisi könlümün havasında.

Ruhla bədən çarpışır doğulandan dünyaya,
Yuxularım öcəşir gözüm gülür röyaya,
Selləşir düşüncələr ağıl kəsməz dəryaya,
Ürəyim can arayır dəryalar qəvvasında,
Dolaşır haqq şərqisi könlümün havasında.

Nə qədər ki, sağam mən ruh bədənə əsirdir,
Bədənim də ruhumun gizləndiyi qəsirdir,
Suyla-qanla çalxanır Rəbbimə bağlı sirdir,
Doğulandan döyüşüb ölürük davasında,
Dolaşır haqq şərqisi könlümün havasında.

Şadimandan sormayın ağrıya şam olmağı,
Bu ağrılar içində diləkdən kam almağı,
Göylər təki tutulub, bulud təki dolmağı,
Bədən şəfasın tapır ruhunun dəvasında,
Dolaşır haqq şərqisi könlümün havasında.

27.07.2008

****

Dözüm işğalda,
Özüm işğalda,
Sözüm işğalda,
Közüm işğalda.
Mən gündüz-gecə,
Allah, bəs necə
Dözüm işğalda?

03.07.2008

EY SİZƏ CAN DEDİKLƏRİM

Ey sizə can dediklərim,
Canımı büryan etdiklərim,
Məramına yetdiklərim,
Axı canımda hal qalmadı,
Heç kimlə belə rəftar olmadı,
Niyə mənə dərd verirsiz?
Bu dərdi elə bəd verirsiz.
Ürəyimin içinə zəlzələ saldız,
Qoparıb sinəmdən onu aldız.
Fəqan etdim!
Mən ki, sizə hər şeyimi
ərmağan etdim.
Gəlin sinəmi yarın,
Ora varın,
Sizə olan sevgimi qəlbimdə axtarın.

***

Vardan gələn istək - varla bitər,
Məni candan bezdirdiyiniz yetər,
Canımı büryan etdiklərim,
Ey sizə can dediklərim.

12.06.2008

BÜLBÜL TƏKİ ÖTÜR KÖNÜL

Bülbül təki ötür könül,
Tənlə ürək arasında.
Min bir eşqə yetir könül,
Arzu-dilək arasında.

Zülmətləri şam aparır,
İstəkləri kam aparır,
Kam edəni tam aparır,
İki mələk arasında.

Düşündükcə can üşüyür,
Cana yetən an üşüyür,
Damar donur, qan üşüyür,
Beyin həlak arasında.

Heyrət edir səma mənə,
Canı alıb verir tənə,
Çırpınıram dönə-dönə,
Eşqlə ürək arasında.

26.01.2008

DEMƏ, ÖMRƏ NƏ VƏFA

Demə, ömrə nə vəfa,
Vəfa qazanır cəfa.
Qazanan görür səfa,
Zamandır cana oğru,
Gedirik haqqa doğru.
Gec-tez qalibdir doğru!
O, Allaha çıraqdır,
O, düzlükdən soraqdır.
Haqqın çevrəsində biz,
Bir gün çökəcəyik diz.
Başdan gələn ağlımız,
Bizim həyat nağlımız.
Dünyaya qürur verir,
Gözümüzə nur verir.
Bədən can aşığında,
Bu cahan işığında
bircə ömür yaşayır,
Can zamana oxşayır.
Bir ömür baxtı olur,
Tən adlı taxtı olur.
Öz hökmünə hakimdir,
Özü də bilmir kimdir?
Şadiman, sağlıq şəfa,
Demə, ömrə nə vəfa.

22.10.2008

UÇMA MÖHNƏT QUŞU BAŞIM ÜSTÜNDƏ

Uçma, möhnət quşu, başım üstündə,
Canımın kədəri sellərtək daşır.
O ki, ürəyimin durub qəsdində,
Ağrısı gözümün yaşından aşır.

Bu payız günündə hər yer sapsarı,
Ömrün anlarının bənizi sarı,
Mən də yol gedirəm xəzana sarı...
Xəzan can evimin daşından aşır.

Şadiman rüzgarın üstündə əsir,
Qurub əzabına ümidi qəsir,
Qapımın ağzını hər gün qəm kəsir,
Bu qəm də ömrümün qışından aşır.

22.10.2008

YENƏ SEVDALANIB UÇURSAN NƏDƏN?

Yenə sevdalanıb uçursan nədən?
Diləklər içində gəzən zamanım.
Qapımı döyərək baxırsan gendən,
Anları ömrümdən üzən zamanım.

Daim isti olmur həyat yuvası,
Onun gah sərt olar, gah xoş havası,
Qapımdan boylanır dərdin yavası,
Nəş'ələr xətrinə bəzən zamanım.

Dünya Şadimanla beş-daş oynayır,
Yenə bəbəklərdə qan-yaş oynayır,
Ağıl olmayanda boş baş oynayır,
Yer-göy aha düşür bə'zən zamanım.

13.09.2008

AĞRILAR İÇİNDƏ NƏŞ'Ə SAÇIRAM

Dolur ürəyimə min ağrı-acı,
Ağrılar içində nəş'ə saçıram.
Tapmıram könlümə varlıq əlacı,
Yolların ağına düşüb qaçıram.

Sevdalı gündüzlər qəlbə gəl deyir,
Hər fikir içində çox möhnətim var.
Anım bağra salır gah şər, gah xeyir,
Bədəndə can dolu bir zinətim var.

Bu zinət həm nurum, həm də ləlimdir,
Ağıldan ürəyə uzanan körpü.
Haqqıma gedəli qoşa əlimdir,
O uçsa qeyb olar hissimin köpü.

Onu açmağımın zamanı sirrdir,
Bu sirrdən o yana yolumuz yoxdur.
Hamıya İlahi qapısı birdir,
Günaha batana bu qapı oxdur.

29.05.2008

BİZ QAÇMARIQ, ZAMAN BİZDƏN QAÇAR

İnsan boya-başa çatmış ağac,
Budaqlar üstə yarpaqlar
başına bəzəkli tac.
Saat qınından sıyrılmış qılınca bənzər,
Bəxtimizə düşən anlarla boy-boya gəzər.
Saniyələr kəhkəşandakı
uzaq səyyarələrtək saçar,
Hərdən biri ömrümüzdən qopub uçar,
Biz qaçmarıq, zaman bizdən qaçar.

***

Min bir diləklərlə cilalaşarıq,
Həm sevinclə, həm kədərlə yollaşarıq,
Gahdan dəli sellərtək coşub-daşarıq,
Bu minvalla bəxtimizə düşən günləri yaşarıq.
Yaxşı-pis əməllərimiz haqqa car,
Biz qaçmarıq, zaman bizdən qaçar.

***

İdrakla ürəyin arasında qalan can,
İçində tüğyan edir hiss-həyəcan,
Dərdini bayram edər,
Bütün ağrıları ram edər,
Nəfsimizə yıxılar,
Yaradan tərəfindən üzünə pis baxılar.
Bütün bunlara dözər
bədənimizdən qopana qədər,
Haqq dərgahında öz taxçasını tapana qədər.
Vaxta qoşular, olmaz naçar,
Biz qaçmarıq, zaman bizdən qaçar.

***

Saatın əqrəbləri saniyəni döyəcləyər
ağacdələn kimi,
Sanki Rəbbin verdiyi ömrün həkimi.
Anların kəfkiri yellənçəkdə oynayan ana uşağı,
Ömür günümüzə dolanan göy qurşağı,
Etdiklərimiz və etmədiklərimiz arasında hayqırır,
Elə onu da bu tələtümlər içində hay qırır.
Vaxt ömrümüzün əlində açar,
Biz qaçmarıq, zaman bizdən qaçar.

***

Ömrün sabahına tələsməyənlər,
Vaxtın üstündə əsməyənlər,
Tənbəllik bağını qollarından kəsməyənlər,
Ötüşən anlar geri qayıtmayır,

Tale yatanı ayıltmayır.
Günləri havayı sovurma,
Ətalət sacında qovurma.
Şadiman, demə, bəxt gəlib qapını açar,
Biz qaçmarıq, zaman bizdən qaçar,

07.06.2008

GƏL EY FƏLƏK

Gəl ey fələk, bax ağrıyan başıma,
Bir əlac et gözdən axan yaşıma,
Nə ola bir dönəsən sirdaşıma,
Bu canımın ahına ağlayan var,
Ümidini Rəbbinə bağlayan var.

Diləklərim sərsəri Məcnun təki,
Didilirlər əlçim-əlçim yun təki,
Üyülürlər dəyirmanda un təki,
Vəcdə gəlib haqqına çağlayan var,
Ümidini Rəbbinə bağlayan var.

Gəl ey fələk, hicran içrə qəm yüküm,
Dərdlə dolu, sirli bu aləm yüküm,
Kirpiklərdən sallanıbdı nəm yüküm,
Taleyini ahla varağlayan var.
Ümidini Rəbbinə bağlayan var.

İlhamıma qanad verdin uçmağa,
Dəli təki dağda, daşda qaçmağa,
Atəşi ilə aləmə nur saçmağa,
Bilmirsənmi ürəyi dağlayan var?
Ümidini Rəbbinə bağlayan var.

Gəl ey fələk, bu Şadiman biçarə,
Səndən umur ürəyinə bir çarə,
Salma könlü sən qıfıla, açarə,
Gecə-gündüz ruhla çıraqlayan var,
Ümidini Rəbbinə bağlayan var.

14.10.2010

QADINLAR ÜRƏKDƏN ŞAİR OLURLAR

Qadınlar ürəkdən şair olurlar,
Yanırlar simlərin çırağı üstə.
Onlar özlərinə dair olurlar,
Alışır hissləri varağı üstə.

Elə doğulandan eşqin əsiri,
Sevdayla doludur büllur qəsiri,
Şeirlə açılar aləmə sirri,
Qəlbləri cuş edər hər ağı üstə.

Qadınlar ağlayar öz laylasına,
Bürünər misralar eşq həyasına,
Sözlər əlvan olar can boyasına,
Ahlar pıçıldayar sorağı üstə.

Qadınlar sözlərə dəli kimidir,
Şirin laylaların dili kimidir,
Haqqın tumar tutan əli kimidir,
Sevərlər dünyanı marağı üstə.

Qadınlar ürəkdən şair olurlar,
Qapılıb sükuta yaman dolurlar,
Tufana düşəndə həşir salırlar,
Telləri sızlayır darağı üstə.

28.01.2009

MƏN BELƏ DÜNYADA QALA BİLMİRƏM

Ey mənim qəlbimi duyan adamlar,
Göründüyüm kimi ola bilmirəm.
Kədər ürəyimə ağrını damlar,
Mən belə dünyada qala bilmirəm.

Alın cahan dolu günahdan məni,
Siz allah, qoparın bu ahdan məni,
Öldürün, basdırın sabahdan məni,
Mən belə dünyada qala bilmirəm.

Şeytan xislətlilər gülür üzümə,
Tökülür su dolu bardaq közümə,
Çarə aramıram daha özümə,
Mən belə dünyada qala bilmirəm.

Şimşəyi çatladır göyün qurşağı,
Asılıb haqqı da başıaşağı,
Batıbdı nifrətə bu yer uşağı,
Mən belə dünyada qala bilmirəm.

Adəmin günahın çəkən olmadı,
Onun alma bağın əkən olmadı,
Oğru gözlərini tökən olmadı,
Mən belə dünyada qala bilmirəm.

Şadiman sığınıb bir küncə çoxdan,
Çıxır misra-misra qəlb dincə çoxdan,
Həsrətəm bir udum sevincə çoxdan,
Mən belə dünyada qala bilmirəm.

31.01.2009

ŞAİRİN VƏZİFƏSİ

Şairin vəsifəsi şair olmaq,
Könlündə haqqa yuva salmaq,
Onun qəlbini almaq.
Düzü yazmaq,
Şərə quyu qazımaq,
Dərisini boğazından çıxarsalar da,
Ürəyini qoparıb aparsalar da,
Düzə qələmi çalmaq,
Bulud təki dolmaq,
Şairin vəzifəsi şair olmaq,
Şair olmaq...

31.01.2009

İLAHİ, ETDİN NƏVA

İlahi, etdin nəva,
Qıldın könlümə dəva.
Sükutu buldun rəva,
Sanki qəlbimə hava.
Haqdan gələn xoş dua.
Qəmini sata-sova,
Gurşadın çıxa ova.
Canımda ahı yuva,
Dərdin burnunu ova.
Hər cür məlalı qova,
Şimşəyi dönə qova,
Düşə bir ruhla tova,
Dola kamla can yuva.

26.02.2009

NƏLƏRİ ÇƏKMİŞƏM MƏN

Aralanıb ömürdən,
Çıxmamışam əmrdən.
Nalə çəkib ürəyim,
Kül olubdu diləyim,
Bu nalənin içində,
Ağılımı biçində,
Cana sahib çıxmıb tən,
Nələri çəkmişəm mən,
Nələri çəkmişəm mən.

13.09.2009

DƏRDİMLƏ TƏKMİŞƏM MƏN

Əzablarım dolanır,
Zamanımın başına.
Batırıram qəlbimi,
Gözlərimin yaşına.
Ağladır ürəyimi
Ağrı dolu duman, çən.
Dərdimlə təkmişəm mən.

Dilim haqqı arayıb,
Haqq dilimdə qarıyıb,
Müsibətim yarıyıb.
Saatlarım ah ilə,
Qəm dolu sabah ilə.
Ağrımı əkmişəm mən,
Dərdimlə təkmişəm mən.

11.10.2009

MƏDDAHİ

Qəlbində min cürə fitnələr əsər,
Məqsədə yetməkçin qapılar kəsər,
Əyilmək şəninə eyləməz əsər,
Bezdirməz əməli, sözü məddahı.
Aləmə xar edər özü məddahı.

Hiylə arşınıyla min bir don biçər,
Dili tarazlayar, ağzı bal içər,
Mənlikdən, qürurdan, hər şeydən keçər,
Bu eşqlə yandırar közü məddahı,
Aləmə xar edər özü məddahı.

Sanar dəyanətdir əyilməyini,
Haqqın baxışıyla döyülməyini,
Boğazdan yuxarı öyülməyini,
Boğaz da döyəclər düzü, məddahı,
Aləmə xar edər özü məddahı.

Fəsadlar içində ötüşər ömrü,
Hər cürə xətaya bitişər ömrü,
İblislə ülfətdə şeytan, şər ömrü,
Qoruyar min rəngli üzü məddahı,
Aləmə xar edər özü məddahı.

Yaltaqlıq - Allaha imanı olar,
Xəstə mənliyinə dərmanı olar,
Ağlın taxçasına səhmanı olar,
Ayırar ayranı üzü məddahı,
Aləmə xar edər özü məddahı.

Mənlik alçaldıqca, şərəf kiçilər,
Həyat səadəti bunla ölçülər,
Sığmaz əndazəyə, sapa ölçülər,
Saxlayar beləcə izi məddahı,
Aləmə xar edər özü məddahı.

Şadiman, etmədi bir kimsə çara,
Tezcə də zay edər düşürsə hara,
Ürəyə yaradır, hər üzə qara,
Çökdürər vaxt gələr dizi məddahı,
Aləmə xar edər özü məddahı.

27.10.2009

İLAHİ, TƏNTİYƏN FƏRYADLARIMI

İlahi, təntiyən fəryadlarımı,
Qaldır ərşə dönsün, tufana gəlsin.
Könlümdə titrəyən imdadlarımı,
Götür göylərinə ürfana gəlsin.

Ağlat gözlərimdə yaşları bir-bir,
Biqərar ürəyim bilməsin səbir,
Bu sitəm könlümə eyləsin cəbir,
Götür göylərinə ürfana gəlsin,

Kimsə aramasın dərdimə məlhəm,
Can verim bir yerdə qəm ilə bahəm,
Onsuzda binadan qəm dolu ahəm,
Götür göylərinə ürfana gəlsin.

İlahi, yerlərin bəşəri iblis,
Çuğlayıb beynini dərd dolu bir hiss,
Adəmi yaratdın ağlı niyə pis?
Götür göylərinə ürfana gəlsin.

Acı toxundan çox, seldi ağrısı,
Doğulub xəlq olan haqqın oğrusu,
Baş açа bilməyir özü doğrusu,
Götür göylərinə ürfana gəlsin.

Pisliyin içində matəm qaynayır,
Matəm qazanında sitəm qaynayır,
Dünya da uşaqtək qəmlə oynayır,
Götür göylərinə ürfana gəlsin.

İlahi, Şadiman səmanın quşu,
Əzəldən sevmədi yer uçulmuşu,
Uçub dərgahına ağılı-huşu...
Götür göylərinə ürfana gəlsin.

27.10.2009

BOYNUMA DOLANIB ZAMANIN İPİ

Boynuma dolanıb zamanın ipi,
Onu boğazımdan aça bilmirəm,
Kəsib dərdləriylə qapımın ağzın,
Mən bu müsibətdən qaça bilmirəm.

Gözlərim dolanda güc verir yaşa,
Az qalır bəbəyim səddini aşa,
Şahintək vururam canı dağ-daşa,
Düşür qanadlarım uça bilmirəm.

Dilim kilidlənir lal olur qalır,
Qəlbimdə min cürə hal olur qalır,
Könlümün atəşi xal olur qalır,
Alovu göy dəlir quca bilmirəm.

01.11.2009

***

Siz ey qəlbim ilə dilbir olanlar,
Onun qapısını açmağa gəlin.
Ağlın məkanıyla pak sirr olanlar,
Nazlı tərlan təki uçmağa gəlin.

Şadiman ah edir bu can evində,
Taxtından düşməyir hicran evində,
Ürəyi əriyib gedər divin də,
Onu mələklərtək qucmağa gəlin.

13.12.2009

ÇƏKİR KÖNLÜM AĞRILAR

Gecə-gündüz çəkir könlüm ağrılar,
Göyə çıxım, yerə batım, bilmirəm.
Əzablarım yara üstə sarğılar,
Bu minvalla hara çatım, bilmirəm.

Fəğanlarda titrər qəlbin dirəyi,
Üzə gülən oxlar qəfil kürəyi,
Qınaq edib dilbilməzlər ürəyi,
Onu təndən necə atım, bilmirəm.

Dərdin özü şəbnəmlərə bulaşıb,
Damlaları gözlərimə suvaşıb,
Səbir kasam dolub ahla çox daşıb,
Könül odun ora qatım, bilmirəm.

Tuş gəlmişəm qınaqlara can dolu,
Ömrə qismət yaxşı-yaman an yolu,
Bağlayıbdı ağrı-acı əl-qolu,
Başı atıb necə yatım, bilmirəm?

Ey Şadiman, sevdan qara gəlibdi,
Yara üstdən qəlbə yara gəlibdi,
Canım daha ahu-zara gəlibdi,
Ahın yükün necə dartım, bilmirəm.

01.11.2009

SÖZDÜ BİZİ NİZAMA SALAN

Sözdü bizi nizama salan,
Sözdü dildə, könüldə qalan.
Sözlə açılır sabahımız,
Sözlə qırılır hər ahımız.
Sözdən başlanır ali hünər,
Söz sönmüş vulkan, qızmış nər,
Söz insanı edibdir ali,
Onla bulunur həbsi-hali.
Sözün açılır gülüstanı,
Tikanlı, bəhərli bostanı.
Sözdən doğulur şeir, misra,
Edir dürr canı seyir misra.
Söz həm kindir, küdurətdir,
O insanlığa zərurətdir.
Söz insanın başının tacı,
Şərə peyman olanda acı.
Söz dilimizin açarıdır,
Yer tapmayanda qaçarıdır.
Sözlə vurulur min bir təhnə,
Söz hər yerdə həyata səhnə.
O gah endirər, gah qaldırar,
Duyan könlü təblə doldurar.
Söz qüdrətin haqq sədasıdır,
Söz bəşərin can nidasıdır.
Söz açır hər bir dili asan,
Sözdən sonra yarandı insan.

29.012009

AĞLIM AH SÖYLƏYİR, ÜRƏYİM FƏĞAN

Ağlım ah söyləyir, ürəyim fəğan,
Canım bu dünyadan uça-uçdadır.
Gün qüruba gedir, gəlir gündoğan,
Günəş şəfəqləri aça-açdadır.

Mən də bu ahənglə seyrə dalmışam,
Səssiz biyabanda tənha qalmışam,
Gah ərzə enmişəm, gah ucalmışam.
Ömrü udan zaman qaça-qaçdadır.

Kimsə sual vermir vurhavur nədən?
Dünyanı tərk edib doymayır gedən,
Haqqın pişvazına özün qul edən,
Dünyanın məhvəri puça-puçdadır.

Biz də özümüzü məxluq sanırıq,
Məxluqat adıyla çox aldanırıq,
Düşüncə oduna qəlbdən yanırıq,
Bilmirik ağlımız suça-suçdadır.

Şadiman, dünyanı seyrə gələnlər,
Pisliyi dərd edib xeyrə gələnlər,
Haqqın dünyasına gedir ölənlər,
Xeyir ilə şəri uca-ucdadır.

25.10.2009

SİZ MƏNİ TANIMAQ İSTƏSƏZ ƏGƏR

Siz məni tanımaq istəsəz əgər,
Coşan misraların selinə gəlin.
Bu gəliş etməsin parıltıtək zər,
Türkün coşub-daşan dilinə gəlin.

Günlərim tökülən payız yarpağı,
İsidir alışan sehri torpağı,
Könül rişəsindən qopan hər ağı,
Yanır cızha-cızla külünə gəlin.

Ürəkdən doğmasa sözlər bayağı,
İlhamın hər qəlbə dəymir ayağı,
Siz də havalanın bülbül sayağı,
Ruhun bağçasının gülünə gəlin.

Siz məni tanımaq fövqündə olun,
Tuti duyğuların zövqündə olun,
Düşün diyar-diyar ayağıyalın,
Haqqın şeir adlı elinə gəlin.

Gəlin sözə-sova, misraya doğru,
Duyun cadar-cadar alışan bağrı,
Görün ki, harayım yalanmı, doğru?
Qəlbin ud fəryadlı telinə gəlin.

Şadiman söz bəslər qucaq içində,
Doğulur misrası sıcaq içində,
İsinmək istəsəz ocaq içində,
Atəşi qövr edən yelinə gəlin.

12.12.2009

NİFRƏT

Nifrəti içində püskürən çənin,
Bu nifrət haradan kökünü atıb?
Yığıb qutarmaq da olmayır dənin,
İndi nifrətlərin əkini artıb.

05.10.2010

NEYLƏYƏK, İNSANLARIQ

Şəri-bəla qanlarıq,
Haqqı nə vaxt anlarıq?
Dinimizi danlarıq,
İblisi çox yanlarıq,
Yalanla leysanlarıq,
Xətaya ehsanlarıq,
Addımı nöqsanlarıq,
Cismə acı canlarıq,
Dərdlə həyəcanlarıq,
Hər qəmə hicranlarıq,
Aha qan qusanlarıq,
Zirvə tutan şanlarıq,
Ağılla loğmanlarıq,
Hisslərlə şeytanlarıq,
Nəfsə dəm tutanlarıq,
Göy-yerə sultanlarıq.
Bir-birin böhtanlarıq,
Zən ilə ümmanlarıq,
Ruh ilə dumanlarıq,
Hər addım yamanlarıq,
Səhv dolu fərmanlarıq.
Fəhmlə zamanlarıq,
Min ahı-amanlarıq.
Ölümü asanlarıq,
Neyləyək, insanlarıq!

21.02.2009

BU ADAM BAZARINDA İNSANLIĞA ACAM MƏN

Bu adam bazarında insanlığa acam mən,
Haram var bu dünyadan baş götürüb qaçam mən?

Gördüklərim həyatmı sutək ömrə calanıb?
Quş təki canım ola, qanad açım uçam mən.

Bu tapmaca zamanın işığı gözə çatmır,
Bəlkə cahan bir günah, bəndə adlı suçam mən?

Kirin-kirin alışan saatlar gündən qopur,
Ömür ocağı tüstü onu udan bacam mən.

Duyduqlarım əzabım, duymadığım korluğum,
Candan çəkdiklərimə ömrüm boyu bacam, mən.

İçimdən bir ah qopur sancılır can tirinə,
Haqq ətəyindən tutan ucalardan ucam, mən.

Ey Şadiman nədir ki, ürəyini oxlayan,
Ruhum candan aralı, ikisinə ucam mən.

21.03.2011

ÜRƏYİN CAN SİRRİNİ KİMSƏYƏ AÇMAQ OLMUR

Ürəyin can sirrini kimsəyə açmaq olmur,
Nə də ondan bir addım uzağa qaçmaq olmur.

Sandığında gizləyir hər ağrı, hər acını,
Onun ağrılarıyla şimşəktək saçmaq olmur.

O gizlənir sinədə göy güdən günəş təki,
Atəşi can yandırır qapısın açmaq olmur.

Bardaş qurub könüldə duyğunun ağasıtək,
Qanadlanıb əlindən heç yerə uçmaq olmur.

Şadiman biçarənin hər işinə əl qatır,
Nə sinədən qopartmaq, nə onu qucmaq olmur.

21.03.2011

ŞAİRLƏR DÜNYANIN QƏM DAŞLARIDIR

Şairlər dünyanın qəm daşlarıdır,
Fələyin ağlayan göz yaşlarıdır...

Ruhları ovunmaz dünya üzündə,
Bişər ağrıları hicran közündə,
Bağrı parçalanar ahdan sözün də,
Sanki Yaradanın sirdaşlarıdır,
Şairlər dünyanın qəm daşlarıdır.

Aləmə görk olar sağlıqları da,
Həyata, cahana bağlıqları da,
Dünyaya üsyançı yarlıqları da,
Ağlayan, sızlayan öz başlarıdır,
Şairlər dünyanın qəm daşlarıdır.

Yanar ürəkləri, yanar dilləri,
Ahları ovuda bilməz illəri,
Əsər bəxtlərində hicran yelləri,
Köhnə təbləri yox, üst-başlarıdır,
Şairlər dünyanın qəm daşlarıdır.

Oturar dərd yükü çiyinlərində,
Çalxanar xeyir-şər beyinlərində,
Sözün min bir donu əyinlərində,
Misralar Tanrının tələşlarıdır,
Şairlər dünyanın qəm daşlarıdır.

Onlar Nəsimitək soyulacaq da,
Vaxtsız məzarlara qoyulacaq da,
Hələ çox qəlbləri oyulacaq da,
Ahları sözlərin başdaşlarıdır,
Şairlər dünyanın qəm daşlarıdır.

Onlar İlahinin söz ehtiyatı,
Onlardan başlayır insan həyatı,
Onlar layla, qoşma, qəzəl, bayatı,
Fələyin ağlayan göz yaşlarıdır,
Şairlər dünyanın qəm daşlarıdır.

16.09.2010

ÜRƏYİMDƏN DAŞ ASILIB

Ürəyimdən daş asılıb,
Bəbəyimdən yaş asılıb,
Bədənimdən baş asılıb,
Çəkir məni günüm dara,
Mən bilmirəm gedim hara?

Bu adamla dolu damlar,
Gah ağrıyar, gah da kamlar,
Dolub daşar canda kamlar,
Sinə dözməz ahu-zara,
Mən bilmirəm gedim hara?

Şadimana həyat baha,
Alır atır onu aha,
Dözmək olmur dərdə daha,
Bağırımda açıb yara,
Mən bilmirəm gedim hara?

20.10.2010

DÜNYAYA TİKƏ DÜŞMÜŞƏM

Yel keçib əsib ruhumda,
Dünyaya tikə düşmüşəm.
Boğulur bədən ahımda,
Bir ağır yükə düşmüşəm.

Fikirlər yolumdan sapır,
Yeddi qanadlı at çapır,
Gəlib yenə canı tapır,
Əcəbcə bərkə düşmüşəm.

25.12.2010

***

Fikirlər hörmürçək toru kimidir,
Ürəyi toruna keçirir tez-tez.
Çiçəklər arıyan arı kimidir,
Pətəyə südünü içirir tez-tez.

Gah qəlblə pıçıldar, gah da ağılla,
Əridər dilləri şirin noğulla,
Özünü aldadar uzun nağılla,
Nağılı könülə köçürür tez-tez.

25.12.2010

ÜZÜM DANNANA-DANNANA

Keçirdirəm ömür günü,
Üzüm dannana-dannana.
Təbim qurub toy düyünü,
Sözüm dannana-dannana.

Hicran gəlib başdan aşır,
Hər işim tələşdən aşır,
Gözlərimdə leysan daşır,
Közüm dannana-dannana.

Heyrətimə sığınmışam,
Dərdlərimə uğunmuşam,
Ah içinə yığınmışam,
Özüm dannana-dannana.

Deməsinlər bu nə sitəm,
Bülbül təki gərək ötəm,
Hər acımı çapıb ötəm,
Dözüm dannana-dannana.

Ey Şadiman, düz tut dili,
Fələk vurar yazan əli,
Boğar səni ruhun seli,
Dizim dannana-dannana.

25.12.2010

GƏL TOXUNMA ÜRƏYİMƏ, EY BƏŞƏR

Gəl toxunma ürəyimə, ey bəşər,
Bu dünyaya ağrımağa gəlmişəm.
Hara dəysə ahdan min bir qəm düşər,
Dərdlərimi yoğurmağa gəlmişəm.

Məndən keçir aləmlərin dərd üzü,
Aşikara çoxunun var mərd üzü,
Yaxşı bilir şeş-beş atan nərd üzü,
Haqdan haqqı doğurmağa gəlmişəm.

Doğulanın ölənlərə fəhmi yox,
Ölüm-itim çoxaldıqca zəhmi yox,
Bu adəmsə, niyə onun rəhmi yox?
Elə bunu bağırmağa gəlmişəm.

Canım mənə can söyləyir, mən cana,
Necə dözsün bu atəşlə tən cana?
Hər ikimiz yığılmışıq lap cana,
Onu təndən çağırmağa gəlmişəm.

Şadimana bəxt verməsə yazını,
Çəkdi dağı etdi ona nazını,
Belə yazıb özü yazan yazını,
Mən də boş-boş çığırmağa gəlmişəm.

15.08.2010

MƏNİ BU TALELƏ TƏK BURAXMAYIN

Dərmansız dərdimə çara demədim,
Mənim deməyimə siz heç baxmayın.
Yaram qan axıtdı yara demədim,
Məni bu talelə tək buraxmayın.

Siz ey varlığımdan xəbər tutanlar,
Dəli harayıma gəlib çatanlar,
İstəklə könlümdə birgə yatanlar,
Məni bu talelə tək buraxmayın.

O ürək ağrısı, o can sovqatı,
Heç zaman düzəlməz daha ovqatı,
Əzabdan əzaba bükülür qatı
Məni bu talelə tək buraxmayın.

İynə ucu boyda işığı yoxdu,
Onun qəlbim kimi aşığı yoxdu,
Zəhəri udmağa qaşığı yoxdu,
Məni bu talelə tək buraxmayın.

Mən can deyəniyəm, o can alanı,
Nə doğrusu varmış, nə də yalanı,
Bircə ümid imiş olub-qalanı,
Məni bu talelə tək buraxmayın.

Şadiman hicrandan boylanıb baxır,
O nə kürədir ki, yandırıb yaxır,
Yenə göylərində ulduzu axır,
Məni bu talelə tək buraxmayın,
Məni bu talelə tək buraxmayın.

05.03.2011

HİCRAN KÜLƏKLƏRİ ƏSİR BAŞIMDA

Hicran külәkləri әsir başımda,
Dolaşır ağrısı bu göz yaşımda.
Alır bәbәkləri bir uyğu kimi,
Ürәyi titrәdir xoş duyğu kimi.
Düşüncәm qәlbimә peymana gәlir,
Soyuq baxışına imana gәlir.
Ağladır içimi dәrdә ehtiras,
Qurur ümidimin qapısında yas.
Әlim ətəyimdən yapışıb qalıb,
Həsrətim vüsalla çarpışıb qalıb.
Dilimin cövrünə dözmür səbirim,
Ağlım bilməcədir, hissim qəbirim.
Taleyin atını minib çapıram,
Özümə əzabdan qala yapıram.
Suallar heykəltək durub qarşımda,
Hicran külәkləri әsir başımda.

05.03.2011

ÜZÜMƏ BAĞLANAN QAPILAR...

Üzümə bağlanan qapılar dilsiz,
Onu bağlayana sözü olmayır,
Nə qədər bu dərdlə tapılar dilsiz,
Qapı bağlayantək üzü olmayır.

Qapı üzündəki dəri utanır,
Onu örtənlərin üstə atdanır,
Dodaqlar diş sıxır, dillər qatdanır,
Astarı gizlədən üzü olmayır.

Bağlı qapılardan keçmək müşküldü,
Onu arşınıyla ölçmək müşküldü,
Onun son ucunu seçmək müşküldü,
Əyri arayanın düzü olmayır.

Şadiman, gəl süzmə bağlı qapını,
Salma düyünlərə könül sapını,
Sorma kimsələrdən həyat çapını,
Min üzü olanın özü olmayır.

02.04.2011

YENƏ İLAHININ GƏLİR İŞIĞI

Yenə İlahinin gəlir işığı,
Günəşin içindən boylanan nurdu.
Ağıla ziya tökür haqqın qaşığı,
Gözdə bardaş qurur, sanki qürurdu.

İdraklar çarpışır dar məkanında,
Hər kəsin həyatı öz imkanında,
Saat əqrəbləri an təkanında,
Ömrün günlərinə balta vururdu.

Zaman minnətçidir insan adına,
Adam adamlığın salmır yadına,
Bir nəzər etməyir yaxın-yadına,
Sanki bu dünyada ölməz dururdu.

Möhlət işığı da bir çırağ kimi,
Çırağın içinə dolan yağ kimi,
Hər insan bostandan qopan tağ kimi,
Xəzanı yetəndə solacaq urdu.

Şadiman İlahi divanəsidir,
Ruhundan boylanan haqqın səsidir,
Dünya Yaradanın zor qəfəsidir,
Gələnə həyatdı, gedənə zurdu.

09.04.2011

QƏMƏ DÜŞÜB QƏM AĞLAYIR

Dərd verən fələk olurmuş,
Çəkəni ürək olurmuş,
Hər kəsə mələk olurmuş,
Onunçın aləm ağlayır,
Qəmə düşüb qəm ağlayır.

Arzular başa girəndə,
Hər işi əyri görəndə,
Haqqın qolunu gərəndə,
Bəbəklərdə nəm ağlayır,
Qəmə düşüb qəm ağlayır.

Quş yuvasında quşlayır,
Ağrı əzabdan başlayır,
Zalım məzlumu daşlayır,
Özün döyür dəm ağlayır,
Qəmə düşüb qəm ağalyır.

Dünya fırlanır boşuna,
Buraxıb başlı-başına...
Adam dəymir göz yaşına,
Kəsirində kəm ağlayır,
Qəmə düşüb qəm ağlayır.

Şadiman sözə dəlidir,
Başına vuran əlidir,
Hər kəs dilindən bəllidir,
Hər işi sərsəm ağlayır,
Qəmə düşüb qəm ağlayır.

16.04.2011

YUXUM QAÇIB, AĞLIM OLUB HAVALI

Yuxum qaçıb, ağlım olub havalı,
Dəyişibdi ürəyimin əhvalı,
Yenə verir yerə, göyə sualı,
Fikirlə mən öcəşirik özümlə,
Oynaşırıq uşaq kimi sözümlə.

Gecə içrə hamı yatıb, mən oyaq,
Könül deyir, gəl sükutu bir duyaq,
Ocaq çatıb ağlımıza od qoyaq,
Bu minvalla dilləşirik közümlə,
Oynaşırıq uşaq kimi sözümlə.

Qəlb ayaqda, ağıl bizdən yuxarı,
Düşünürük hara gedir axarı?
Soba sönüb, soyuyubdu buxarı,
Əlləşirik dərdi çəkən dözümlə,
Oynaşırıq uşaq kimi sözümlə.

Ömür elə nərdivandı pilləsi,
Üzümüzə dəyir hər an silləsi,
Qurğuşunla əlçimlənir gülləsi,
Gecə vaxtı savaş edir bizimlə,
Oynaşırıq uşaq kimi sözümlə.

17.04.2011

HİYLƏYƏ BATIBDI ADAM BAZARI

Hiyləyə batıbdı adam bazarı,
Sağalan deyildir vicdan azarı,
Sağ ikən ağlına gəlməz məzarı,
Özünü Allahdan yuxarı sanır,
Hər işi ağlının axarı sanır.

Ölüb getmişlərin sayı bilinmir,
Göylərə sancılmış vayı bilinmir,
Harayı bilinmir, hayı bilinmir,
Haramı gündəlik çıxarı sanır,
Hər işi ağlının axarı sanır.

Ömrü zaman üstə durur çağ kimi,
Anlamır solacaq bir gün bağ kimi,
Dünyanı yandırır bir ocaq kimi,
Dərdini əridən buxarı sanır,
Hər işi ağlının axarı sanır.

Bu adam bazarı heç azalmayır,
Ağlının içinə həya salmayır,
Bir an pisliyindən dala qalmayır,
Cahanı özünün ovxarı sanır,
Hər işi ağlının axarı sanır.

Daha Allahın da üzü qalmayıb,
Ona deyiləsi sözü qalmayıb,
Nə qədər bədəndən canın almayıb,
Bütün kainatı yıxarı sanır,
Hər işi ağlının axarı sanır.

Şadiman, İlahi sönməyən nurdu,
Yolundan azanı şimşəktək vurdu,
Hamı öz kefində nə vurhavurdu?
Aləmi yandırıb-yaxarı sanır...
Hər işi ağlının axarı sanır.

17.04.2011

MƏNƏ PİNƏÇİLİK EYLƏMƏ ÜRƏK

Mənə pinəçilik eyləmə ürək,
Özüm öz yarama tikiş salaram.
Dərdini aşiqtək söyləmə ürək,
Məcnun sorağını hardan alaram?

Sənin uşaqlığın məni ağrıdır,
İçimdə hayqıran dərdi bağırdır,
Gələn zavalına dözmək ağırdır,
Mən bu müsibətlə necə qalaram?

İlantək qıvrılır yollar ayrıcı,
Üyüdür vaxtımı, verməyir bacı,
Keçir saatlarım gah şad, gah acı,
Düşüb xəyalların içrə dalaram.

Bilirsən, yaşamım əlindən keçir,
Ömrümün hər anı telindən keçir,
Ölümüm, qalımım dilindən keçir,
Sızlama xəzantək düşüb solaram.

17.04.2011

LƏYAQƏT SATILMIR PULLA, PARAYLA

Ləyaqət satılmır pulla, parayla,
O qanda, ürəkdə, canda olmasa.
Onun parıltısı gəlməz sarayla,
Dünya laxlayacaq zəfər çalmasa.

Mənəvi ucalıq insana gücdü,
Onun ətəyindən tutanlar bilir.
Mənəvi kasadlıq qəlbə ülgücdü,
Qanına şərabtək qatanlar bilir.

Halaldan qaçanlar harama quldu,
İlahi sevgini içdə görməyir.
Haramzadaların hünəri puldu,
Çirkin addımını suçda görməyir.

Yolu yoxuş olur mənəviyyatın,
Hər adam yoxuşu çıxa bilməyir.
Əzabı sonsuzdur təmiz həyatın,
Hər kəs öz şeytanın yıxa bilməyir.

Təmizlik eşqiylə coşub-daşanlar,
Allah mərtəbəsin ucada gördü.
Çirkin əməllərlə pıçıldaşanlar,
Haqqın harayını bacada gördü...

Özünü şir sandı, ömrü əbədi,
Cahana dar gözlə baxdı beləcə.
Zənn etdi dilinin əmri əbədi,
Zaman onu yerə qaxdı beləcə.

Hər qələm götürən, hər kitab yazan,
Mənəvi dünyaya tay tutulmayır.
Elə zənn etməsin yolunu azan,
Onun əməlinə vay tutulmayır.

25.04.2011

ÖMRÜMƏ YAĞAN YAĞIŞ

Ömrümə yağan yağış,
Canımda doğan yağış,
Vücudumda sel yarat,
Ruhumu oraya at.
Qoy çırpınsın quş kimi,
Cəlsin başa huş kimi.
Yusun qəlbdən qəmimi,
Bu sevda aləmimi,
Əlvan tüllərə tutsun,
Dərdi biryol unutsun.
Ondan gəlir həyatım,
Büdrəməsin can atım,
Çapsın dərəni, düzü,
Ram eləsin gündüzü.
Bağımın bağbanı ol,
Damarımın qanı ol,
Ürəyimə qida et,
Ya ona əlvida et.
Gəlib dumanı ovla,
Onu qapımdan qovla.
Başın atıb yatsın qış,
Ömrümə yağan yağış.

23.04.2011

QAPIMA DÜŞMÜRSƏN MÖHLƏT AÇARI

Qapıma düşmürsən möhlət açarı,
Bəs bağlı qapıdan necə çıxım mən?
Əqrəblər qəfəsdən quştək uçarı,
Ömür gedən yola hardan baxım mən?

Baş öz əzabına dolaşıb qalıb,
Onu canı bilib yollaşıb qalıb,
Fikirlər ağrıya bulaşıb qalıb,
Onları könlümə nə buraxım mən?

Xəyalım özünə munis axtarır,
Məftunu olduğu pak hiss axtarır,
Bəzən ürəyimi çox pis axtarır,
Onun qurduğunu niyə yıxım mən?

Qəlbim titrəmədə, ağlım tələşda,
Açarsız qıfılda qaldım bu yaşda,
Qapı arxasında çatlardı daş da,
Daş olan bəxtimi nəylə sıxım mən?

Zamanın zənciri kürəyə vurur,
Yerin titrəməsi dirəyə vurur,
Başın işləməsi ürəyə vurur,
Onun əleyhinə necə çıxım mən?!

İncitmə könlümü möhlət açarı,
Şadiman güllərdə dolaşan arı,
Tikanlar içində ömürü yarı,
Həyat tapmacadır, şirin yuxum mən.

30.04.2011

***

Dərdimi çəkirəm dərmanə sarı,
O da qaçıb gedir fərmanə sarı,
Elə yönəldirəm səhmanə sarı,
Bu yöndən o yana yol görünməyir,
Bağrına basmağa qol görünməyir.

06.05.2011

MƏNİM MƏZARIMI QAZIYIN UZUN

Mənim məzarımı qazıyın uzun,
İçinə ömrümün taxtını qoyun.
Ağrımı-acımı üstünə düzün,
Ən dərin yerinə baxtımı qoyun.

Ağladıb-güldürən saatlarımı,
Əzabdan sonrakı busatlarımı,
Göylər şaqqıldadan heyhatlarımı,
Onları çağladan vaxtımı qoyun.

Doğumla ölümün yarısındakı,
Ürəyin sızlayan yarasındakı,
Varlıqla yoxluğun arasındakı
Başda tük ürpədən yoxdumu qoyun.

Mənim məzarıma yer aramayın,
Onu saxlamağa tir aramayın,
Ahıma bükməyə sirr aramayın,
Haqq təsdiq eləyən aktımı qoyun.

09.05.2011

BU ÖMÜR DƏ BİR BƏLADIR BAŞIMA

Bu ömür də bir bəladır başıma,
Başım ağır dərdlərini çəkən yox.
Duz yerinə zəhər qatıb aşıma,
Alıb əldən onu yerə tökən yox.

Hər sözümün mübtədası tamlanıb,
Fikirimin bostanları şumlanıb,
Arx çəkilib, lək-lək olub tumlanıb,
Tumdan əzəl ümidləri əkən yox.

Çalışıram tək dam altda qalmağa,
Düşüb başla eyni qatda qalmağa,
İdrakımla xoş saatda qalmağa,
Özülünü atan mənəm, tikən yox.

Söz əhlinin hər dəm üzü danlanır,
Təb sahibi bu üzdəndə yanlanır,
Dilindəki sözlər bir-bir canlanır,
Harayını bildirməyə məkan yox.

Şadimanın ürəyitək bir ney var,
Deməyin ki, nə bir taqət, nə hey var,
Yazanların çoxluğuna giley var...
Kim deyər ki, qızılgüldə tikan yox.

10.05.2011

APARIN BƏXTİMİ GÜLZARA SARI

Dolaşır üzündə çiskin-dumanlar,
Ürəyi yönəldib ah-zara sarı.
Əzabı dəryadır tutmur ümmanlar,
Aparın bəxtimi gülzara sarı.

Hər gün naləsinə bükülür sinə,
Gedir diləyimin elə əksinə,
Sığıb hər neyim var sirli köksünə
Elə meyil edir azara sarı.

Ağrısı asılı qalıb havadan,
Bitib tükənməyir qəlblə davadan,
Uçurmaq istəyir canı yuvadan,
Qovur Şadimanı məzara sarı.

10.05.2011

BƏXTİMİN DAĞINA ÇIXA BİLMİRƏM

Ələnir üstünə yağış, duman, çən,
Bəxtimin dağına çıxa bilmirəm.
Könül nərdivanı əlimdəykən mən,
Onun pillələrin qalxa bilmirəm.

Uçmur ümidlərim işığa doğru,
Qanadı qırılmış quştək çırpınır.
Ömür qapısından girən an oğru,
Vaxtı qoparanda candan qırpınır.

Zamanın səadət açarı əldə,
Bağlı sarayını hər kəsə açmır.
Haqqın qanunları durur təməldə,
Zəlzələ olsa da heç yerə qaçmır.

Bəxtin dağı uca, sıldırımı çox,
Ora düşən qarın buzu ərimir.
Şadiman biçarə taleyindən tox,
Qəlbin diktəsinə bəxti yerimir.

18.04.2011

BİR SƏADƏT QUŞUYAM

Bir səadət quşuyam,
Uçuram göy üzündə.
Haqqın can tələşıyam,
Alışıram közündə.

Tutub alovlar məni,
Ocağı ovlar məni,
Atdığı qovlar məni,
Kabab edir özündə.

Ürəyim aha baxır,
Ahım günaha baxır,
Könlümə dərdi axır,
Deyil özü-özündə.

Bir səadət quşuyam,
Uçmağımda naşıyam,
Zaman vermir yaşayam
Bu göylər dənizində.

Rəbb yolmaz qanadımı,
Yazıb Haqqa adımı,
Eşitməkçin dadımı
Çırpınıram dizində.

Şadiman, eşq meyildir,
Canı haqqa əyildir,
Hamı eyni deyildir,
İlahinin gözündə.

15.10.2008

***

Baş çıxara bilməyirəm,
Bu dünyanın işlərindən.
Keçirir bizi dəmbədəm,
O canavar dişlərindən.

Yollaşıb yola getməyir,
Qoyduğu yola getməyir,
Qazanı oda yetməyir,
Yedirir biş-düşlərindən.

20.10.2011

İTİRMİŞƏM BAŞIMI

İtirmişəm başımı,
Ağladıb göz yaşımı,
Hansı quyuya salım.
Düşüb yanında qalım?

İtən başım tapılmır,
Tapılıb da çapılmır,
Bunu bilmirmi halım,
İdrak yolu sapılmır?

Müjdə verin başımdan,
Oyadım göz yaşımdan,
Ağıl bədənə zalım,
Bilməmişəm yaşımdan.

Şadimanı səsləyin,
Xoş səsə həvəsləyin,
Əlində mülki-malım,
Kədəri qəfəsləyin.

20.10.2011

NİYƏ BELƏ QOCALMISAN, AY ANA

Vaxt var idi işə-gücə qaçardın,
Göyərçintək qanad açıb uçardın,
Bizi görüb qollarını açardın,
Künc-bucaqda yurd salmısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?

Bütün günü dolaşardın həyətdə,
İş-güc ilə yollaşardın həyətdə,
Çal-çamura bulaşardın həyətdə,
Hərəkətdən nə qalmısan, ay ana?
Niyə belə qocalmısan, ay ana?

Daha qıvraq gülüşlərin kəsilib,
Gedişlərin-gəlişlərin kəsilib,
Qohumlarla görüşlərin kəsilib,
Uşaqlığı borc almısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?

Körpə kimi fırlanırsan qucaqda,
Düşüb-qalıb hayın-küyün bucaqda,
Qazanların qaynamayır ocaqda...
Ürəyimə od salmısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?

Çay-çörəyin, yır-yığışın hardadı?
Bişirdiyin xörəklərin var dadı,
Evimizin istiliyi dardadı...
Bu ocaqdan güc almısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?

Yad qızından kömək umur gözlərin...
Ayaqlara çətin dözür dizlərin,
Sevincisən, istəyisən bizlərin,
İstəyindən öc almısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?

Harayların pəncərədən boylanır,
Bala deyib, həsrət ilə oylanır,
Günlərinin başına ah haylanır,
Halva təki dərd çalmısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?

Başdan enib qadınlığın şah tacı,
Bu durumda səni görmək çox acı,
Yaman oldun onun-bunun möhtacı,
Xəyallara nə dalmısan, ay ana?
Niyə belə qocalmısan, ay ana?

Qocalığı lap andıra qalaydı,
Onun özün qocalığı alaydı,
Qapısını tərs əliylə çalaydı,
Ağrısıyla ucalmısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?

Şadimanı etdin dərdə mübtəla,
İtgin düşsün sənə gələn o bəla,
Dözmək olmur sən düşdüyün bu hala,
Aralıqda çaş qalmısan, ay ana,
Niyə belə qocalmısan, ay ana?
Niyə belə qocalmısan, ay ana?

16.10.2011

***

Anlayan insana çətindir həyat,
Anlamaz adamın hər günü büsat,
O üzdən ürəyə düşür min bir çat,
Çatın da ağrısı ürək parçalar,
Ağrıyan ürəyə dərdlər əl çalar.

22.11.2011

YENƏ DƏ ÜRƏYİMDƏ MİN BİR DUYĞU ÇAĞLAYIR

Yenə də ürəyimdə min bir duyğu çağlayır,
Körpəcə bir uşaqtək əl-qol atıb ağlayır,
Tökdüyü göz yaşları ürəyimi dağlayır,
Bir ağ göyərçin təki qopub könlümdən uçur,
Gah pənbə buludları, gah da günəşi qucur.

Ayağım yerdən qopur can atıram uçmağa,
Əngin səmalar üstə dəli kimi qaçmağa,
Günəşin zərrəsitək sarı şəfəq saçmağa,
Boylanıram yerlərə yerlərdə bir qaraltı,
Bədənim yerdə qalıb, çapır göydə can atı.

Bu nədir bəs, İlahi, necə iki olmuşam?
Cismim yerdə çırpınır, quştək qanad çalmışam,
Duyğuları can kimi ürəyimdən almışam,
Əksim məndən boylanır, mən əksimə baxıram,
Könlümün atəşiylə ürəyimi yaxıram.

Bəlkə bu ilham imiş qəlbi bölüb ikiyə,
Özünün ağırlığı gəlməyir heç çəkiyə,
Fikirlər ac sərçətək qurşanıblar səkiyə,
Qanadlarım qırılır göydən yerə gəlirəm,
Ayılıb xəyallardan öz-özümə gülürəm.

Şadiman, fələk qoyan qanunun əsriyik,
Allahın yaratdığı bəndələrdən biriyik,
Ağlımız üstümüzdə nə qədər ki, diriyik,
İnsanlığa can atıb haqqa qapı açmalı,
Ya bir yolluq yığışıb, bu dünyadan qaçmalı...

22.11.2011

MƏN NƏ DEYİM?

Ürəyimi yıxıb-sökən,
Duyğulara mən nə deyim?
Ora min bir əzab tökən,
Qayğılara mən nə deyim?

Ağrıları yolu sayan,
Göz yaşımı dolu sayan,
İlhamımı ərzə yayan,
Sayğılara mən nə deyim?

Ürək üzən, könül yıxan,
Hər sözümə ögey baxan,
Qəlbim üzən, gözüm qorxan,
Sorğulara mən nə deyim?

Şadimanı sanmın heçə,
Dərdi gəlib könül biçə,
Yazdığımın üstən keçən,
Qurğulara mən nə deyim?

16.12.2011

SIĞINMIŞAM İLHAM ADLI MƏKANIMA

MƏN DÜNYANIN SƏRHƏDLƏRİNİ AŞMIŞAM

Mən dünyanın sərhədlərini
çoxdan aşmışam,
Bütün duyğularımla
yerdə-göydə dolaşmışam,
Buludların başının üstündə
qaynayıb daşmışam.
Yağmurun bumbuz
göz yaşına bulaşmışam.
Sinəm alışır-yanır bu atəşdən,
Bağrıma od tökülür günəşdən.
Ürəyimi çıxara bilmirəm qaynar teşdən,
Canım qopa bilmir dilimi kəsən dişdən.
Havalı sevdalarımla dilləşirəm,
Göyün bağrından qopan
gurşad təki selləşirəm,
Küləyi fəğan çəkən
asiman kimi həşirəm,
Zamanın tərkinə düşürəm.
Hər günümlə əlləşirəm.
Bu şeytan xislətli
dünyadan qaçıram,
Haqqın dərgahına əl açıram.
Göylərdən gurultu qopur,
uca asimanın tərkində
bir göy atlı çapır
və gəlib, ruhumu tapır.
Dəlisov hisslər məni qapır.
Qəhqəhələr içində bayılıram,
Ruhu alıb qaçan
xəyallardan ayılıram.

Əlimdə qələmim,
Ürəkdə qəmim,
Gözümdə nəmim,
Hıçqıran könlümün ağrısına
canım həsir,
Dünya sərhədləri qəsir.
Mən bu sərhədləri çoxdan aşmışam,
Ruhum göydə, canım yerdə,
Dözürəm min bir dərdə,
Məddahlığa göz yumuram,
Haqqın bəbəyindən tökülən
göz yaşı tək damıram.
Mən deyə bilmirəm özümə
çoxu təki çamuram.
İlahi haqq pəncərəsin açıb bizə baxır,
Bizi hələlik bu dünyaya buraxır,
Bir gün gəlir ömürə axır.
Heç kəs heç kəsin dadına yetməyir,
Kim deyər ki, bu dünyaya gələn getməyir?
Hamımız öləsiyik,
Hamımız haqq tərəzisində
etdiklərimizi bölәsiyik,
Hamımız Rəbbin köləsiyik!...
Bu bilgilərlə cilalanmışam,
Mən dünyanın sərhədlərini
çoxdan aşmışam.

12.10.2008

GECƏNİN SÜKUTUNA XƏYALLARIM RƏQS EDİR

Gecənin sükutuna xəyallarım rəqs edir,
Ürəyimin harayı gözlərimdə əks edir,
Bu axşam arzular da məramlardan bəhs edir,
İdrakımdan keçəni qəlbin içi əxz edir.

Sevdalanan sinəmin diləyilə coşuram,
Qoşuluram ruhuma göylərdə dolaşıram,
Gah sevincə, nəş'əyə, gah aha bulaşıram,
Sanki çatıb haqqıma onunla yollaşıram.

Saatdan çıxan anlar zamandan yuvarlanır,
Ağlımın qarşısında fikirlər ovalanır,
Anlarıma hördüyü daşları divarlanır,
Bəbəyin şəbnəmiylə kirpiklər suvarlanır.

Yuxuma dolan gecə yuxumu alıb qaçır,
Ürəyimin içinə atəşin salıb qaçır,
Ruhumla birləşərək haqqa ucalıb qaçır,
Könlümün tellərini kamantək çalıb qaçır.

Ey Şadiman, qəlbi nə titrədir leysan kimi?
Nədir ruhdan zehinə paylanan ehsan kimi?
Zülmətdən qopan səda gurlayır əhsən kimi,
Deyir sükut et, bəşər, yarandın insan kimi!

Ürəyimin harayı gözlərimdə əks edir,
Gecənin sükutuna xəyallarım rəqs edir.

27.02.2007 /Neft Daşları

PƏNCƏRƏMƏ BİR QUŞ QONDU

Pəncərəmə bir quş qondu,
Oxudu xoş nəğmə mənə.
Ürəyimin eşqin andı,
Can söylədi dönə-dönə.

İpək tükü qumaş idi,
Gözlərində qan-yaş idi,
Canım ilə sirdaş idi,
Döndü ahım duman, çənə.

Quş dilini bir bilmədim,
Bu dil kimi sirr bilmədim,
Ürəyitək dürr bilmədim,
Atəşlərə düşdü sinə.

Pəncərəmi açdım baxdım,
Tutub əldən tez buraxdım,
Uçdu getdi mən darıxdım,
Hicran verdi canla tənə.

Bu quş uçan sevda imiş,
İlahidən səda imiş,
Haqq evindən nida imiş,
Sığınıbdı can köksünə.

Ey Şadiman, bu quş mələk,
Sevgisinə yandı ürək,
Aşıb-daşır eşqlə dilək,
Dönüb gələ bir də yenə.

28.04.2007/Neft Daşları

NƏDİR BELƏ QƏLBƏ DÜŞƏN?

Nədir belə qəlbə düşən?
Od-atəşlə yanan könül.
Sevdalıdır yenə güşən,
Məhəbbəti anan könül.

Diləklərin coşur yeltək,
Nur ələyir ətək-ətək,
Gəl birlikdə haqqa yetək,
Haqq əmrini qanan könül.

Bir dilbilməz quş olmusan,
Gözlərimdə yaş olmusan,
Hər ağrıdan baş olmusan,
Kimə gəldi yanan könül.

Dərdin keçib əzabımı,
Tükəndirdin can tabımı,
Niyə pozdun hesabımı?
Bəzən məni danan könül.

Hər diləyin hasil oldu,
Hər addımın əsil oldu,
Ömrün dördcə fəsil oldu,
Hər fəsili sanan könül.

Şadimana etmə şivən,
Odur yükü çəkən dəvən,
Bacarırsan ona güvən,
Canı-dildən inan könül.

28.04.2007 /Neft Daşları

BİLMİRƏM NƏ GƏZİR BU CAN İÇİNDƏ?

Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Xəyalım baş vurur bu aləmlərə,
Sevinc kədər verir ötən dəmlərə,
Gözlərim baş qoyub yatır nəmlərə,
Dünya da hıçqırır bəxtikəmlərə,
Ürəyim çırpınır al-qan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Zaman dəqiqəyə yaxa verməyir,
Sinəsin atılan oxa verməyir,
Üşüyən saata çuxa verməyir,
Acın harayını toxa verməyir,
Sübhün işartısı var dan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Fikirlər aləmə dağılıb qalıb,
Əlim qoltuğuma sığılıb qalıb,
Gülüşüm dodağda uğunub qalıb,
Qəmim də sinədən yığınıb qalıb,
Əzabım çırpınır hər yan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Sevdalı ürəyim gəlmir köksümə,
Telləri bənd olub bir qərib simə,
Dəlitək hovlanır cumur hissimə,
Yad kimi boylanır baxır əksimə,
Məni əsir edir bir an içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Heyrətdən böyüyür gözümdə aləm,
Ərşin yeddi qatın dağıdır naləm,
Olub çilik-çilik könül piyaləm,
Titrəyir əlimdə ah ilə qələm,
Tənim od götürür büryan içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Xəyalım aparır yuxumu ərşə,
Gah qüssə şah olur, gah da ki, nəş'ə,
Ürəyim arayır bir tənha guşə,
Qəlbə mehman olur yenə əndişə,
Gözüm haqq arayır iman içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Mənə qənim olub gecə-gündüzüm,
Fikir haçalanır, söz düzüm-düzüm,
Gah şərə açılır, gah dərdə üzüm,
Mən bu fırtınaya bəs necə dözüm?
Atəşim köz açır zaman içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

Haqqın qarşısında Şadiman nəçi?
Göynədir könlünü dünyanın içi,
Zamanın sərt gedir bu biçhabiçi,
Yamağa, yırtığa olub pinəçi,
Fələyin hər hökmü fərman içində,
Bilmirəm nə gəzir bu can içində?
Canım düşüb qalıb hicran içində.

29.04.2007/ Neft Daşları

ÖTÜB GETDİ ZAMANLAR

Ötüb getdi zamanlar,
Ürəkdə ah-amanlar,
Etdi könlə yamanlar,
Örtüyün saldı getdi,
Könlümü aldı getdi.

Sinədə arzu, istək,
Coşdu sevdalı hisstək,
Olmadı boş həvəstək,
Candan bac aldı getdi,
Könlümü aldı getdi.

Duyğularım şah kimi,
Açılan sabah kimi,
Gah nəş'ə, gah ah kimi,
Nəğməsin çaldı getdi,
Könlümü aldı getdi.

İlham bir dəli naləm,
Bilir bunu bu aləm,
Əldən düşmədi qələm,
Ruhumla qaldı getdi,
Könlümü aldı getdi.

Həyat eşq səadəti,
Ömür canın adəti,
Rəbbinə sədaqəti,
Ürəkdə xaldı getdi,
Könlümü aldı getdi.

Misralarım bal kimi,
Bə'zən həbsi-hal kimi,
Bə'zən qeylü-qal kimi,
İlan tək çaldı getdi,
Könlümü aldı getdi.

Ey Şadiman, nə sirdi?
Ürək təbə əsirdi,
Onlara ruh qəsirdi,
Haqqa ucaldı getdi,
Könlümü aldı getdi.

30.04.2007/ Neft Daşları

KÖNLÜM QƏRİB DÜŞMÜŞ BİR QUŞA BƏNZƏR

Könlüm qərib düşmüş bir quşa bənzər,
Yuvası içində yuva axtarır.
Böyük kəhkəşanda ulduza bənzər,
O boyda göylərdə hava axtarır.

İçində göynəyər, yanar günahı,
Ərzi ovsunlayar alışan ahı,
Eşqindən kənarə qoymaz Allahı,
Duası dilində dua axtarır.

Təbdən havalanıb düşübdü xəstə,
Dərdi ayağında qalıb can üstə,
Həkimi, loğmanı gəlməyir üstə,
Sağalmaz canına dəva axtarır.

Könlüm qərib düşmüş bir quşa bənzər,
Duyğular içində aləmi gəzər,
Girib ağrılara canını üzər,
Hər haray içində nəva axtarır.

01.05.2007/ Neft Daşaları

KÖÇ EDƏN XƏYALLARIM

Köç edən xəyallarım,
Qeylü-qallarım-
Qəlbin evindən hara gedir?
Qərib düşmüş durna qatarıtək,
Duman, çiskin ələyir
könlümə ətək-ətək.
Sevdalı ürəyimin qubarı kimi,
Kədər görməmiş bir anın nübarı kimi.

***

Köç edən xəyallarım,
Min bir müsibətə düşən hallarım.
Əzabı gözümdən yaş çıxardır,
Elə bir fitrədir,

Dağları titrədir,
Qayalardan daş çıxardır.
Ruhumun qapısın bağlayır üzümə,
Ocaq çatır alışıb-yanan közümə,
Bir qərib yolçu olur gecəmə, gündüzümə,
Çıraq tutur misraları təb coşduran sözümə.

***

Köç edən xəyallarım,
Ürəyimin yörəsində nöqtə-nöqtə
kök atmış xallarım,
Səhrada dəvəsi ölmüş ərəb,
Boğazımın yolunu yandıran bir acı həb,
Mərəzimə dəva etməz,
Sağlığımı mənə rəva etməz,
Canımı əlimdən alıb aparar,
Bütün vücudumda tufan qoparar.

***

Köç edən xəyallarım,
Dəryada qayıq çəkən sallarım.
Başımda artırar qadamı,
Yol-ırızı itirmiş nabələd bir yol adamı-
Ona bir içim su verməz su satan suçu,
Tanrının gözündə böyüyər suçu,
Zülmü qutarmayan sitəmkar,
Məni məndən alar,
Edər inkar,
Dərin quyuya salar,
Mənimlə orda qalar.

***

Köç edən xəyallarım,
Ünüm yetməyən vüsallarım.
Qoparar içimdə fırtına,
Döyər taleyimin sırtına.
Ölüsünə ağlayan bəndə təki,
Bütün vücuduma daməndə təki,
Bitib tükənməyən qeylü-qallarım,
Köç edən xəyallarım.
Köç edən xəyallarım.

12.04.2007 /Neft Daşları

BİR DƏLİ EŞQ İLƏ ÇIRPINIR CANIM

Bir dəli eşq ilə çırpınır canım,
Sevdalar haylayan ürəklər kimi.
Min bir yerə soraq könül ünvanım,
Sinəyə sığmayan diləklər kimi.

Ağrıdan-ağrıya cilalaşıram,
Dağlara çıxıram, zirvə aşıram,
İlahi aləmlə pıçıldaşıram,
Allaha üz tutan mələklər kimi.

Ürəyim bircə an tapmayır aram,
Yağışam, gürşadam, tufanam, qaram,
Harda fırtına var orda mən varam –
Rahatlıq tapmayan küləklər kimi.

Dəmlərim gah sevinc, gah ələm dərdi,
Qollarım zamanın ilğımın gərdi,
Canımdan ələnir dünyanın dərdi –
Teştə un ələyən ələklər kimi.

Yaradan əlində bu könül damım,
Rəbbin işığına alışır şamım,
Allaha minnətçi düşüb ilhamım,
Haqqına tapınan fələklər kimi.

Şadiman, nədir ki, cana güc verən?
Duyğuma, eşqimə belə öc verən,
Səbrin boğazına küt ülgüc verən –
Qalmışam qəlbimi qəm təklər kimi.

03.05.2007/ Neft Daşları

HİCRAN GİRİBDİ ÜRƏYƏ

Hicran giribdi ürəyə,
Budur həsrəti, ay aman.
Zədəsin vurub dirəyə,
Nədir niyyəti, ay aman?

Ah gecə-gündüz biçində,
Ahımız sabah içində,
Sabahlar günah içində,
Necə qüdrəti, ay aman.

Heç sevdamızı güldürməz,
Ağrısın bizə bildirməz,
Nə can alar, nə öldürməz,
Qəmdir adəti, ay aman.

Dilimiz bənddi haraya,
Dərd yüklər könül saraya,
Məlhəmi qoymaz yaraya,
Nədir möhnəti, ay aman?

Qəm Şadimanı inlətdi,
Ah saldı, könlü dinlətdi,
Ürəyi yaman göynətdi,
Budur şəfqəti, ay aman.

04.05.2007 /Neft Daşları

ACI RÜZGARIM COŞUR

Acı rüzgarım coşur,
Gözü açılmış çeşmətək,
qaynayıb daşır.
Selləri bağrımın talasını yuyur,
Fırtına içində ürəyim uyuyur.
Ağrım şölə çəkir üzümə,
Sanki məşəl tutur gecəmə, gündüzümə.
Hicran saatlarım tələsmir,
Əlini üstümdən kəsmir.
Qənim kəsilib zamanıma,
Nəş'əylə baxır ah-amanıma.
Dilimin fəryadı,
Yandırır yaxını, yadı,
Zülmdən qurtulmaq murazı,
Könlümün nəzir-niyazı.
Saniyələr dəmləri tərk edir,
Ağlım ürəyimə ərk edir,
Bu acı rüzgardan qurtulmağı,
Bu adamla dolu dünyaya qatılmağı.
Diləklərim hicranla tilsimdə,
Yoxdu müsibət bu isimdə!
Dünyanın keşməkeşi,
Qəlbi parçalayan o canavar dişi –
Bütün varlığımla çəkişmədə,
Hər şey öz şəklini dəyişmədə.

***

Acı rüzgarım coşur,
Ağlımın sədlərini aşır.
Fikir burulğanına düşüb qalıram,
İdrakın zirvəsinə ucalıram,
Ürəyimi acı rüzgardan alıram,
Onunla baş-başa qalıram.
Dilim tutulur,
Bağrıma ələm çatılır,
Ürəyim üstümə atılır,
Anasız qalmış körpə sayaq,
Fikirlərim vurur baş-ayaq.
Bilmirəm ürəyimə yanım,
Yoxsa acı rüzgarımı anım?

Hər tərəfdən qoşun çəkir
üstümə dəmlər,
Harayımı İlahiyə aparır aləmlər.
Duyğularım qaynayıb daşır,
Canım ruhumla pıçıldaşır,
Ağlım ürəyimlə yollaşır,
Ağ tülə bürünmüş təbim
misranı-misraya qoşur,
Acı rüzgarım coşur.

29.04.2007/ Neft Daşları

EY HƏYAT

Köçdü illər yuxu kimi,
Yayın qəfil oxu kimi,
Mən də uydum çoxu kimi,
Zaman çapan qanadlı at,
Ey həyat.

Gah şirinsən, gah da acı,
Qoyma ensin tez can tacı,
Gecələrə vermə bacı,
Sübhə açıl, zülmətə yat,
Ey həyat.

Ürəyimi oxşa yartək,
Qoy sığınım sənə bartək,
Canım təndə hələ vartək,
Məni oda, ya suya at,
Ey həyat.

Dünya bizə bir sevdadır,
An zamana xoş nidadır,
İlham şamdır, söz qidadır,
Şadimanın könlünə qat,
Ey həyat.

24.04.2007

ÜSTÜMƏ KƏDƏR YAĞIŞI YAĞIR

Üstümə kədər yağışı yağır,
Alışır əzablar içində bağır.
Üst-başım su içində,
Ürəyim ası içində,
Dünyanın ağrılarına bulaşıram,
Əzabımla pıçıldaşıram.

***

Üstümə kədər yağışı yağır,
Canım tənimdən boylanır fağır-fağır,
Saçlarımdan asılıb yağışın şehləri,
Üzümü yelpikləyir ağrı-acımın mehləri,
Canım kədərdən o yana addımlayır.
Sonu görünməz müsibətim
tutub onu damlayır,
Fəryadımla kamlayır.
Yerin, göyün sərhədləri
içində dolaşıram,
Zamanın mənə ayırdığı
vaxtla yollaşıram,
Ağrılarım tən içində,
Diləklərim çən içində,
Ruhum çırpınır mən içində.
Boğazımda hava daralır,
Gözlərim qaralır.
Huşumu itirirəm,
Özümü haqqa yetirirəm.
Zülmlərdən təngə gəlmiş
canım tələşda,
Min bir havacat başda.
Əllərimi açıram sədalarımla,
Dünyanı lərzəyə gətirən nidalarımla.
Göydən, sanki bir haray qopur,
Bağrımın içində çapır,
Canımı tənimdə tapır,
Ürəyimdə ocaq çatır,
Fəryadımı ora atır,
Diləklərim yenə havalanır,
Rəbbinə dualanır.

***

Üstümə kədər yağışı yağır,
Ağlım özünə qayıdır ağır-ağır,
Kədərlərimdən nəş'ələmək üçün,
Min bir qovğaya düşüb
əndişələnmək üçün,
Ömür ağacım rişələnmək üçün.
Ey başıbəlalı ürəyim,
qalmadı heyim.
Harayıma kimi çağırırsan çağır,
Üstümə kədər yağışı yağır.
Üstümə kədər yağışı yağır.

30.04.2007 /Neft Daşları

MƏNİM MÖHNƏTİMDƏN XƏBƏRSİZ GECƏ

Mənim möhnətimdən xəbərsiz gecə,
Gəzirsən önümdə divanələrtək.
Almısan başımın üstünü necə?
Dövrəmdə uçursan pərvanələrtək.

Şam sənə işıqdır, ilham qələmə,
Sözü eşqə salıb düşür aləmə,
Sən də zülmətinə ahı bələmə,
Uçulub dağılmış viranələrtək.

Qurmusan könlümün içində taxtı,
Atıb zər daşıyla udursan vaxtı,
Sükutun sinəmi eşq ilə yaxdı,
Əhdinə minnətçi peymanələrtək.

09.01.2009

MƏHBUSAM

Məhbusam –
Qələmim aman vermir susam,
Ağlımı qəlbimin qapısından asam.
Ürəyimin pəncərəsi dünyaya bağlı,
Ağrılar üşüdür ağlı.
Gəzirəm zülmətlərdə Məlikməmməd kimi
əli çıraqlı,
Divlər məni udmağa maraqlı.

***

Məhbusam –
Özüm-özümə qisasam,
Ağlım mənə zindandı,
Evi abadandı.
Qəlbimlə çarpışır,
Gah göydən, gah yerdən yapışır,
Duyğularımla tapışır,
Salır həyatıma haray-həşir.

***

Məhbusam –
Dilim ağzımda bağlı,
Zamanım dəli təki döyür ağılı,
Şirin dilini işə salır yağlı-yağlı,
Üzümə gülür,
Aşkara mənimçin ölür.
Xəlvət-xəlvət qəlbimi dəlir.

***

Məhbusam –
Könlümün acılarına yasam.
Anlarım tikanlı məftillər kimi,
Sarınıb ürəyimə min bir yerdən
dolaşığa düşmüş tellər kimi,
Sancır qəlbimi yumaqlara
ayrılmış millər kimi,
Ağrımı daşıyır yükə
öyrənmiş illər kimi.

***

Məhbusam –
Az qalıb dövran əlindən qan qusam.
Ələmimin ağzına necə daş basam?
Canım qəfəsində çırpınan
quşcağaz kimi,
Dərdlərimin həkimi,
Dəryada fırtınaya
zindan kimi baxan gəmi,
Bitmir gözlərimin qəmi,
İnlədir bu aləmi,
Məhbusam.
Məhbusam.

31.05.2007/ Neft Daşları

GÖYÜN ULDUZLARI SAY-SAY DÜZÜLÜB

Göyün ulduzları say-say düzülüb,
Sanki hər ulduz içrə ay düzülüb.
Gecəni hüsnü-çıraqban eləyib,
Zülməti nurla mehriban eləyib.
Baxıram seyrlə bu mənzərəyə,
Düşür hər qəmi-məlalım dərəyə.
Nəş'ələr içrə ürəyim dolaşır,
Zirvədən-zirvəyə lap hissim aşır.
Batırır dərdi-sərin zəhri məni,
Qaldırır ayağa təb mehri məni.
Çağırır aləmə bir ilahi səs,
Edirəm qələmə-kağıza həvəs.
Qoparıb cismimi candan alıram,
Onu tilsimlər içinə salıram.
Uçuram canım ilə asimana,
Gəlirəm mehrlə min bir imana.
Mən səyyarələrə yol açıram,
Enib göydən yerə bir nur saçıram.

03.06.2008

ALIN MƏNİ, EY DALĞALAR

Alın məni, ey dalğalar, götürün öz sırtına,
Qorxutmayır ürəyimi heç bir zaman fırtına.

***

Təbiətin istəyiylə bu dünyaya gəlmişəm,
Gah hönkürüb ağlamışam, gah ahımı dəlmişəm,
Gah sevdalı aşiqlərtək qəh-qəh çəkib gülmüşəm,
Bu cahanın ağrısını, acısını bilmişəm,
Öz əlimlə gözlərimdən axan yaşı silmişəm.
Doğulandan çarpışmada ağılımın istəyi,
Ağrılarım dopdoludur daşır zaman ətəyi.
Buludların gözlərində axan yaşa dönərəm,
Qanad açıb dəliləşən ləpələrə enərəm,
Çılğınlığım qaçsa məndən ocaq təki sönərəm.
Bu dəhşətli küləklərlə ovudaram ürəyi,
Coşan Xəzər dəli-dolu ilhamımın dirəyi.
O, ulayan tufanlar da quduz dişin qıcıdır,
Yuxusuna haram qatır, göy suları acıdır.
Şahə qalxır gur ləpələr harayına od düşür,
Sanki sular sultanının sarayına od düşür.
Bu atəşin qığılcımı bağırımda közləşir,
Salır könül otağıma tükürpərdən hay-həşir.

***

Alın məni, ey dalğalar, götürün öz sırtına,
Qorxutmayır ürəyimi heç bir zaman fırtına.

08.07.2007/ Neft Daşları

ZÜLMƏTİN İÇİNDƏ

Zülmətin içində,
Zaman köçhəköçündə,
Gecənin yarısı
Ürəyim yuvasından
perik düşmüş bal arısı.
İlhamımın şirəsini
çəkməyə tələsir,
Sözləri vərəqlərə
tökməyə tələsir.

Qələmim əlimdə əsir,
Anlarım bir quru həsir.
Ürəyim yuvasından
perik düşmüş bal arısı,
Uçub tökülüb yuvasının barısı.
Dilim niyə-neçində?
Zülmətin içində.

17.12.2007

BAŞIN ATIB YATAN GECƏ

Başın atıb yatan gecə,
Hicranı hər an arayır.
Məni oda atan gecə,
Bu yolla ad-san arayır.

Duyğuları alıb qaçır,
Könlü dərdə salıb qaçır,
Ürəyimi çalıb qaçır,
Dava edir, qan arayır.

Sükutuna salıb təni,
Töküb qəlbə yenə çəni,
Sanki sanıb ölü məni,
Bədənimdə can arayır.

Gecə haqqın ətəyində,
Zaman vaxtın yedəyində,
Şadiman söz pətəyində,
Balı yığan şan arayır.

15.08.2008

CANIM QANADLANIB UÇMAQ İSTƏYİR

Canım qanadlanıb uçmaq istəyir,
Qəlb ilə ağılın arasındadır.
Tənimi tərk edib qaçmaq istəyir,
Ahı ürəyimin yarasındadır.

Bəxtimin damını eyləyib məkan,
Gah bəhanə gəzir, gah isə imkan,
Allahın evindən gözləyir təkan,
İşığı gözümün qarasındadır.

Cismimi qaldırıb qanadlarına,
Göyləri titrədir imdadlarına,
Aləmi çalxadır fəryadlarına,
Özü ulduzların sırasındadır.

15.10.2007

KARVAN AĞRILARIM KÖÇ TUTUB GƏLİR

Karvan ağrılarım köç tutub gəlir,
Günüm ah eləyir fəğan içində.
Bir dunya əzabım iç tutub gəlir,
Bilmirəm nə gəzir bu can içində?

Bəbəkdə şəbnəmlər yaş olub qalıb,
Ürəyin sitəmi daş olub qalıb,
Min bir müsibətlər kaş olub qalıb,
Vüsalım çırpınır hicran içində.

Könül tufanına bükdüm ürəyi,
Təbin gülzarına əkdim ürəyi,
Düşdüyüm ağrıya çəkdim ürəyi,
Sözüm dil yandırır tüğyan içində.

Bədənim çırpınır göy-yer arası,
Göynəyir bağrımın köz-köz yarası,
Yoxdu Şadimanın daha çarası,
Canımı gəzirəm hər yan içində.

30.05.2008

MƏNİ ÜRƏYİNDƏN ÇIXAR, EY FƏLƏK

Məni ürəyindən çıxar, ey fələk,
Əsdir tufanları qoy coşsun külək.
Canımı qoparıb bədəndən alsın,
Onu kainatın içinə salsın.
Düşüb səyyarələr seyrangahına,
Qoşulum buludun dolan ahına,
Çaxnaşım göylərdə şimşəklər sayaq,
Uçuşum səmada mələklər sayaq.
Bütün planetlər güzarım olsun,
Ulduzlar içində məzarım olsun.
Bu sənə səcdədir, deyildir dilək,
Məni ürəyindən çıxar, ey fələk.

30.05.2008

DƏRYA KİMİ ARZULARIM ÜRƏYİMDƏ QAYNAYIR

Dərya kimi arzularım ürəyimdə qaynayır,
Coşur qəlbin səsinə duyğularım oynayır.
Kim deyər ki, başım bir an əzablardan aynayır,
Dilim ruhun fəryadından ərşə fəğan eyləyir,
Hər fəğanın fırtınası ürəyi qan eyləyir.
Hicran dolu zamanıma mən özüm toy qururam,
Gah onunla sevdalanıb, gah da ara vururam,
Ərzi alan səmum təki ürəyimə sarıram,
Qaranlığı qovub tutan zülməti dan eyləyir,
Hər fəğanın fırtınası ürəyi qan eyləyir.

14.03.2008

İSTEDAD ALLAHDAN GƏLƏN MÜKAFAT

İstedad Allahdan gələn mükafat,
Onunla parlayır bu gözəl həyat.
Gah enir, gah qalxır coşqun sel təki,
Ağılda, şüurda əsir yel təki.
Qabarır, çəkilir dəryalar sayaq,
Haqqın nuru olur könlünə dayaq.
İstedad öyülür müxtəlif dində,
Əfsus ki, xor baxır bu dürrə bəndə.
Qoymayır zirvəyə qalxmağa onu,
Haqqına haqqlıtək baxmağa onu.
Çalışır ətəyin keçirsin ələ,
Qalsın künc-bucaqda düşməsin dilə.
Bütün xəbisliklər bəndədən gəlir,
Onun xislətindən zülm yüksəlir.
İnsanın ruhunda iki ovqat var,
Yaxşı məramlıda gözəl həyat var.
Şərin qulu olan şeytana bağlı,
İblisə köklənib ürəyi, ağlı.
Bu növ yetişməyir heç zaman dada,
Bağlayır qapını tez istedada.
Könlündə Allaha sevgisi olan,
Haqqına imzası, dərgisi olan,
Köməkdar olacaq bu cür kəslərə,
Salmaz ilhamlını o qəfəslərə.
Dərk edir onunla çağlayır həyat,
İstedad Allahdan gələn mükafat.

19.04.2008

ÖZÜMÜ ÖZÜMDƏ TAPA BİLMİRƏM

Ey təbim, atəşə tutdun qanımı,
Təndən alıb qaçdın can ünvanımı,
Elə artırırsan qəlb divanımı,
Mən bu ağrılardan qopa bilmirəm,
Özümü özümdə tapa bilmirəm.

Göydə ulduz-ulduz gəzir fəryadım,
Uçur asimanda könül səyyadım,
Ey mənim istəklim, yaxınım, yadım,
Sənsiz dərd dağını çapa bilmirəm,
Özümü özümdə tapa bilmirəm.

Dolur buludlartək gözümün yaşı,
Əridir çaylartək çınqılı, daşı,
Artır ürəyimin hicran təlaşı,
İlham köhlənində çapa bilmirəm,
Özümü özümdə tapa bilmirəm.

Ey təbim, əzabım közlər içində,
Şimşəklər çaxnaşıb gözlər içində,
Atəşim alışır sözlər içində,
Mən bu müsibətdən sapa bilmirəm,
Özümü özümdə tapa bilmirəm.

Dünyanın sazağı üşüdür məni,
Fırtına torunda tale yelkəni,
Ömür zəmisinin tökülür dəni,
Canımın əlindən qopa bilmirəm,
Özümü özümdə tapa bilmirəm.

Ey təbim, Şadiman bir qürbət quşu,
Alırsan sehrinlə sən əqli-huşu,
Payızın sonuna uçur can quşu...
Çökən divarımı yapa bilmirəm,
Özümü özümdə tapa bilmirəm.

19.09.2008

VERDİN SƏS-SƏSƏ, ÜRƏYİM

Verdin səs-səsə, ürəyim,
Yenə qurdun min bir taxtı.
Deyirsən nəsə, ürəyim,
İlhamıma gecə vaxtı.

Hamı yatıb yuxudadı,
Ağrılarım qorxudadı,
Röyam min bir qoxudadı,
Məhəbbətlə gözə baxdı.

Səsin düşüb başa yaman,
Alır qaçır səsi zaman,
Ürəyim, yox sənə dərman,
Loğman sanma ömrə baxtı.

Tapmaz cana an çarəni,
Sağaldarmı dərd yarəni?
Bu Şadiman biçarəni,
Qəm yandırıb, hicran yaxdı.

15.08.2008

YUXUM ÇƏKİLİB ƏRŞƏ

Yuxum çəkilib ərşə,
Çəkir məni qəm şişə,
Yerdən göyə uçuram,
Özümə yol açıram.
Yanır mənimlə gecə,
Ev sükut, sakit küçə.
Qulağımı səs alır,
Gözüm zülmətdə qalır.
Ulduz-ulduz sözlərim,
Bu yol çəkən gözlərim,
Dikilibdi aləmə,
Kimsə dinmir naləmə.
Arabir külək səsi,
O hayqıran nəfəsi,

Gecəyə layla çalır,
Gah qalxır, gah alçalır,
Zülmətdən qopan səda,
Olur könlümə qida.
Hamı yatıb yuxuda,
İlham qara-qorxuda.
Qapımda durub baxır,
Məni yandırıb yaxır.

10.10.2008

KƏDƏRİM BAŞDAN AŞIR

Kədərim başdan aşır,
Gözlərimdən qəm daşır.
Könlümlə pıçıldaşır,
Sevda dolu günüm var,
Neçə toy-düyünüm var.
Mən qəmimə can dedim,
Dərdə həyacan dedim.
Tən içində can dedim,
Ahımla oylanmışam,
Başına haylanmışam.
Ötən günüm havada,
Ürəyimlə davada.
Nədir bu qəlb yuvada?-
Fikirləri buz edir,
Könlümü yalqız edir.

15.10.2008

SIĞINMIŞAM İLHAM ADLI MƏKANIMA

Sığınmışam ilham adlı məkanıma,
Ümidliyəm ürəyimin imkanına.
Vurğunuyam, duyğuları
çeşmə kimi çağladan,
Könlümü həm güldürən,
həm ağladan ağılımın təkanına.
Ağrılara təşnə qəlbim
əzabları içir gedir,
Küləkləri əsir edən
fırtınadan keçir gedir.
Zamanımdan an istəyən,
Allahımdan can istəyən
ömür adlı bərə ilə
Tufanlarla çarpışıram.
Zülmlərə darılmamış,
Könül telim qırılmamış
mən Allahın ətəyindən yapışıram.

21.10.2008

ŞAİR – KAMERTON

Piano dillərini kökləmək üçün
kamerton bir cihazdır.
Musiqini için-için
dindirən xoş avazdır.
Lazım deyil əl vurmaq,
Hər dilə toxunarsa barmaq,
Kamertondan gəlsə səslər,
demək piano köklənib,
Hər not da diləklənib.
Musiqilər doğulacaq,
Üni ərşə dağılacaq.

***

Şair də kamerton kimi olmalı,
Ağrı-acıyla dolmalı.
Təbiətin xoş səsini,
Vətənin od nəfəsini,
Bu dünyanın harayını,
Bu insanlıq sarayını-
İlhamıyla duymalıdır,

Canın oda qoymalıdır.
Kamertontək yana-yana
hər nota səs verməlidir,
Ağ kağıza canlı nəfəs verməlidir.
Can tağının meyvələrin söz-söz
candan dərməlidir.
Söz yığını şeir deyil,
Şeir hissdir, seyir deyil.
O vücudu titrətməli,
Yeri, göyü ram etməli.
Əgər yoxsa belə qüdrət,
Yazdığında yoxdu sənət!
Gecə-gündüz qəlb dolmalı,
Gözlər yuxusuz qalmalı.
İlhamında can olmalı,
Şair kamerton olmalı,
Şair kamerton olmalı.

09.10.2008

ÜRƏYİMİN OCAĞI VAR

Ürəyimin ocağı var,
Atəşində köz üşüyür.
Ahla dolu qucağı var,
Zirvəsində söz üşüyür.

Axdı dərdi yağışlarla,
Çəkdi rəsmi naxışlarla,
Hər qeylü-qal baxışlarla,
Toqquşanda göz üşüyür.

Hər dərdin öz dağı vardır,
Zamanının çağı vardır,
Ürəyin sol-sağı vardır,
Yaralar köz-köz üşüyür.

Ey Şadiman, bu nə xiffət?
Qəlbin sevda dolu afət,
Hər misrası bir qiyafət,
Ruhu-canın döz, üşüyür.

19.11.2008

GÜNLƏRİMİN ƏZABINDAN BOYLANIRAM

Qəmlə dolu günlərimin
əzabından boylanıram,
Boylandıqca bu ağrıdan vaylanıram.
Hissə-hissə, parça-parça
cismimdə an ağrısı,
Gah sinəmdən, gah başımdan
şahə qalxır can ağrısı.
Dilim-dilim dilimlənir hər diləyim,
Zülmətlərdən möhnət dolu sabahıma
qaçış edir bu ürəyim.
Gah büdrəyir, gah yıxılır,
Oda düşmüş ocaq təki yanıb yaxılır.
Hicran dolu günlərimi saya-saya,
Bəbəklərim dolub daşır,
Kirpiklərdən sellər aşır.
Yanağımı yuyur çaylar,
Könülümdə qopur haylar.
Bu haylarım yerdə, göydə ayaq açır,
Hissim, ağlım uşaq kimi elə qaçır.
Dar möhlətli bu zamana sığmayıram,
Ürəyimin ipini mən əllərimə yığmayıram.
Göydə-yerdə dəli attək elə çapır,
Gəlib yenə sinəmdəki
öz yerini gəzib tapır.
Bu sitəmdən oylanıram,
Qəmlə dolu günlərimin
əzabından boylanıram.

09.10.2008

RUHUN AĞRISINDAN OYLANIR ÜRƏK

Ruhun ağrısından oylanır ürək,
Sözlərin içindən heyrət boylanır.
Elə söykənibdir haqqıma dirək,
Bu haqqın özündə nemət boylanır.

Dünya zər taxtası oynar adamlar,
Şər-xeyir içində qaynar adamlar,
Bu ərzi titrədir qaynar adamlar,
Ağlın qalasından qeyrət boylanır.

Haqq tikib qəlb adlı uca sarayı,
Bu saraydan qopur haqqın harayı,
Can vəcdəyə gəlir titrədir hayı-
Nazəndə ilhamdan izzət boylanır.

Misralar sözlərə pərçimlənibdir,
Qəlb hisslər əlində əlçimlənibdir,
Könül mələk təki göydən enibdir,
Sözləri oxşayan qamət boylanır.

Vaxtın ölçüsündə anlar daranır,
Anlar zəban çəkir misra yaranır,
Yerinə düşəndə əsra yaranır,
Onun da özündən sənət boylanır.

Ləlinə bərq vuran birinci kimi,
Daşar süd gölünün sərinci kimi,
Hər söz sədəfində bir inci kimi,
Yerinə düşəndə zinət boylanır.

Şadiman ürəyə yanan şam dedi,
Vaxtına üzülən cana kam dedi,
Qəlbini gizləyən dərdə dam dedi,
Bu dərddən ac olan xeyrat boylanır.

09.10.2008

TƏBİMİN QOYNUNDA YATAN MİSRALAR

Təbimin qoynunda yatan misralar,
Könlümün sapına düzülüb gəlir.
Özün dərdi-sərə atan misralar,
Ağrıdan, acıdan üzülüb gəlir.

Gah hicran arayır, gah da vüsalı,
Bağrımı yandırır bu miskin halı,
Tökür ürəyimə min bir zavalı,
Duyğu çeşməsindən süzülüb gəlir.

Mənim əzabımla verir baş-başa,
Nədən vurğun olub canım sirdaşa?
Ələyir ağrımı hər dağa, daşa,
Ağlın sarayından çözülüb gəlir.

Sevdalı günümdə olur bal-şəkər,
Coşanda qoşqudan çıxmış bir təkər,
Gah dinir, gah susur bilməm nə şakər?
Dərdin yumruğuyla əzilib gəlir.

Zirvədə yuvasın salan misralar,
Sinəmdən ürəyi alan misralar,
Eşqimlə qol-boyun olan misralar.
Sərxoştək gözləri süzülüb gəlir.

22.01.2008

EŞQİN CANA YAXAN TƏBİM

Nə durmusan bir susma, din,
Eşqin cana yaxan təbim.
Qulağıma nədir dedin?
Can evimi yıxan təbim.

Diləklərim haça-haça,
Göydən yerə uça-uça,
Gəldin elə qaça-qaça
Könlümə od taxan təbim.

Şadimanla etmə cida,
Bu nə əda, bu nə sevda?
Aləmlərə saldın səda,
Mənə oğrun baxan təbim.

26.01.2008

UÇAN KÖNÜL

Nə gəzirsən dağı-daşı,
Sevdalanıb uçan könül.
Çəkər tüfəng, vurar naşı,
Çıxıb təndən qaçan könül.

Canım yenə sədalanıb,
Dadıb eşqi qidalanıb,
Haraylarım nidalanıb,
Bu nidayla saçan könül.

Ürək yanır kirin-kirin,
Dərd çox, sən heç açma birin,
Sinəmdədi sənin yerin,
Getdin ordan haçan, könül?

İlhamımı aldın ələ.
Çəkdin onu şirin dilə,
Misra-misra saldın dilə,
Təb qapısın açan könül.

Hər sabahın gül üzü var,
Hər gecənin gündüzü var,
Şadimanın bir üzü var,
Bağrıma dərd açan könül.

17.11.2008

GECƏNİN SAAT TIQQILTISI

Gecənin saat tıqqıltısı,
Zülmətin ürəyindən keçir,
Anların zəmisini dəryaztək biçir.
Qara buludların atəşi,
Od olur - dolur gözlərimə,
Kirpiklərim tişətək sancılıb közlərimə.
Dilimdə avazım,
Könlümdə ilham dolu nazım.
Gecənin saat tıqqıltısıtək
anlarımı tumarlayır,
Kədərimi ürəyimdə tutub damlayır.
Bədənimdə titrəyir can sarayım,
Zülmətin bağrından keçir harayım,
Mən bunların hansını sayım?
Gecənin saat tıqqıltısı,
Ömür qatarının ağır-ağır,
ləngər vura-vura yol getdiyini,
Zamanın keşməkeşlərində
bülbültək ötdüyünü,
Hər şeyi Tanrı əliylə etdiyini
nəql edir mənə,
İlahi bütün bunlar nədir mənə?
Nədir mənə?

19.11.2008

FIRTINAYA BƏNZƏR ÜRƏYİM

Dənizin içində qopan fırtınaya bənzər ürəyim,
Hər gün yazına can atan bahar çiçəyitək açır diləyim.
Dupduru çeşmələrtək duyğularım pıqqıldayır,
Gecənin sukutunda könül qapım taqqıldayır.
Canım tənimdən çıxıb qapıya sarı gedir,
Xüsusi qonaqsevərliklə canfəşanlıq edir.
Bu zaman boynubükük sözlərim qapıdan boylanır,
Canımın başına haylanır.

Zülmətin ağuşunda qol-boyun oluruq,
Qəhər bizi boğur,
Bu qəhərdən ilham doğur,
Bulud kimi doluruq.
Şimşəklər qopur ağrımızdan,
Haray sellənir ağızdan,
Qopa bilmirik qələm və kağızdan.

13.09.2008

ÜRƏKDƏ DÜNYA BOYDA AĞRIM

Ürəkdə dünya boyda ağrım,
Doğulandan mənlə çarpışmada.
Bu can oğrum hissimi,
fikrimi əlimdən alır,
Könlümü kəməndə salır.
Hicran dolu canla ağlaşır,
Hər bir əzabıma bağlaşır.
Sinəmdə duyğuların çeşməsi,
Karvan tutan qəmimin
duman dolu sərçeşməsi.
Bəxtimə düşüb hər işin nəhsi,
Ağlımdan gəlir haqqın səsi.
Bu ki, həyat zümzüməsi,
Könlümdən qopur sədaya qibtə,
Bütün dünyam bürünür heyrətə.

14.09.2008

SÖZÜN MEYDANI SAVAŞ

Sözün meydanı savaş,
Doldurar gözlərə yaş,
Ağrıyar ürəklə baş,
Ondakı təb yaz olar,
Can deyəni az olar.

Misra-güllə yagışı,
Hərənin öz baxışı,
Kim salar söz naxışı,
Deyərlər dayaz olar,
Can deyəni az olar.

Yazdığın sanır dayaq,
Çoxu yazır bir sayaq,
Gecə qalsa da oyaq,
Vərəqi bəyaz olar,
Can deyəni az olar.

Təbii söz ustası,
Misra təbin xəstəsi,
Ürəyi ələm tası,
Qüssə, qəmi naz olar,
Can deyəni az olar.

Şeriyyət olsun gərək,
Misrayla dolsun gərək,
Ağızda qalsın gərək,
Qalanda kef saz olar,
Can deyəni az olar.

Hamı baş sayır özün,
Kitabla yayır özün,
Şadiman, ayır özün,
Söz nəzir-niyaz olar,
Can deyəni az olar.

26.05.2008

ÇAĞLAYAN ALƏMLƏR İÇİNDƏ

Gözlərim ağlayır üzümə,
Bu qəmdən gəlmirəm özümə,
Mat qaldım ağlımda dözümə,
Zamanım ötüşən köçündə,
Çağlayan aləmlər içində.

Sevdalar yörəmdə qaçışır,
Nəş'ələr mələktək uçuşur,
Könlümün telləri oxur Şur,
Kədərin zəmisin biçində,
Çağlayan aləmlər içində.

Duyğular od tökür canıma,
Qarışır atəşlər qanıma,
Təbimi gətirir yanıma,
Bağrımda suallar neçində?
Çağlayan aləmlər içində.

Hər kəsin bir ömrü var imiş,
Ömrə də qəm, kədər yar imiş,
İlhama bu dünya dar imiş,
Darlığı çırpınır heçində,
Çağlayan aləmlər içində.

Şadiman gözündə damcılar,
Həyatın doğduğu acılar,
Ox təki sinəyə sancılar,
Kimsədə yoxmuş heç bu çində,
Çağlayan aləmlər içində.

30.05.2008

ALIB AĞLIMI BAŞDAN

Alıb ağlımı başdan,
Dönmür canla savaşdan,
Çıxır hər işi daşdan,
Cana verən tələşdan,
Dərdə yatır ürəyim,
Haqqa çatır ürəyim.

Bapbalaca yuvası,
Bitmir mənlə davası,
Tapılmayır dəvası,
Tutub yenə havası,
Təni atır ürəyim,
Haqqa çatır ürəyim.

Yandırır atəş kimi,
Ocaq üstə teş kimi,
Sinəm bir küləş kimi,
Həm Ay, həm Günəş kimi,
Çıxıb-batır ürəyim,
Haqqa çatır ürəyim.

Bu dünya iki hissə,
Bölünüb yaxşı-pisə,
Əyilməyir iblisə,
Rəbb ayağına isə –
Özün atır ürəyim,
Haqqa çatır ürəyim.

Şadimanı azdırır,
Aramızda naz durur,
Eşqi könlə sızdırır,
Qələmimi yazdırır,
Təbi tutur ürəyim,
Haqqa çatır ürəyim.

15.10.2007

DƏRDƏ QAPI AÇIRAM

Könül qapımı döyən,
Özünü şövqlə öyən,
Mənə sevdadan deyən
Səs tərəfə qaçıram,
Dərdə qapı açıram.

Qapımda duran uca,
Cəftəmi vuran uca,
Halımı soran uca,
Bu sədaya acıram,
Dərdə qapı açıram.

Ehtişamla çağlayır,
Boynumu qucağlayır,
Uşaq təki ağlayır,
Canı necə qaçıram?
Dərdə qapı açıram.

Demə dərd elə canmış,
Mən yananda o yanmış,
Hər ağrıma dayanmış
Qəfəsindən uçuram,
Ona qapı açıram...

04.03.2011

SƏN EY TALEYİMDƏN XƏBƏRSİZ GECƏ

Sən ey taleyimdən xəbərsiz gecə,
Zülmətdə taxtını qurmusan necə?
Bax körpə uşaqtək ruhum ağlayır,
Ruhumun içində ahım ağlayır.
Sən də qaranlığa çətir tutmusan,
Ona ürəyində xətir tutmusan.
Bu göy-yer arası tək mən oyağam,
Bir insafın olsun, sənə dayağam.
Gəl gözdə ayılan yuxumu ovut,
Dərdimə taxt quran qorxumu ovut.
Bağrımı titrədir bu bilməcələr,
Fırtına içində canmı dincələr?
Pəncərəm önündən susqun baxırsan,
Elə can üzürsən, ürək yaxırsan.
Dişin dodağına sıxılıb qalıb,
Pıçıltın dilinə yaxılıb qalıb.
Can qapısın açan bir ruh kimisən,
Bir az da dalğınsan, ögar kimisən,
Boynunu bükmüsən giley edirsən,
Yenə də könlümü bir ney edirsən,
Səni ürəyimə buraxım necə?
Sən ey taleyimdən xəbərsiz gecə.

05.03.2011

MƏNƏ DİVANƏTƏK BAXIB, EY FƏLƏK

Mənə divanətək baxıb, ey fələk,
Bu odu könlümə sən tökmədinmi?
Hissin qılıncını taxıb, ey fələk,
Məni tərəfinə sən çəkmədinmi?

Sinəmdə alışan ocaq çatmısan,
Tutub ürəyimi ora atmısan,
Bütün vücudumu qora qatmısan,
Özün mənlə oda tez çökmədinmi?

Hara gedirəmsə səndən keçirəm,
Sənin arşınınla ömrü ölçürəm,
Hər an dəyişirəm, hər an bir cürəm,
Bu hissin ağacın düz əkmədinmi?

Zamanın dartılan həyat simiyəm,
Gah canın düşməni, gah həkimiyəm,
Mən dəvəsi ölmüş ərəb kimiyəm,
Onun karvanını bir çəkmədinmi?

Kağızlar üstündə göz qaraldıram,
Odum atəş saçır, köz qaraldıram,
Demə, sözüm ölüb üz qaraldıram,
Bu sözün xurcunun sən tikmədinmi?

Şadiman heybətli küləyə bənzər,
Göyləri, yerləri fırlanıb gəzər,
Dünya parıltısı günəş təki zər,
Onun ahu-zarın mənə dedinmi?..

09.04.2011

MƏNİM İDRAKIMDAN BOYLANAN CANIM

Mənim idrakımdan boylanan canım,
Ağrıma, ağrını ala bilmirəm.
Söylə, ruh evini mən nə vaxt anım?
Gecəli-gündüzlü qala bilmirəm.

Yorulub, usanıb düşürəm əldən,
Gərək uçuraydın məni təməldən,
Nə səni buraxa bilmirəm əldən,
Nə də ki, simini çala bilmirəm.

Əzabdan o yana yolmu görünür?
Ömrüm ilan təki vaxta sürünür,
Bütün vücuduma kölgən bürünür,
Bir an ondan dala qala bilmirəm.

Ürək də təntiyir nazu-qəmzəndən,
Səni məhzun-məhzun çox süzür gendən,
Sən ona əzizsən Tanrıdan, dindən,
Bəs de necə dözüm hala, bilmirəm.

Elə Şadimana uşaq kimisən,
Hissinə dolanan qurşaq kimisən,
Ağılla ürəyin sevda simisən,
Mən necə gətirim yola, bilmirəm.

09.04.2011

ÖLDÜRÜN, DİRİLDİN MƏNİ ADAMLAR

Öldürün, dirildin məni adamlar,
Ancaq ürəyimi almın əlimdən.
Qalsın kahasında sirr dolu kamlar,
Bir şəffaf büllurtək salmın əlimdən.

Siz mənim könlümdən keçirin qəmi,
Batırın ahımda bütün aləmi,
Qoy özüm eşidim, acı naləmi,
Asın harayımı hər bir telimdən.

Öldürün, dirildin məni yad kimi,
Yarın ürəyimi bir cəllad kimi,
Hər sözüm hayqırsın bir övlad kimi,
Düşməsin fəryadı heç vaxt dilimdən.

11.04.2011

***

İçimdə dolaşır acı bir həsrət,
Vüsalı oynayır odla köz kimi.
Edir duyğulartək könlümdə vüs'ət,
Yoxdur bu qəlbimi sevən söz kimi.

Zamantək sevdadan sevdaya düşür,
Qəlbimdə ağrıyla, ahla əlləşir,
Salır ürəyimin içində həşir,
Boylanır bağrımdan vurğun göz kimi.

09.01.2008

SEVDALARIN EŞQİNƏ

Ürəyimdən çıxar ahı-amanlar,
Qəlbdən qopan nidaların eşqinə.
Üzə gülər dəm içində zamanlar,
Könlüm coşar sevdaların eşqinə.

Göz yaşımı kirpik öpər şeh kimi,
Duyğularım ötüb keçər meh kimi,
Afət ömür Yaradandan beh kimi,
Bəxtə uçar sədaların eşqinə.

Həyat acı, gah da şirin bal təki,
İzin qoyar qəlb içinə xal təki,
Qəm örpəyin atar başa şal təki,
Cana dəyən qadaların eşqinə.

Ögeyliklə doğmalıqda bir an var,
Bəbəkləri yaşa tutan leysan var,
Min adamın içində bir insan var,
Tanrı qoyan qaydaların eşqinə.

Yıxıb çoxun ağlındakı mən dərdi,
Bəşərlikdən çıxanların tən dərdi,
Canı alıb Allah bizdən tən dərdi –
Zəhlə tökən ədaların eşqinə.

Can bədənin Rəbdən gələn eyhamı,
Düşüncəmiz ağlımızın ehkamı,
Şadimana deyin ötsün ilhamı,
Təbi verən qidaların eşqinə.

26.01.2008

GÖRÜN NECƏ HALDAYAM?

Başımın üstündə sirli göyün sükanı,
Ayağım altında yer məkanı.
Bəxtin güzarına düşmüş ömrün vəhşi atı,
Saatın əqrəbləri içində
harasa aparıb gedir həyatı.
Dünyanın keşməkeşli yeddi qatı,
Bu qatlarında vaxtımızı udan çatları,
Zaman girdabında hayqıran bata-batları,
Üzür, aparır ürəyi.
Bizlərdən yuxarıda sevda mələyi,
Ağladıb-güldürür,
Doğdurub-öldürür,
Bununla qalibliyin bizə bildirir.

30.08.2008

BİR HƏSRƏT ACISI YANDIRAR MƏNİ

Bir həsrət acısı yandırır məni,
Acısı qəlbimdən ötməyir hələ.
Ağrı cəhənnəmi andırır məni,
Yarası göynəyir, bitməyir hələ.

Zülmətdən Ay kimi qopur sevdası,
Gəlir ürəyimi tapır qadası,
Könlümün içindən getmir nidası,
Eşqi ürəyimə yetməyir hələ.

Bir həsrət acısı titrər sim təki,
Ram edib ağlımı lap tilsim təki,
Sinəmdə taxt qurub şah isim təki,
Ağlımdan bir sətri itməyir hələ.

Hicrandan boylanan ürəyim şamdı,
Bu şamın işığı sönən axşamdı,
Yenə də könlümə yanan ilhamdı,
Onun şölələri getməyir hələ.

19.12.2007

DƏLİ ƏSƏN KÜLƏKLƏR

Dəli əsən küləklər, ruhuma da ələklər,
Uçar könül fəzamda o şahanə diləklər,
Yağdırar üz-gözümə gurşadları fələklər...
Mən bu təmənna ilə əl açaram səmaya,
Ürək məndən də əvvəl uçub gedər bu haya.

22.11.2011

AY ADAMLAR, MƏN BURDAYAM

Günü-gündən alıb qaçdım,
Ömrü ora salıb qaçdım,
Ürəyimi sizə açdım,
Deməyin ki, bəs hardayam?
Ay adamlar, mən burdayam.

Könlünüzü alsam belə,
Düşüb orda qalsam belə,
Tellərini çalsam belə,
Bilin içdən qopan hayam,
Ay adamlar, mən burdayam.

Məni görüb susanlarım,
Təb qapımı pusanlarım,
Qəlbi tutub asanlarım,
Güman etmin ey, dardayam,
Ay adamlar, mən burdayam.

Şe'rə olmaz boya qatmaq,
Zirvələrdən yerə atmaq,
Yad nəfəsə onu satmaq,
Sözlə büllur saraydayam,
Ay adamlar, mən burdayam.

Şadimanı lal bilməyin,
Halın fəna hal bilməyin,
Hər bir işdə dal bilməyin,
Güman etmin ah-zardayam,
Ay adamlar, mən burdayam.
Ay adamlar, mən burdayam.

23.10.2011

YAZIQ ŞEİR

Yazıq şeir, gör nə günə qalmısan?
Ay qaragünlü, xəyala dalmısan.
Çoxu götürüb əlinə qələmi,
Guya vurub dağıdacaq aləmi.
Təbi-təvanın döşənib ayağa,
Gölə girib quruldayır qurbağa.
Sirlərini anlamaz hər binəva,
Təzəliyi zənn eləylər bir dəva.
Çalışar ki, dağına dırmaşmağa,
Bir sel olub şaqqıldayıb daşmağa.
Cəhd eləyər hecaya təpik atsın,
Ağzı daşıb at kimi köpük atsın.
Qəzəlinə ağız büzər yad sayaq,
Sözü düzər misralara baş-ayaq.
Söz yığının «sərbəst» deyib çağlayar,
Dərdə düşüb sərbəst şeir çulğayar.
Bu minvalla misra-misra cəng edər,
Oxucunun baş-qulağın dəng edər.
Şadiman da dönər sənin ağına,
Pıçıldayar dərdini qulağına.
Bu edilənlər sinənə min bir ox,
Ay başıdaşlı, sənə bir çarə yox?!

22.10.2011

SEVDALI DÜNYAMIN NƏĞMƏLƏRİ

AH, MƏHƏBBƏT

Ah, məhəbbət...
Ürəyimi alıb qaçdın,
Başıma min bəla açdın,
Hərdən odtək şölə saçdın,
Saldın haldan-hala məni,
Heç vermədin yola məni.

Ah, məhəbbət...
Dərdi çəkdi başım elə,
Gözdən axdı yaşım elə,
Gəldi hicran qışım elə,
Bir etmədin aman mənə,
Çox eylədin yaman mənə.

Ah, məhəbbət...
Gecələrim qan ağladı,
Gündüzlərə can bağladı,
Hicran gəlib qəlb dağladı,
Sağaltmadın heç yaramı,
Çox izlədin sən qaramı.

Ah, məhəbbət...
Qaçdım səndən uzaqlara,
Ağrı saldın sazaqlara,
Sən çəkdiyin qəm dağlara,
Dözmür daha heç ürəyim,
Dur gəl, mənim şux mələyim.

Ah, məhəbbət...
Şadimandan döndü üzün,
Bir görmədi məni gözün,
Sürünərkən dizin-dizin,
Yalvardım ki, mənə tapın,
Bağlı qaldı könül qapın.

11.04.2009

QIZLAR ƏR EVİNDƏ ANA OLAYDI

Qızlar tər bənövşə, qızlar gül-çiçək,
Hamı bir-birindən nə gözəl, göyçək?
Ömürlük gələydi səadət gerçək,
Sevdiyi oğlana sona olaydı.
Qızlar ər evində ana olaydı.

Açar, pardaqlanar bir sünbül təki,
Dilləri ötüşər şux bülbül təki,
Ata ocağında qızıl gül təki,
Sevdası ürəyə eşqlə dolaydı,
Qızlar ər evində ana olaydı.

Hər müdrik zamanın dəmləri şirin,
Heç kəsə açmayıb öz ürək sirrin,
Oğlanlar sevəndə sevəydi birin,
Qız da tək birinə meyil salaydı,
Qızlar ər evində ana olaydı.

Yerində dayanmır ömür heç zaman,
Ötən saatlara verməyir aman,
Xoş həyatlarını sarmaya duman,
O köçdüyü evdə izi qalaydı,
Qızlar ər evində ana olaydı.

Sevdiyi oğlana bəxtin bağlayıb,
Çeşmətək gözündən coşub-çağlayıb,
Bütün həsrətlərin gözün dağlayıb,
Oğluna, qızına layla çalaydı,
Qızlar ər evində ana olaydı.

Qadın - ana, bacı, baldızdı onlar,
Bəşərin bəxtində – ulduzdu onlar,
Taleyi dönəndə – yalqızdı onlar,
Ataya, anaya pak qızdı onlar!
Ayrılıq gələndə zəfər çalaydı,
Qızlar ər evində ana olaydı.

Şadiman, var olmaz qızlarsız bəşər,
Odundan günəşə hələ pay düşər,
Sevənə – mələkdi, sevməyənə – şər,
Hər oğlan bir qızın qəlbin alaydı,
Qızlar ər evində ana olaydı,
Qızlar ər evində ana olaydı.

12.03.2007/Neft Daşları

ÜRƏYİM ÜŞÜYÜR QIŞTƏK

Ürəyim üşüyür qıştək,
Kədər qonub üstümə qarqıştək.
Göz yaşlarım yağır könlümə yağıştək,
Hicran əsdirir dirəyimi,
Harda gizlədim ürəyimi?

İşığı tükənmiş şam kimiyəm,
Qara çarşab geyinmiş axşam kimiyəm,
Öz ağrılarımın həkimiyəm,
Məktuba çevirdim rəyimi,
Harda gizlədim ürəyimi?

Dərdin ortasında mağar qurdum,
Bulud göydən yağar, durdum,
Ay gecəmə doğar, durdum,
Dərdə qurban verim nəyimi?
Harda gizlədim ürəyimi?

13.10.2007/ Neft Daşları

YENƏ DOLANIRSAN XƏYALLARİMDA

Yenə dolanırsan xəyallarımda,
İşığa can atan pərvanələrtək.
İzlərin parlayır bəxt yollarında,
Harayım püskürür zəbanələrtək.

Ahın ah dərdi var, kədərin kədər,
Vaxtını öldürmə qəmlərlə hədər,
Hərəyə bir ömür bəxş edir qədər,
Ömrümü puç etmə divanələrtək.

Xəyal həyat deyil, xəyal yuxudur,
Sevgi haqq müjdəsi, hicran qorxudur,
Həsrət tufanından gələn qoxudur,
Bu qoxu qəlbimdə viranələrtək.

10.10.2009

BU DÜNYAYA EŞQIN DƏYƏR

Nə olardı aqibətim,
Tapmasaydım səni əgər.
Ey saf olan məhəbbətim,
Bu dünyaya eşqin dəyər.

Dərd içindən keçib getdim,
Zəhərini içib getdim,
Mən bu yolu seçib getdim,
Bəs deyilmi eşqə məgər?!

11.04.2009

MƏNİM YOLLARIMI İZLƏMƏ DAHA

Mənim yollarımı izləmə daha,
Bu yollar tərsinə çevrilən deyil.
Düşüb cığırına, gözləmə daha,
Bu yollar özündən sivrilən deyil.

Əzəli dünyada doğulsam da mən,
Doğulub aləmə dağılsam da mən,
Girib qəm selinə boğulsam da mən,
Ötəri hissinə çevrilən deyil.

Uzaqdan əl edir xəyalın mənə,
Sevinc, qəm yedirir bu halın mənə,
Yenə əvvəlkitək sevdam var sənə,
Onun taxtı-tacı devrilən deyil.

Gəlib can evimə edirsən cida,
Gah sual olursan, gah da ki, nida,
Şadimanın könlün salmısan oda,
O ocaq hisinə sovrulan deyil.

27.01.2009

GÖZLƏRİM YOLLARINA BAXIR

Gözlərim yollarına baxır,
Bəxtimin göylərindən bir ulduz axır,
Başımda həsrət şimşəkləri çaxır,
Sinəmi yandırıb yaxır.
Sevdalı günlərim qarşımda cövlan edir,
Xəyalımla dövran edir,
Yenə həsrətin qan edir.

***

Gözlərim yollarına baxır,
Bağrıma ayrılıq yaşları axır.
Heç kəs gəlmir harayıma,
Təkcə sən girmisən könül sarayıma,
Bir göz dolandırmırsan vayıma.
Ağrılarım köç edən zamanımla dilləşir,
Bəbəklərimdə hicran buludları selləşir.
Ümidlər məni bir anda tərk etmir,
Acıları başıma sərk etmir,
Ürəyim deyir, bir gün dönərsən axır,
Gözlərim yollarına baxır.

01.05.2007/ Neft Daşları

SƏN MƏNİM SEVDALI DÜNYAMIN NƏĞMƏSİSƏN

Sən mənim sevdalı dünyamın
nəğməsisən,
Ürəyimin haqqıma tuşlanmış
bir qərib səsisən.
Sənsiz həyatım gün saçmaz,
Ömür bağımda güllər açmaz,
Ürəyim səndən o yana qaçmaz.
Dilim can deyər min bir ədalara,
Gözlərim yuxusundan oyanar sədalara,
Minnətçi olar dəli sevdalara.
Könlümdə şirin duyğular bəslənər,
Canımda yaşamaq hissi həvəslənər,
Ürəyim təkcə sənə səslənər.

Xəyalların yuxumdan o yana getməz,
Bir kimsə məni özünə cəlb etməz.
Səsin hər tərəfə keşik çəkər,
Könül bağçamda gecə-gündüz səkər.
Ağrılarıma məlhəm qoyar,
Ürəyimin hər eyhamını duyar,
Bütün həsrətlərin bağrını oyar.

***

Sən mənim sevdalı dünyamın nəğməsisən,
Bu dünyamda yaşamaq həvəsisən.
Ömrümü oğurlayan dəmlərə layla çalarsan,
Tutulan könlümü alarsan,
Ürəyimin içində qalarsan.
Bütün istəklərim səndən başlayır,
Nəş'əmə, kədərimə sirdaşlayır,
Ayrılığın sinəsin daşlayır.
Gözlərim gözlərinə gülür,
Diləklərimin acısını bilir,
Təkcə sənincin ölür.
Duyğular içində coşuram,
Sonsuz istəklərimlə cilalaşıram.
Açan sabahlarımın sənə
baxan gözünə sevinirəm,
Ürəyinin mənimçin yanan
közünə sevinirəm,
O məhəbbətli üzünə sevinirəm.
Dəmlərim avazıyan ömrümə sığal çəkir,
Eşqimizdən uzaqdı hiylə, məkir,
Baxışların bir rəssam kimi
sevdamızın şəklini çəkir.

***

Dəli-dolu diləklərimin bəsisən,
Sən mənim sevdalı dünyamın nəğməsisən.
Ürəyimin həyat səsisən,
Həyat səsisən.

1.05.2007/ Neft Daşları

BİR DƏRİN QUYUYA DÜŞÜB EŞQİMİZ

Bir dərin quyuya düşüb eşqimiz,
Ayrılığı ucaltmaqdı məşqimiz.
Ağrısı əzablardan keçir,
Cavabı tapılmayan hesablardan keçir,
Həsrəti özünə cəlb edir,
Hər nə edirsə qəlb edir.
Ağıla verdiyi zülmlə,
Hədələyir diləkləri ölümlə,
Bütün duyğuları məhəbbətli,
Eşqə sədaqətli-
Anlar içində,
Ürəyi biçində.

***

Bir dərin quyuya düşüb eşqimiz,
Hicranla görüşüb eşqimüz.
Fəryadı dünyanı ağzına götürüb,
Vüsal əkib, həsrət bitirib.
Səadəti bir içim suya bənzər,
Özü özündən edər həzər.
Ağrılar içində alışar,
Od olub aləmə qarışar.
Bu eşqə ağrı verməkdi işimiz,
Bir dərin quyuya düşüb eşqimiz.
Bir dərin quyuya düşüb eşqimiz.

01.05.2007/ Neft Daşları

EŞQİN SALIB MƏNİ ODA

Eşqin salıb məni oda,
Atəşinə yandım keçdim.
Arif olub gəl imdada,
Min yol səni andım keçdim.

Duman alıb sabahımı,
Varsa söylə günahımı,
Sinəmdəki hər ahımı
Ayrılıqtək dandım keçdim.

Ömür həyat sevincidir,
Həm dürdür, həm də incidir,
Odun qəlbdə birincidir,
Hər cəfasın sandım keçdim.

Gəlir könlün can cəfası,
Qoy qopmasın an nidası,
Solmasın heç qəlb sevdası,
Həsrətləri qandım keçdim.

Şadimanın bir ürəyi,
Sevgisidir tən dirəyi,
Məhəbbətdir can diləyi,
Onun üçün candan keçdim.

28.04.2007/ Neft Daşları

SƏN EY ÜRƏYİMİN MÖHNƏT YUVASI

Sən ey ürəyimin möhnət yuvası,
Durnalar uçanda qalx sədaya gəl.
Başımdan getməyir hicran havası,
Diləyim haylayır dur sevdaya gəl.

Gözlərim yol çəkir illər uzunu,
Söndürmə göylərdə bəxt ulduzunu,
Könlüm xatırladır mələr quzunu,
Dilimdə alışan mübtədaya gəl.

Ömür – zamanımın hicran yüküdü,
Haqqın zamanəti – canın kürküdü,
Hər dəmin içində qorxu-hürküdü,
Gözdə ocaq çatan bir nidaya gəl.

İllər ötüşdükcə acım çoxalır,
Ürək kövrəkləşir, könlüm yuxalır,
Yaralar açmaqçın həsrət ox alır,
Bağrı nişan alan dərd-qadaya gəl.

Şadiman hicrandan dağ çatıb könlə,
Dağ da dağ çəkməkçin əl qatıb könlə,
Dərdin üsbəüstdən nə yatıb könlə?
Onun süfrəsinə bir qidaya gəl.

01.05.2007 Neft Daşları

SƏN YOXSAN

Sən yoxsan,
Gözümdən acı yaşlar axır qəlbimə,
Bütün kədərləri buraxır qəlbimə,
Göylərin şimşəkləri çaxır qəlbimə.
Həyat mənim üçün dayanır,
Bu dəli sevda fırtınalartək oyanır.
Könül sarayını uçurur,
Canımı tənimdən qaçırır.

***

Sən yoxsan,
Bu cah-calallı dünya lallaşır,
Bütün duyğularım xəyallaşır,
Hicran selləri başımdan aşır,
Sevdalı günlərimiz ürəyimlə pıçıldaşır,
Kədərim sinəmdə qaynayır-daşır,
Qəlbim qəh-qəhələr içində
ağlıma üsyan edir,
Ömür-gün əlimdən gedir,
Bağrımı acı xəyalların didir,
Gəlib bir halıma baxsan,
Sən yoxsan,
Sən yoxsan.

17.10.2007

BU ACI HƏSRƏTLƏ QALDIM BAŞ-BAŞA

Bu acı həsrətlə qaldım baş-başa,
Ürəyim çırpınır hicran içində.
Gözüm sevda oxur bəbəkdə yaşa,
Dodaqda suallar niyə, neçində?

Qürbət sevərlərtək biganə ötdün,
Yatmış duyğuları heç ayıltmadın.
Durna qatarına qoşulub getdin,
Onlar qayıtdılar, sən qayıtmadın.

Yarpaqlar tökülür, payız başlayıb,
Məsum ağaclartək eşqimiz nalan.
Ürəyim sökülür, ayaz başlayıb,
Dön isti ocağa yollarda qalan.

17.10.2007

XƏYALIN OTAQDA UÇUR QUŞ KİMİ

Xəyalın otaqda uçur quş kimi,
Əlimi atıram tuta bilmirəm.
Düşüb kirpiklərin üstə daş kimi,
Yuxum ərşə qaçıb yata bilmirəm.

Gah masa üstündə şam təki yanır,
Önümdə kölgətək durub-dayanır,
Həsrətlər içindən həsrət oyanır,
Mən bu müsibətə bata bilmirəm.

Ömür uçur gedir elə ahəstə,
Sanki peyda olur zaman at üstə,
Qaçmaq istəyirəm qəm gəlir üstə,
Yollarım uzanır çata bilmirəm.

17.10.2007

MƏNİM SEVDA MƏLƏYİM

Mənim sevda mələyim,
Sənə olan ürəyim,
Səni candan atmayır,
Sənsiz gözüm yatmayır.
Gecə-gündüz mən ahda,
Canım qalıb sabahda.
Gəzir könül qapımı,
Qırır həsrət sapımı.
İşığın bir şam kimi,
Ürəyimdə kam kimi.
Zamanıma quş olur,
Hərdən qarlı qış olur.
Sinəm içi buzlayır,
Yara təki sızlayır.
Deyirəm, bir gələsən,
Təbib təki biləsən.
Bu sonsuz əzabıma,
Bu kəsilən tabıma,
Duyub çarə bulasan,
Könlümü bir alasan.
Səni gəzir ürəyim,
Mənim sevda mələyim.

13.10.2007

SƏN ORDA TƏK QALDIN

Sən orda tək qaldın, mən isə burda,
Əllərim əlinə yetmir neyləyim?
Ağlım ürəyimlə bir vurhavurda,
Könlüm ev-eşiyə yatmır, neyləyim?

Gözlərim arayır hər yerdə səni,
Həsrətin ovsuna salıbdı məni,
Canımın fəryadı əridir təni,
Dərdimin qulağı batmır, neyləyim?

Hicran ağrısına düşüb qalmışam,
Dərdin havasına şərqi çalmışam,
Mehrimi can üzən qəmə salmışam,
Ağlım səni qəlbdən atmır, neyləyim?

Baxışım qapıdan çəkmir nəzəri,
Xəyalın tutubdu sən tutan yeri,
Çək sevda qoşunun, qəm üstə yeri!
Gözlərim yuxuya yatmır, neyləyim?

Sən bu Şadimanı bilmə hissə qul,
Aç dərdin ağzını könlü orda bul,
Dəli sevgimizi etmə qəmə çul,
Çulumu çuluna qatmır, neyləyim?

12.10.2007

YOLLARIN ÜZÜMƏ GÜLMƏYİR DAHA

Ürəyim həyəcan içində qalıb,
Sən onu röyadan ayıltmayırsan.
Xəyalın ağlıma mehrini salıb,
Getdin, elə getdin qayıtmayırsan.

Yollarım üzümə gülməyir daha,
Mənimlə dərdini bölməyir daha,
Gözdən axan yaşı silməyir daha,
Getdin, elə getdin qayıtmayırsan.

Dilim ah söyləyir, zamanım qubar,
Elədin qəlbimdə dərdimi anbar,
Ələm bağçasında hər fəsildə bar,
Getdin, elə getdin qayıtmayırsan.

Şadiman nə deyib söyləsin sənə?
Atmısan sevdanı dumana, çənə,
Xəyalın um-küsü eyləyir mənə,
Getdin, elə getdin qayıtmayırsan.

13.10.2007

GÖZLƏRİNİN DƏNİZİNDƏ BATMIŞAM

Gözlərinin dənizində batmışam,
Sularına ürəyimi atmışam,
Sevda odun qəlb içinə çatmışam.
Xəyalların arzulara qatmışam.

Bu könlümün acıların bilsənə,
Sevdiciyim, canım özü dilsənə,
Gözlərimdən axan yaşı silsənə,
Küsüb gedən, ürəyimə gəlsənə.

Ağrıların bilinməyir müddəti,
Qövr eləyir zaman-zaman şiddəti,
Nə yamanmış ayrılığın hiddəti,
Yandırmaqdı ürəkləri adəti.

Sevgimizin bir üzünə gülsənə,
Küsüb gedən, ürəyimə gəlsənə.

12.11.2007

ÜRƏYİN MƏNİM YANIMDA

Ürəyin mənim yanımda,
Xəyalın dolaşır anımda,
Dumana düşmüş quşcağaztək.
Gecələr röyaların gələr,
O didərgin duyğularını könlümlə bölər.
Atəşi yanar ocaq təki canımda,
Ürəyin mənim yanımda.

***

Qəlbim tələtümə düşər,
Allahım bu xeyirmi, ya şər?
Ruhum çəkilər göylərin ənginə,
Alar həsrətin könlümü cənginə,
Ulaşaram eşqinin ahənginə.
Sevdalı günlərimi barmaqla sayaram,
Ayrılıq ağrılarını birər-birər oyaram.
Tüğyan edər əzabın canımda,

Sənsiz keçən anlarım
qılınclaşır dövranımda,
Batıram özüm-öz divanımda.
Həsrət acısı qaynayır qanımda,
Ürəyin mənim yanımda.

19.12.2007

BİR ÜRƏKDƏ İKİ CANIQ

Bir ürəkdə iki canıq,
Sən bir yanda, mən bir yanda.
Könül sıxan həyəcanıq,
Sən bir yanda, mən bir yanda.

Çeşmə-çeşmə çağlayırıq,
Uşaq təki ağlayırıq,
Haqqa ümid bağlayırıq,
Sən bir yanda, mən bir yanda.

Hər ikimiz Rəbbə bəndə,
Ülfətinə an daməndə,
Hönkürür bu can bədəndə,
Sən bir yanda, mən bir yanda.

Dil dolaşır, ağıl çaşır,
Ürəklə can pıçıldaşır,
Dərd qaynayır, həsrət daşır,
Sən bir yanda, mən bir yanda.

Gözlərimdə qəm yağışı,
Hər kirpikdə bir naxışı,
Saldın könlə qarlı qışı,
Sən bir yanda, mən bir yanda.

Şadimanın ruhu çinar,
Sevda quşu üstə qonar,
Aləm məni baxıb qınar,
Sən bir yanda, mən bir yanda.

19.11.2007

BU AXŞAM TELEFON ÇALDI AHƏSTƏ

Bu axşam telefon çaldı ahəstə,
Səsin axıb doldu qulaqlarıma.
Elə heyran-heyran pıçıltı pəstə,
Sözləri çalxatdı dodaqlarıma.

Bitdi üzüntünün zamanı elə,
Sevdalı diləklər coşdu ürəkdə.
Verdi bəxtiyarlıq hicranı yelə,
Ümidlər qaynayıb daşdı ürəkdə.

Bu axşam, telefon telləri coşğun,
Sevgini könlümə izhar eylədi.
Qopub ürəyindən yol gəldi eşqin,
Bu yanan qəlbimi ahar eylədi.

09.01.2008

ELƏ SÜZGÜN-SÜZGÜN DOLAŞIR GENDƏ

Elə süzgün-süzgün dolaşır gendə,
Könlümün içində gəzən baxışlar.
İncə mətləblərlə yollaşır gendə,
Məni intizarda üzən baxışlar.

Ürəyimdən qopan ahıma gülür,
Bağrımın başına odu tökülür,
Sevdanın içində həsrət bükülür,
Qəlbimə atəşlər düzən baxışlar.

Qüdrətdənmi gəlib həyanlıq belə?
Bu lal məhəbbətə heyranlıq belə,
Eşqimin bağına seyranlıq belə,
Bağımın çiçəyin əzən baxışlar.

Dilin topuq çalır, titrədir canı,
Deyəsən ötüşüb könül hicranı,
Bitib tükənməyir qəlb həyəcanı,
Qəlbimin barını üzən baxışlar.

Gah ümid verirsən, gah isə əzab,
Şadiman eləmir naz önündə tab,
Könlümü dost bilib, kəsmə haqq-hesab,
Öldürüb-dirildir məzən baxışlar.

26.01.2008

HƏSRƏT VƏ SEVDA

Həsrət və sevda,
İçdən qopan nida,
Dodaqlarda əlvida.
Ayrılığın ürəkdə açdığı
şırımları dərin,
Sağaltmaq olmur heç
nəylə yerin.
Ocağı sönmüş könlümün
külləri oynaşır ətrafda,
Küskün xatirələrin
izləri qaynaşır ətrafda,
Ağrılar içində can verir ədam,
Məhəbbətin olsa da
Könlümə qidam,
İndi mən həm özümə,
həm sənə yadam,
Yadam.

13.09.2008

EY MƏHƏBBƏT

Ey məhəbbət,
Səni munis bildim,
Ən zərif, ən gizli hiss bildim,
Bütün istəklərdən nəfis bildim,
Könlümü ağladanda pis bildim.
Ürəyimin içindən keçdin,
Neçə yol biçindən keçdin,
Niyə-neyçindən keçdin.
Şərabtək süzdün qanımı qədəhə,
Uf demədən başına çəkdin,
Guya bu istəyinlə təkdin.
Şərbət təki içdin,
Bütün istəklərimi biçdin.
Dodağından qopdu qəh-qəhə,
Özün də alışdın bəh-bəhə.

***

Ey məhəbbət,
Heyran oldum qüdrətinə,
Səni pirim bilib səcdə etdim vüs'ətinə,
İllərlə dözdüm həsrətinə,
Elə ki, bələd oldum xislətinə
Çəkdiyim acılara üzüldüm,
Ayrılıq cəhənnəmində əzildim,
Kədər badəsinə süzüldüm.
Canımı tənimdən qopartdın,
Qəlbimi məndən apartdın.
Arzumu-kamımı sənlə böldüm,
Həsrətinə gah ağladım, gah güldüm.
Güman etdin öldüm.

***

Ey məhəbbət,
Bu munis gecələrimdən doğan ağrı,
Elə kabab etdi bağırı,
Bir içim suya döndü harayım,
Titrədi zəlzələndən könül sarayım,
Köksümə ismarlandı vayım,
Mənə etdiklərinin hansını sayım?!...
Acılar içində titrəşən xülyalarımı?
Gözlərimlə savaşan röyalarımı?
Könlümə sığmayan dünyalarımı?

***

Ey məhəbbət,
İlhamı könlümə atdın,
Bütün duyğuları qəlbimdə oynatdın,
Bu rahat həyatımı bir-birinə qatdın.
Cahanın acıların qəlbimə çatdın,
Axır ki, arzuna çatdın.
Ürəyimi eylədin dəli,
İndi yetmir ona ağlımın əli!
Gəzirəm özümdən havalı,
Zehnimlə, şüurumla davalı,
Dilim haqqa dualı,
Bitmir etdiklərinin qeylü-qalı,
Kimə ərz edim halı?

***

Ey məhəbbət,
Şadimanı oda saldın,
Sinəsinə qada saldın,
De haçan yada saldın?
Könlümü yaman fəryada saldın.
Çarəsi bulunmaz,
Ürəyi alınmaz.
Götür məndən əndişəni,
Qaytar nəş'əni.
Məni sən yaratmadın axı,
Yaradıb bu dunyaya atmadın axı.
Haqqımın yanına gedərəm,
Səndən Allahıma şikayət edərəm.
Şikayət edərəm,
Ey məhəbbət.
Ey məhəbbət.

13.05.2008

***

Məhəbbət hər kəsin könül mələyi,
Haldan hala salır sevgi ürəyi,
Sinədə açılır təzə gül kimi,
Ehtizaza gəlir bir bülbül kimi.
Diləkdən-diləyə uçan kəpənək,
Çiçəkdən-çiçəyə qaçan kəpənək,
Artırır-azaldır həyata eşqi,
Bitib tükənməyir ürəklə məşqi,
Qurur eşqə düşən cana kələyi,
Məhəbbət hər kəsin könül diləyi.

25.03.2008

EŞQİMƏ MİNNƏT ELƏMƏ

Eşqimə minnət eləmə,
Minnətə zinət eləmə.
Ucalıqdan boylanır duyğularım mənə,
Onları salma dumana, çənə.
Məndən hər nə deyirlər sənə,
Bil ki, hamı həsəddi,
Aramıza çəkmək istədikləri səddi.
Gəl könlümə qəmlərin yerinə,
Getmə ürəyimlə dərinə.
Onun ağrılarından doğulur əzabım,
Kəsilib taqəti-tabım.
Ağrılı axşamların işığına boya ömrümü,
Çıxartmasam da səs-səmrimi.
Sükutun içində məhəbbətim var,
Ruhum, canım sənsən yar.
Eşqimə minnət eləmə,
Minnətə zinət eləmə,
Eləmə.

17.09.2008

MƏN SƏNİ UNUTMARAM

Mən səni unutmaram,
Bu qəlbimdən atmaram,
Xəyallara qatmaram,
Əgər düzünü desəm,
Hər gün ürəyimdəsən.

Gah yuxuma gəlirsən,
Gah gözümdə gülürsən,
Axı özün bilirsən,
Ağlımda, fikrimdəsən,
Hər gün ürəyimdəsən.

Qəlb xatırlar quzunu,
Gəzər ömrü uzunu,
Arar bəxt ulduzunu,
Aşikar eyləsəm mən,
Hər gün ürəyimdəsən.

Şadimana ah etmə,
Ahımla sabah etmə,
Sən allah günah etmə,
Vallah diləyimdəsən,
Hər gün ürəyimdəsən.

20.04.2008

ÜRƏYİNİN SƏDASI ÜRƏYİMƏ SƏS SALIR

Dolaşır duyğularım sevdaların içində,
Qopur ömürdən anlar nidaların içində,
Ötüşür saatlarım vidaların içində,
Fikirlər cövlan edir qəlbə xoş nəfəs salır,
Ürəyinin sədası ürəyimə səs salır.

Çağlayır bəbəklərdə yaşlarım inci-inci,
Gətirir baxışlarım cana dərya sevinci,
Sabahımın gözünü açır eşqin birinci,
Sübhümün dan yelitək zülmətə qəfəs salır,
Ürəyinin sədası ürəyimə səs salır.

Bil ki, həyat eşqidir artırır can sevgisi,
Keçir təşnə bağırdan yenə hicran sevgisi,
Yetişir səadətin vüsala an sevgisi,
Enişləri qalxmağa addıma həvəs salır,
Ürəyinin sədası ürəyimə səs salır.

30.05.2008

YENƏ DÜŞÜB ARALIĞA AYRILIQ

Yenə düşüb aralığa ayrılıq,
Həsrət qaldım qaşa-gözə, neyləyim?
Aramızda əsən yellər xoşqılıq,
Duman, çiskin əllər üzə, neyləyim?

Gözüm gəzir ixtiyarsız hər yanı,
Bəs necə mən ovundurum bu canı?
Gurşad ələr zamanımın hicranı,
Ocağımda düşən közə neyləyim?

Aramızda məkan bilməz zaman bar,
Bu zamanın içində ah-aman var,
Səbri kəsən neçə qatı duman var,
Çıxmayırsan yenə üzə, neyləyim?

Şadimanı dərdə fəda eylədin,
Ürəyimi ona qida eylədin,
Ayrılığı könlə nida eylədin,
Möhtac olmub quru sözə, neyləyim?

9.02.2008

EY KÖNLÜMÜN TACI

Ey könlümün tacı,
Sənsiz günüm acı.
Sənsən ömrümün əlacı.
Qurmusan qəlbimdə şahlıq taxtı,
Xoşbəxt etmisən baxtı.
Ürəyimin ağrıları ötüşüb,
Səadət dolu günlərim yetişib.
Bəxtimə gün düşüb.
Qapımızda əsməsin hicran yeli,
Qırılmasın könül teli.
Sənsiz günüm acı,
Ey könlümün tacı.

27.08.2008

KƏSMƏ MƏNDƏN ÜLFƏTİNİ

Kəsmə məndən ülfətini,
Bu ülfətdən can gözlənir.
Könül adlı afətini
Sal qəlbimə, qəlb közlənir.

Eşqin uçan səba yeli,
Ovsunlayıb qəlbdə teli,
Gözlərimdə həsrət seli,
Çağlayanda an gizlənir.

Şadimana bir düş yovuq,
Ürəyim hər yerdən ovuq,
Hər ikimiz eşqə ovuq,
Aralıqda can izlənir.

19.09.2008

GƏL, QƏLBİMDƏKİ BUZLARI ƏRİTMƏK ÜÇÜN

Gəl, qəlbimdəki buzları əritmək üçün
Gəl, qəlbimdə zanbaqtək bitmək üçün,
Qoşulub sənə bu dünyadan itmək üçün,
Sevdalar aləminə getmək üçün.

***

Gəl, həsrət əlçim-əlçim qarlar
ələyir sinəmə,
Şaxtanı, sazağı bələyir sinəmə.
Gəl, sönən ürəyimin közü ol,
Ağlımın, şüurumun özü ol,
Məhəbbətin ən növrəstə gözü ol,
Dilimin dilbər sözü ol.

***

Karvan-karvan buludlar alır könlümü,
Ayrılıq ilan təki çalır könlümü,
Əzabdan-əzaba salır könlümü.
Bütün bunları sənə açdım ki,
Hər cür yalanlardan qaçdım ki,
Qəlbimdə olanları biləsən.
Bütün imkansızlıqları qırasan,
Həsrətlə aranı vurasan,
Hicranı döndərməyəsən ilə sən,
Hər bir işini atıb gələsən,
Gələsən.

17.08.2008

YAMAN AYRI DÜŞÜB KÖNLÜMÜZ İNDİ

Yaman ayrı düşüb könlümüz indi,
Hicranı damıma dirək sayıram.
Qəlbimin telləri düyün-düyündü,
Ağrını bədənə ürək sayıram.

Qəmim ilmə-ilmə xalı toxudu,
Həsrət qulağıma sitəm oxudu,
Bilmirəm həyatdı, yoxsa yuxudu,
Gəzir xəyalımda, dilək sayıram.

Edir Şadimanla könül savaşı,
Çıxarır gözümdən ağrısı yaşı,
Bağlaya bilmirəm qəlbimə daşı,
Bu eşqi özümə mələk sayıram.

09.10.2008

BİTDİ GÖZLƏRİMİN GÖZÜNƏ BAXŞI

Bitdi gözlərimin gözünə baxşı,
Həm sənə yaxşıdır, həm mənə yaxşı.

Hicran tufanına düşən ömrümü,
Gah şıltaq, kədərli, gah şən ömrümü,
Sevdalar içində gülşən ömrümü,
Sardı hər bir yandan ayrılıq qışı,
Həm sənə yaxşıdır, həm mənə yaxşı.

Könül qapısını kimdir açası?
Məhəbbət deyil ki, qəlbdən qaçası,
Çəkir ayrılığın rəngkar fırçası,
Ürəyim başına min bir naxışı,
Həm sənə yaxşıdır, həm mənə yaxşı.

Şadiman eləmir eşqə göynəyi,
Cırıb ürəyindən hicran köynəyi,
Çıxart baxışıma düşən eynəyi,
Dik ayrı bir gözə indi baxışı,
Həm sənə yaxşıdır, həm mənə yaxşı.

15.10.2008

EY MƏNİM SEVİNCİM

Ey mənim sevincim, ey mənim canım,
Hissim, həyəcanım, könül hicranım.
Sinəmdə əriyir həsrət buzları,
Sayrışır könlümdə eşq ulduzları.
Onların işığı zülmətə çıraq,
Gəlir ülfətindən canıma soraq.
Yenə duyğularım coşur say kimi,
Könüldən dillənir çılğın hay kimi.
Sarır aləmləri odun, atəşin,
Bağrıma köz tökür sevgi günəşin.
Ruhumdan boylanır duyğu xilqətin,
Sinəmdə haylanır, sanki heyrətin.
Köklənib eşqinə dəqiqəm, anım,
Ey mənim sevincim, ey mənim canım.

23.07.2008

XƏYALIN HƏR YANDAN ÜSTÜMƏ GƏLİR

Xəyalın hər yandan üstümə gəlir,
Könlümün evindən ahım yüksəlir.
Bu qəmlər içində düşüb qalıram,
Eşqin ağrısını qəmdən alıram.
Boylanır hər yandan üzgün görkəmin,
Ürək əsirinə çevrilir dəmin.
Bu dəmlər içində sevda oynaşır,
Qəlbim dilə gəlir can pıçıldaşır.
Sehrinə düşürəm bu tamaşanın,
Sən demə eşqinlə aşıb-daşanın
ruhunda bir dəli ahlar çağlayar,
Sənsizlik ağrısı canda ağlayar.

23.07.2008

BƏS NƏDİR?

Bu sevdanı o sevdaya bağlayan,
Könül deyil, ürək deyil, bəs nədir?
Qəlb içində gizli-gizli çağlayan,
Sevgi deyil, dilək deyil, bəs nədir?

Gecə-gündüz alıb ağlı oynadan,
Göz yaşını oda atıb qaynadan,
Xəyal təki boylanıb can aynadan,
Pəri deyil, mələk deyil, bəs nədir?

Baxışları könlü alıb nazladan,
Qışa düşmüş qəlb bağımı yazladan,
Ayrılığı ürəyimi sızladan,
Rüzgar deyil, külək deyil, bəs nədir?

Qələm yanır od tökülür kağıza,
Sinə atəş od alışa, köz qıza,
Bu sevdanı salan dilə, ağıza,
Hiylə deyil, kələk deyil, bəs nədir?

Şadimana hicran dərddi doğrusu,
Ayrılıqlar sevdanın can oğrusu,
Getməz qəlbdən məhəbbətin ağrısı,
Qüdrət deyil, fələk deyil, bəs nədir?

26.01.2008

SEVDA DOLU ÜRƏYİM AĞIAYIR SƏNİN ÜÇÜN

Düşdün sinə içinə yanıqlı bir atəştək,
Sənsiz alışıb yandım od ələyən günəştək,
Qaldım qovğa içində öz canımla təkbətək,
Könlümün duyğuları çağlayır sənin üçün,
Sevda dolu ürəyim ağlayır sənin üçün.

Nə sən qəlbdən qopmadın, nə qəlbim səni dandı,
Sildim xəyalı başdan, min xəyalın oyandı,
Qapadım kirpikləri kirpik üstə dayandı,
Göz yaşından bir çələng bağlayır sənin üçün,
Sevda dolu ürəyim ağlayır sənin üçün.

Qəlbim hisslər içində, diləyim asımanda,
Ağlının hüzuruna gəlimmi ah-amanda?
Bostanı uru düşmüş payız oldum dumanda,
İntizarın qapısın bağlayır sənin üçün,
Sevda dolu ürəyim ağlayır sənin üçün.

15.06.2008

SƏNİ SEVİRƏM

Səni sevirəm,
Bunu elə-belə demirəm,
Ey yollarımda iz buraxan,
Ürəyimdə köz buraxan,
Qəlbimi yandırıb-yaxan.
Sitəmgahım,
Ərşi dəlir ahım.
Söylə nədir günahım?
Ağrıdan o yana yolummu var?
Bu dərdi yazmağa halımmı var?
Gecələr ulduzlar köz-köz
olub tökülür üstümə,
Zamanım durur qəsdimə,
Axşamın pərvanəsi alışır istimə.
Qaranlıqlar boğulur tüstümə,
Bəbəklərdə çalxanan göz yaşım gürşaddı,

Həsrət sinəmdən qopan fəryaddı,
İndi ürəyim mənə yaddı.
Ağlım çəkdiklərimə təsəlli,
Tutub saxlayıb qəlbimi ikiəlli,
Əzabım yerlərə, göylərə bəlli.
Ömrüm ayrılığın dodağından qan əmir,
Çıxartmasa da səs-səmir,
Bunu elə-belə demir,
Səni sevirəm.

27.06.2008

EŞQİNƏ DÜŞƏN ÜRƏYİ

Eşqinə düşən ürəyi,
Aldın yalvara-yalvara.
Mənlə sevdalı mələyi,
Çaldın yalvara-yalvara.

Oduma atəş qaladın,
Közünü eşib taladın,
Könlümə munis eşq adın-
Saldın yalvara-yalvara.

Əqlimi alıb, qan edən,
Düşmüsən qəlbə, sən nədən?
Heç Şadimana demədən,
Qaldın yalvara-yalvara.

23.03.2008

SƏNİ UNUTMAQ ÜÇÜN

Ürəyimə daş bağlayacağam,
Gözlərimə yaş bağlayacağam,
Bu həsrətə hönkür-hönkür ağlayacağam,
və ürəyimi dağlayacağam.
Vulkan təki püskürdəcəm könlümün için,
Səni unutmaq üçün.

***

Əzabın gecənin içinə salacağam,
Onun canını alacağam,
Ayrılığa qələbə çalacağam,
Önümdə göz yaşı tökəcək için-için,
Səni unutmaq üçün.

***

Başıma ələnəcək hicran yağışları,
Qovacaq könlümdən qarlı qışları,
Həsrət çeşməsində çağlayacaq
gözümün yaşları,
Duyğular qəlbimin can sirdaşları,
Dərdimi dağıdacaq çin-çin,
Səni unutmaq üçün.

***

Həyatımın baharına dönəcəm,
Əlçatmaz zirvələrə enəcəm,
Mənimlə çağlayacaq gündüzüm-gecəm.
Ürəyimi aldadacam bir dəli sevda üçün,
Səni unutmaq üçün.

***

Dərdin üzünə güləcəm,
Onunla bu dərdi böləcəm,
Gündə neçə yol dirilib-öləcəm,
Ürəyimin qapısına yalvarmağa gələcəm!
Parça-parça edəcəm dərdin için,
Səni unutmaq üçün.
Səni unutmaq üçün.

13.01.2008

GÜLƏ DÖNDÜ

Gözlərimdən gilə-gilə,
Yaş töküldü selə döndü.
Ötüb keçdi gülə-gülə,
Baxışları yelə döndü.

Hicran kəsdi üstümüzü,
Aldı-qaçdı istimizi,
Ərşə çıxan tüstümüzü,
Ürək uddu külə döndü.

Sevgimizə heyran hamı,
Könül aldı candan kamı,
Qəm başına çökdü damı,
Bağrı yanar dilə döndü.

Səcdədəyəm din-imana,
Rəbbdən gələn hər fərmana,
Gəlin baxın Şadimana-
Eşqi bağda gülə döndü.

26.01.2008

EY MƏNİM İŞIĞIM

Ey mənim işığım, ey mənim nurum,
Dünyaya baxışım, həyat qürurum.
Ağrılı könlümə eyləmə möhnət,
Bağlıdır canımın evinə zinət.
Onunla parlayır ömür ulduzum,
Çıx sevda günəşim, ərisin buzum.
Gətir baharımı çiçəklər ilə,
Cilvələnsin könül diləklər ilə.
Gəldiyin yollarda ürəklə durum,
Ey mənim işığım, ey mənim nurum.

19.04.2008

BU MƏHƏBBƏTİ UNUTMAQ ÜÇÜN

Ürəyimin ağzına daş basacam,
Gözlərimin yaşını kirpiklərimdən asacam,
Ağlımın sözünə qulaq asacam,
Xəyallarımı könlümə qısacam,
Ağrıları ürəyimdən atmaq üçün,
Bu məhəbbəti unutmaq üçün.

***

Dərd məni çəkib öz kamanına aparsa da,
Tale rüzgarımın içində tufan qoparsa da,
Bütün ağrılara dözəcəm,
Ağrıların özünü əzablarımla əzəcəm,
Sən ola-ola, sənsizliyi gəzəcəm,
Əzabı həsrətə qatmaq üçün,
Bu məhəbbəti unutmaq üçün.

***

Ayrılığın ünyetməz səmalarında uçacam,
Dərdimi candan çıxarmaq üçün
ürəyimə yol açacam,
Nəş'ələr içində nur saçacam,
Həsrətin bağrını qanatmaq üçün,
Bu məhəbbəti unutmaq üçün,
Bu məhəbbəti unutmaq üçün.

18.01.2008

ELƏ QƏFİL GETDİN

Elə qəfil getdin biganələrtək,
Arxamca söylənən ellər oynayır.
Ağlım başdan çıxıb divanələrtək,
Könül ocağında küllər oynayır.

Hər şeydən, hər yerdən izin görünür,
Mənim surətimdən üzün görünür,
Sinəmi yandıran közün görünür,
Onu sovurmağa yellər oynayır.

Dağılıb tifağı saatlarımın,
Dərdi misqal-misqal can qatlarımın,
Yarası qan sızır qəlb çatlarımın,
Coşub dərya boğan sellər oynayır.

Ürək haray çəkən «Yanıq Kərəmi»,
Canı yar edərlər dərdi-sərəmi?
Tufanlar çevirib könül bərəmi?
Batıram-çıxıram əllər oynayır.

Sıxdın ürəyimi nar kimi dərdə,
Duyğumun, kamımın canı kədərdə,
Şadiman axtarır səni hər yerdə,
Yerindən soraqlı dillər oynayır.

22.10.2008

MƏNİ HƏSRƏTLƏRDƏ QOYDU VƏFASIZ

Məni həsrətlərdə qoydu vəfasız,
Qaldı yollarında gözüm, gəlmədi.
Çəkdim ucbatından dərdi-qəm, cəfa,
Çatladı bağrımda dözüm, gəlmədi.

Hicran əzabına tutulan bilir,
Bu odun içinə atılan bilir,
Könlünə atəşlər çatılan bilir,
Aləmi yandırdı közüm, gəlmədi.

Xəyalı gecənin üstünə uçdu,
Yazıq ürəyimin qəsdinə uçdu,
Zilini çatlatdı, pəstinə uçdu,
Fəğanla ağladı sözüm, gəlmədi.

Atəşlər içində qovrulub yandım,
Əsdi hicran yeli, sovrulub yandım,
Odların içində kül oldu andım,
Onu çağırmağa üzüm gəlmədi.

Fələkdən bac aldım şadimanlığı,
Könlə barat etdi ah-amanlığı,
Mənə necə qıydı bəs yamanlığı?
Qırıldı bağrımda əzim, gəlmədi.

17.11.2008

AHIM ƏLÇİMLƏNİR AMANA MƏNİM

Çəkdin ürəyimə dağlar, düyünlər,
Dağlarım sığınıb dumana mənim.
Dərdimi həzm edə bilməz beyinlər,
Ahım əlçimlənir amana mənim.

Eşqim hicran deyən bir qışdan keçib,
Gözləri daşdıran qan-yaşdan keçib,
Ürəyi yandıran qəm başdan keçib,
Ahlarım düzülüb kamana mənim.

Şeyda bülbülləri oxur bağımda,
Qəlbimi sevdalar yaxır bağımda,
Tikan özün gülə toxur bağımda,
Əllərim yetməyir dərmana mənim.

Ağlımın donunu yel alıb qaçıb,
Könlümün içində şırımlar açıb,
Hicran qəlb evimdə ocaqtək saçıb,
Arzumu döndərib samana mənim.

Şadiman, ayrılıq bitdi sinəndə,
Dilini bal etdi aha dinəndə,
Könlümə dünyanın dərdi enəndə,
Ürəyim möhtacdır səhmana mənim.

28.09.2008

MƏNİM RUHUM – SƏNİN RUHUN

Mənim ruhum – sənin ruhun,
Qopar candan ürək kimi.
Yarı olar sübh-sabahın,
Uçuşar bir mələk kimi.

Çaxar göydə, baxar yerdə,
Düşər eşqə, girər dərdə,
Haqq yolunda bir sərkərdə,
Coşar canda dilək kimi.

Gah birləşər, gah ayrılar,
Qəlbdən min bir ah ayrılar,
Qılınc təki can sıyrılar,
Əsər göydə külək kimi.

Haqqı olub haqqıma yar,
Hər anımın min biri bar,
Şirin xanım, bu ruh ki, var
Rəbb əlində ələk kimi

12.04.2008

QÜSSƏ DOLU GÖZLƏRİN

Qüssə dolu gözlərin
Ağladı hicran üçün.
Ürəyimi qan etdim
Bir dilbilməz can üçün.

Sevdalar ağlaşdılar,
Ələmə bağlaşdılar,
Gözlərimdə daşdılar,
Ayrılıqla qan üçün!

Sədam Allaha gəldi,
Qəmlərim aha gəldi,
Eşqin sabaha gəldi,
Söylədiyin can üçün.

Şadimanı etdin şad,
Olasan sən də dilşad,
Dərdimiz oldu naşad,
Bu sevgili an üçün.

12.04.2008

YENƏ ÜRƏYİMDƏ BİR SEVDA GƏZİR

Yenə ürəyimdə bir sevda gəzir,
Qapımda dayanıb ətir içində.
Məhzun xəyalımı intizar üzür,
Gözlərim boylanır xətir içində.

Həsrəti könlümü qübar eyləyir,
Ağrını ağrıya nübar eyləyir,
Qələmim varağı qabar eyləyir,
Min nalə oylanır sətir içində.

Sözümdən sevgiyə qaya çapmışam,
Qayanın tərkində qala yapmışam,
Min dəfə axtarıb, səni tapmışam,
Ürəyim eşqinin itir içində.

09.01.2008

MƏHƏBBƏTİN BİR DİVANƏ

Məhəbbətin bir divanə,
Məni etdi lap pərvanə,
Heç gəlmədi bir səhmanə,
Candan barı aldı keçdi,
Məni oda saldı keçdi.

Ocaq çatdı ürəyimdə,
Aləm qatdı ürəyimdə,
Eşq oyatdı ürəyimdə,
Bir nübartək qaldı keçdi,
Məni oda saldı keçdi.

Çox çalışdım qaçım ondan,
Könül telin açım ondan,
Qaranquştək uçum ondan,
Qanadımı saldı keçdi,
Məni oda saldı keçdi.

Şadimana qəlb bağladı,
Kabab etdi, köz dağladı,
Gahdan güldü, gah ağladı,
Xəyallara daldı keçdi.
Məni oda saldı keçdi.

22.07.2009

BİR SEVDANIN SORAĞINA DÜŞMÜŞƏM

Göz dolanır, könül coşur, qəlb yanır,
Nurlar doğan çırağına düşmüşəm.
Ürəyimdə xoş duyğular oyanır,
Bir sevdanın sorağına düşmüşəm.

Fikirlərim dağda, düzdə vaylanır.
Pərvanətək şam başına haylanır,
Həsrət girib ürəyimdə oylanır,
Bir sevdanın sorağına düşmüşəm.

Şadimanı ağrılarla incidən,
Necə könül əl götürsün incidən,
Sədəfində mirvaritək inci dən,
Bir sevdanın sorağına düşmüşəm.

01.11.2009

***

Ey mənim könlümü ovlayan, səni,
Qəlbimin içində dürdanə bildim.
Elə ovsunladı bu duyğu məni,
Bütün sevgilərdən mərdanə bildim.

15.12.2009

BİR AZCA İŞIQSAN...

Bir azca işıqsan, bir azca günəş,
Günəşin içindən azalmayaydı.
Yandırır könlümü bu od, bu atəş,
Onun qığılcımı sozalmayaydı.

Dərd düşən ürəkdə rişə eyləyir,
Açdığı yaranı tişə eyləyir,
Sevinci ruh doğur nəşə eyləyir,
Kamanı dərd üstdə qəm çalmayaydı.

Sabahın sevgisin həyəcan bilir,
Sevda nəyi çəkir tək hicran bilir,
Ayrılıq əzabın ürək, can bilir,
Kimsə ağılına heç almayaydı.

Bir azca işıqsan şölələr saçdır,
Bu işıq zülmətə yalnız əlacdır,
Başında bərq vuran zümrüdü tacdır,
Zərin şəfəqləri kaş solmayaydı.

25.10.2009

GÖZÜNÜN HƏSRƏTİ GÖZÜMDƏN KEÇİR

Gözünün həsrəti gözümdən keçir,
Bu həsrət yandırıb yaxır könlümü.
Qəlbin hərarəti sinəmdən keçir,
Odunun təşnəsi sıxır könlümü.

Sözlərin dodaqda əsir küləktək,
Həzin pıçıltılar qoparıb gedir.
Baxırsan üzümə oğrun mələktək,
Eşqin ürəyimi aparıb gedir.

Lallığa qapanıb qurudu dilim,
Titrəşən könlümdə açan qönçədir.
Uzalı qalıbdı yoluna əlim,
Zamanı rəqs edən, an əyləncədir.

Sualla dikilib, baxırsan mənə,
Batıb kirpiklərin göz yağışına.
Sükutum fəryadtək toxunur sənə,
Dolubdu əzabım can ağuşuna.

Gözümün həsrəti gözündən keçir,
Şimşəyi çəpərtək sıralanıbdı.
Qəlbimin alovu közündən keçir,
Ocaq istisindən aralanıbdı.

25.10.2009

MƏNDƏN NƏ İSTƏYİR SEVGİLİ DİLDAR

Məndən nə istəyir sevgili dildar?
Açan baharımı qışa döndərir.
Mən ki, əzabına olmuşam bidar,
Doldurub buludu yaşa döndərir.

Salıb ağısına iztirabımı,
Əzir ümidimi, kəsir tabımı,
Batırır səbirlə haqq-hesabımı,
Sevdalı könlümü daşa döndərir.

Əritmir buzlartək xasiyyətini,
Anlaya bilmirəm heç niyyətini,
Çəkirəm, neyləyim, əziyyətini,
Ağrıyan ruhumu quşa döndərir.

Deyin Şadimana əlac yerini,
Ağlayan gözümün ilac yerini,
Axtarır könlümdə qəm tac yerini,
Alışan hissimi huşa döndərir.

25.10.2009

DEYİRLƏR DÜNYADA MƏHƏBBƏT QOŞA

Deyirlər dünyada məhəbbət qoşa,
Bu qoşa məhəbbət gəlmədi huşa,
Verib ürəyimlə həsrət baş-başa,
Açılan sübhümə sevda oxuyur,
Dünyam qışa dönüb hicran oxuyur.

Döyür kirpiyni qarşımda sabah,
Onun dodağından qopur min bir ah,
Oğrun gözlərindən boylanır günah,
Özünü dəlitək könlə toxuyur,
Dünyam qışa dönüb hicran oxuyur.

Bu ağrı-acıdan qopa bilmirəm,
Sevgimdən bir qala yapa bilmirəm,
Özümü dünyada tapa bilmirəm,
Dərdim hana qurub xalı toxuyur,
Dünyam qışa dönüb hicran qoxuyur.

25.10.2009

NƏDƏN DOĞULMUSAN MEHRİ-MƏHƏBBƏT?

Nədən doğulmusan mehri-məhəbbət?
Könlümü alova salmısan yaman.
Edərək qəlbimlə pünhani-söhbət,
Onun duyğuların almısan yaman.

Tökmüsən sinəmə ocaq atəşi,
Özün yaratdınmı söylə günəşi?
Düşübdü ortaya hicranın nəşi,
Ona zəfər marşı çalmısan yaman.

Qalıbdı ürəyim nida içində,
Coşur duyğularım sevda içində,
Elə bəzənmisən əda içində,
Ruhumu şahintək çalmısan yaman.

O dəli sevdaya düşmüşəm nədən?
Alıb əqli-huşu ey dəli edən,
Ürəyi apardın qalıbdı bədən,
Canalan, yerini almısan yaman.

Etdin Şadimana sevgini sitəm,
Onun dərgahına mən necə yetəm?
Ya könlə toy tutdun, ya da ki, matəm,
Od-su arasında qalmısan yaman.

12.12.2009

ÜRƏKDƏN GETMƏYƏN MƏHƏBBƏT İMİŞ

Hissə pərvanədir, duyğuya dayə,
Öylə başa düşdüm ibadət imiş.
Elə köklənmişdi pak haqqı-sayə,
Sandım ki, gəlişi səadət imiş.

Adı gah sevgidir, gah da ki, sevda,
Qoparır könlümdə hər an min nida,
Ondan axır qəlbə qəm adlı qida,
Qəfil doğuluşu nə niyyət imiş?

Arzu da imkana sığışıb gedər,
Seli qabaqlayar dağ aşıb gedər,
Hamı gəldiyitək yığışıb gedər...
Ürəkdən getməyən məhəbbət imiş...

12.12.2009

***

Sevgilər ağlayan uşağa bənzər,
Baxanı olmasa saralıb solar.
Üstündən kəsilsə bir anlıq nəzər,
O da künc-bucaqda dilənçi olar.

Hər ağıl içindən boylanır təmtər,
Sevginin yolları hamar gərəkdir.
Onu əzizləyən bir ürək istər,
Onun da başına tumar gərəkdir.

25.12.2010

***

Yer elədin ürəyimdə,
Ora ayaz, şaxta düşüb.
Yara açdın diləyimdə,
Ağrıları dərddən bişib.

Könlüm gəzir boş yerini,
Gözlərimin yaş yerini,
Elçi düşən daş yerini
Gözlər güdüb, can görüşüb.

26.12.2010

BİR İŞIQ İÇİNDƏ YUXU KİMİSƏN

Bir işıq içində yuxu kimisən,
Yuxunun gözlərdən getməyi də var.
Bahar ətri verən qoxu kimisən,
Qoxunun çiçəyi ötməyi də var.

Hicran yelləritək rahiyən şirin,
Huşum yallı gedir, ürəyim dirin,
Mən sənə söyləsəm dərdimin birin,
Dərdin ruha qida etməyi də var.

Bir sevda günəşi şölə içində,
Ruhumun çölləri lalə içində,
Ahımın əzabı ölə içində,
Onun hər müşkülə yetməyi də var.

Səmum küləyitək çaxıb keçirəm,
Günəşi yandırıb-yaxıb keçirəm,
Bəxtin ulduzutək axıb keçirəm,
Hər ağrı-acının bitməyi də var.

Şadiman biçarə dəli kimidir,
Baharın divanə yeli kimidir,
Gurşadlı göylərin seli kimidir,
Dolanda buludu ötməyi də var...

05.03.2011

BİZ MEHRİBAN OLANDA HƏYAT NƏ YAXŞI OLUR

Biz mehriban olanda həyat nə yaxşı olur,
Xalıtək hisslərimiz dünyanın naxşı olur,
Min cürə diləklərin ürəyə axşı olur,
Ömür də bir fəsilmiş, yaz, yayı, qışı olur.

Bu sevda bağçamızda güllər açılır qoşa,
Gəlir könül bülbülü məhəbbətdən lap cuşa,
Ürəyim qanadlanır dönür azad bir quşa,
Qanadları yel qovur, vurur özün dağ-daşa.

Ağ gəlin libasında saniyələr uçuşurlar,
Gözlərdən nur tökülür duyğular qaçışırlar,
Pıçıltıyla dodaqlar sözlərə acışırlar,
Günəşin telləritək od-alov saçışırlar.

Evimizin içində taxtın qurur səadət,
Eyləyirik anların xoşbəxtliyinə adət,
Duyğunun təmasına edir duyğu ibadət,
Qurduğumuz ocağın atəşinə sədaqət.

Doğulub, Yaradanın nurundan sıralandıq,
Atəşimiz sönəndə biz ondan aralandıq,
Vicdan öləziyəndə zəkadan yaralandıq,
Gah tutuşduq sevdaya, gah da ki, paralandıq.

Biz mehriban olanda dünya gözəlləşirmiş,
İstək fəzalarında küdurət əlləşirmiş,
Sevgimizin sarayı qəlbdə təməlləşirmiş,
Könlümüzdən xəbərsiz eşqimiz dilləşirmiş...

08.03.2011

GÖZÜ BULAMASIN KƏDƏR YAŞLARI

Gözü bulamasın kədər yaşları,
Sənsiz dolaşmayım ömrü didərgin.
Qoy sevdalı olsun can sirdaşları,
Həyatı keçirmək olmayır gərgin.

Can deyib eşitmək nə şirin şeydi?
Onun şirinliyi tükənən deyil.
Ürəkdə məhəbbət nəğməli neydi,
O bülbül eşqindən heç enən deyil.

Kədəri odlayaq bu yaz günündə,
Küskünlük ağrısın ataq tonqala,
Həyatın sevdalı toy-düyünündə,
Yalnız məhəbbətlər zirvədə qala.

08.03.2011

İLLƏRİN AĞRISI QALIB CANIMDA

İllərin ağrısı qalıb canımda,
Səni taleyimə yazana şükür.
Eşqi gəzdirirəm can ünvanımda,
Ora girə bilməz nə kin, nə məkir.

Hara gedirəmsə ruhun mənimlə,
Onun havasıyla şəfalanıram.
Dolaşır könlümdə həsrət çənimlə,
Əksin boylandıqca vəfalanıram.

Qəlbimdə sevdalı sevgin dolaşır,
Onun ocağından vüsət alıram.
Xəyal dəryasında hislərim daşır,
Atəşin içinə düşüb qalıram.

Şükürlər içində bir ürək yaşar,
Onun səadəti odundan bəlli,
Sənin eşqin ilə eşqim dolaşar,
Tutub ətəyimdən ruhunun əli.

18.03.2011

SEVİNC GƏLİR AN İLƏ

Sevinc gəlir an ilə,
Qüssə doğur can ilə,
Əlləşir insan ilə.

Dil tutub dildən düşür,
Əl tutub əldən düşür,
Bəbəkdə seldən düşür.

Ürəyindən yapışır,
Zora düşdü qapışır,
Ölənədək çarpışır.

Həyat ömürlə sağdı,
Qüssənin yükü dağdı,
Diri bədənə bağdı.

Bərk dartsan qırılacaq,
Bağıra sarılacaq,
Gözlərdə qaralacaq.

Sevincin ömrü azdı,
Qüssənin bəxti yazdı,
İnsana məzar qazdı...

10.05.2011

***

Sənin çırağının piltəsiyəm mən,
Onu yandıranda ağrını düşün.
Dilinin hayqıran gur səsiyəm mən,
Səs avaz edəndə bağrını düşün.

Sevda yolçuları yorğun olurlar,
Süzgün baxışlara oğrun olurlar,
Dəlitək ürəyə vurğun olurlar,
Onu oğurlayan oğrunu düşün.

13.05.2011

XƏZƏRƏ BƏNZƏRİ VAR...

Gözlərinin rənginin Xəzərə bənzəri var,
Bu bənzərlik sinəmdən qüssəni, qəmi yuvar,
Tələtümlər içində hisslər bir-birin qovar,
Acı bir çılğınlıqla özünə gəzər havar,
Yamanca titrədirsən mənim könül taxtımı,
Dəli küləklər təki oynadırsan baxtımı.

Sahilləri yalayan dalğalartək coşursan,
Hərdən dəli sellərtək dağlar, düzlər aşırsan,
Gah könlümə yol tapıb, gah da hərdən şaşırsan,
Yığıb eşqimi könlə gurşad sayaq daşırsan,
Ölçü-biçi bilmədən üyüdürsən vaxtımı,
Dəli küləklər təki oynadırsan baxtımı.

İkimiz də əsirik sevdamızın əlində,
Baxışın eşq söyləyir, yox kəlməsi dilində,
Mənim haraylarımın odu ürək telində,
Eş könül ocağını, axtar məni külündə,
Gör közərən atəşim ürəyini yaxdımı?
Dəli küləklər təki oynadırsan baxtımı.

18.10.2011

ÜRƏYİMDƏN ÇIXARDA BİLMİRƏM BU EŞQİNİ

Məcnun təki xəyalın könül qapısın döyür,
Dəlisov uşaq təki durub özünü öyür,
Bir dəyirman daşıdır, arzularımı üyür.

Könlümün aynasından silmirəm bu eşqini,
Ürəyimdən çıxarda bilmirəm bu eşqini.

Gecələr yuxularım sərgərdan dolaşırlar,
Çaya həris sel təki qaynayırlar, daşırlar,
Sənin surətin bilib səyyarələr aşırlar.

Könlümün aynasından silmirəm bu eşqini,
Ürəyimdən çıxarda bilmirəm bu eşqini.

Axı bizdən əvvəl də çox sevənlər olubmış,
Açıb sinə içinə od-atəşlər salıbmış,
Demə bizə də, gülüm, belə yanmaq qalıbmış...

Könlümün aynasından silmirəm bu eşqini,
Ürəyimdən çıxara bilmirəm bu eşqini.

22.11.2011

UZUN ƏHVALATDI SƏNİ SEVMƏYİM...

Uzun əhvalatdı səni sevməyim,
Hansından başlayım, hansını deyim?!...
Ayağın basdığın küçələrimi?
Səni yatızdıran gecələrimi?
Saçını oxşuyan küləklərimi?
Qəlbdən baş qaldıran diləklərimi?
Pəncərəndən gələn qəfil işığın,
Etmişdi ürəyi, qəlbi aşığın,
Bağrımı yarardı o süzülən ay,
Sənin varlığından gələrdi haray.
Əksi bərq vurardı palçıq daxmanın,
Tutub saxlayardı eşqimin canın.
Titrərdi vücudum məsum uşaqtək,
Yanardı gözümdə ümid çıraqtək.
Hər tərəfdən əksin mənə baxardı,
Surətin köksümü oda yaxardı.
Dönüb dolanardı səmtinə üzüm,
Boylanıb baxardı işığa gözüm.
Pəncərən mənimçin pirə dönmüşdü,
Heç kəs baş açmayan sirə dönmüşdü,
Baxışım düşərdi yolun ağına,
Ürəyim gəzərdi hey sorağına.
Sən keçən yolları hamarlayardım,
Xırda daş-kəsəyi tumarlayardım.
Ləprin düşən yolu sevərdim canla,
Sənə vurulmağım çəkmişdi anla,
Amma ili-ilə calayırdım mən,
Köksümə od-atəş qalayırdım mən.
Sən qalan daxmanın bağını sevdim,

Gül-çiçək açılan çağını sevdim.
Səsin gələn yerdə gözüm dolandı,
Qarşıma çıxanda üzüm allandı.
Üz-üzə gələndə mən səndən qaçdım,
Sənin xəyalına yenə əl açdım.
Gündüz işə-gücə başım qarışdı,
Gecə xəyallarım canla yarışdı.
Surətin evimdə səhmana döndü,
Çıxıb insanlıqdan rəhmana döndü.
Mənə yad göründü bacım, qardaşım,
Gözdə kölgələndi acı göz yaşım.
Çəkildim çox zaman tənha otağa,
Vurdum öz-özümü bəzən yatağa.
Qapalı otağım nağılım oldu,
Səndən uzaq gəzən ağılım oldu.
Ürəyim minərək xəyal atına,
Çıxdı çapdı göyün yeddi qatına.
Sənin xəyalınla yapdım saraylar,
İçimdə hayqırdı acı haraylar.
Gündüzlər zəhləmi apardı dözüm,
Qurduğum xəyala heyrandım özüm...
Uzağa gedəndə yanıb tüküldüm,
Xəzan çiçəyitək mehdən büküldüm.
Sən baxan gözlərə qısqandım belə,
Bunu qəlbdə çəkdim salmadım dilə.
Özünü, sözünü müqəddəs saydım,
Könlə bu səcdəni, demə bəs saydım.
Lampa işığına gələn pərvanə –
Mənim ruhum idi sənə divanə.
Otağın içində dolaşar ikən,
Bağrında alışan eşq yaşar ikən,
Sənin hənirtindən oda düşərdi,
Lampa şüşəsində yanıb bişərdi.
Sənsə heç əhmiyyət verməzdin ona,
Adi bir hal kimi baxardın buna.
Bu ağrı əzablar verərdi mənə,
Salardı könlümü dumana, çənə.
Ürəyim titrərdi səni görəndə,
Qəfil baxışından ümid dərəndə.
Özümü dünyada xoşbəxt sanardım,
Gizli alışardım, gizli yanardım.

Anamın gözündən yayınıb bəzən,
Çıxardım eyvanın kəndarına mən,
Daxmandan süzülən nura baxardım,
Sanki pəncərəndə aytək çıxardım,
Xəyalən evinin için görərdim,
Sızqa ümidlərin köçün görərdim.
Dağılan fikirlər məni qucardı,
Dəli hisslərimə qapı açardı.
Hönkürüb ağlardım gizli-gizli mən,
Mömin kahin idim – bütüm idin sən.
İlahi səcdənin qulu olmuşdum,
Dərdin keçilməyən yolu olmuşdum.
İndi o illərdə düşüb qalmısan,
Mənim xəyalımda məskən salmısan.
Düşdüyüm bəlanın adı məhəbbət,
Tanrının yazdığı yazıdır əlbət.
Həqiqi sevginin yuvası ürək,
Onu xəlq edənə bunca nə demək?
Uzun əhvalatdı səni sevməyim,
Hansından başlayım, hansını deyim?!...

03.12.2011

ÖZÜMÜ SEVDİRƏ BİLMƏDİM SƏNƏ

Özümü sevdirə bilmədim sənə,
Eşqidən doğula bilərmi tənə?
Bu nə bilməcədir, bu nə tapmaca,
Gümanım qalmayıb heç bir əlaca.
Çalışdım ruhunda sevda yaradım,
O sevda içində parlasın adım.
Ürək tellərində küləyə döndüm,
Könlünün içində diləyə döndüm.
Əzabdan-əzaba qatlaşdım hər gün,
Qəfil baxışların mənə toy-düyün.
Yuxular içində çırpındın quştək,
Kirpiyim üstündə parladın yaştək.
Sözümün-sovumun gərəyi oldun,
Könül tağlarının dirəyi oldun.
Hər günün həsrəti bir ilə döndü,
Dilim lal olduqca can dilə döndü.

Yalvardı ruhuma hər gecə yarı,
Əritsin qəlbinə ələnən qarı.
Sənsə soyuqluğun yolunu tutdun,
Həsrətin, hicranın qolunu tutdun.
Baxışlar içində sorğuna döndüm,
Ürəyim içində ağrına döndüm.
Gecənin çəninə bulaşıb qaldım,
Həsrət tikanına dolaşıb qaldım.
Sevdamı bənzətdim ulduza, aya,
Döndüm pıçıltının içində vaya.
Baxışında gəzdim mehribanlığı,
Qəlbim səndən uddu pərişanlığı.
Dilimin şəkərin zəhərin bildin,
Titrək gülüşümü qəhərin bildin.
Yanan ürəyimin odundan keçdim,
Eşqə gedən yolu haqq yolu seçdim.
Bütə səcdə edən kahinin oldum,
Sənə çatmaq üçün şahinin oldum.
Sən elə bildin ki, könlündə kamam,
Verdiyin ağrıdan üzüldüm tamam.
Bu dərdim ağlatdı aləmi mənə,
Özümü sevdirə bilmədim sənə...

26.12.2011

QƏZƏLLƏR

BU FƏLƏK QOYMADI HEÇ KAMA ÇATAM DÜNYADA MƏN

Bu fələk qoymadı heç kama çatam dünyada mən,
Axdı gözdən qan yaşım batdım tamam fəryada mən.

Ağlayıb sızlamağı buldum nə yazıq könlümə,
Verdim öz zamanımı bu minvalla çox badə mən.

Bir gözüm güldü, biri hönkürdü öz əhvalıma,
Tapmadım heç kimsəni tez çağırım imdada mən.

Çeşmələr gözdən axan yaşlarıma ah eylədi,
Dərdə düşmüş könlümə vurdum əlimlə qada mən.

Şadimana, dərdini car eylədikcə aləmə,
Oturdub taxta məni, bax olmuşam bəyzadə mən.

07.05.2010

DƏRDİM BÖYÜYÜB AH İLƏ ALƏMLƏRİ TUTDU

Dərdim böyüyüb ah ilə aləmləri tutdu,
Qəlbi dolaşan dopdolu bu dəmləri tutdu.

Kirpiklərimin hasarını döydü selləri,
Ötüb hasarı hər birisi nəmləri tutdu.

Sevda dolu günlər uzanıb gecəyə döndü,
Bu can ilə xəyalə düşüb qəmləri tutdu.

Göstərmədi heç fələyinin üzünü yalqız,
Fəryadları min zilləri yox, bəmləri tutdu.

Bir gəlmədi heç Şadimanın halını görə,
Çox ömrünü saldı kəsirə, kəmləri tutdu.

07.05.2010

QALDI ÜRƏYİM AH İLƏ ALƏM ARASINDA

Qaldı ürəyim ah ilə aləm arasında,
Bitdi diləyim min belə naləm arasında.

Gəzdi gözümü çeşmələrin yarı olan su,
Çırpındı canım quş kimi ələm arasında.

Sevdaya gedən yollarımı bağladı hicran,
Var ağrısının fəryadı qələm arasında.

Düçar olalı eşqə cəfalar çəkirəm mən,
Hər kirpiyimin fəqanı var nəm arasında.

Ey dili-qafil, salma nəzəri Şadimana,
Riqqətimin cövrü yatır dəm arasında.

04.04.2010

SÖZLƏ YARANIB CAN İLƏ DİLDƏN KEÇƏN ATƏŞ

Sözlə yaranıb can ilə dildən keçən atəş,
Büllur bulağın çeşmələrindən içən atəş.

Sözlə dikəlir ah ilə fəğana səlamlar,
Pak sevdaları ruhuna bağban seçən atəş.

Sözlə açılır zirvələrin fəthinə yürüş,
Qəlbindəki xudbinliyi vəchlə keçən atəş.

Sözlə qoparır könlə gələn ağrını şair,
Çəkdiyi dağı çulğalayan sislə, çən atəş.

Sözlə ötüşür günlərimin hər dəmi rəvan,
Ondan da gözəl, Şadimana can çəkən atəş.

02.05.2010

AĞLAR GÖZÜMÜN YAŞLARI BİR ÇEŞMƏYƏ BƏNZƏR

Ağlar gözümün yaşları bir çeşməyə bənzər,
Hər çeşmə içindən dolanıb ahları gəzər.

Canı bədəndən qoparıb aparır hərdəm,
Ağrı dolu atəşlər ilə zülmünü üzər.

Qaçar ürəyim dərdin əlindən ara bir də,
Tutar üzünü çöllü-biyabanına həzər.

Oxşar fərağın cəh-cəhlə bülbülü-yarın,
Gülzara düşən gül təki aləmləri bəzər.

Heç zənn eləmin Şadimana qəmlərə nalan,
Qəmləri udan nəş'əsi bir dopdolu Xəzər.

22.02.2009

GƏLDİ BAHARIM, BAĞÇADA GÜLLƏR TƏZƏLƏNDİ

Gəldi baharım, bağçada güllər təzələndi,
Uçdu qubarım, nazlı könüllər təzələndi.

Coşdu səhərim şur ilə aləmlər içində,
Daşdı muğamım nəğməli dillər təzələndi.

Tökdü ürəyim qədəhlə sevdasını dəm-dəm,
Yandı ocağı, qapqara küllər təzələndi.

Doldu buludun gözəli bir nazlı gəlintək,
Batdı yağışa, qupquru çöllər təzələndi.

Sevdi diləyim həyatı bir işvəli yartək,
Açdı qucağın, nazənin illər təzələndi.

Doğduqca səmalar içirə işvəli günəş,
Bağlar bəzəyi nazlı bülbüllər təzələndi.

Gəl, Şadimana, yet sözünə şövqlə müntəzir,
İlham sonanın kamına göllər təzələndi.

22.02.2009

KÖNLÜM DOLAŞIR AH İLƏ ALƏMLƏR İÇİNDƏ

Könlüm dolaşır ah ilə aləmlər içində,
Əfsus, gəzir illər boyu bu qəmlər içində.

Donur sinənin dərdi əlində acı tale,
Lap aşiqi-məşuq olalı dəmlər içində.

Sevda dolu canımı tutub hicirlə nalə,
Batıb gözümün kirpiyi ol nəmlər içində.

Havalı təbim göylərə çaxnaşma salıbdı,
Əqlim batıb min cürə sərsəmlər içində.

Fəryada düşüb tellərə amadə ürəyim,
Duruş gətirə bilməyir heç bəmlər içində.

Tutub canımı qüssələrin əlinə salıb,
Buldu yenə diriliyi ələmlər içində.

Cida elədim zehnimə bu müşkülə qarşı,
Müşkülümü çətin bulalım kəmlər içində.

Müdhiş zamanın hər cürə əzabını duydum,
Sədası dolaşdı hələ qələmlər içində.

Verdim sualı Şadimana əhvalın, dedi:
Dilim-dodağım lap acı bir təmlər içində.

22.02.2009

DƏRDİM YIĞIŞIB EŞQİNƏ SƏCDƏYƏ GƏLİBDİ

Dərdim yığışıb eşqinə səcdəyə gəlibdi,
Eşqin özünə yar təki mücdəyə gəlibdi.

Hissim dolaşır çölü, çəməni, bağı sussuz,
Könlün özünə müntəziri-dayə gəlibdi.

Kirpiklərimə ox götürüb ahı-güzarım,
Ağlar gözümə hər biri bir hayə gəlibdi.

Dövran dara çəkdi neçə cür müşkünazları,
Ahları durub özləritək vayə gəlibdi.

Oldum qəmlərə illər boyu bir sevgili-can,
Onlar yığışıb könlə haqqı-sayə gəlibdi.

Heyran olası yox daha bu bəxtimə qeyri,
Bəxtim də qəmin eşqi ilə zayə gəlibdi.

İnnən belə gəl Şadimanın ahını söylə,
Çün ruhuma munis mələyi qayə gəlibdi.

21.02.2009

AĞLAYIR GÖZDƏ YAŞIM AHU-FƏQAN ETMƏDƏYƏM

Ağlayır gözdə yaşım ahu-fəğan etmədəyəm,
Qəmi dostum eləyib cana divan etmədəyəm.

Fələyin ülfətinə olmadı qismət ürəyim,
Gətirib dərdü-bəla canıma can etmədəyəm.

Bu cahan mülkünə qonaq olalı dəli könül,
Bədənə bəzək olan ruhuma qan etmədəyəm.

Dolaşır yeri-göyü fəryadıma yoxdu gələn,
Onun hər bir acısın ömrümə an etmədəyəm.

Elədim car ki, özüm bunca şadimanlığımı,
Bu ki dünya qəmini əqlə həyan etmədəyəm.

Nə yazıq ömrümü puç etdi zaman dəmbadəm,
Üstəlik mən də ona öylə ziyan etmədəyəm.

Şadiman, eyləməsin könlünə hicran fələyim,
Hicrana yar olalı mən onu şan etmədəyəm.

14.10.2010

GƏLİRSƏN BADİ-SƏBA
AÇMAĞA TƏLƏS QAPIMI

Gəlirsən, badi-səba, açmağa tələs qapımı,
Eləmə nazı mənə sevgilitək kəs qapımı.

Boğulur könlüm evi tut onu mehlərə hələ,
Səndən ayrı kim açа indi söylə bəs qapımı?

Tutulub əqlin içi min cürə fikri-qubara,
Qubarın özü gəlib eləyəcək nəhs qapımı.

Özünü görməmiş olmaz sənin o afəti-can,
Oxşasın hürü təki bunca xoş nəfəs qapımı.

Ciyərim dağ-dağ olur çəkməyə bu ahımı mən,
Gəlməsən yer edəcək özünə qəfəs qapımı.

Şadiman, şövq eləyib Rəbbinə tut üzünü sən,
Eyləmə zənn ki, səba açmayır əbəs qapımı.

14.10.2010

QADIN

Ey ürəyi, özü işğalda qadın,
İdrakı, həm sözü işğalda qadın,

Nə qədər versə də Rəbb çox sənə təb,
Qalırsan hələ qeylü-qalda qadın.

Söylənir ana, bacı, qız və gəlin,
Dili zəhərdə, ya da balda qadın.

Çox kişi gözünə, şeytan görünür,
Neyləsin düşdüyü bu halda qadın?

Onu saymaz bu bəşər tay özünə,
Zənn edirlər qalacaq dalda, qadın.

Söyləyə bilməyirəm dərdini mən,
Şadimanın ürəyi xalda qadın.

24.04.2010

GƏLİRƏM EŞQƏ SARI
EŞQ MƏNƏ CAN ETMƏDƏDİ

Gəlirəm eşqə sarı eşq mənə can etmədədi,
Dolaşıb qəlb içinə onu viran etmədədi.

Kirpiyim ah eləyir, gözlərimin yaşı dəniz,
Hər biri can evimə öylə divan etmədədi.

Fırlanıb yan-yörə boylanıram gün sayağı,
Günün öz naləsini bir neçə an etmədədi.

Ağlayıb sıtğayıram körpəcə bir yavru kimi,
Bəbəyim su eləyir suları qan etmədədi.

Hər kəsin bir canı var haqqa əmənət olalı,
Şadimana da canı bəs niyə yan etmədədi?!

05.03.2011

DÜŞMÜŞƏM BİR DƏLİ SEVDAYA YENƏ

Düşmüşəm bir dəli sevdaya yenə,
Az qalır könlüm evi aha enə.

Dolaşıb cövrü-səfanı gəzirəm,
Yollaşıb cümlə-vəfanı gəzirəm.

Ağladıb eşqə düşən dilləri mən,
Dağladım möhlət üzən illəri mən.

Həm göyü, həm yeri seyir edirəm,
Guya öz-özümə xeyir edirəm.

Hisslərim canıma dilxoşluq edir,
Elə zənn eyləyirəm xoşluq edir.

Ürəyi əsmə tutub dəli kimi,
Sanki şeytancığazın əli kimi.

Qabarır dərya sayaq eşqə sinə,
Düşmüşəm bir dəli sevdaya yenə.

05.03.2011

HƏR KƏSƏ HAQQ EVİNİN QAPISI AÇILMAYIR HEÇ

Hər kəsə haqq evinin qapısı açılmayır heç,
Boylanan nur günəşi könlünə saçılmayır heç.

Yaradannandı gələn dünyaya həyat işığı,
Zəka aşiqlərinin mətləbi qaçılmayır heç.

Bir çoxu özünü Allahdan uca tutmadadı,
Zərrənin danəsinin varını bar qılmayır heç.

Şadiman, zənn eləmə küfr edənin cəzası yox,
Ki başın fikir odası daimi, uçulmayır heç.

06.03.2011

ÇƏKDİM AHI CANI-DİLDƏN AHIM ƏRŞƏ YAYILMAZMI?

Məhəmməd Füzuliyə şikayət

Çəkdim ahı cani-dildən ahım ərşə yayılmazmı?
Mən bimarı danan dünya, yatmışların ayılmazmı?

Hicranların dəldi-deşdi ürəyimi ağı kimi,
Bu ağının hər şivəni cana günah sayılmazmı?

Sitəmlərdən gözüm doldu göylərinin sularıtək,
Sular içrə batan könlüm dərya tutub oyulmazmı?

Dəli ürək qəfəslərdə bir çırpınan quşcağazdı,
Onun çılğın sədaları yerdə-göydə duyulmazmı?

Haray salıb fəğan etdim bu zamanın əhvalına,
Qətrə-qətrə Nəsimitək dərim ahdan soyulmazmı?

Çox yalvardım əzabıma çarə bulum doğulandan,
Bulunmursa dərdə çarə məgər ondan doyulmazmı?

Şadimanı duyan Babam, qədəm basıb gəlir canım,
Haqq qapına gələnlərin dərgahına qoyulmazmı?

06.03.2011

GƏLİRSƏN ÖYLƏCƏ GƏL
DÖNMƏ VƏFADAN GERİ YAR

Gəlirsən öyləcə gəl dönmə vəfadan geri yar,
Gətirib tökmə cana bir belə dərdi-səri yar.

Düşürüb qovğaya bu qəlbimi çıxma aradan,
Şəfəqin günəşə bənzər, saçılır min zəri yar.

Həsrətin yoxdu daha çəkməyə könlüm tabını,
Tökürəm gecəbəgündüz beləcə mən təri yar.

Hicran əzablarının yolları çox daşlı olur,
Bunu bilənləri gör, sormağa gəlmə bəri yar.

Şadimanı özünə sanma ki, biganə olub,
Onun biganəliyin üzünə tutma dəri yar.

07.03.2011

FƏDA OLSUN CANIM SƏNƏ
FƏDA BİLMƏZLƏR EŞQİNƏ

Fəda olsun canım sənə fəda bilməzlər eşqinə,
Bağrı-cana düşən qəmi qada bilməzlər eşqinə.

Dəlib keçən ahın-oxun yarə alan ürək dadır,
Bu yarənin əzabını səda bilməzlər eşqinə.

Gözdən axan yaşı bir-bir mirvaritək sapa düzdüm,
Onun təndə bitən dərdin nida bilməzlər eşqinə.

Əcəb ötür günüm səhman anlarına qonağ bəxtim,
Ötən günə tumar tutdum əda bilməzlər eşqinə.

Kirpik içrə yuva qurdu qəmim möhnət divanəsi,
Hər möhnətin ucalığın dada bilməzlər eşqinə.

Nədir belə candan çıxıb karvan tutub gedir göyə,
Qərar tutan cismləri ada bilməzlər eşqinə.

Şadimana, ruhun hər gün bədəninlə güləş edir,
Gözlər tutan faniliyi qida bilməzlər eşqinə.

18.04.2011

AXIR HƏR GÜN QƏDƏM-QƏDƏM GÖZÜM YAŞI BULAĞINA

Axır hər gün qədəm-qədəm gözüm yaşı bulağına,
Fəryadları oxur dəm-dəm tale kimi qulağına.

Haray çəkən buludları sarayıma ahın tullar,
Buludlar da tökər gurşad selin yollar otağına.

Hicranlarım könül açar sabahlara yarı kimi,
Alar gözdən yuxuları gecəm gəlməz yatağına.

Sevda içi boş xanələr, küləkləri yallı gedər,
Basıb gələr xəzanları qönçə tutan qəlb tağına.

Ağır günün sükutunda bir kimsəni bulan varmı?
Gələnləri görən boldu hər ömürün xoş çağına.

Dərdə sevda etmə, eyvah, sevda etsən könül açar,
Öz vaxtında duyuq düş ki, heç dönməsin o yağına.

Şadimana, etmə cidal zaman özü can ölçüsü,
Saatlardan qopan nida səbəb olar sorağına.

18.05.2011

CANIM UÇUR SABAHIMIN SORAĞINA GƏLƏR KİMİ

Canım uçur sabahımın sorağına gələr kimi,
Udur ahu-fəğanları ruhu duymaz mələr kimi.

Ağır-ağır zaman ötür kirpiklərim yaş altında,
Çiskinlərin yanaqlara gecə-gündüz ələr kimi.

Fələk tutur ürəyimi uşaq təki dilə yaman,
Bir oyuncaq müqqəvadır üz-gözümə gülər kimi.

Əqrəblərin parıltısı ömürlərə zər-zibadır,
Başdan-başa üst-başları daş-qaşlartək bələr kimi.

Hər bədənin libası can, təzəliyi al-əlvandır,
Məkan bilib bu dünyanı məkanına gələr kimi.

Körpəlikdə başlar qatan, yaşlaşanda əzablardır,
Gənclik vaxtı sevda olub ürəkləri dələr kimi.

Şadimana, gələnlərə həyat adlı şirin mələk,
Gedənlərə tabutlanan bədənlərtək ölər kimi.

18.05.2011

TƏBİƏT SEVDAYA ÇAĞIRIR MƏNİ

KÖNÜL BAĞININ QÖNÇƏLƏRİ GÜL GƏTİRİBDÜR

Könül bağının qönçələri gül gətiribdür,
Ürəyin özü vəcdə gəlib dil gətiribdür.

Aləmlər açıb xoş nəfəsin yerlərə sarı,
Bülüdlar uçub göylərə ağ tül gətiribdür.

Yorub özünü ayaz ilən bu fəsili-qış,
Qarğanı qovub, bağlara bülbül gətiribdür.

Fəsillər açıb əllərini Rəbbinə sarı,
Lütfünü edib, Rəbb də bizə il gətiribdür.

Küləklər əsir çöldə, bayırda yenə güclü,
Bəmi unudub, harayı bir zil gətiribdür.

Canım özünü eşq ilə çırpır dağa, daşa,
Cismim alışır, atəşi nə kül gətiribdür?

Sənət bağının çiçəyinin biri də ürək,
Küləklər əsir, meyvələrin yel gətiribdür.

İlhamım uçur yer ilə göylər arasında,
Buludlar açıb gurşadını, sel gətiribdür.

Heç kim deməsin təbi olan könlümə fəna,
Bu Şadimanın işləri müşkül gətiribdür.

11.02.2007/ Neft Daşları

RUHUM QANAD AÇIR UÇMAĞA BU GÜN

Yenə yaşıllaşıb bağ-bağça, çəmən,
Havaya ətrini verir yasəmən,
Yerin döşlərindən çeşmədir əmən,
Quşlar cəh-cəh vurur ətrafdan həmən,
Təb gəlib qapımı açmağa bü gün,
Ruhum qanad açır uçmağa bu gün.

Baharmı gözəllik verən aləmə?
Aləmmi baharı salan bu dəmə?
Təbiət son qoyub gözündə nəmə,
Nəş'ə sitəm edir qəlbdə ələmə,
Cəhd edir ürəyim qaçmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

Arabir şimşəklər çaxnaşır göydə,
Buludlar acıqlı axnaşır göydə,
Hər bulud həm dolur, həm daşır göydə,
Leysanlar titrəyir dağ aşır göydə,
Yerin bağırını qucmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

Şıdırğı oynadır bahar yelləri,
Ehtizaza gəlir qəlbin telləri,
Ötüşür quşların o quş dilləri,
Titrədir kövrəkcə saf könülləri,
Günəş ocaq çatıb saçmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

Şadiman, can verir canıma nəş'ə,
Qoyma qapımızdan girə əndişə,
Kədər bu anları çəkməsin dişə,
Təbiət bahara açılan guşə,
Nə halət dərd-sərə acmağa bu gün,
Ruhum qanad açır uçmağa bu gün.

30.03.2007/ Neft Daşları

GECƏNİN SÜKUTU

Gecənin sükutu
Zülmətə ən dərin qutu,
Ulduzlar kainat ağacının tutu.
Buludlar silkələndikcə,
Ələmlər şeh ələdikcə,
Aləmlər meh ələdikcə,
göylərdən, sanki yerə tökülər.
O almaz parıltıları ilə
qaranlığın beli bükülər.
Dan yeri sökülər,
Aya işıq verən günəş,
Səhərin bağrına atəş,
Yer-göy Yaradanın
sehrindən edər qəş.
Ürəyim nazlanar,
Könlüm avazlanar,
Ah, İlahi, həyat şirin,
Heçnə vermir onun yerin,
Özün söylə bunun sirrin.

15.08.2008

BİZİ YAŞADAN HƏYATDI

Qara çadralı bu gecə,
Yuxudan ayıldı necə?
Zülmətin ömrü daraldı,
Göy üzü tamam qaraldı,
Gecənin bağrı yarıldı,
Al Günəş sübhə sarıldı.
Getdi zülmət min ah ilən,
Ayıldı gün sabah ilən,
Ağappaq buludlar uçdu,
Sinəsin göylərə açdı.
Dünyanın dodağı qaçdı,
Qolların səhərə açdı.
Örpəyin uzatdı yerə,
Baş əydi ona min kərə.
Küləklər daradı telin,
Şəbnəmlər islatdı əlin.
Göy üzü çəhrayı oldu,
Yelləri saçını yoldu.
Sanki bu qış yox, yaz imiş,

Yerdə, göydə bir naz imiş.
Sərçələr budağlar üstə,
Səsləri elə ahəstə.
Bağ-bağat içrə dolaşdı,
Bülbüllə gül qoşalaşdı.
Dünyanın gözləri güldü,
Könlümə sevinc töküldü.
Ruhuma, canıma qida,
Sinəmdən qopdu xoş nida.
Ömür Tanrıdan baratdı,
Bizi yaşadan həyatdı!

03.02.2007

AL-ƏLVAN GEYDİRİB ÇÖLÜ- ÇƏMƏNİ

Al-əlvan geydirib çölü-çəməni,
Yenə də bəzənib sədalı Novruz.
Əl içində gəzir yaşıl səməni,
Min işvə, naz satır ədalı Novruz.

Təbiət canlanır küləklər üstə,
Könül havalanır diləklər üstə,
Məhəbbət tellənir ürəklər üstə,
Qəlbləri oynadır sevdalı Novruz.

Bahar dağdan, düzdən boylanır baxır,
Eşqi sinələri yandırıb yaxır,
Sellər şaqqıldayır, çeşmələr axır,
Duyğumu titrədir nidalı Novruz.

Neçə çərşənbəni adlayıb keçdik,
Çatıb tonqalları odlayıb keçdik,
Qışın boz üzünə yadlayıb keçdik,
Min bir nemətiylə qidalı Novruz.

Eşqinlə coşdurdun bu Şadimanı,
Ey qan yaddaşımın dini, imanı,
Gəlib yetişibdir hicran zamanı,
Yığışıb gedirsən vidalı Novruz.

30.03.2007/ Neft Daşları

ƏLƏNİR GÖYDƏN YAĞIŞ

Ələnir göydən yağış,
Damlası naxış-naxış,
Bahar gəlib ötüb qış,
Gah çiskin, duman yağır,
Bu yağış yaman yağır.

Quşlar eyləyir cəh-cəh,
Çiçəklər açır pəh-pəh,
Təbiət edir bəh-bəh,
Aləmdə bir çal-çağır,
Bu yağış yaman yağır.

Yaşıl otlar tellənir,
Çaylar daşır sellənir,
Yatmış torpaq dillənir,
Döyünür ağır-ağır,
Bu yağış yaman yağır.

Arabir külək əsir,
Qışın nəfəsin kəsir,
Olmuşam yaza əsir,
Atəşlə dolub bağır,
Bu yağış yaman yağır.

Ey Şadiman, təbiət,
İlahidən əmanət,
Ömür bizə zəmanət,
Qoy gəlsin, təbi çağır,
Bu yağış yaman yağır.

10.04.2007/ Neft Daşları

BULUDLAR KÖÇ EDİR GÖYÜN ÜZÜNDƏ

Buludlar köç edir göyün üzündə,
Çadırı-çadıra calayıb gedir.
Dünyanın ələmi daşır gözündə,
Bütün yer üzünü sulayıb, gedir.

Bahar, nazlı bahar dodağın büzür,
Yelləri göylərin bağrında süzür,
Çəmənlər üstünə gül-çiçək düzür,
Könlümə od-atəş qalayıb, gedir.

Dağlar yaşıl otlar geyib əyninə,
Yazın sazağını almır eyninə,
Gözəllik ruh verir insan beyninə,
Kədəri ürəkdən talayıb, gedir.

Gurşadlar dağ keçir, qayalar aşır,
Buludla, yağmurla göy pıçıldaşır,
Çaylar, məcrasından çıxaraq, daşır,
Kolları, kosları yalayıb, gedir.

Bahar, gözəl bahar, vüsət içində,
İlahi bəzəyən xislət içində,
Yelləri titrəyir həsrət içində,
Dumanı belinə dolayıb, gedir.

Yatmış duyğularım titrər sim kimi,
Təbim, fırtınalı bu köksüm kimi,
Məni ram eləyir bir tilsim kimi!
Təbiət çırpınır öz əksim kimi,
Hissimi ağrıma bulayıb, gedir.

İlahi diləklər öcəşir canla,
Məhəbbət od alıb qaynayır qanla,
Şadiman, ilhamım dilləşib anla,
Könlümə sevdalar yollayıb, gedir.

10.04.2007/ Neft Daşları

BAHAR, TƏBİƏTİN EY ŞILTAQ QIZI

Bahar, təbiətin ey şıltaq qızı,
Çöhrəndə həyatın gözəlliyi var.
Bütün fəsillərin parlaq ulduzu,
Sənin gurşadların qüssəmi yuvar.

Gündə min şəkilə düşür təbiət,
Yağış ara verir, günəş parlayır.
Sənə İlahidən gəlirmi qüdrət?
Üzündə, gözündə atəş parlayır.

Bahar, gözəl bahar, şəfqətin dəva,
Sənin mərhəmətin hikmətdən gəlir.
Bütün vücudumu titrədir nəva,
Bu da Rəbbim verən, vüsətdən gəlir.

Yellərin, utancaq qıztək, titrəyir,
Şəbnəmlər gözündən axır sel kimi.
Dumanın örpəyi üzünə dəyir,
Anlar səda salır qəlbə tel kimi.

Ağ-qara geyinib buludlar bir-bir,
Sanki toy qurublar səmanın üstə.
Kainat əlinə götürüb xəlbir,
Xəlbirdən ələnir yağış ahəstə.

Buludlar içindən Günəş boylanır,
Gülmüsər üzüylə süzür aləmi.
Könlümün içində kədər vaylanır,
Bütün gözəlliklər boğur naləmi.

Bahar, gözəl bahar, qənirsiz pəri,
Ormanı, çəməni, çölü bəzərsən.
Çöhrəndə parlayır Günəşin zəri,
Hara getsən ora çiçək düzərsən.

Bahar, nazlı bahar, yuyunur bu gün,
Sellər şaqqıldayır gurşad içində.
Salıbdı aləmə toy-düyün bu gun,
Ürəyim uğunur dilşad içində.

Bütün fəsillərin mələyi - bahar,
Ruhumun evinə büsat gətirdin.
Dolmuş ürəyimin diləyi - bahar,
Ömrə bir Novruz da gəlib yetirdin.

12.04.2007/ Neft Daşları

TUTULUB GÖYLƏRİN SƏMASI YENƏ

Tutulub göylərin səması yenə,
Yaz öz sevincini bizdən gizlədir.
Dumanı, çiskini sığıb köksünə,
Günəşin atəşin üzdən gizlədir.

Şəbnəmlər tökülür güldən, çiçəkdən,
Şeh öz mirvarisin doğub ləçəkdən,
Buludlar don geyib həzin küləkdən,
Bahar ürəyini közdən gizlədir.

Şimşəklər çaxnaşır, göylər alışır,
Dəmadəm səmanın halı qarışır,
Gurşadlar sellərlə, sanki yarışır,
Çiçəklər sevdasın düzdən gizlədir.

Yağışlar çöllərin dizini qatlar,
Qorxudan güllərin ürəyi partlar,
Yaşıla bürünüb çəməndə otlar,
Kəkliklər boyunu izdən gizlədir.

Təb döyür qapımı açımmı, eyvah?
Baş götürüb ondan qaçımmı, eyvah?
Günəştək atəşlər saçımmı, eyvah?
Şadiman özünü sözdən gizlədir.

14.04.2007/ Neft Daşları

GÖZƏL BAHAR, XOŞ GƏLMİSƏN

Təbiətin nazlı qızı,
Gözəl bahar, xoş gəlmisən.
Gətirmisən bizə yazı,
Gözəl bahar, xoş gəlmisən.

Çəmənlərin çiçəkləsin,
Ağacların ləçəkləsin,
Ürəyimiz diləkləsin,
Gözəl bahar, xoş gəlmisən.

Qəlbdə sevinc yuvalasın,
Səadəti dualasın,
Eşq könlümü havalasın,
Gözəl bahar, xoş gəlmisən.

14.04.2007/ Neft Daşları

EY QƏDƏMLƏRİ MÜBARƏK

Ey qədəmləri mübarək,
Bahar, xoş gəldin, xoş gəldin.
Novruz dəmlərin mübarək,
Bahar, xoş gəldin, xoş gəldin.

Gətir göylərə Günəşi,
Səp ürəyimə atəşi,
Əkindən elə küləşi,
Bahar, xoş gəldin, xoş gəldin.

Səmanın yeddi naxışı,
Öldürür Ayın baxışı,
Yağdır şıdırğı yağışı,
Bahar, xoş gəldin, xoş gəldin.

Daşdır çaylarda selləri,
Sula gurşadla çölləri,
Əsdir ətirli yelləri,
Bahar, xoş gəldin, xoş gəldin.

Sən fəsillərin göyçəyi,
Səp dağa, düzə çiçəyi,
Başında güllü ləçəyin-
Bahar, xoş gəldin, xoş gəldin.

Coşdur, çağlasın, həyatı,
Cala büsata büsatı,
Qoy çapsın şövqlə can atı,
Bahar, xoş gəldin, xoş gəldin.

14.04.2007/ Neft Daşları

BAHAR FƏSLİ

Yenə gəlib sevdasıyla,
Ürəklərə, bahar fəsli.
Haray salıb sədasıyla,
Küləklərə, bahar fəsli.

Yamacları əlvan-əlvan,
Çöl-çəmənin otu rəvan,
Eşqin düşür karvan-karvan,
Diləklərə, bahar fəsli.

Pənbə-pənbə dağ buludlar,
Kef damağı çağ buludlar,
Oxşar göydə ağ buludlar,
Mələklərə, bahar fəsli.

Şimşəklərin od-atəşi,
Heyran edər al Günəşi,
Ələməkdir gurşad işi,
Ələklərə, bahar fəsli.

Məhəbbətin soraqlarda,
Nəfəsin var torpaqlarda,
Bərəkətsən tabaqlarda,
Çörəklərə, bahar fəsli.

Yağdır göydən gur yağışı,
Yağış Rəbbin nur baxışı,
Qüdrət çəkib dürr naxışı,
Fələklərə, bahar fəsli.

Şadimanı sar közündə,
Həsrət, hicran yox gözündə,
Bağla eşqi göy üzündə,
Dirəklərə, bahar fəsli.

04.05.2007/ Neft Daşları

NƏDƏN DİLDAR OLUB BAXIRSAN MƏNƏ?

Nədən dildar olub baxırsan mənə?
Kolların içində süzən, bənövşə.
Aləmi yandırıb yaxırsan mənə,
Bağrımın telini üzən, bənövşə.

Mən hicran içində hicran yaşatdım,
Həsrəti küsdürdüm, qəmə daş atdım,
Sən bitən çəməndə yorulub yatdım,
Şirin yuxularda gəzən, bənövşə.

Həzin meh içində tellərin əsir,
Qurmusan könlümün mülkündə qəsir,
Ətrin ruhu açır söylə bu nə sirr?
Gəl, canım içində bəzən, bənövşə.

Bir inci eşqiylə aləmə qaçdım,
Aləmlər içində eşqə yol açdım,
Düşüb çəmənliyə şəfəqlər saçdım,
Şəfəqin şuasın üzən, bənövşə.

Səhərin şehində çimmisən yenə,
Torpağın döşündən əmmisən yenə,
Bunu şərab bilib dəmmisən yenə?
Məni sərxoş-sərxoş süzən, bənövşə.

Bu dildar sevgimi duyma havayı,
Könlə munis yoxdu səndən savayı,
Qoy ərşə dirənsin həsrətin vayı,
Ey qəmin tarlasın əzən, bənövşə.

Eşqinə salmısan sən Şadimanı,
Gedibdi əlindən dini-imanı,
Alma iqtidarı, kəsmə amanı,
Canıma sevdalar düzən, bənövşə.

22.09.2007

BULUDLAR TOQQUŞDU

Buludlar toqquşdu,
Gözlərindən gurşadlar daşdı.
Göylərin sinəsindən aşdı,
Yerlərə töküldü,
Yerin bağrı söküldü.
Şimşəklərin gurultusu
aləmi başına götürdü,
Mələk üzlü küləklər
bu çaxnaşmaya özün yetirdi.
Göyün sinəsi aralandı,
Ağzından od püskürən,
buludları yaraladı.
Odlu köynəyini geyinmiş,
şimşəklər çalxalandı,
Alov rəngli qılınclarına arxalandı.
Göylərdə çarpışma başladı,
Səmaya səpilmiş qara buludlar
Bir-birini daşladı,
Asimanda aləm qarışdı,
Bu nə vuruşdu?
Dünyanın axırı çatmışdı elə bil,
Bu gurultu, sanki bir təbil.
Kimsə bu təbili döydü,
Aləm bir-birinə dəydi.

***

Buludlar toqquşdu,
Gözlərində boğulan yaşdı.
Şimşəkləri çaxdı,
Yandırıb yaxdı,
Gurşadları bəbəklərindən
sel təki axdı.
Bu təbiətin xoş avazı,
Fəsillərin yazı.
Məhəbbətin ürəyi,
Dünyanın gərəyi – Bahar idi,
Könlü od-atəşlə ahar idi.
Bütün gözəlliklərdən başdı,
Kainatın barmağında
ən qiymətli daşdı,
İşıltısı aləmi qamaşdıran qumaşdı,
Bütün dunya qaynayıb daşdı,
Buludlar toqquşdu,
Buludlar toqquşdu.

30.04.2007/ Neft Daşları

SƏNİN XİFFƏTİNİ ÇƏKİRƏM, XƏZƏR

Sənin xiffətini çəkirəm, Xəzər,
Fırtınan çırpınır bu can içində.
Hicrindən göz yaşı tökürəm, Xəzər,
Ömrüm-günüm ötür hicran içində.

Çılğın ləpələrin laylası sehir,
Ürəyim salmışdı qoynuna mehir,
Bəbəkdə gurşadım qanayan nəhir,
Səni arayıram hər an içində.

Xəzər, o şıltaqlıq məndə də vardır,
Duyğular gah qışdır, gah da bahardır,
Sinəmdə həsrətin bir ahu-zardır,
Qəlbi itirmişəm zaman içində.

Nə qədər sənlə bağrı-yar idim,
Coşğun hayqırtını bir duyar idim,
Ayrılıq acısın de necə didim?!...
Qoyubdu könlümü, o, qan içində!

Sənin xiffətinə mən bağrı xəstə,
Acılar ah çəkir ürəyim üstə,
Durub Şadimanla anbaan qəsdə,
Ağrım haray çəkir iman içində!..

03.10.2007

HEYVA AĞACININ ÇİÇƏKLƏRİ

Heyva ağacının çiçəkləri,
Könlümün çağlayan diləkləri,
Oynadar külәkləri,
Coşdurar ürəkləri.
Hər tərəf gömgöy sular,
Sanki qurd təki ular,
Fırtınalı çağlarında Xəzər,
Eyvah, ac canavara bənzər.
Dalğalar üstə titrəyən meydança,
Dəmir dirəklər haça-haça,
Burda torpağı sahildən
gətirilmiş bapbalaca bağça.
Bağçada tənha heyva ağacı,
Bir ovuc şirin suyun möhtacı,
Duyğular içində çırpınan könlümün tacı.
Baharın gəlişin ağac mənə bildirər,
Sular üstündə keçən
qərib həyatımı güldürər.
Məni sevdalar içində öldürər.
Hər yaz yamyaşıl yarpaqlara bürünər,
Çiçəklər yarpaqlar üstə
tac kimi görünər.
Ağa, çəhrayıya çalar çiçəklər,
Başına bağlayar xırda-xırda ləçəklər.
Kəpənəklər hardansa uçub gələr,
Xırdaca qanadları ilə çiçəkləri dələr.
Üstünə nur ələr.

***

Heyva ağacının çiçəkləri,
Təbiətin xırdaca mələkləri.
Qərib düşmüş ürəyimdə yaz havası oyadar,
Hisslərimi ovudar.
Könlümü öz havası ilə oynadar,
Donmuş qanımı qaynadar,
Sanki torpaq üstündəki kimi sanaram özümü,
Ətri ilə ovsunlayar gecəmi, gündüzümü.
Dənizi bahar rayihəsinə boyayar,
Axşamlar baş qoyub yarpaqlar üstə uyuyar,
Mənimtək macəralı taleyinə uyar.

***

Heyva ağacının çiçəkləri –
Xırdaca bağçanın mələkləri.
Əyinlərində ağ-çəhrayı donları,
Xəzərin nəmli suları üstə
üşüm-üşüm üşüyər canları.
Küləklərlə keçər anları.
Fırtınalar qopar,
Budaqlar üstə çapar,
Titrəyən çiçəkləri qapar.
Çiçəklər yamyaşıl budaqlardan ayrılıb
bapbalaca bağçaya tökülər,
Ürəyim bu mənzərədən sökülər.
Mənim taleyim kimi,
Eynim kimi –
Ömrü dirəklərdən asılı heyva ağacı,
Öz çiçəklərinə baxar acı-acı,
Mənimtək diləklərin möhtacı.

***

Heyva ağacının çiçəkləri –
Könlümün Rəbbinə qovuşan diləkləri,
Təbimlə oynayar,
Qanımla qaynayar,
Canıma eşqi yar.

***

Heyva ağacının çiçəkləri,
Coşdurar ürəkləri,
Tanrının xırdaca mələkləri
Xəzər üstə taca bənzər,
Könlümü bəzər.
Balaca pəncərəm bağçaya açılar,
Ürəyimdə atəşlər saçılar,
Könlümün qəm sarayı uçular.
Gözlərim gözəlliyə düşər,
Gözəllik olan yerdə nə şər?
Məftunluq ürəyimdə yerləşər.
Sevdalarıma qapı açar,
Duyğularım qanadlanıb uçar,
Təbiətin xırdaca mələkləri,
Heyva ağacının çiçəkləri.

02.05.2007/ Neft Daşları

XƏZƏR QAYNAYIR

Xəzər atəşə düşmüş ürəktək qaynayır,
Dalğalar küləyin çaldığı havaya oynayır.

Hardansa fırtınanın iyi gəlir havadan,
Qağayıların canları vaylanır səmadan,
Allaha üz tutan dilləri yapışıb duadan!
Ləpələr yavaş-yavaş şahə qalxır,
Gömgöy sulara səpilmiş bapbalaca
balıqlara acıqlı-acıqlı baxır.
Bizdən lap uzaqda,
uca göylərdə yerləşən,
Ürəyi hikkədən şişən,
Qapqara buludlar bir-birinə dəyir
iti qılınclar kimi şaqqıltıyla,
Qağayılar qorxa-qorxa
baxır qaqqıltıyla.
Sanki asiman aralanır,
Ürəyi yaralanır,
Göy hissə-hissə alovlanır,
Şimşəklər dəli-dolu atlar təki hovlanır.
Tüfəng lüləsindən çıxan
qurğuşunlar kimi çaxır,
Sanki bütün aləmi yıxır.
Fırtına qara buludlar içindən çıxıb
özünü dənizə salır.
Xəzərin gözü bərələ qalır,
Qərib-qərib hönkürür,
Elə bil qorxusundan yerin altına girir.
Bir anın içində tufan
özünü öyməyə başlayır,
Bayaqdan sükuta bürünmüş
dalğalar bir-birini daşlayır.
Vıyıltı ilə əsən külək
ayaqlarını bardaşlayır,
Yaz içində fırtına dənizdə qışlayır.
İlahinin qüdrətinə heyrətdən
ürəyim çırpınır,
Yerindən sapınır,
Yuvasından perik düşmüş quşcağaztək,

Sanki Xəzər üstündə qalmışam tək.
Qağayılar da qorxsundan
sular üstündə görünür tək-tək.
Könlümün duyğuları fırtınanın
çaldığı havaya oynayır,
Xəzər hönkürə-hönkürə qaynayır,
Ölüm-itimə, fitnə-felə, məkirə qaynayır,
Bütün çirkinliklərə, kirə qaynayır.
Xəzər qaynayır.
Xəzər qaynayır.

03.05.2007

AĞACLAR SARI-SARI YARPAQLARIN ƏLƏYİR

Ağaclar sarı-sarı yarpaqların ələyir,
Yerdən, göydən aman diləyir,
Külək bağçalar arasında
anasından ayrı düşmüş
quzu təki mələyir.
Günəş işıltısı içində,
Zaman anları biçində.
Fəsillər öz işində,
Fələk gərdişində,
Ömrümüzü əridir dişində.

13.10.2007

TƏBİƏT ÖZÜ MƏLƏKDİ

Ağappaq qarın içində,
Saatlar niyə-neçində,
Vaxtın dar köçə-köçündə,
Yel atın çapan küləkdir,
Təbiət özü mələkdir.

Buludlar atışıb gedir,
Durnalar qatışıb gedir,
Gün gəlib ötüşüb gedir,
Fəsili qovan fələkdir,
Təbiət özü mələkdir.

Günəşi nəfəsin gizlər,
Göy üzü qarı dənizlər,
Duyğular könlü əzizlər,
Sevdası yanan ürəkdir,
Təbiət özü mələkdir.

Asiman sirli bir kaha,
Süfrəsi açıq Allaha,
Ələnir qarı sabaha,
Əlində bulud ələkdir,
Təbiət özü mələkdir.

Gecənin cana varağı,
Yanarkən qarın çırağı,
Uzaqdan gəlir sorağı,
Diləyi üstdə diləkdir,
Təbiət özü mələkdir.

10.01.2008

QIŞ GƏLİB BULUD ÜSTƏ

Qış gəlib bulud üstə,
Bəyaz qarı ahəstə.
Yorğanın sərib yerə,
Ağappaqdı dağ, dərə.
Xəzri elə ulayır,
Buza dönüb çöl-bayır.
Günəş hərdən gözünü
qırpmadan baxıb durur,
Buz içində toy qurur.
Qar özü bir bərəkət,
Torpağa can, hərəkət,
İlahinin neməti,
İnsana səadəti.
Qarla külək bəhs edir,
Buludlar yallı gedir.
Sevdalı günlərimiz,
Sədalı ünlərimiz.
Qışı bahar eyləyir,
Bağ-bağçamız gülləyir.
İsinir ürəyimiz,
Uçuşur diləyimiz.
Sabahımız yaz olar,
Aləm xoş avaz olar.
Təbiətin qüdrəti,
Coşub-daşmaq adəti,
Dünyaya sədaqəti.

09.01.2008

UÇUŞUR KƏPƏNƏKLƏR

Kəpənəklər uçuşur,
Gül-çiçəkdə gəzirlər.
Mələk kimi qaçışır,
Eşq içində üzürlər.

Günəştək nur saçırlar,
Güldən-gülə qaçırlar,
Göydə-yerdə uçurlar.
Qanadların süzürlər.

Yeddi cürə donları,
Mehdən titrər canları,
Qaynar eşqlə qanları,
Ürəyə eşq düzürlər.

05.10.2008

QUMRU

Ey könlümü bu sübh çağı,
Dərdə, qəmə salan qumru.
Oxuyaraq pəstlə ağı,
Qəlbim kimi solan qumru.

Səmalarda pərvaz etdin,
Dəli eşqlə nəvaz etdin,
Ruhum kimi avaz etdin,
Hicranlarda qalan qumru.

Dənlənirsən torpaq üstə,
Tellənirsən yarpaq üstə,
Gəl məndən də ürək istə
Qəlbimlə düz dolan qumru.

27.02.2009

ALMA AĞACI

Payızın saralan-solan vaxtında,
Çiçəklər bitirib, alma ağacı.
Oturub bağımız xəzan taxtında,
Baharı gətirib, alma ağacı.

Niskillər içində üzən sabahın,
Aparıb sevdası naləyi-ahın,
Elə bil yerlərə munis Allahın –
Sevgisin yetirib, alma ağacı.

Budaqlar üstündə çiçəklər əsir,
Sazağın bağrını bir ülfət kəsir,
Günəş şölələrdən hörübdü həsir,
Odunu götürüb, alma ağacı.

Aparıb kədəri, aparıb qəmi.
Qəlbdə tüğyan edən acı naləmi,
Bir eşqə bürüyüb küllü-aləmi,
Könlümə ötürüb, alma ağacı.

Şadiman, təbiət sirlərlə dolu,
Hər üzə açılmır onun haqq yolu,
Yatıb göy içində sis, gurşad, dolu,
Sazağı itirib alma ağacı.

23.11.2008

BİR TƏRƏFDƏ QIZILGÜL, BİR TƏRƏFDƏ LALƏDİR

Bir tərəfdə qızılgül, bir tərəfdə lalədir,
Hər lalə özü boyda qırmızı piyalədir,
Astaca əsən rüzgar hicran dolu nalədir.
Ələnir sübh şehləri yarpaqlara ahəstə,
Təbiət öpüb qoyur çiçəkləri göz üstə.

Təntiyən bülbülərin nə çılğın sevdaları?
Gah lalə, gah qızılgül çağlayan nidaları.
Salır ilham təşnəsi canıma sədaları.
Duyğulanıb coşuram mən də təbiət kimi,
Donub qalır gözümdə gözəllik heyrət kimi.

Ağ buludlar içindən günəş qəfil boylanır,
Eşqlə dolu atəşlər bağça-bağa paylanır,
Saatın əqrəbləri vəcdə gəlib haylanır.
Pıçıldaşan yarpaqlar titrəyir anlar təki,
Gah lalə, gah qızılgül üşüyür canlar təki.

Şadiman, gül ətrini alım cana, qoxlayım,
Batıb yarpaq içinə butalarda yuxlayım,
Ürəyimdən yol açan kədərləri oxlayım.
Açmasın qəlb qapımı hicranın əndişəsi,
Könlümü sevdalayıb çiçəklərin nəş'əsi.

13.05.2008

NƏDƏN ÜRƏYİMİ YANDIRIB YAXDIN?

Nədən ürəyimi yandırıb yaxdın?
Bağrıma od saçır atəşin, lalə.
Sevdalar içinə məni buraxdın,
Alışır qəlbimdə günəşin, lalə.

Bağçanın içində bitmisən məhzun,
Boyanıb cəlala o şehli üzün,
İltifat eyləyib verəsən izin,
Olmaya hicranla bir işin, lalə.

Qırmızı köynəyin ətrə boyanıb,
Bir yaşıl ətəkli çətrə boyanıb,
Qarşında təbiət xətrə boyanıb,
Nədir sevdalarla gərdişin, lalə?

Viranə qəlbimi gülüstan etdin,
Şadlığı könlümə şah, sultan etdin,
Ələmin bağçasın zimistan etdin,
Qoydun aralıqda qəm nə'şin, lalə.

Elə heyranlıqla baxır Şadiman,
Edir gözəlliyə səcdəylə iman,
Mənə eyləməsin qoy gül-çiçək man,
Həm yerin mələyi, həm ərşin, lalə.

04.05.2008

YENƏ GƏLİR BAHARIN YAZI TƏZƏ

Eləyir aləmə bir nazı təzə.
Yenə gəlir baharın yazı təzə,

Ötüşür göy üzünü ağ buludu,
Sanki kefi, damağı çağ buludu.
Gözləyir sehri-çəmən, bağ buludu,
Toqquşan şimşəyinin sazı təzə,
Yenə gəlir baharın yazı təzə.

Yağışı dopdolu bir göydən axır,
Günəşi gah tutulub, gah da baxır,
Ürəyi eşqilə hissləri yaxır,
Coşan hər ləhzədə avazı təzə,
Yenə gəlir baharın yazı təzə.

Novruzun örpəyi ağ, üzü açıq,
Qalanan tonqalının közü açıq,
Dolaşır bağça-bağı gözü açıq,
Aləmə səs edən nəvazı təzə,
Yenə gəlir baharın yazı təzə.

Şadiman cövhərini cuş eləyir,
Gözü kirpik evinə huş eləyir,
Təbi misralarını nuş eləyir,
Sözünü bənd eləyən yazı təzə,
Yenə gəlir baharın yazı təzə.

08.03.2009

TƏBİƏT SEVDAYA ÇAĞIRIR MƏNİ

Təbiət sevdaya çağırır məni,
Boran bir tərəfdə, yaz bir tərəfdə.
Dəli məhəbbətlə doğurur məni,
Ürək bir tərəfdə, naz bir tərəfdə.

Sübhün şəfəqindən qopan gün nida,
Yol alan zülmətə deyir əlvida,
Göydən ələnən qar torpağa qida,
Ördək bir tərəfdə, qaz bir tərəfdə.

Ayın məhəbbətdən bağrı üzülüb,
Meydən sərxoş təki gözü süzülüb,
Ərşin ulduzları səf-səf düzülüb
Çoxu bir tərəfdə, az bir tərəfdə.

Şadiman bu gecə ilhama gəlir,
Necə ki, pərvanə şux şama gəlir,
Küləklər Şur üstə nizama gəlir,
Kaman bir tərəfdə, saz bir tərəfdə!

07.01.2009

BƏZƏYİB ÇÖLLƏRİ ƏLVAN LALƏLƏR

Bəzəyib çölləri əlvan lalələr,
Ruhumu oxşayır diləklər kimi.
Bağında hicranlar, niskillər mələr,
Süpürüb aparar küləklər kimi.

Qırmızı köynəklər sübhümü bəzər,
Ürəyin içinə məlhəmlər düzər,
Bu eşqə sevdaya necə can dözər?
Süzülür şahanə diləklər kimi.

Bu çöl gözəlləri təbib misalı,
Hər aha, fəğana, hər qəmə hallı,
Şəkərlər süzülən dodaqlar ballı,
Dərdimi, bəlamı ələklər kimi.

Qara xallarından xumar tökülür,
Bütün yorğunluqlar candan sökülür,
Düşüb işvə-naza hərdən bükülür,
Göyü ərsin edən mələklər kimi.

Əllərim toxunur ləçəklərinə,
Sarı izlər düşür ətəklərinə,
Dəyməyin düzlərin göyçəklərinə,
Döyünsün çöllərdə ürəklər kimi.

Şadiman, təbiət bir nazlı sona,
Yayır ətirini bax bir hər yana,
Hələ də körpəyik, o munis ana,
Bizi nənnisində bələklər kimi.

27.01.2011

YENƏ ƏSİR DAĞLARINDA YELLƏRİN

Yenə əsir dağlarında yellərin,
Bahar, sənin küləklərin xoş gəlib.
Tuti kimi oxur bülbül dillərin,
Buludların gözlərinə yaş gəlib.

Vurur özün dağa, daşa dumanlar,
Yaşıl xalı geyinibdi ümmanlar,
Yallı gedir yaz həsrətli zamanlar,
Eyvanlara yenə qaranquş gəlib.

Kol dibindən bənövşələr süslənir,
Turacların, kəkliklərin səslənir,
Ürəklərdə sevdaların bəslənir,
Dil tərpənir, dodaqlara cuş gəlib.

Əhvalımı cilovlayır baxışın,
Alıb könlü göyə çıxır yağışın,
Əritmisən soyuğunu sərt qışın,
Yuxum qaçıb, baş ayılıb, huş gəlib.

Dəli-dolu sellər kimi kükrəyən,
Ruhu-canı sevdasıyla təkləyən,
Şadimanın damağını kökləyən,
İştahını əzizləyən nuş gəlib.

16.04.2011

FƏLAKƏT YÜRÜYÜR MƏMLƏKƏTLƏRƏ

Fələkmi susayıb fəlakətlərə?
Fəlakət yürüyür məmləkətlərə?

Yermi xəstələnib, göymü yorulub?
Bəlkə sorğu-sual, mizan qurulub?

Dünyanın ürəyi dərddən yuxalıb,
Zəlzələ, fırtına, daşqın çoxalıb.

Bütün ölkələrin üzü Allaha,
Bəndənin gümanı qalmıb sabaha.

Hər yanı bürüyüb qan-qırğın, sitəm,
Hər yerdən özünü göstərir matəm.

Bəlkə çox yandırdıq yerin bağrını,
O üzdən çoxaldıb acı-ağrını.

Odur ki, göylərin gözünün yaşı,
Uçurur başlara qayanı, daşı.

Dəryalar, dənizlər yatağa sığmır,
Səma şaqqıldayır göy tağa sığmır.

Buludlar hikkəylə pıçıldaşırlar,
Çaylar hövzəsindən çıxıb daşırlar.

Tufan cilalamır fil xortumunu,
Şeytan səpir yerə hiylə tumunu.

Ağaclar kökündən qopub yıxılır,
Yer həndəvərinə sığmır sıxılır.

Bəlkə tərəzini əymişik tamam,
Allahın xətrinə dəymişik tamam.

Bizi ayıltmağa tufan göndərir,
Göydən başımıza leysan əndərir.

Axı yer də canlı, öz nəfəsi var,
Onu yaradana tən qəfəsi var.

Təninin çatları yaraya dönüb,
Küləklə, daşqınla haraya dönüb.

Deyir ki, ey məni yıxıb əzənlər,
Bağrımın başına zülüm düzənlər,

Qəflət yuxusundan ayılın durun,
Yaşam haqqınızçın məşvərət qurun.

Qolumu-qıçımı sındırdınız bəs,
Nə zəlzələ, daşqın deyildir əbəs.

Siz mənim canımı etmisiz xəstə,
Çox sitəm yemişəm sizlərin üstə!

Çıxıbdı hiylələr, fitvalar üzə,
Mənə etdiyiniz qayıdır sizə.

Yerin tənəsindən laxlayır dünya,
Odur ki, ağrıyla yuxlayır dünya.

Kəsdik ağacları, meşələri biz,
Dağıtdıq göy sevən guşələri biz.

Dəryalar, çeşmələr həyatın dürrü,
İndi cilovlaya bilmirik Kürü.

Məhzun, lal Araz da cilov gəmirir,
Bağçanı, bostanı, bağı sümürür.

Sabirabad, Şirvan, İmişli nalan,
Bizə həyat verən su olub ilan.

Kəndlər sular altdan hönkürüb baxır,
Vətənin əhvalı ürəklər yaxır.

Amerka, Avropa, Çin sel içində,
Ağızlar kükrəyir niyə, neçində?

Fələkmi susuyub fəlakətlərə?
Fəlakət yürüyür məmləkətlərə..!

21.05.2010

YENƏ COŞDURURSAN DİLƏKLƏRİMİ

Yenə coşdurursan diləklərimi,
Yanan duyğularla sazlanan bahar.
Yellərin oxşayır biləklərimi,
Qollar arasında nazlanan bahar.

Fələk bu sevdaya edib şah səni,
Gözlərim oxşayır hər sabah səni,
Görməsin nə həsrət, nə də ah səni,
Gül-çiçək içində süslənən bahar.

Sən ey sevgilərin uca məbədi,
Səndə coşğunluğun tilsimi nədi?
Bu sirli dünyaya yarsan əbədi,
Uzun qış boyunca suslanan bahar.

Yenə çərşənbələr yol alıb bizə,
Yelləri, suları əllənir düzə,
Uca tonqalların qəlbə od düzə,
Soyuq küləklərlə buzlanan bahar.

İl illə döyüşür, fəsil fəsillə,
Novruz yaddaşımız, gəlir əsillə,
Bu eşqi söyləmək olmayır dillə,
Dilimiz içində duzlanan bahar.

Çılğın bir pəritək daranmısan sən,
Bəlkə ruhumuzla yaranmısan sən,
Allahın carçısı Quranmısan sən?
Ürəyim içində yazlanan bahar.

09.03.2011

QIŞLA BAHAR DÖYÜŞÜR

Qışla bahar döyüşür,
Düşür araya həşir,
Gah qara bulud gəlir,
Göylərin köksün dəlir.
Gah da gözləri dolur,
Hər biri qədəh olur,
Təşnə göy qəh-qəh çəkir,

Başına bəh-bəh çəkir,
Buludun göz yaşını,
Silkələyir başını,
Bu nə sevda, nə baxış,
Yağır şıdırğı yağış.
Gurşad doyur dayanır,
Yatmış torpaq oyanır,
İslanmış paltarını,
Üst-başında varını,
Silkələyir astaca,
İşdən hali, ustaca,
Səmayla pıçıldaşır,
Buludlar dolub daşır,
Yağış qara çevirir,
Yazı taxtdan devirir,
Qış bozardır üzünü,
Tez göstərir özünü.
Bahar qışdan gizlənir,
Göz yaşı dənizlənir.
Bir hönkürtü qoparır,
Yer-göyü su aparır.
Ya xəzri, ya giləvar,
Bir-birin tutub qovar.
Hərdən günəş boylanır,
Bu səs-küydən oylanır.
Göydə, yerdə çarpışma,
Buludlarla qapışma...
Yaz könlünü dillədir,
Qışa əlin yellədir.
Qış da bir az havalı,
Təbiətlə davalı.
Bu il gecikmiş sayaq,
Şaxtası da birsayaq,
Nə ağ kürkü sərməyir,
Nə yaza yer verməyir.
Buludları tovlayır,
Küləkləri qovlayır.
Həm yağış, həm qar edir,
Bu dəli sevda nədir?
Təbiətin sovqatı,
Bihuş edir ovqatı.

05.03.2011

ÇATLAYIR BAĞIRI DOLAN BULUDUN

Çatlayır bağırı dolan buludun,
Şimşəyin atəşin dadmaq istəyir.
Sancısı canında qalan buludun,
Göylər ağrısını udmaq istəyir.

Bir şaqqıltı qopur səma üzündə,
Gurşadlar püskürür yerlərə sarı.
Ətəklər islanır titrək dizində,
Qurulub dumanın qara hasarı.

Yağış damlaları boyunbağıtək,
Göylərdən yerlərə mirvari düzüb.
Yerlər gülmüsünür sevda bağıtək,
Sanki ürəyini bir möhnət üzüb.

Gurşad hicran dolu mahnı oxuyur,
Damlalar piano dilləri təki.
Özünü divara, daşa toxuyur,
Titrək sevgilinin əlləri təki.

Buludlar toqquşur, şimşəklər çaxır,
Yarından həsrətli iki sevəntək.
Alışan könüldür, ürəyi yaxır,
Dodaqlar tərpəşib, dillər dinəntək.

Üst-başım islanıb, kirpiyim yaşdı,
Buludlar ələyir yağışı göydən.
Sanki sərxoşluğu keçən əyyaşdı,
Boylanır şimşəyin baxışı göydən.

Çətiri tuturam başıma sarı,
Külək fırlanaraq burur əlimdən,
Özümü sıxıram bir küncə barı,
Gücünü toplayıb vurur əlimdən.

Qoşulub küləyə çətirim uçur,
Yağış damlaları oxşayır onu,
Nazlı bir pəritək boynunu qucur,
Yazıq əllərimə yox sayır onu...

Çatlayır bağırı dolan buludun,
Şimşəyin atəşin dadmaq istəyir.
Sancısı canında qalan buludun,
Göylər ağrısını udmaq istəyir.

23.04.2011

ÇALXALANIR DAĞLAR, DÜZLƏR BAHARIN XOŞ TƏMASINDAN

Çalxalanır dağlar, düzlər baharın xoş təmasından,
Yerdə həyat, göydə ülfət sevdalıtək baxışırlar.
Nur tökülür üz-gözümə İlahinin səmasından,
Ağ paltarlı buludlar da ənginliyə axışırlar.

Kol dibində bənövşələr əsim-əsim əsir hələ,
Külək bütün cəhətləri dövrə vurur rəqqas təki.
Qarışqalar yükün yığır yorulmadan incə belə,
Torpaq basıb nemətlərin can içinə qəvvas təki.

Günəş gümüş şəfəqlərin ağ buludlar üstə sərib,
Buludların arasından gülmüsünür üzə bəzən.
Civildəyir bala quşlar yuvalardan qərib-qərib,
Cəhrəsində ot əyirir gecə-gündüz dərə, düzən.

Ağacların budaqları yaşıl-yaşıl çətir tutub,
Tumurcuqlar şeh içindən parıldayır işım-işım.
Şükür, uca Tanrı hələ insanlığa xətir tutub,
Çöküb bahar ayağına ürəyimdə donan qışım...

Vətən güldür, gülüstandır, seyrinə çıx mehman olan,
Çaylarında bəstəkarın yazılmayan zümzüməsi.
Alagözlü sabahlardır şəbnəmlərə mehrin salan,
Nə şirindir səhərlərin təbiətə can deməsi...

Ey Şadiman, gözəl bahar fəsillərin sonasıdır,
Yaşıl donu əsəblərə sığal çəkir dərman kimi.
Günəş hələ rəhm eləyib göy içindən yanasıdır,
İnsanlığa varmı görən haqdan gələn peyman kimi?!..

24.04.2011

ÜRƏYİN YOX OLUR AHI QUBADA

Gül gülü səsləyir, çiçək çiçəyi,
Çəmənlər oxşayır ruhu Qubada.
Bağlayıb başına güllər ləçəyi,
Ürəyin yox olur ahı Qubada.

Səmada buludlar ağ tüllər örtüb,
Otların dibinə nanələr bitib,
Burdan İlahinin mələyi ötüb,
Ürəyin yox olur ahı Qubada.

Dağların ətəyi yaşıl xalıdır,
Növbənöv çiçəklər arı balıdır,
Burda təbiətin sevda halıdır,
Ürəyin yox olur ahı Qubada.

Ağaclar boylanır qayadan, daşdan,
Alır bu gözəllik ağlımı başdan,
Şəbnəmlər mirvari çıxarır yaşdan,
Ürəyin yox olur ahı Qubada.

Səhərin şehləri ələnir düzə,
Hər lalə damlaya boylanan kuzə,
Tökülür saçlara, kirpiyə, üzə,
Ürəyin yox olur ahı Qubada.

Bahar ovsununda qalıb təbiət,
Mehrini düzlərə salıb təbiət,
Könlümtək xəyala dalıb təbiət,
Ürəyin yox olur ahı Qubada.

Xınalı kəkliklər qaqqanaq çəkir,
Kolların içində sonatək səkir,
Şahdağ Şadimanı özünə çəkir,
Ürəyin yox olur ahı Qubada.

28.05.2011

YENƏ SIZLAR ÜRƏYİMDƏ QÜRBƏTLƏR

Yenə sızlar ürəyimdə qürbətlər,
Üzüm tutub yurd-yuvaya gəlmişəm.
Dodağımdan qopar ərşə heyrətlər,
Haqqdan doğan xoş duaya gəlmişəm.

Ətir saçır çəmənlərdə çiçəklər,
Ləçəkləri sərin mehlər bələklər,
Səhər-səhər günəş şehin ələklər,
Qoxu duyub saf havaya gəlmişəm.

Eyvanlardan qaranquşlar boylanır,
Balaları civiltiylə oylanır,
Dövrə vurur çalağanlar haylanır,
Onlar ilə mən qovğaya gəlmişəm.

Səhər yelin ciyərimə çəkirəm,
Şəbnəmlərin kirpik üstə tökürəm,
Sevdasını ürəyimə bükürəm,
Yuxulardan qopan haya gəlmişəm.

Ey Şadiman, fürsət ikən çağlayaq,
Təbiətlə birgə dastan bağlayaq,
Lal sellərin zümzüməsin zil sayaq,
Saf bulağa, axar çaya gəlmişəm.

28.05.2011

QUŞLAR CƏH-CƏH VURUR, SABAH AÇİLİR

Quşlar cəh-cəh vurur, sabah açılır,
Yeni bir gün doğur taleyimizə.
Sanki cəh-cəhlərdən həyat saçılır,
Zaman diktə edir anları bizə.

Gün doğur səmanın ənginliyində,
Hər şəfəq içindən bir göz parlayır.
Uca kainatın zənginliyində,
Mirvari şəbnəmlər zümrüdü sayır.

Yuvalar içində bala səsləri,
Ana civiltisin laylası sanır.
Bahara öyrəncli xoş nəfəsləri,
Sübhün ürəyinin içində yanır.

Ağaclar titrəşir sərin mehlərdən,
Səhərin gözləri xumar içində.
Otlar bükülübdü büllur şehlərdən,
Bütün bağça-bağat tumar içində.

Gecənin üzünü ağardır nurlar,
Təbiət ağ donlu libasın geyir.
Göylərin üzündən yağır qürurlar,
Zülmət qulağına get sözün deyir.

Səhərin gəlişi həyata işıq,
Bu işıq içində ömürlər doğur.
Anlar cilalanır insanqarışıq,
Sübhün barmaqları zülməti boğur.

06.05.2011

YENƏ DƏ TUTULUB SƏMANIN ÜZÜ

Yenə də tultuub səmanın üzü,
Buludlar çaxnaşır göylər içində.
Çalxadır şimşəklər gecə-gündüzü,
Ağrını fəryadtək söylər içində.

Xəzəllər tökülüb torpağın üstə,
Payızın fəğanı yarpağın üstə,
Xəzan pıçıltısı ilahi bəstə,
Bu ağrı-acını neylər içində.

Budaqlar ağaca sığınıb qalıb,
Yaşıl çətirləri dağınıb qalıb,
Küləklər dəlitək uğunub qalıb,
Qəfil tufanları əylər içində.

Çılpaq bağ-bağatda sərçələr gəzir,
Həzin civiltisi ürəklər üzür,
Sanki təbiətin dərdini çözür,
Dili haray salır heylər içində.

Hər fəsilin yeri vardır dünyadə,
Min bir heyrətilə cardır dünyadə,
Bu sərxoş payızın əlində badə,
Dodağı islanır meylər içində.

Mənim də ruhumda bir oyanış var,
Xəzandan sonra da sərt qarlı qış var,
Yanağı isladan bəbəkdə yaş var,
Qopar düşər yerə küylər içində.

Qəlbimdə çarpışma dadlı aləmlə,
Kirpiklər savaşa çıxıbdı nəmlə,
Şadiman çırpınır kağız-qələmlə,
Gecəsi, gündüzü səylər içində.

07.12.2011

KİM KƏSİBDİ BU AĞACIN BAŞINI?

Budaqları əyilibdi köksünə,
Kəc baxılıb boy-buxuna, əksinə,
Hansı nadan çıxdı onun əksinə?
Yer də udmur puçur-puçur yaşını,
Kim kəsibdi bu ağacın başını?

Yarpaqları tökülübdü ətəyə,
Sanki dönüb öz canına kötəyə,
Bənzəri var sızıldayan tütəyə,
Təyin edin gövdəsindən yaşını,
Kim kəsibdi bu ağacın başını?

Bəbəyində ovxalanır ağrısı,
Naşı imiş təbiətin oğrusu,
Baş açmıram qəddarından doğrusu,
Uçurubdu binəsindən daşını,
Kim kəsibdi bu ağacın başını?

Dünən hələ yarpaqları tac idi,
Günəş udan budaqlara sac idi,
Salxımları sevdasına ac idi,
Sanki ahı qarqışlayır naşını,
Kim kəsibdi bu ağacın başını?

Yetim-yetim budaqları sallanır,
Dünən vardı, bugün adı hallanır,
Öldürdülər, məzarına yollanır,
Zəhər ilə qaynadıblar aşını,
Kim kəsibdi bu ağacın başını?

Hamı onun kölgəsindən keçərdi,
Ot-əncərlər şehlərindən içərdi,
Balta alıb onu vuran nə çərdi,
Gözün ovub, çapıbdılar qaşını,
Kim kəsibdi bu ağacın başını?

Dili yoxdu harayına çağırsın,
Səsi yoxdu pələng təki bağırsın,
Əqli yoxdu adam kimi çığırsın,
Baharına bələyibdi qışını,
Kim kəsibdi bu ağacın başını?

06.05.2011

LALƏLƏR

Səpilib çöllərə nur dənəsitək,
Qubaya xalılar düzür lalələr.
Baharın çağlayan təranəsitək,
Düzlərin içində süzür lalələr.

Hər çiçək qırmızı xonça kimidir,
Otların özü də qönçə kimidir,
Yer-göy başdan-başa incə kimidir,
Ruhumun içində gəzir lalələr.

Mehlərdən titrəşir ləçəkləri də,
Çağladır, coşdurur diləkləri də,
Elə oxşayır ki, ürəkləri də,
Hər qəmi, niskili əzir lalələr.

Ana təbiətə güllü bahardır,
O üzdən ilahi nəzəri vardır,
Sevdalı dillərə bənzəri vardır,
Məni sevgilitək süzür lalələr.

28.05.2011

XATİRATLAR

EY BÖYÜK SƏNƏTKAR, EY GÖZƏL İNSAN

Xalq yazıçısı, Azərbaycan yazıçılar birliyinin sədri Anara 70 illik yubleyi münasibəti ilə !

Ey böyük sənətkar, ey gözəl insan,
Həyatda şanlı iz olmur çox asan.
Narahat ömürün ağrıdan keçdi,
Zaman saatları sürətlə biçdi.
Taleyin dolanbac keşməkeşləri,
Qəlbə ağrı verən o gərdişləri,
Əzaba bələdi min yol ürəyi,
Fırtınaya saldı ağıl diləyi.
Vaxt ana bağladı ömrün sapını,
Döydü yetmiş illik yubley qapını.

***

Ey böyük sənətkar, ey gözəl insan,
Layiqli iz qoymaq deyildir asan.
Sən şair Rəsulun, şair Nigarın,
O Məcnun sevdalı, o Leyli yarın,
Eşqindən doğuldun gözəl həyata,
Onlar Anar verdi ədəbiyyata.

***

Sevdirdin qəlblərə «Dədə Qorqud»u,
Könlünə hay verdi Vətənin udu.
«Ağ liman», «Adamın adamı», «Macal»,
Qəlbində çağladı min bir hissi-hal,
Doğdu beşcə qatdan altı mərtəbə,
Tanrının şöləsi hökm etdi təbə.
Ondan Təhminəylə Zaur yarandı,
Oldu cavanların dilinin andı.
Bu dastan dunyaya elə dağıldı,
Neçə min Təhminə Zaur doğuldu.
Necə ki, bir zaman Rəsulla Nigar
Etdi Anar adın bütün elə yar.

***

Ey böyük sənətkar, ey gözəl insan,
Hər kəsin nəsibi olmaz şöhrət, şan.
Xoşlamır bəşərlə Rəbb zarafatı,
Bu da İlahinin bir mükafatı.
Millət ədibiylə seçilib hər vaxt,
Bu yol əzablarla keçilib hər vaxt.
Sovet dönəminin gələndə sonu,
Çirkaba bulaşdı o hiylə donu.
Bu hiylə zamanı ikəlli boğdu,
Qarabağ adında bir ağrı doğdu.
Onda Moskvada özünü gördüm,
Sovet məclisində sözünü gördüm.
Bu söz atəş olub sardı düşməni,
Riqqətə gətirdi, ey ədib məni!..

***

Ey böyük sənətkar, ey gözəl insan,
Təbindən vərəqə yağarkən leysan,
Bu leysan kinoda senari oldu,
Ekran da qəlblərə sevdalı yoldu.
Hey sevda eşqiylə alışdı qəlbin,
Atəşə, alova qarışdı qəlbin.
Dünyanın möhnəti gəzir gözündə,
Uşaqtək təmizlik vardır üzündə.
O sadə görkəmin Allahın nuru,
Ey böyük sənətkar, sən onu qoru.
Sənə İlahidən budur diləyim,
Bu eşqlə ilhama gəldi ürəyim.
Yazıb yaratmaqdan tükənməsin can,
Səni tərk etməsin o hiss, həyəcan.
Azərbaycanımın ədib övladı,
Düşməsin dillərdən qoy Anar adı.
Məşhurluq o qədər deyildir asan,
Ey böyük sənətkar, ey gözəl insan.

07.03.2008

İLYAS TAPDIQ

Azərbaycanın təmiz ürəkli,
böyük şairi İlyas Tapdıqa ithaf

İlyas Tapdıq –
mərhəməti dünyaya sığmayan,
Göylərində şimşəklər çaxmasa yağmayan,
İmkansızın könlündə ümid quşunu
boğmayan müdrik Nizami,
Qoru bir qığılcıma bənd
kimsəsiz ilhamlara hami..!

İlyas Tapdıq –
sinəsində Vətən harayı,
Üsyanı tüğyan edən lal Araz çayı.
Ürəyi qapı dalında qalan
İmdadsız gözlərə çaxmaq daşı,
Məmləkətin vicdandan
yoğrulmuş vətəndaşı!..

İlyas Tapdıq –
ürəyi kövrək bir çağa,
İçinə illərin möhləti yağa-yağa
alışan bir ocaq,
İlhamı sinəsində öldürülən
vətən övladına açılan qucaq.

İlyas Tapdıq –
qəzəbi buludlaşan şimşəkdir,
Ümidin və haqqın başına
sığal çəkməkdə təkdir!
Ədəbiyyat aləmində «mənəm-mənəm»
deyənlərə örnəkdir.

İlyas Tapdıq –
Kövrək bir şair, gözəl bir ata,
Əbədi bir ölçü insaniyyata!..
Nur mənbəyidir işığı ilə həyata,
Öz zər dənələrini səpir mənəviyyata.

İlyas Tapdıq –
bağırında Füzuli yanğısı,
İçində parçalanmış Vətən ağrısı!
Düzlükdən və mərdlikdən doğulmuş,
İstək və sayğıları insana
məhəbbətlə yoğrulmuş.
Öz yolu, öz dəsti-xətti olan sənət günəşi,
Köksündə qövr edir ilham atəşi!

İlyas Tapdıq –
Vətən övladını öz balası bilən,
Mərdliyi basılmayan qalası bilən.
Laqeyd baxışları gözləri ilə parçalayan,
İçində yurd sevgisi iyrənc hissləri haçalayan,
Dədəm Qorqudun müqəddəs övladı,
İmkansızların Tanrı imdadı...
İlyas Tapdıqlar nurdur bu məmləkətə,
Ey Şirin xanım, qoymaz ki,
bu yurd düşsün fəlakətə!...

12.12.1991

YANDIRDI KÖNLÜNÜ VƏTƏN HƏSRƏTİ

Azərbaycanın xalq şairi Söhrab Tahirə ithaf

Yandırdı könlünü Vətən həsrəti...
Sən bir qərib düşmüş quşa bənzədin.
Vətəni bir görmək qəlbin niyyəti,
Bunu misralara dərdlə bəzədin.

Ağrıdan-ağrıya hicran çoxaldı,
Güneyi yaşatdın xəyallarında.
İllər ötüşdükcə qəlbin yuxaldı,
Cənubun gül açdı röyalarında.

Bakıdan Təbrizə eşq yolu çəkdin,
Sənin məhəbbətin yurd-yuva oldu.
Min bir qayğıları ürəyə tökdün,
Araz dodağında haqq dua oldu.

Bir birlik həsrətli elin şairi,
Vətəndən-Vətənə haray yolladı.
Dərdə layla deyən dilin şairi,
Həsrət kağızların ahla qolladı.

Bu nə yanğı idi, bu nə iztirab,
Bunu duyğusuzlar bilə bilməzlər.
Hər dərdə eyləmək asan olar tab,
Vətəni ürəkdən silə bilməzlər!

Elə bu minvalla şerin çağladı,
Hər sözün ürəkdən Savalan dedi.
Ayrılıq da qəlblə birgə ağladı,
Könül harayını misralar yedi.

Babək qılıncının harayı qələm,
Dərdini sözlərə ürcah eylədi.
Dolandı ağrına min dəfə aləm,
Sinənin içində sabah eylədi.

Sənin misraların qartala dönüb,
Qonubdu sərgərdan Ərkqalasına.
Demə ki, tarixin çırağı sönüb,
Sən onun dönmüsən öz balasına.

Şadiman, Söhrab bəy, şirin dilində
Elə bil Təbrizin vüqarın gördü.
Güneyin odu var könül telində,
Dilin də Vətənə ilqarın gördü.

21.12.2011

AŞIQ ULDUZ

Aşıq Ulduz xanıma

Aşıq Ulduz, köks içinə köz basıb,
Yanan qəlbi dağlamağın nədəndir?
Hər qəlibə min-min tuti söz basıb,
Bülbül təki çağlamağın nədəndir?

Aşıq Ulduz, heç kim bilməz dərdlərim,
İç-içədir pərçimlənmiş sədlərim,
Təbim coşur, ötür keçir hədləri...
İlhamdan dərz bağlamağın nədəndir?

Haqqın dərin dəryasında yuyunnam,
Bircə anda min söz libas soyunnam,
Fələk özü baş açmaz bu oyunnan...
Sazla sözü bağlamağın nədəndir?

Aşıq Ulduz, dərd içimdə iç-içə,
Kim qandıra, kim ayıra, kim seçə,
Çox oynadıq həyat ilə heç-heçə,
Qəmi qəmə bağlamağın nədəndir?

Aşıq Ulduz, bəmi zilə haçala,
Yağı ölə, dostun ünə əl çala,
Rəhm eyləmə, ürəyimi parçala,
Könül sazın yağlamağın nədəndir?!

Şirin xanım dondu həyat qanından,
Keçə bilmir namusundan, arından,
İnciksənmi onun təki yarından...
Telli sazda ağlamağın nədəndir?!

20.10.1991

ZƏLİMXAN

Zəlimxan Yaqubun 45 illyi şərəfinə

Dünya böyük, dünya acı niskillər,
Sıxdı ərzi məngənətək müşküllər,
Ocaqlara yaman olub qor küllər,
Hər addımın özü qandı, Zəlimxan,
Dünyanın da bağrı yandı, Zəlimxan.

Gördüyümüz gördüyünə peşiman,
İnildəyir ayaqlarda din, iman,
Göyümüzdən çəkilməyir sis, duman,
Bu imtahan, bu sınaqmı, Zəlimxan?
Tanrımızdan bir qınaqmı, Zəlimxan?

Ocağımız yağı əldə korlaşar,
Düzdən qorxan qulaq haqdan karlaşar,
Odu keçmiş ürək necə qorlaşar?
Dörd yanımız ah-ələmdi, Zəlimxan,
Dada çatan bu qələmdi, Zəlimxan.

Yağı gəldi, çaldı-çapdı elləri,
Qan ağlayır ana-bacı dilləri,
Qara gəldi bir-birindən illəri,
Namus düşdü ayaqlara, Zəlimxan,
Əyan olsun oyaqlara, Zəlimxan.

Qız-gəlinlər İrəvanda əsirdi,
Məhbəsləri ünyetməyən qəsirdi,
Çoxlarında niyə qeyrət bəsitdi?
Bu dəhşətlər gəlməz saya, Zəlimxan,
Ürək dözmür vallah vaya, Zəlimxan.

Yurd yerini atıb qaçan, nə kişi?!
Künc-bucaqda dükan açan, nə kişi?!
Yağı əldə məzarların nə işi?!
Hanı yurdun ərənləri, Zəlimxan?...
Bu zülümü görənləri, Zəlimxan.

Qaçqın olar qızdan, qarı-qocadan,
Kişi səsi gəlməz indi bacadan,
Danışmasın yurdu atan ucadan!..
Dam altında çağa olar, Zəlimxan,
Ərlər elə ağa olar, Zəlimxan.

Savaşlarda uduzarsa yağılar,
Ocaqları, binələri dağılar,
Dilimizdə qabar çaldı ağılar,
Bu zülümə çarə hanı, Zəlimxan?
Yaramıztək yara hanı, Zəlimxan?

Qarabağın düzlərində qurd ular,
Əsirlikdə elsiz qalmış yurd ular,
Şəhid oldu buz bulaqlar, göy sular,
Şuşa, Laçın qolu bağlı, Zəlimxan,
Nə müddətdir yolu bağlı, Zəlimxan.

Ələskərin Göyçəsində dumanlar,
Ərşə qalxıb köksündə ah-amanlar,
Qan oynadır qana həris zamanlar,
Düçar olduq əcəb qəmə, Zəlimxan,
Göz öyrəşdi yaman nəmə, Zəlimxan.

Borçalının qərib gözü yoldadı,
Başkeçidin başı qeylü-qaldadı,
Ay həzarat, yurdlar yaman haldadı,
Güman qalıb ağızlara, Zəlimxan,
Üz tutmuşuq kağızlara, Zəlimxan.

Qələmdaşım, Şadimanı qınama,
Şad gününün sınağıyla sınama,
Zaman atlı apardığın sanama,
Ömür-günə tablaşarıq, Zəlimxan,
Yüz ilində toplaşarıq, Zəlimxan.

15.03.1995

ÜRƏK TƏBƏSSÜMÜN ÜZÜNDƏ GƏZİR

Naşir İbrahim Ömərova

Ürək təbəssümün üzündə gəzir,
Dünyanın sevinci gözündə gəzir,
Haqdan dürüstlüyün sözündə gəzir,
Yaradan beləcə yaratmış səni,
Təmizlik fövqünə ucaltmış səni.

Hər adam sözünə qail olmayır,
Addığı addıma nail olmayır,
Allahın yoluna mail olmayır,
Düzlər cərgəsinə Rəbb qatmış səni,
Təmizlik fövqünə ucaltmış səni.

Həyatın acısı, qəhəri çoxdur,
Ağlın, düşüncənin bəhəri çoxdur,
Ömrün həm axşamı, səhəri çoxdur,
Zehnin səhərlərə oyatmış səni,
Təmizlik fövqünə ucaltmış səni.

Adam çoxluğunda insan aclığı...
Yağış bolluğunda leysan aclığı,
Sərvət azarında ehsan aclığı,
Səvablar içinə haqq çatmış səni,
Təmizlik fövqünə ucaltmış səni.

Bir işıq kimidir bəşər ömürü,
Kiminin ürəyin deşər ömürü,
Kiminin bəxtinə düşər ömürü,
Dərdinə görməyib vaxt yatmış səni,
Təmizlik fövqünə ucaltmış səni.

Başın aliliyi şəri qovlayır,
Dilin şirinliyi könül ovlayır,
Gün canı aldadır, zaman tovlayır,
Qoymayıb ağrıya ruh batmış səni,
Təmizlik fövqünə ucaltmış səni.

Şadiman sızladır varağı, qardaş,
Sönməsin könlünün çırağı, qardaş,
Adının xoş gəlsin sorağı, qardaş,
İlahim nurlara boyatmış səni,
Təmizlik fövqünə ucaltmış səni.

03.01.2012

SÖZÜNÜN SARAYI

Şair-publisist Əli Rza Xələfliyə

Sözünün sarayı büllura bənzər,
Düşüb dil-ağıza nəğmə tək gəzər,
İlhamın özünü bu sevda üzər,
Qələmi sözünə əsir, sənətkar,
Qurmusan zirvədə qəsir, sənətkar.

Fikirlər sel olub çağladı, daşdı,
Ürəkdə od aldı, beyini aşdı,
Haqqın dərəcəsin haxlayan başdı,
Vergi Allah verən bir sirr, sənətkar,
Qurmusan zirvədə qəsir, sənətkar.

Bulaq tək qaynayan, ey təbi-rəvan,
Köklənib mübarək əqildən yuvan,
Gurşad savaşıdı söz ilə davan!
Bütün xətaları kəsir, sənətkar,
Qurmusan zirvədə qəsir, sənətkar.

Yer-göy bu sehirdən düşüb heyrətə,
Ömür öc verdikcə anla sürətə,
Sən də çələng hördün sözlə sənətə,
Bunu anlamamaq qüsur, sənətkar,
Qurmusan zirvədə qəsir, sənətkar.

Çox «mənəm» deyənlər, baxsın bu təbə,
Bu göy dərgahından gələn mərtəbə!
İndi yazıb pozmaq çevrilib dəbə,
Dəb də ayaq altda həsir, sənətkar,
Qurmusan zirvədə qəsir, sənətkar.

Söz Allah sevgisi, söz Allah odu,
Dünyanı məhvərdən titrədən odu,
Onda möcüzə var, yox dedi-qodu,
Gəlməyir məxrəcə kəsir, sənətkar,
Qurmusan zirvədə qəsir, sənətkar.

Şadiman səcdədə kağız-qələmə,
Harayın misralar salıb aləmə,
Sözün misqal-misqal yetdi naləmə,
Havalı şeirim əsir, sənətkar,
Qurmusan zirvədə qəsir, sənətkar.

19.11.2008

QƏLƏMİN DAİMA DÜZLÜYƏ ÇALİR

Jurnalist-ekspert
Nəzirməmməd Zöhrablıya

Qələmin daima düzlüyə çalır,
Gəzir ədalətin kağızlar üstə,
İnsandan xatirə təmizlik qalır,
Elə təmizliyə dururlar qəsdə.

Sən də bu ağrıdan odlanıb yandın,
Acına cümlələr yatmadı heç vaxt,
Vərəqlər içində oda boyandın,
Qurdu ürəyində haqq, ədalət taxt.

Haqqın boyun öymək könlünə bir sirr,
Bu amal yolunda təb oynadırsan,
Atıb qəlb teştinə ağrını bir-bir,
Od-ocaq içində söz qaynadırsan.

Ağlının işığı silər zülməti,
Qaranlıq ayağın altına çökər,
Ağrında qövr edən illər zəhməti,
Düşdüyün kədərin bağrını sökər.

Mənim də təbimin qapısın açdın,
Misralar üstündə gəzdi gözlərin,
Yazdığın yazıda haqqa dil açdın,
Coşdu dəryalartək söz dənizlərin.

Yazar – yazar olsa daim qələmi,
Səmalar köksündə bir nura bənzər.
Sözü isindirər bütün aləmi,
Ürəkdən ürəyə sərasər gəzər.

Sənin də qələmin nur saçır, qardaş,
İşığı heç zaman qoy azalmasın.
Bu Şadiman yazan şeir, qələmdaş,
Sənin diqqətindən kənar qalmasın.

10.12.2011

ELOĞLU

Türklüyümüz uğrunda
fədakarlıq göstərən
AZƏR HƏSRƏTƏ

Görünməli hər tərəfdən ay kimi,
Coşmalıdır könlümüzdə çay kimi,
Olmamalı bu dünyaya say kimi –
Bu eşq ilə çağlayırsan, eloğlu,
Türkliyə gün ağlayırsan, eloğlu.

Vətənləri işğallara öc olub,
Ona çatan indi artıq künc olub,
Türkəm deyən, yurdunda girinc olub,
Haqqa ümid bağlayırsan, eloğlu,
Türkliyə gün ağlayırsan, eloğlu.

Sən Vətənin bağırında gur işıq,
Türk sevdalı obalara haqq aşıq,
Dədəm Qorqud dillilərə yaraşıq,
Yağı köksün dağlayırsan, eloğlu,
Türkliyə gün ağlayırsan, eloğlu.

Özbək, qazax, qırğız, türkmən türk eldən,
Tatar, başqurd, qaqauzum can teldən,
Səs çıxmayıb heç bir zaman tək əldən...
Şər qapısın bağlayırsan, eloğlu,
Türkliyə gün ağlayırsan, eloğlu.

Bir zamanlar türk yurdları hünərli,
Qılıncından od tökülən zəfərli,
Duşmənlərə qan udduran qurd ərli..!
Bu günləri dərd sayırsan, eloğlu,
Türkliyə gün ağlayırsan, eloğlu.

Xoşbəxt görmək amacındır soydaşı,
Yaraşmayır TÜRK deyənə göz yaşı,
Nə vaxtadək gəzər qardaş qardaşı...?
Bu birliyi sən yayırsan, el oğlu,
Türkliyə gün ağlayırsan, eloğlu.

Türk, dünyaya dövlətçilik bəxş etdi,
İgidliyi zamanlara nəqş etdi,
Yoruldumu yollarında nə bitdi?
Bu ağrıyla çuğlayırsan, eloğlu,
Türkliyə gün ağlayırsan, eloğlu.

Şadimanın qəlbi ahdan yaslanır,
Dostu olan, düşmənlə də rastlanır...
Açarımız qıfılında paslanır,
Paslı qıfıl yağlayırsan, el oğlu,
Türkliyə gün ağlayırsan, el oğlu.
Türkliyə gün ağlayırsan, el oğlu.

30.10.2011

EY KÖNÜL EVİ ZƏNGİN

Fəridə Ləmanın «Bura mənim evimdir» şerinə

Ey könül evi zəngin,
Dünyanın min bir rəngin
çəkiblər insanlar üzlərinə,
Göy qurşağı kimi yeddi
çalar verirlər gözlərinə.
Sifətləri ürəklərindən bəyaz,
Ancaq qəlblərini bürüyüb ayaz.
Bə'ziləri zənginlik içində batıb,
Xəzinənin qucağında yatıb.
Nə sağını görür, nə solunu,
Yol gedərkən göydə uçurur
ayağını, qolunu.
Villalarının sayını unudub,
Zamanından keçən gününü,
ayını unudub,
Fəqət ata, anasının payını unudub,
Ömrün bir günündə fələk
göndərəcək vayını unudub.
Evinin, üst-başının parıltısı,
Zinətinin sarıltısı
Heyrətdə qoyub Günəşi,
Sinəsində harama hərislik atəşi,
Kirli pullular saymaqdır işi.

***

Evin kasıblığından utanmazlar,
Şair olan hamına yanar,
ancaq ona yanmazlar,
Onun qövr eləyən ürəyinin
başından çıxan tüstünü
görsələr də qanmazlar.

***

Çünki şairin haqdan deyən qələmi,
Qələmindən qəlbinə axan ələmi,
Bütün bunları gətirim diləmi?!..
Kirayədə keçirdiyin əzabların,
Kasıb komandakı iztirabların,
Heç kəsə əyilməyən qeyrətindi,
Bir qadıntək bu dünyada
qoruduğun sərvətindi!

***

Fırtınaya çevirmə qəlbinin cəngin,
Daşdırma tale səhəngin,
Yaradan bir dəfə edər yerə zəngi,
Pozular dünyanın ahəngi,
Mən sənə söylədim adamların üzlərindəki,
Evlər yıxan gözlərindəki
göyqurşağı tək yeddi rəngin,
Ey könül evi zəngin.
Ey könül evi zəngin.

06.10.2008

EY BAHAR ÜRƏKLİ

Fəridə Ləmana

Ey bahar ürəkli, ey tuti dilli,
Könlümə duyğular tökdün, Fəridəm.
Tutub kədərimi sən ikiəlli,
Bağrının içini sökdün, Fəridəm.

İlahi təmizlik Allahdan gəlir,
Qəlbə həyat eşqi sabahdan gəlir,
Nəş'ə səadətdən, qəm ahdan gəlir,
Şadlıq sarayımı tikdin, Fəridəm.

Şeytan xislətlilər dünyada boldu,
Bəşər Yaradanın əlində quldu,
Etdiyin əməllər səvaba yoldu,
Bu yolda çiçəklər əkdin, Fəridəm.

İnsanı sürüyüb yıxan ədadı,
Qəlbdə paxıllıqdı, ya da sevdadı,
Sənə pakanəlik haqdan nidadı,
Nidalar içində səkdin, Fəridəm.

İslamın işığı üzündə gəzir,
Yaxşılıq Allahdan bəndəyə nəzir,
Qəlbimi dünyanın əzabı əzir,
Sən də bu ağrını çəkdin, Fəridəm.

Röyama gəlmişdin bu gecə yarı,
Ruhun ağ paltarda – mələklər yarı,
Almışdı könlündən Rəbbim ah-zarı,
Ulduzlar içində təkdin, Fəridəm.

O sevda işığı parlasın səndə,
Canın duyğulansın bağırda, təndə,
Dünyaya beşgünlük gəlibdi bəndə,
Pisliyin ağzını tikdin, Fəridəm.

İblis ürəkliyə Rəbdən nə fayda?
Yaxşı Haqqın nuru o haqq sarayda,
Düz Tanrı elçisi – dünyaya qayda,
Şadiman heyrətdə bu haya-hayda,
Məni öz qəlbinə çəkdin, Fəridəm.

08.03.2008

SEVDALAR İÇİNDƏ GƏZƏN SALATIN

Salatın Əhmədliyə

Səpilib üstünə dünyanın zəri,
Süzür başın üstə haqqın nəzəri,
Yoxdur gözəllərin sənə bənzəri,
Bağrımı min yerdən üzən, Salatın,
Sevdalar içində gəzən Salatın.

Baxışın könlümə təmizlik səpər,
Pakanə ürəyin qəlbimi öpər,
Dostanə sözlərin ruhuma təpər,
Təbimə incilər düzən, Salatın,
Sevdalar içində gəzən Salatın.

Gözlərin dənizdi, ürəyin incə,
Saçının hər teli bir dilbər gecə,
Aldın ilhamımı əlinə necə?
İndi misra-misra bəzən, Salatın,
Sevdalar içində gəzən Salatın.

Ruhundan bahara gül ətir gəlir,
İstək olan yerdə bol xətir gəlir,
Hər nəş'ə içində xoş sətir gəlir,
Şerimin həsrətin üzən, Salatın,
Sevdalar içində gəzən Salatın.

Canımı odlayır üzünün nuru,
Qəlbinin aynası sulardan duru,
Gəl bu nəcibliyi xətadan qoru!
Haqqın göylərində süzən, Salatın,
Sevdalar içində gəzən, Salatın.

Bahar çiçəyitək rayihən gülür,
Üstünə aləmin eşqi tökülür,
Bax sübhə dan yeri necə sökülür?-
O dan çeşməsində üzən, Salatın,
Sevdalar içində gəzən Salatın.

Sənə ərmağandı beyitlər, dostum,
Mehrini könlümün içindən asdım,
Bir dəli istəklə bağrıma basdım,
Bu vəcdlə bəzənib-düzən, Salatın,
Sevdalar içində gəzən Salatın.

Saldın Şadimanı əcəb heyrətə,
Ram olub səndəki səmimiyyətə,
Həm o təmizliyə, həm o qeyrətə
nur verib, kədəri əzən, Salatın,
Sevdalar içində gəzən Salatın.

08.03.2008

İLQAR HƏKİMİN

Neçə illər Pirallahı poliklinikasında diş həkimi işləyən, öz bacarığı, ustalığı hesabına insanların can sağlığına, estetik görkəminə xidmət edən həkim Nəcəfov İlqar Nəcəfəli oğluna

Dilindən şirinlik heç azalmayır.
Əlləri şəfalı İlqar həkimin.
Qapısına gələn xəstə qalmayır,
Vicdanı vəfalı İlqar həkimin.

Dişlər hər vücudun səadətidir,
Bədəni qoruyan can alətidir,
İnsanın yaşamaq sədaqətidir,
Hər günü cəfalı İlqar həkimin.

Yorğunluq tökülər günlə gözündən,
Amma mehribanlıq getməz üzündən,
Bal, şəkər süzülər tuti sözündən,
Pozulmaz xoş halı İlqar həkimin.

Müqəddəs peşəyə sevdası bitməz,
İnsan sağlığına qidası bitməz,
Onsuz dişimizin ağrısı ötməz,
Şəfadır vüsalı İlqar həkimin.

Barmaqlar əllərin qorxmaz nəridir,
Hər işin canını yağtək əridir,
Zəhməti illərin alın təridir,
Budur cəh-cəlalı İlqar həkimin.

Xəstələr üz tutar onun adına,
Müqəddəslik qatar təbib oduna,
Kimsəyə yox demək gəlməz yadına,
Keçməz xoş əhvalı İlqar həkimin.

Allaha bağlıdır əhdi-peymanı,
İlahidən gəlir loğman imanı,
Şəfalar bulayan dəva-dərmanı-
Udar dərd-məlalı İlqar həkimin.

Şadiman, həkimlik müqəddəs sənət,
Ağ xalat içindən boylanır, şəfqət,
Bu çətin yolları eylədikcə qət,
Olmaz heç zavalı İlqar həkimin.

12.04.2011

TÖKDÜN VƏRƏQƏ SÖZÜ

Dilarə Girzanlıya

Elə sevdalanaraq,
Eşqdən nidalanaraq,
Rəbdən qidalanaraq,
Artdı qəlbinin közü,
Tökdün vərəqə sözü.

İlahi təb eylədi,
Pak cana həb eylədi,
Ürəyə dəb eylədi,
Girdi qəlbinə düzü,
Tökdün vərəqə sözü.

Coşa hər an diləyin,
Gələ eşqə ürəyin,
Sənin sevda mələyin,
Nura bələsin gözü,
Tökdün vərəqə sözü.

Qəmə eyləmə maraq,
Nəş'ə aləmə çıraq,
Onu sinədə araq
Güldü ilhamın üzü,
Tökdün vərəqə sözü.

Dərdə min dad edəsən,
Onu bərbad edəsən,
Ürəyi yad edəsən,
Könlünü şad edəsən,
Keçib dərəni, düzü,
Tökdün vərəqə sözü.

Dilhümbət, çağlayasan,
Könlü varaqlayasan,
Qəmini dağlayasan,
Eşqlə çıraqlayasan,
Şadiman heyran özü,
Tökdün vərəqə sözü.

08.02.2008

BU TALE YAZISI, BU QƏRİB DƏNİZ

Mədəngeofizika idarəsi, «Neft Daşları» DMGE-nin rəisi Məmmədov Zülfəli Əlihüseyn oğlunun 60 illik yubleyi münasibəti ilə!

Bu tale yazısı, bu qərib dəniz,
İlləri illərə caladı keçdi.
Gah sevinc, gah da ki, qəm dərib dəniz,
Ömrünə dərdi-sər buladı keçdi.

Dirəklər üstündə ötüşdü anlar,
Bəxtə hay-harayla yetişdi anlar,
Ağrıyla, sevgiylə bitişdi anlar,
Ürəyi atəşlə qaladı keçdi.

Fələk ya acıqlı, ya da mehriban,
Gəzir arxamızca dabanbadaban,
Odur hər taleyin bağına bağban –
Ömür bağçasını suladı keçdi.

Həyat diləkləri qovdu yel kimi,
Bə'zən səssiz axdı, bə'zən sel kimi,
Qırıldı sanyələr andan tel kimi-
Zamantək quyruğun buladı keçdi.

Bu da bir ömürdü, bəxtinə düşən,
Allahın hökmüylə, haqla birləşən,
Ağılla dürləşən, qəlblə sirləşən,
Qabında nəyi var yaladı keçdi.

Bu tale yazısı, bu qərib dəniz,
Fırtınaya quldu, Rəbbinə kəniz,
Tufanlar içində solmadı bəniz,
Zülməti Ay təki taladı keçdi!

25.05.2007/ Neft Daşları

BİR ŞAİRƏ XANIMA

Titrək əllərimlə könlümün odunu
ağ vərəqlər üstünə səpdim...
İstəklərimi, ümidlərimi
vicdanımın sarayına təpdim.
Təqdim etdim ürək atəşilə
yazılarımı sənə!
Büründüm ağrılı-acılı taleyimin yelkəninə,
Gözlədim!
Səndən, alacağım, xoş müjdə üçün
o günü əzizlədim...
Gəldi o gün, telefon dəstəyi əlində,
Paxıllıqdan yaxasını cıran sözlərin dilində.
Qocalıb taqətdən düşmüş,
Minlərlə əyişmiş səsin gəldi qulağıma...
Bir qara ləkə saldı
qatı açılmamış ağ varağıma!...
«Qız nə çox yazar var indi»,
Sanki məni eşitmirmiş kimi
Bu dedikləri şairliyin həkimi,
dodaqları qoca-qoca deyindi!
«Bunlar şeir deyil dedi,
Etmə şeirə meyil dedi,
Qurudur, heçnə yoxdur sözlərində, yazma,
Şeirə məzar qazma!..»
O gün bilə-bilə güllə çaxdın könül sazıma!
Səsin telefon dəstəyində qırıldı,
İki qəpiyimin dəmir qutu
içində nəfəsi darıldı,
bağrı yarıldı.
Qədərdənmi kəsilmiş səs,
qulağımdan ötüb
göylərin altun köksünə sarıldı...

***

Sözlərini zəhər kimi içdim,
bu çarpışmada ümiddən özümə don biçdim.
Gözümün qabağına düşmənlə üz-üzə,
əli qılınclı Tomris gəldi!
Hələ yazılmamış, masa üzərində
ağ vərəqləri qalmış, xanımlar xanımı Natəvan
içimdə at çapdı!
Müqəddəs ruhu ilə
sınmış ilhamıma sevinc yapdı,
Könlümün başına sığal çəkdi,
bağrına basdı.

Sənin boğazdan yuxarı deyilmiş sözlərini,
ümidin dar ağacından asdı!
Şair anam Məhsətinin ruhu
sığalladı ilhamımın başını,
Və pıçılladı qulağıma...
Əlində çox kəsilib neçə tale arşını!
Dinləmə naşını!
Dinləmə naşını!

03.02.1992

XƏYALIN GÖZLƏRİM ÖNÜNDƏN GETMİR

17 oktyabr 2002-ci ildə haqq dünyasına qovuş və o gündən bu günə bir an da gözlərim önündən getməyən atam Ağabala Məmməd oğluna

Xəyalın gözlərim önündən getmir,
Bu sonsuz ağrılar könlümdən itmir,
Həsrətin verdiyi əzablar bitmir,
Sənsiz bu dünyada miskinəm, atam,
Mən özüm özümdən küskünəm, atam.

Anamı yolxmaqçın gəldim Tağaya,
Məzarın üstündə baş çəkdim vaya,
Gözlərim yaş tökür durmursan haya,
Sənsiz bu dünyada miskinəm, atam,
Mən özüm özümdən küskünəm, atam.

Soyuq qəbirinin dili alışdı,
Ürək tellərinə odu qarışdı,
Qəm ortağı olan halım qarışdı,
Sənsiz bu dünyada miskinəm, atam,
Mən özüm özümdən küskünəm, atam.

Şadiman ayrılıq odunda şanə,
Dərdin oxlarına könlü nişanə,
Qalx qəbrin evindən, bax pərişanə,
Sənsiz bu dünyada miskinəm, atam,
Mən özüm özümdən küskünəm, atam.

28.09.2008

YOXLUĞUN

Atama

Yoxluğunu hər an hiss etdiyim atam,
Gecələr yuxuda olarkən
ruhuna tez-tez yetdiyim atam.
Sənsizlik acısında hər an alışmaqdayam,
Canım bədənimdən çıxana qədər
taleyimlə barışmaqdayam.
Yoxluğun ayrılığın sərt üzü,
Sənsizlik əzabına bürüyüb gecə-gündüzü!...
Sanki ömrümü əlçim-əlçim bürüyən duman,
Dadlı bir röya sənli olduğum zaman.
Sənsizlik acısıyla dəryada batmışam,
Ömrümü o dəryaya atmışam.
Kaş uşaqlığım qayıda geriyə,
Bu ayrılıq oda düşmüş yağ kimi əriyə.
O çocuqluqdakı qardaş-bacıma çatam,
Küsəyən körpə kimi qollarında yatam,
İsti nəfəsin məlhəm olsun
sənsizlikdən öləziyən günlərimə,
O şaqraqlı qayğısız anlarımın
səadəti sığmasın dərimə.
Heç bir ataya bənzəməyən
mələk ürəkli atam,
Daşqın çaya bənzər həsrət dolu diləki atam.
Sənsizliyin ürəyimə dağ atam,
Keçməzmi bu çağ atam...
Atam...

27.06.2008

ÖLÜMDƏN YÜKSƏKDƏ DURAN VƏTƏNDAŞ

«Azərnəşr»in sabiq direktoru Əjdər Xanbabayevin unudulmaz xatirəsinə

Doxsanıncı ilin may ayı idi,
Sanki ürəyimin qəm vayı idi.
Azərnəşirə gəldim ümidsiz,
Qəlbi qayğılarla dəldim ümidsiz.
Əlimdə qovluqla dolu şeirlər,
Gözümə qalmışdı yalnız seyirlər.
Döydüm baş redaktor qapısını mən,
Açılan qapıya, sanki doğdu çən.
Redaktor qəzəblə baxdı qovluğa,
Fırlandı gah sola, gahdakı sağa.
Dedi: Hamı şeir yazmaq istəyir,
Özünə bir quyu qazmaq istəyir.
Niyə şeirlərin qan-qan söyləyir,
Sovet olan yerdə dərd, qəm neyləyir?
Ağlını başına get yığ, ay bala,
Bəlaya düşərsən yetməzlər hala.
Mən bunları qəbul etməyəcəyəm,
Heç bir qanuna zidd getməyəcəyəm.
Kitabın çıxmasın istəsən əgər.
Gör Əjdər müəllim buna nə deyər?
Çox guman o da heç girməz bu işə,
Sənə də qalacaq yalnız əndişə.
Götürüb qovluğu çıxdım otaqdan,
Min dilək ayrıldı bir könül tağdan.

***

Ümidsiz susaldım qapı ağzında,
Sanki arzularım paslandı qında.
İlahi, döyümmü görən qapını,
Döysəm nə qıracaq könül sapını...?
Ya qol çəkiləcək, ya da isə yox,
Qapılar dalında ölən dilək çox.
Bəs Əjdər müəllim nə deyər mənə?
Lap baş redaktoru, o öyər mənə?
Onda nə edəcəm bu şeirləri?
Sandıq olacaqdı yəqin yerləri...

Bu xəyallar ilə qapını döydüm,
Sanki gözüyumlu sözləri üydüm.
Fikrimdə tutdum ki, çaşaram sonra,
Bu da yox söyləsə coşaram sonra.
Amma əksi oldu düşündüyümün,
Şeirlər içində döyündüyümün,
Bir xoş sədasını qulağım aldı,
Könlümün içindən ümid ucaldı.
Masa arxasında bir ziyalını,
Gördüm çox dalğınca mərhəm halını.
Sordu, nəsirmi ya, nəzimmi qovluq,
Eylə fikirini mətləbə yovuq.
Söylədim, şeirlər Əjdər müəllim,
Təqdim eyləməyə gəlməyir əlim.
Yəqin siz də mənə yox deyəcəksiz,
İndi yazanlar da çox deyəcəksiz.
Mehriban nəzərin dikdi özümə,
Heç fikir vermədi, sanki sözümə.
Qovluğu açaraq baxdı onlara,
Fəqət ölüm hökmü çökdü anlara.
Sükutun özü də bir həyat imiş,
Hər sükut özü də min bir qat imiş...
Bir, iki şeiri oxuyub güldü,
Üzündən, gözündən sevinc töküldü.
Sanki qopub çıxdım altından dağın,
Baxdı qəm qarışıq üzümə dalğın.
Qızım, nəyi pisdi bu şeirlərin?
Misralar yerində, fikirlər dərin?!
Baş redaktor nəyi başa düşməyir?
Haqqın tərəzisin belindən əyir.
İndi rəy yazaram şeirlərinə,
Kimsə dodaq büzməz, getməz dərinə.
Darıxma, uğurun çox olacaqdır,
Bu sənət aləmi oddur, ocaqdır.
Narahat olma heç, bu olan şeydir,
Yazı adamının ömrü gileydir.
Qoşa addımlayır yaxşı ilə pis,
İnsanı gəzdirən ağıl deyil hiss.

Sizdən bir təmənnam vardır dünyada,
Ömrü sözə-sova verməyin bada.
Gec-tez həqiqət də öz yerin tapır,
Zamanın gün atı yamanca çapır.
Götürün, rəy hazır, uğurlar sizə,
Yalnız xeyir-dua qalacaq bizə.
Uğur diləyirəm sizə bu yolda,
Sizə də çalışmaq qalır bu halda.
Onun gözlərindən nur ələnirdi,
Haqq meydan sulayır, qurrələnirdi.
Gəlmişdim, bir haqqın aşığına mən,
Gəlmişdim, ziyalı işığına mən.
Onun nurlu üzü mehriban idi,
Bu nə bəxtəvərlik, nə xoş an idi.
Xoş arzu dilədi Əjdər müəllim
O, nə kəramətli, mehriban, həlim.
İlahi, bizdə də ziyalı varmış,
Hər ziya içində həyat vuqarmış!
O nurlu insandan ayrıldım, o gün,
Lap qəmdən, qüssədən sıyrıldım, o gün.
O, mənim başıma bir tac vermişdi,
Kitabın çapına rəvac vermişdi.
Üzüm gülə-gülə döndüm evə mən,
Yığışıb könlümü tərk eylədi çən.

***

Sanki qanad taxdım sözə, şeirə,
Səhəri gün döndüm Azərnəşirə.
Qapıdan girəndə heykələ döndüm,
Ayağım tutuldu, qəmlə döyündüm.
Gördüm Əjdər bəyi kədəri yaxır,
Divara vurulmuş şəkildən baxır.
Qara haşiyələr içində şəkil,
Yiyəsin məzara köçündə şəkil.
Əkillər düzülüb divar dibinə,
Güllər yasın tutub uçan qəlbinə.
Adamlar cərgəylə düzülüb baxır,
Sanki zaman özü üzülüb baxır...
Sükutla gözümü dikdim onlara,

Sanki haray saldı dillər anlara.
Dedilər, gülləylə dünən vurdular,
Bir ziyalı ilə qəsdə durdular.
Susdu Vətən üçün alışan ürək,
Millət sabahıyçın çalışan ürək.
Onun da həyatı bura qədərmiş,
Haqqa qələm çalmaq demə hədərmiş.
Doğrusu lap çaşıb qalmışdım yaman,
Qəlbimi didirdi kədər, ah, aman.
Bu gözəl insana kim əl qaldırdı,
Cəhənnəm içinə özün saldırdı.
Ah, kim qıydı sənə, Əjdər müəllim,
Gəzdi əkillərin üstündə əlim.
Töküldü yanağa gözümün nəmi,
Ahıma batırdım, sanki aləmi...!

***

Ən böyük ziyalı itirdik o gün,
Zaman arxasına ötürdük o gün.
Artıq qorxunc illər tarixə köçüb,
Kədər qədəhində Vətən qan içib.

***

Günlər ötüşsə də o xatiratı,
Ziya işığıyla keçən həyatı,
Misralar içinə gətirib saldım,
O ötən illərin seyrinə daldım.
Çünki ziyalıydın, ziyalıysa baş,
Ölümdən yüksəkdə duran vəndaş!...

05.12.2011

GƏTİRİB MƏNİ BÜ GÜN MEHRİ-MƏHƏBBƏT, BU EVƏ

Bu yaxınlarda Cəfər Cabbarlının ruhunun dolaşdığı ev muzeyində oldum. O təəssüratdan yaranan bu şeiri böyük ədibin xatirəsinə həsr edirəm!

Gətirib məni bu gün mehri-məhəbbət, bu evə,
Ələnir sidq ilə ol nur dolu zinət, bu evə,
Gəlir hər yandan, ədib, eşq ilə hörmət, bu evə,
Çağırır xəlqı böyük pakanə sənət, bu evə,
Hamının üzü gülür, sevdası vardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə.

Baxıram dər-divara ruhumu oxşar nə ki var,
Qoşulub könlə elə min dağı aşar nə ki var,
Dönər dəryaya təbi sel təki coşar nə ki var,
Bənzəyər dəli Kürə bəndləri aşar nə ki var,
Nə yazıbsa vərəğə güllü bahardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə.

Az yaş ilə bu ədib aləmi heyran elədi,
Çapdığı söz dağına hər könlü seyran elədi,
Rəbbi verən təbini dillərə bəyan elədi,
Səhnədə qoyduğunu hamına əyan elədi,
Özü olmasa belə adı nübardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə.

Həyətin ortasına salıbdı çətri, tut ağac,
Neçə qış, fəsli-bahar yayıbdı ətri, tut ağac,
Böyük yazarımıza veribdi xətri, tut ağac,
Elə eşqinə uyub udubdu sətri, tut ağac,
Dözüb hər niskilinə ahilə zardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə.

Burda ki, əşyaların dilləri bülbül kimidir,
Titrəyir xatirələr sapsarı sünbül kimidir,
Saralıb hər kitabın varağı bir tül kimidir,
Ruhu gəzir tavanı lap açılan gül kimidir,
Nə yazıb, nəyi pozub hamısı vardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə.

Burda Xızı elinin Xıdırzində duyğusu var,
Dəli eşq ilə coşan bir neçə cür sayğısı var,
Dağının, çeşməsinin, bulağının qayğısı var,
Ay üzlü gecəsinin gözlər öpən uyğusu var,
Təb ilə cövlan edən hər sözü bardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə.

Şadimana, sözünün çeşməsi çağlar, ədibin,
Gahı dövrana gülər, gahı da ağlar, ədibin,
Yapdığı şeiri-sözü ən uca dağlar, ədibin,
Kəlmələri özünü qəlblərə bağlar, ədibin,
Nurlu söz qönçələri ellərə cardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə,
O səbəbdən bu vətən əhli də yardır – Cəfərə.

02.01.2009

SƏNİN MAHNILARIN RUHU OXŞAYAR

Gözəl bəstəkarımız Emin Sabitoğlunun xatirəsinə!

Sənin mahnıların ruhu oxşayar,
Olub nə zamandı qəlbə, baxşa yar.
Ürəklər bağında açır gül təki,
Çağlayır sevdalı bir bülbül təki.
«Dərələr », «Şükriyyə», o «Yaşıl ada»,
Salır sinələri atəşə, oda.
O « Ala gözlü»nün ahı, sədası,
Ağlı bihuş edən dəli sevdası,
Böyük məhəbbətlə yaşayacaqdır,
Bu eşqi qəlblərə daşıyacaqdır!
Könlünü bəsləyib fitrət qucağı,
Sənə ilham verib ədib ocağı.
Komedya ustası – o Sabit Rəhman,
Vəcd ilə bağladı söz ilə peyman.
Qələmə aldığı komik əsərlər.

Bakı küləyitək sabit əsərlər.
Qəlblərdə yaşayır böyük sənətkar,
Sən də onun oğlu – gözəl bəstəkar.
Bütün Azərbaycan adını anır,
Bu ağır itgiyə, alışıb yanır.
Yerin görsənəcək musiqimizdə,
Hələ göynəyəcək bu ağrı bizdə.
Kim deyir əvəzsiz yoxdu həyatda?
Bu özün göstərir mənəviyyatda.
İstedad – həyatın dirlik beşiyi,
Sənət dünyasına çəkir keşiyi.
Neçə-neçə mahnın qaldı ürəkdə,
Heç insaf görmədim mən bu fələkdə.
Ruhunu cismindən qopardı aldı,
Bizi ayrılığın oduna saldı.
Nə qədər Vətən var – musiqi vardır,
Gözəl nəğmələrin həmşə bahardır.
Heç bunu eyləmək olarmı inkar?
Adın hər şərqində – böyük bəstəkar.
Sevdalı könülə, qəlbə, baxşa yar,
Titrək bəstələrin ruhu oxşayar,
Boylanar sinədən bir ürək kimi,
Çırpınar, çağlayar şux mələk kimi.
Vallah, hər mahnının vardır öz canı,
Ovsununa salıb Azərbaycanı.

04.04.2008

BU DƏRDİ YAZMAĞA ƏLİM GƏLMƏYİR

Vaxtsız həyatdan getmiş şair-publisist, telejurnalist, Ağalar Mirzənin xatirəsinə!

Hönkürür misralar vərəqlər üstə,
Əzrayıl şığıdı qəfil can üstə,
Ruhu aparmağa o özü xəstə!
Qəlb gələ bilmədi ölümə qəsdə,
Sən yoxsan deməyə dilim gəlməyir,
Bu dərdi yazmağa əlim gəlməyir.

Zamanın dayandı, saatın susdu,
Vaxtı əyirənin anlara suzdu,
Nə yaman canalan qapını pusdu?
Vaxtsız gedişinə göylər qan qusdu,
Bu qanı pozmağa zülüm gəlməyir!
Bu dərdi yazmağa əlim gəlməyir.

Uzaq karvanları soraq edərdin,
Ötən tarixləri çıraq edərdin,
Keçmişi bugünə maraq edərdin,
Qələmi ömrünə yaraq edərdin,
Yaraqlar üstünə bölüm gəlməyir,
Bu dərdi yazmağa əlim gəlməyir.

Sızqa ümidinə ah oldu qənim,
Daha canalana sözüm yox mənim,
Gurşadı andırır bu könül çənim,
Yaman tez tələsdi zaman ölçənim,
Niyə Əzrayıla ölüm gəlməyir?
Bu dərdi yazmağa əlim gəlməyir.

Elə qəfil əsdi əcəl küləyi,
Qoparıb köksündən boğdu ürəyi,
Uçdu bədənindən könül mələyi,
Qoydu hıçqırtıda çarpan diləyi,
Bu yasa girməyə ilim gəlməyir,
Bu dərdi yazmağa əlim gəlməyir.

Əridi bir ömür sönən şam kimi,
Zülmətə büründü bir axşam kimi,
Yatdı misqal-misqal çökən dam kimi,
Sözlərim hönkürür batan kam kimi,
Közüm şahə qalxıb, külüm gəlməyir.
Bu dərdi yazmağa əlim gəlməyir.

Fələk heç çəkmədi bəşər nazını,
Susdurdu könüldən ürək sazını,
Gətirdi ömürə tez payızını,
Xəzanə döndərdi gözəl yazını,
Bağçalar içinə gülüm gəlməyir,
Bu dərdi yazmağa əlim gəlməyir.

Azərbaycanımın ey ziyadaşı,
İtirdi ocağım yurda sirdaşı,
Əyilib sinəyə Xızının başı,
Dəvəçi, Siyəzən tökür göz yaşı,
Şadiman ağlayır – əziz qardaşı,
Kim deyər bu yasa elim gəlməyir?
Bu dərdi yazmağa əlim gəlməyir.

07.03.2008

SƏSİNİN SEHİRİ DÜŞDÜ ALƏMƏ

Haqq dünyasına qovuşmuş məşhur musiqiçi, SSRİ xalq artisti Müslüm Maqamayevin əziz xatirəsinə!

«Qürbət el cənnət olsa,
Ölməyə Vətən yaxşı...»
El bayatısından

Səsinin sehiri düşdü aləmə,
Bu sehrin içində şövkətə çatdın.
İstedad hər kəsə verilmir, demə,
Sən ondan doğulan qüdrətə çatdın.

Böyük salonlardan nəğmən yüksəldi,
Sənət ünvanına ucalıq gəldi,
Dostuna yar oldu, bədxahı dəldi,
Qibtə ediləsi şöhrətə çatdın.

Elə oxudun ki, «Azərbaycan»ı,
Damarda qaynatdın dövr edən qanı,
Bu eşqlə döyündü Vətənin canı,
Ən ülvü, ən böyük hörmətə çatdın.

Səsində Nizami «Sənsiz»i coşdu,
Könlünün telləri çağladı, daşdı,
Büsbütün dünyada adın dolaşdı,
Tanrı bəxş eyləyən izzətə çatdın.

Sənə rəssam deyim, ya ki bəstəkar?
Təbiət verdiyin etməyir inkar,
Hamını heyrətdə qoyan nəğməkar,
Musiqi deyilən sərvətə çatdın.

Uşaqkən şərqindən qürur duyardım,
Bulaqtək çağlayan saf dürr duyardım,
Haqqın bəxş etdiyi bir nur duyardım,
Nurun zirvəsində sənətə çatdın.

Quş da unutmayır öz yuvasını,
Ruhunda yaşatdın yurd havasını,
Baban «Şah İsmayıl» operasını,
Yaratdı, sən ondan hikmətə çatdın.

Yenidən Müslümü saldın səhnəyə,
Qartaltək qanadın çaldın səhnəyə,
Bariton səsinlə qaldın səhnəyə,
Soyunu car edən nemətə çatdın.

Bu payız pis gəldi – yarpaq tökümü,
Qəfildən ömrünün oldu hakimi,
Qırıldı ürəyin çağlayan simi,
Ölüm dediyimiz illətə çatdın!

Sorağın aləmlər içində üzdü,
Düşdü diyar-diyar dilləri gəzdi,
Bü qara xəbərin Vətəni üzdü,
Möhtəşəmliyinlə millətə çatdın.

Gur, coşqun təbinlə gəzdin hər yanı,
Gəldi haqq dünyaya yetişmək anı,
Qürbətlər içində tapşırdın canı,
Fəqət Bakı təki afətə çatdın.

Nəfəs Rəbb bəxşişi – şaqraq ötənə,
Zirvə yeri olmaz, vallah yetənə,
Tabutun içində gəldin Vətənə! –
Azərbaycan təki zinətə çatdın.

Səsinin sehiri düşdü aləmə,
Səadət bəxş etdi çağlayan dəmə,
Şadiman ahını tökdü qələmə,
Adınla qələbə çaldın ölümə!
O dahi səsinlə vüssətə çatdın.

30.10.2008

ÜZEYİR ELİMİZİN DAHİSİDİR

Dahi Üzeyir Hacıbəyliyə

Yazdı ilk operanı – ad elədi,
«Leyli-Məcnun»ilə fəryad elədi,
O böyük Füzulini yad elədi,
Şərqdə musiqini abad elədi,
Operanı yurda övlad elədi,
Bu elmdə neçə ustad elədi,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

Bəllidür aləmə bəyzadəliyi,
Bəy ola-ola elə sadəliyi,
İstiqlal yolunda azədəliyi,
Ziyalı ad-sanına zadəliyi,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

Yayılıb hər tərəfə ustad adı,
Arşın-Malalan, Məşədi İbadı,
Necə heyrətdə qoyub dostu, yadı,
Olub hər bəstəmizin baş ustadı,
Üzeyir elimizin dahisidür,
Müsiqi elmimizin dahisidür.

O böyük el yazarın işığı var,
Neçə min cümlə – cahan aşığı var,
Ona kəm baxanın yad qarşığı var!
Onun dürr sənətinin yaraşığı var,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

O Milli himni – inqilab elədi,
Çökdü istiqlal – iztirab elədi,
«Koroğlu» – «Cəngi» haqqısab elədi,
Bu kimi ağrılara tab elədi,
Ürəyin hər əzaba bab elədi,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

Şərqdə ilk operanın banisidi,
Bu adı danan elin canisidi,
Onun etdikləri yurdun bəsidi,
O Böyük Rəbbinin divanəsidi,
Məhəbbətin dəli pərvanəsidi,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

Bu adın şöləsi – Qarabağımız,
Xarıbülbüllü – Şuşalı çağımız,
İndi əsir olalı qəlb dağımız,
Musiqi beşiyidür sorağımız,
Nətəvan ruhuna – quldu ağımız,
Şuşaya sancılmasa bayrağımız,
Əbədi yanmayacaq çırağımız,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

O böyük ziyaya izzət eləyək,
Adının eşqinə hörmət eləyək,
Nə ki, min cövrlə minnət eləyək,
Bu ulu dahini zinət eləyək,
Ona xor baxana – lənət eləyək,
Haqqını qorumağa – qət eləyək,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

Şadiman, çəkmə belə ağrı-acı,
O böyük sənətkarın başda tacı,
Onun ilhamının Rəbbdən xəracı,
Bunu hər kimsə danır qəlbə acı,
Onun ağlındadı şeytanın ucu,
Hər iki dünyada yoxdu əlacı,
Üzeyir elimizin dahisidür,
Musiqi elmimizin dahisidür.

27.01.2008

KÖÇDÜ HAQQ DÜNYASINA ŞEİRMİZİN BƏXTİYARI

Haqq dünyasına qovuşmuş ustad şairimiz Bəxtiyar Vahabzadəyə

Ey Vətən aşiqi-nur, türk dilə sevda eləyən,
Ey sevib millətini eşqini qida eləyən,
Ey ana südü təki könlünə nida eləyən,
Ey ölüm xəbəriylə bizə əlvida eləyən,
Getdi əldən Vətənin canı-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Bu ağır itgiyə heç gözdəki yaş bəs eləməz,
Bəbəyim dəryaya dönsə, bunu əbəs eləməz,
Təbi yoxsa sinənin ustada – həvəs eləməz,
Onun söz aləminin etdiyin hər kəs eləməz,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Oxuyub kitabını sözləriylə huş etdik,
Dadaraq misra-misra könlümüzə nuş etdik,
Oxşadı qəlbimizi ömrü boyu cuş etdik,
Bu böyük sənətkara hər cürə alqış etdik,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Aparır qəbr evinə bir düşünən başı diyar,
İtirib öz dilinə, yurduna sirdaşı diyar,
Qoyacaqdı məzara böyük Vətəndaşı diyar,
Ağladır qəmi-ələm torpağı, dağ-daşı, diyar,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Çox yazarlar gələcək, tərk edəcək dünyanı,
Bir belə şöhrəti də tutmayacaq hər yanı,
Sözü cəfəng olanın həqqi sevər xulyanı,
Salmadı kitabına, varağına riyanı!..
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Neçə il əhd elədim yetmədi ustadə dilim,
Daha gecdi yetişib getməyə o dadə, dilim,
Tutub hər beytimə yas ağlayır fəryada, dilim,
Necə gəlsin qələmim etdiyi imdadə, dilim?!
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Qələm əhli olanın könlü gedir aha sarı,
Gecə-gündüz ürəyi üz tutur Allaha sarı,
Aparır misraların sözünü sabaha sarı,
Kimi səvaba gedir, kimi də günaha sarı,
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

Şadiman bu ölümə ah ilə büryanə gəlib,
Yığışıb əhli-diyar dərdə yanə-yanə gəlib,
Bu ağır itgiyə el hüzünlə həyanə gəlib,
Döyüb qapını ölüm Əzrayıl həyanə gəlib?
Getdi əldən Vətənin cani-dili-ixtiyarı,
Köçdü haqq dünyasına şeirmizin Bəxtiyarı.

13.02.2009

ÇƏKDİ YAZIQ MİLLƏTİNİN AĞRISIN

Böyk vətəndaş Mirzə Ələkbər Sabirə

Çəkdi yazıq millətinin ağrısın,
Haqqına şam etdi sözün doğrusun,
Cəhd elədi dərdi-qəmə bağırsın,
Tapmadı ahına qanan çağırsın,
Qəlbi gördü yaraları Sabirin.
Sözü gəzdi haraları Sabirin?

Etdi ağıl cövhərinə cəfanı,
Ürəyindən əksiltmədi vəfanı,
Yazdığına gözləmədi səfanı,
Bulmadılar ciyərinə şəfanı,
Uddu bəxti qaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Qələmini kağıza yar eylədi,
Şeirləri aləmə car eylədi,
Haqqı yaman nahaqqı kar eylədi,
Beyitləri hər misra bar eylədi,
Dərdi üzdü çaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Ölkəsinin qəflətinə ağladı,
Sağalmayan illətinə ağladı,
Ac-yalavac millətinə ağladı,
Ömrü boyu zillətinə ağladı,
Artdı şeir sıraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Dərdi bişdi sabun ilə tiyanda,
Haqq nazilir, üzülməyir hər yanda,
Baş ağrıyır hər bəlanı duyanda,
Bu minvalla təmizliyə uyanda,
Təbi pozdu araları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Xalqa yanan misrasını dil etdi,
Beyti hikmət bağçasına gül etdi,
Qanmayanlar gözlərinə tül etdi!
Nadan əhli külliyatın kül etdi,
Ahı qarsdı qoraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

Kim deyər ki, «Hophopnamə» yuxlayıb?
Fəryad ilə naqisləri oxlayıb,
Ürəklərdə hörmətini saxlayıb,
Ey Şadiman, misrasını qoxlayıb,
Bükər könül xaraları Sabirin,
Sözü gəzdi haraları Sabirin?

06.06.2009

EY ÜRƏYİ TALAN ŞAİRİMİZ

Böyük vətəndaş, dahi
Mirzə Ələkbər Sabirə

Ey ürəyi talan şairimiz,
«Arizi-qəm»də qalan şairimiz.

Tökdülər sinənə can əzabını,
Kəsdilər zülmləriylə tabını.

Vətən ağrısını saldın bağıra,
Qəlbdə sitəmi üsyan doğura.

Özü verdi Yaradan fitrətini,
Artırdı şeirlə qüdrətini.

Kor qalan millətə çıraq oldun,
Lal olan dillərə soraq oldun.

Çatdı təbi-qələmin ahına,
Yetəsən söz ilə Allahına.

Ki dedi, min bir ləhzədə sənət,
Yaltaqlığa, məddahlığa lənət.

Yayıldı sözün aləmi-ərşə,
Bəhrəsini saldı dilə-dişə.

Qüdrətinə ram oldu qaillər,
Düzlüyü sevər həqqə maillər.

Odur ki, misrana vəfa qıldım,
Xəstə könlümə şəfa qıldım.

Fəlakət doğuran cümlə-bəşər,
Hər şeirin ilə sehrə düşər.

Ey sözlə artıran şöhrətini,
Qaldıran xəlq içrə hörmətini.

Gəlib gör yaxşıların halını,
Qəlb ilə bir olan məlalını.

Ah olan göylərə, yerlərə bax,
Oxu can dələn dərd-sərlərə bax.

Ey böyük şairimiz, ruhu nişan,
Həm təmizliyə, həm düzlüyə şan.

Yapmısan ellərə heykəlini,
Tutmusan təfəkkürün əlini.

Ey bülbültək ürəklərdə ötən,
Səni sevəcək övladi-Vətən!

Kim sayar beytini beytinə tən?
Heç vaxt olmayacaq sənə yetən.

Odur ki, misraların şölə saçır,
Paklığın qapısını şövqlə açır.

Zərrədə neçə mə'na dolaşır,
Hər birisi min fikrə bulaşır.

Saçan şölələri yandırıram,
Əqlə qətrə-qətrə qandırıram.

Ah alan ürəyimi yaxdı qəm,
Gözə dolaşır min ləhzəyi-nəm.

Ömürüm haqqa sarı çapmada,
Haqqımı dərdü-ələm tapmada.

Dikəlib göylərə nalan edirəm,
Ahımı aləmə elan edirəm.

Rəbbimin yetirəm sorağına,
Düşməyə pakanə ayağına.

Edim ərzimə agah fələyi,
Bəşərin şeytana ürcah ürəyi.

Hiyləsi dağ aşırandı özü,
Əyilir tərəzinin gözü.

Şər vurur düzlüklə əhd edəni,
Bircə addım həqqə cəhd edəni.

Şişirir ciyərimi dağı-düyün,
Açıla bilməyir çöhrə-eyin.

Ağrı-acıya lap partlayıram,
Yerə-göyə dəyib çatlayıram.

Bir duyan yoxdur heç naləmi,
Götürüb yeri, göyü, aləmi.

Gəzir səyyarələri fəryadım,
Qovuşa ruhuna, ey ustadım!

Öldürür dərd-bəla Şadimanı,
Bağlıdır Allahına imanı.

Ey ürəyi talan şairimiz,
«Arizi-qəm»də qalan şairimiz.

09.05.2009

SUSDU QARABAĞIN SONA BÜLBÜLÜ

Milli ruhun daşıyıcısı, yanıqlı səsi ürəyimizdə kök salan, qulaqlarımzda qalan Azərbaycanın xalq artisti Qədir Rüstəmovun xatirəsinə

Görüm həsrətlərdə yana bülbülü,
Susdu Qarabağın sona bülbülü...

Deyin Ağdamına fəryada gəlsin,
Qopub işğallardan imdada gəlsin,
Oxumaq istəyən bu ada gəlsin,
«Şahnaz» da, «Zabul» da ana bülbülü,
Susdu Qarabağın sona bülbülü.

Tar, kaman bir haray saldı Qədirsiz,
«Sona Bülbüllər»i çaldı Qədirsiz,
«Segah» pərdə-pərdə doldu Qədirsiz,
Yandı muğamatın zillənən dili,
Susdu Qarabağın sona bülbülü.

Səsində ağlatdı dərdin özünü,
Misranın ahına dözən gözünü,
Yuxusunda gördü yurdun üzünü...
Yanan ürəyindən sovurdu külü,
Susdu Qarabağın sona bülbülü.

Fələk bilmədimi kaman yas tutar?
Zəngulə içində zil-bəmi yatar,
Kimi imdadına çağırsın «Qatar»?
Səsin bağçasının saraldı gülü,
Susdu Qarabağın sona bülbülü.

Yurd-yuva həsrəti qübara döndü,
Ağrı ürəyində anbara döndü,
Bağladı qapısın dübara döndü,
Muğamın gözünə çəkdi qəm mili,
Susdu Qarabağın sona bülbülü.

Bir Vətən əzabı içində getdi,
Səsinin harayı köçündə getdi,
Dili min bir neyə-neçində getdi,
Yağan gurşadları ahların gölü,
Susdu Qarabağın sona bülbülü.

Millətin ruhunun səsiydi bu səs!
İşğallar altında yurdu bir qəfəs,
O dərddən doğulan ilahi nəfəs,
Əsdirdi başlarda bir rüzgar yeli,
Susdu Qarabağın sona bülbülü.

Məzarı başında siz ağı deyin,
Sinəsində vardı, yurd dağı deyin,
Sönübdü segahın çırağı deyin,
İndi aparırlar qəbirə ölü...
Susdu Qarabağın sona bülbülü.

Görüm həsrətlərdə yana bülbülü...
Susdu Qarabağın sona bülbülü.

16.12.2011

DOĞMANI DOĞMADAN AYIRAN FƏLƏK

Alper Turan bəyin vaxtsız həyatdan köçmüş qardaşının və atasının ruhuna ithaf

Mədəni kədərlə doyuran fələk.
Doğmanı doğmadan ayıran fələk,

Bilmirsən yavrudur, bilmirsən yaşlı,
Qoyursan gözləri çox gözüyaşlı,
Səndə ürək yoxmu, ay başıdaşlı?
Gəzib hər yuvanı vay quran fələk,
Doğmanı doğmadan ayıran fələk.

Çəkib sinələri dərdin içinə,
Tökürsən ağrını, qəmi içinə,
Daha öyrəşmişik vaxtsız köçünə...
Hər cismi məzarda uyuran fələk,
Doğmanı doğmadan ayıran fələk.

Biz qəmdən qaçanıq, sən dərdi güdən,
Doymurmu başları yeməkdən gödən?
Hər can qapısına xəbərsiz gedən,
Ruhunu bədəndən soyuran fələk,
Doğmanı doğmadan ayıran fələk,

Qardaşı qardaşdan aralı saldın,
Atanı məzara yaralı saldın,
Bir əfvi ilantək sinələr çaldın,
Ürəklər sındırıb, qəlb qıran fələk.
Doğmanı doğmadan ayıran fələk.

Yolumuz üstünə çıxarsan qəfil,
Evləri uçurdub yıxarsan qəfil,
Sən dərd karvanını çəkən ağır fil,
Yoxdur səadətlə heç aran fələk,
Doğmanı doğmadan ayıran fələk.

Hər can yuvasından sorağın gəlir,
İşığın sönməmiş çırağın gəlir,
Qələmin yazmamış varağın gəlir,
Yolumuz üstündə dik duran fələk,
Doğmanı doğmadan ayıran fələk.

Alper Turan qardaş, xəbərin qəmli,
Etdin Şadimanı gözləri nəmli,
Dərdin üzü qara, özü ələmli...
Kədər qılıncını sıyırır fələk,
Doğmanı doğmadan ayırır fələk.
Doğmanı doğmadan ayırır fələk.

01.01.1212

ƏHVALATLAR

BİR KÜP QIZILIN ƏHVALATI

Biri vardı, biri yox,
Dərdi ürəyinə ox,
Uzaq kənddən bir qadın,
Demədi mənə adın,
Olmuş bir hekayəti,
Açmaq oldu niyyəti.
Onun səmimiyyəti,
Könlün ona heyrəti-
Artdı daşan sel kimi,
Heyran etdi kim kimi?
Qəlbimi qan eylədi,
Mənə belə söylədi:
Bu kənd dağ yamacında,
Gül-çiçəyi tacında,
Bir-birinə mehriban,
Evləri daban-daban.
Yamac boyu uzanır,
Gülüstanlığı anır.
Evləri köndələndi,
Dağı zirvə dələndi.
Düzülübdü yan-yana,
Heyranlıq verir cana.
Evimiz iki qatdı,
Məhləsi bir həyatdı.
Atam, anam, qardaşım,
Bir də ağrımaz başım.
Bir oğlan, bir qız idik,
Kef-damağı saz idik.
Atam məhlədə bir gün,
Açdı bəxtindən düyün.
Əlcəyi geyib ələ,
Əlini atıb belə,
Torpağı belləyirdi,
Arxa su selləyirdi.

Birdən su altdan küpün,
Ağzında qara ipin,
Göründü çürük ucu,
Min yerə perik ucu.
Orda qardaşımla mən,
Canımızı tutmur tən,
Yaxında oynaşırdıq,
Lap qaynayıb daşırdıq,
Bir təhər yollaşırdıq.
Atam birdən bağırdı,
Bizi ora çağırdı.
Çəkdi beldən əlini,
Atdı əldən belini.
Dizini vurdu yerə,
Yerdə açılmış dərə.
Dərədə balaca küp,
Boğazında qara ip.
Atam əlini atdı,
Əli düz küpə çatdı.
Özün küpə yetirdi.
Küpü ordan götürdü,
Anam biş-düş edirdi,
Soba üstə gedirdi,
Əldə tutmuş qazanı,
İşə arxayın canı.
Atam qapını açdı,
Anama tərəf qaçdı.
Dizini yerə çatdı,
Küpü ona uzatdı.
Anam küpü görəcək,
Dedi: Nədir ərincək?
Atam dedi: Ay arvad,
Qəlbindən getsin fəryad!
Küpdəkilər qızıldı,
Bəxtə həyat yazıldı,
Daha bizə nə pis an?
Yaşayarıq firavan.
Var qızımız, oğlumuz,
Başımızda ağlımız.
Səadətlə coşarıq,
Həyata alışarıq.

Günlərimiz xoş olar,
Nəş'ədən sərxoş olar.
Anam getdi özündən,
Qanı qaçdı üzündən.
Üstünə suyu atdıq,
Ah-uf ilə oyatdıq.
Dili topuq çalırdı,
Gözündə ah qalırdı.
Dedi: Bəsdir, ay kişi,
Halallıqla qur işi!
Mülkü bizə yad yerdi,
Atana dövlət verdi.

***

Kəndin bəyi Sibirdə,
Yatır orda qəbirdə.
Qızıllar ona məxsus,
Hardan səndə murdar hiss?!
Hamın qırıb çatdılar,
Zindanlara atdılar.
Haramla artmaq olmaz,
Bu var heç kəsə qalmaz.
Qaytaraq hökümətə,
Qol qoyaq həqiqətə.
Atam dedi: Mən razı,
Nə itirirəm azı?
Onu təhfil verərik,
Halallıqla ölərik.
Anam birdən alışdı,
İçinə od sarışdı.
Dedi: Sən nə edirsən?
Nə tələsib gedirsən?
Oğlumuz, qızımız var,
Kasıblıq könlü ovar.
Küpü atım sandığa,
Qoy bataq bala, yağa.
Küpü atamdan aldı,
Sonra sandığa saldı.

***

İllər gəlib ötüşdü,
Səadətim yetişdi.
Köçdüm evinə ərin,

Bu sirr sinəmdə dərin.
Alışırdı od kimi,
Bir acı fəryad kimi.
Qızıllar küp içində,
Könlüm niyə, neçində?
Götürüb satılmamış,
Bir yerə atılmamış.
Qardaşım da toy etdi,
O, ailəyə yetdi.
Atam, anam bu sirri,
Qəlbdə saxladı diri.
Artıq qocalmışdılar,
Gücdən də qalmışdılar.
Qəlbimi sıxdı düyün,
Gəlib yetişdi bir gün.
Dedim, ay ata, ana,
Qalmısız yana-yana,
Qızılı mənə verin,
Qalxım gözündə ərin,
Könlümü eşqə tutsun,
Məni nəş'əyə atsın.
Anam dedi: Can qızım,
Sənsən yanar ulduzum.
Qızıllar sənin olsun,
Ürəyin eşqlə dolsun.
Qardaşın artıq kişi,
Özü də pullu işi.
Evində arvad yaddı,
Lap birdən onu atdı.
Sərvətimi aparar,
Qəlbdə tufan qoparar.
Qıza lazımdı kömək,
Nə düşünmək, nə demək?
Atam dedi: Sözün düz,
Oğuldan olsun lap yüz.
Qızıllar qızımındı,
Kəsik ulduzumundu.
Qıza kəsik deyirlər,
Hər işini əyirlər.
Mən o küpü götürdüm,
Ər evinə ötürdüm.

Qardaşımın xəbəri,
Uzun illərdən bəri,
Yox idi heç bu işdən,
Bu baş verən gərdişdən.
İşin itirdi bir gün,
Könlündə min bir düyün.
Ata, anaya dedi:
Qızıldan bir az nədi?
Bir mənə də verəsiz,
Şərin qolun gərəsiz.
Atam, anam peşiman,
Mənə etdilər iman,
Tez telefon açdılar,
Alov təki saçdılar.
Mən Bakıda olurdum,
Zirvələri çalırdım.
Gəldim ata evinə,
Döndüm nağıl divinə.
Mətbəxdə öcəşirdik.
Sanki qızğın bir şirdik!
Bir xeylicə savaşdıq,
Deyişib həddi aşdıq.
Zamanın bircə anı,
Qəfil qapıb qazanı,
Döndüm qaya daşına,
Vurdum qardaş başına.
Qardaşım dönüb baxdı,
Qanı başından axdı.
Gözündən yaşı tökdü,
Uçundu yerə çökdü.
Gözün zülmətlər aldı,
Uzanıb yerdə qaldı.
Üç balası ağladı,
Könlümə od bağladı.
Qardaşım oldu dəli,
Yerdən üzüldü əli,
Düşdü dəlixanaya,
Dərdi ata, anaya,
İllərlə hicran verdi,
Oradaca can verdi.
Qardaşım öldü getdi,

O haqq dünyaya yetdi.
Atam, anam da öldü,
El-oba bunu bildi.
Bu küp bir şeytan imiş,
Aləmi qatan imiş,
Əzizləri itirdim,
Canda haram bitirdim.
Budur naqis həyatım,
Harda can verim yatım?
Ömür bir gün ötəcək,
Ruhum ərşə yetəcək!
Allah edəcək sitəm,
Budur könlümə matəm!

***

Dinlədim əhvalatı,
Yeyinmiş dilin atı,
Çapdı elə yel kimi,
Daşdı dəli sel kimi.
Etdim qadına heyrət,
Yaxdı könlümü illət.
Bu şeytan əməlidir,
Bu işdə bəd əlidir.
Ağılı alır ələ,
Min dillə tutur dilə.
Var, pul onun leysanı,
Bədbəxt edir insanı!
Küyə salır adamı,
Onun quludur hamı.

11.05.2007 /Neft Daşları

QU QUŞUNUN MƏHƏBBƏTİ

Olmuş hadisə

Bu hadisə çox yaxın bir tarixdə olubdu,
Həzin xatirə təki yaddaşımda qalıbdı.
Mən beşinci sinifdə oxuyurdum o zaman,
Həmin ilin qışının üzü sərt idi yaman.
Şimal dəmir yolunun Xəzərə yaxın yerdə,
Tağay kəndi yerləşir – uca dağlar sərkərdə.
Qış gələndə kişilər yığışıb ova gedər,
Vurduğu quşları da evə azuqə edər.
Bu minvalla sərt qışı onlar yola salardı,
Ehtiyacın bu yolla qarşısını alardı.

***

Qışın sərt çağı idi,
Hər tərəf dümağ idi.
Xəzri küləklər əsir,
Şaxta qılınc tək kəsir.
Quşlar şimaldan gedir,
Cənuba səfər edir.
Qaz, qu da qatar-qatar,
Göy üzündə yol tutar.
Soyuqlardan qaçırdı,
İsti yerə uçurdu.
Bir səhər də sübh-tezdən,
Atam yayındı gözdən.
Tüfəngini götürdü,
Özün çölə yetirdi.
Bir az keçdi qayıtdı,
Başını atıb yatdı.
Hamımız elə bildik,
Qəlbdə sevinib-güldük,
Əli gətirib ovda,
Dinmədik qaça-qovda.
Ürək edib sormadıq,
Suallarla yormadıq.

***

Səhər yeməyi vaxtı,
Quruldu süfrə taxtı.
Atam gəldi əyləşdi,
Bizlə bir-bir söyləşdi.
Söhbət düşdü araya,
Atam güc verdi çaya.
Qanı qara olanda,
Fikirlə tək qalanda,
O, çayı çox içərdi,
Sonra sözə keçərdi.
Anam dedi:Ay kişi,
Ovda buraxdın işi,
Soyuq oldu qayıtdın,
Ovun daşını atdın.
Çantada heç nə yoxdu,
Yəqin ki, əlin qorxdu,
Bayırdakı tufandan,
Ov şirin deyil candan.
Hamı bir səslə sordu,
Onu söz ilə yordu.
Evdə gəzdik hər yanı,
Gətirdiyin ov hanı?
O bir qədər pərişan,
Verdi əhvalı nişan.
Dedi: Səhər yağan qar,
Qu gətirdi o ki, var.
Tufan qarı sovurdu,
Quşları da qovurdu.
Onlar səs-səsə verdi,
Qanadlar yeri gərdi.
Qu quşun nişan aldım,
Düz vurub yerə saldım.
Qar içində üzüldü,
Ağ qara qan süzüldü.
Ayrı qu da bu zaman,
Səslə edib ah-aman,
Özünü yerə çırpdı.

Elə qururla qırpdı
ağlayan gözlərini.
Bükərək dizlərini
çökdü ayağım altda.
Zənn etdim bu saatda
ona da güllə dəyib.
Göz gəzdirdim mən quşa,
Heyrətdən döndüm daşa!
Quş lap sapsağlam idi,
Bəs bu hansı kam idi?
Onu endirən yerə,
Düşdüm qəmə min kərə.
Görmədim bu cür nalə,
Yandı ürəyim halə.
Sandım bunu bir zülüm,
Yandı ağızda dilim.
Qu quş dəli istəklə,
Bir şahanə diləklə
qanadını açmışdı.
Ölən quşu qucmuşdu!
Enmiş sinəyə başı,
Tökürdü gözdən yaşı.
Nə tüfəngi, nə məni,
Nə boranı, nə çəni,
Sanki salmırdı saya,
Batmışdı qanlı vaya.
Bu səhnədən ürəyim,
Vücuduma gərəyim,
Çırpındı o, quş təki,
Canıma qarqış təki.
Dondum can durdu qəsdə,
Tüfəng düşdü qar üstə.
Mən qaldırdım silahı.
Könlümün qopdu ahı.
Min yol qaynayıb-daşdım
O yerdən uzaqlaşdım.
Demin quşu öyürəm,
Nəsə yanlış deyirəm.

Ürəyim dəydi daşa,
Mən daha heç bir quşa
bir güllə də atmaram,
Daha qana batmaram.
Heç evdə də mən daha,
And olsun ki, Allaha,
Heyvana əl vurmaram,
Ürəklərin qırmaram.
Qu quşun məhəbbəti,
Yaman sarsıtdı məni,
Odlara atdı məni.

***

Hadisəni dinlədik,
Qəm içində inlədik.
Bir xeyli etdik aman,
Bir də atam heç zaman,
Tüfəngə əl vurmadı,
Daha ova durmadı.
O illər uçub getdi,
Uşaqlığım da itdi.
Atam da vəfat etdi,
Haqq dünyasına yetdi.
Heyrətli xatiratı,
O, təsirli həyatı,
Aldım ki, mən qələmə,
Bəyan edim aləmə.
Laqeyd diləklərə,
Buz kimi ürəklərə,
Olsun sevgi şərbəti,
Qu quşu məhəbbəti.

09.01.2008

SUYUN DƏRDİ

Rəvayət

Haqqın yaratdığı canlıdı bəşər,
Gah sevinc, gah da qəm bəxtinə düşər.
Hər gün çalxaladar gözünü yaşlar,
Ya enər, ya ərşə ucalar başlar.
Hicran ürəyindən keçər sükutla,
Bağrının qanını içər sükutla.
Bu dünya şad etmir heç bir bəndəni,
Kimə şah ağılı, kimə gödəni.
Kim isə hisslərin əlində batır,
Onu dəryalardan dəryaya atır.
Səadət açarı Tanrı əlində,
Fırlanır bu dünya zaman belində.
Saat əqrəbinə vaxt haçalanır,
Saniyə ayrılır, an parçalanır.

***

Bu vaxtın qəminə düşən bir insan,
Həyatda heç neyi bilmədi asan.
O dərdin içindən boylanıb baxdı,
Dərdi üstələdi, yandırıb yaxdı.
Heç kəsdən əlacı bulmadı belə,
Haqqına ümidi qalmadı belə.
Ürəkdə ağrısı, sanki ağır dam,
Üz tutdu bir çayın üstünə Adam.
Dedi: Dərdlərimi danışım ona,
Bəlkə şəfa buldum əlacsız cana.
Çay şaqqa-şaraqla axıb gedirdi,
Adama qürurla baxıb gedirdi.
Adam diz çökərək çay kənarına,
Təsəlli aradı ahı-zarına.
Dedi: Ey müqəddəs, ey həyat suyum,
Dərdimə çarə de, mən də bir duyum.
Gecəli-gündüzlü çox çalışıram,
Bu dəli bəxtimlə hey yarışıram.
Ondan səadəti aradıqca mən,
O da ürəyimə tökür duman, çən.
İşim düz gətirmir heç vaxt dünyada,
Ağrılar içində yaşam nə fayda?!
Hər yerdən şeytana ürcah oluram,

Canım qopur təndən bir ah oluram.
Heç işin çəmini tapmıram neylim?
Bu dərddən qurtulub sapmıram neylim?
Hamıya yaxşılıq, xeyir eylədim,
Ətrafım şad oldu seyir eylədim.
Etdiyim xeyirlər gülmədi mənə,
Onlardan bir zərrə gəlmədi mənə.
Yaradan görmürmü bu səvabımı?
Kəsibdi haqsızlıq könül tabımı!
Deyirlər dərdini suya danışsan,
Tapar yüngüllükdən qəlbin bir nişan.
Ey Su, sənin ki, bəs imkanın böyük,
Bəlkə bir əl yetir ərisin bu yük!
Mən də camaattək ağ günə çıxım,
Dərdi alıb candan ovcumda sıxım.
Salım div canıtək şüşəyə onu,
Bəlkə kədərimin yetişsin sonu.
Hiss edim canımı nağıllardatək,
Qopsun çətinlikdən bu can, əl-ətək.
Hamının yanında səadət tapım,
Beşgünlük ömrümə ədalət tapım.
Su dedi: Ey Adam, bitdimi sözün?
Demə ki, yandırdı məni od-közün.
İndi sən qulaq as, mən deyim dərdi,
Ağrıma acıyan yox dünya mərdi.
Mən sizə canlı bir təbiət verdim,
Coşub çağladıqca xoş niyyət verdim.
Bağçalar, ormanlar məndən su içir,
Mənim həyat eşqim hər candan keçir.
Yerin yorulmayan ürəyi mənəm,
Allahın sevdalı mələyi mənəm.
Sudan ürəklərə gəlir səadət,
Bəs söylə insanda nədir bu adət?!
Bütün çirkabları axıdır mənə,
Çeşməmdən içməyə üz tutur yenə.
Əlinə, üzünə çırpır suyumdan,
Ancaq heç xəbəri yoxdur vayımdan.
Bütün təmizliyin mənimlə edir,
Sonra da özümə tüpürüb gedir!..
Haqqın buyuruğu vardır ehsana,
Bundan böyük günah yoxdur insana.

Var olan günümdən həqirə dözdüm,
Bəndənin etdiyi təhqirə dözdüm.
İndi özün söylə kimin dərdi çox?
Mənim əzabıma əlac edən yox.
Bəndə susub durdu çayın önündə,
Suyun paklığını qoruyur din də.
Adam günahkarca gözünü döydü,
Hamının yerinə başına döydü.
Çay öz təmkini pozmadan axdı,
Ona üz tutanı tənha buraxdı.

***

Haqqın dərgahına yetdi bu səda,
Dedi: Təbiətə etməli sevda.
Onun hər nemətin bəndələr dərdi,
İnsan özü açır özünə dərdi.
Əgər bu agaha etməsə çarə,
Özü öz canına vuracaq yarə.
Dərdin təbiətə söyləyən insan,
Haqqa üz tutmalı, haqq yolu asan.
Dil açıb dilsiz çay şikayət edir,
Haqqın dərgahına inayət edir.
Əgər bu ağrıya etməsək cida,
Təbiət deyəcək bizə əlvida.

28.07.2009

İKİLİKLƏR

***

1. Həssas adamların qəlbi ağrıyır,
Bu ağrı ürəyi ahla doğrayır.

***

2. Canın əzabına eləmə nalə,
Əzablar yardımçı olmayıb halə.

***

3. Şadlıq könlə nəş'ə, kədər işgəncə,
Bir yerdə tutmayır səhərlə gecə.

***

4. Günü boşa vermə ömürdən gedir,
Haqqın can qonağı əmirdən gedir.

***

5. Buludlar göylərin hicran yaşıdır,
Ulduzlar fələyin almaz daşıdır,

***

6. Ağrını ürəyə buraxma heç vaxt,
Buraxsan orada qurar tacı-taxt.

***

7. Ayrılıq küləyi əsəndə kəsmir,
Könlü tərk etməyə heç vaxt tələsmir.

***

8. Dünya qəm dəryası üzməyən batır,
Qəvvası olanlar mərama çatır.

***

9. Birləşib yer ilə göylərin dərdi,
Hər cismin içindən bir canın dərdi.

***

10. Heç kəs öz ağlını sınağa çəkmir,
Ağlın səhv addımın qınağa çəkmir.

***

11. Ürək can şüşəsi sındı bitişməz,
Ağılla ağrısı heç vaxt ötüşməz.

***

12. Gətirmə etdiyin səvabı dilə,
Gətirsən dönəcək bir həzin yelə.

***

13. Yaxşı adamların ağrısı böyük,
Atılan addımın doğrusu böyük.

***

14. Düzlüyü eyləsən şüar özünə,
Haqq qapısın açar sənin üzünə.

***

15. Harama eyləmə əlini vərdiş,
Endirər dərəyə səni bu gərdiş.

***

16. Beyin baş içində ən ali gövhər,
Ağılı işlətsən verəcək bəhər.

***

17. Özünə güvənən haqqına fateh,
Haqqına çatanlar əməli-saleh.

***

18. Dünyanın abaddan çox viranəsi,
Qoyma ki, dağıla könül xanəsi.

***

19. Həyatın gözünə kül üfürür can,
Ondan bu dünyaya qalır həyəcan.

***

20. Əlini öyrətmə heç vaxt harama,
Haramı dadanlar yetməyir kama.

***

21. Əyri yola düşən çox gedə bilməz,
Səadət içində ömür edə bilməz.

***

22. Bədənin can yükü əzabdan keçdi,
Ağrıya qan verdi hər tabdan keçdi.

***

23. Hər doğulan adam insan olmayır,
İnsanlıq hər kəsə asan olmayır.

***

24. Tanrının baratdır cana ilhamı,
Bu hissə yetməyir, əfsus ki, hamı.

***

25. Ürəyin ağrısı cana əzabdır,
Canı tən içində saxlayan tabdır.

***

26. Beyinə sığmayır fikrin ölçüsü,
Onun gah xeyirdir, gah şər elçisi.

***

27. Ürəkdən çıxmayır hicran ağrısı,
Hicrandan başlayır hər can ağrısı.

***

28. Etdiyin yaxşılıq Tanrıya əyan,
Həyat yollarında olacaq həyan.

***

29. Ağıl düşündükcə ürək alışar,
Bu iki məhfumla bir can yarışar.

***

30. Can bədən içində Tanrı quşudur,
Onu beynə salan ağlı-huşudur.

***

31. Başın hər qatında yaddaş taxçası,
Hər bir xatirəyə min bir bağçası.

***

32. Doğulan, dünyadan qorxub ağlayır,
Min bir ağrı ilə könül bağlayır.

***

33. Əgər qəlbdə yoxsa hicran ağrısı,
Arama o qəlbdə haqqı doğrusu.

***

34. Yaş tökür gözlərim üzü aşağı,
Bu yaş ürəyimin hicran qurşağı.

***

35. Dəyərdən o yana hicran gizlənir,
Hicranın içində can əzizlənir.

19.08.2008

***

36. Düzlük İlahinin səvab neməti,
Hər iki dünyada vardır qiyməti.

21.08.2008

***

37. Ağrılar içində çırpınır hər can,
Hər canın içində min bir həyəcan.

***

38. Qapından içəri buraxma dərdi,
Kim ona əyildi qolunu gərdi.

***

39. Hamını isitmir həyat istisi,
Fəqət acışdırır gözü tüstüsü.

***

40. Yerin dağlarından ağır dərd dağı,
Odur ki, qırılır ürəyin bağı.

***

41. Həyat hər insana şirin görünür,
Hər qəlbin içində ağrı sürünür.

***

42. Hər gözün evində firqət görünür,
Firqətin içində heyrət görünür.

***

43. Həyatın eşqidir doğan diləyi,
Bu eşq də yaşadır yalnız ürəyi.

***

44. Sözü bişirməmiş dilə gətirmə,
Kimsənin qəlbinə fəna yetirmə.

***

45. Beyin Yaradandan bir sirli nağıl,
Hər kəsə paylanmır bərabər ağıl.

***

46. Keçmişin bilməyən sabahı qara,
Qaralar içində ömrə nə çara?

***

47. Zülmətdən boylanan Ay da işıqdır,
Aydan ələnən nur qaşıq-qaşıqdır.

***

48. Ağıl baş içində haqqın yuvası,
Odur ki, Tanrıya yetir duası.

***

49. Torpaq, yurd, dil eşqi bələkdən gəlir,
Vətənin sevdası ürəkdən gəlir.

***

50. Ürəyi sevdayla yükləmək olmaz,
Sevdanı kədərlə təkləmək olmaz.

***

51. Düşüncəsiz etsən hər hərəkəti,
Gətirər ömrünə min fəlakəti.

***

52. Doğrunu yalandan ayırmayan kəs,
Həyat yollarında addımı əbəs.

***

53. Qovmasan ömrünün önündən çəni,
Ömrün küləkləri aparar səni.

***

54. Tanımaq istəsən bacı-qardaşı,
Gərək ki, olasan bir yol yoldaşı.

***

55. Olmasa ömrünün min bir cəfası,
Həyat yollarına çatmaz vəfası.

***

56. Canı dərd əlindən qoparmaq olmaz,
Ürəkdən ağrını aparmaq olmaz.

***

57. Səadət içində keçsə həyatın,
Demək boşa çapmıb o ömür atın.

***

58. Ağrını içində gizlədən insan,
Çox çəkməz ağrıya yem olar asan.

***

59. Ömür uzandıqca günahlar artır,
Hər günah içində bir şeytan yatır.

***

60. Sakitlik görünmür heç bu dünyada,
İnsanlar çevrilib özünə yada.

***

61. Heç kəsin cibinə dikmə gözünü,
Çıxarda bilmərsən sonra özünü.

22.08.2008

***

62. Taleydən heç zaman gözləmə nicat,
Yalnız çalışanı istəyir həyat.

***

63. Ağıldan doğulur canın ağrısı.
Elə bu ağrı da olur oğrusu.

***

64. Əzabın içindən zəhmət doğulur,
Zəhmət bətinindən nemət doğulur.

***

65. Duyğudan alışır ürək şam kimi,
Duyğusuz qəlb özü bir axşam kimi.

***

66. Diləyin ağrısı ürəkdən keçir,
Ürəyin ağrısı ələkdən keçir.

***

67. Hələ o dünyadan gələn olmayıb,
Bəndənin can sirin bilən olmayıb.

***

68. Hisslərə qapılıb qul olan kəsin,
Hisslər də öldürər bir gün həvəsin.

23.08.2008

***

69. Ağıl işlətməyən qəlbə qısılar,
Ürək qapısından bir gün asılar.

***

70. Hər insan könlündə acı kədər var,
Kədərin boyuna biçli qədər var.

***

71. Hər bir doğulanın kədəri axşam,
Axşama nur verib əriyən də şam.

***

72. Dərd dilə gələndə haray qoparır,
Harayı özüylə haqqa aparır.

***

73. Sübhün gözlərindən yaşlar boylanır,
Yaşların içindən başlar boylanır.

***

74. Əzəli dünyanın sonu gələcək,
Hər gələn dünyada bir gün öləcək.

***

75. Ahlardan yaranan dünya bir quyu,
Elə baş vurduqca bulanır suyu.

***

76. İllərin zəhməti gəzir üzündə,
Ey adam, axtarma haqqı özündə.

***

78. Pak başa nalayiq fikir gəlməyir,
Hər fikir içində məkir gəlməyir.

***

79. Həyatın o üzü qanlı bir tişə,
Əlinə keçəni keçirir dişə.

18.09.2008

***

80. Vara peyman edib yığma sərvəti,
Çünki əllərdədi dünya neməti.

***

81. Hiylədən doğulur cahanda nifaq,
Onun ovsunundan dağılır tifaq.

***

82. Ürəyin açarı ağıla düşmür,
Zəka haqqın sirri şərlə görüşmür.

***

83. Ayrılıq ürəyi yandıran atəş,
Ondan alovlanır eşq adlı günəş.

***

84. Dünya nərd taxtası bizsə zərlərik,
Atılıb düşməkdən ölüb çərlərik.

***

85. Sərvətin ülfəti eşqə aparır,
Rəbb verən ömürlə məşqə aparır.

***

86. Ağlı işlətməsən çətinlik gərməz,
Səadət heç zaman qapından girməz.

***

87. Zaman acısından canı qorxutma,
Ömrün günlərini boşa axıtma.

***

88. Hər kəsin ağrısı içində yatır,
Ayılıb duranda aləmi qatır.

***

89. Kamillik beyindən ürəyə keçir,
Ağlın çeşməsindən can suyu içir.

***

90. Zehində artırsan mərifətini,
Tanrı zərə tutar can afətini.

21.09.2008

***

91. Sözü ağılından ürəyə keçir,
O yersiz olanda çox vaxt qan içir.

***

92. Dünyanın dörd yerdə durur cəhəti,
Ürək dörd qütblə qurur səhhəti.

***

93. Ağıla qul olmayan dəli kimidir,
Hər ürək cahanın əli kimidir.

***

94. Sevda yolçuları dünyadan keçdi,
Sevgi çeşməsindən bir ovuc içdi.

***

95. Dilə İlahidən məhəbbətini,
Ağrıyla doldurma can səbətini.

***

96. Ömür gəldiyi tək tez ötür qəfil,
Boşuna ötürmə, ey dili qafil.

***

97. Ağrının əzabı başda gizlənir,
Ağıl ensə ona baş kənizlənir.

***

98. Zehninə gül olub qəlbi təkləmə,
Canın təndə təkdir, onu yükləmə.

***

99. Boğazın harama açsa qapını,
Şeytan ələ alar ömür sapını.

***

100. Hər ömrün zamanla vaxt sükanı var,
Hər canın bədəndə bir dükanı var.

***

101. Hər gülün yanında göz tikanı var,
Könüllər titrədən eşq məkanı var.



***

102. Mərifət əhlinin ruhu işıqdır,
Bu işıq dünyaya bir yaraşıqdır.

***

103. Zülmətin qəlbinə sübh yara açır,
Sabahın bağrına Rəbb nuru saçır.

***

104. Yoxuş titrəyəndə dərə heykənir,
Dünyanın kürəyi dağa söykənir.

***

105. Ömür yiyəsinə tufan tək əsdi,
Zamanın qayçısı anları kəsdi.

***

106. Başda ağıl adlı Rəbb neməti var,
Tənin can deyilən əmanəti var.

***

107. Ömür yiyəsinə Tanrı neməti,
Ağıldan aslıdır canın hörməti.

***

108. Ömür bir dəryadır selləri coşqun,
Çalışmaq artırır həyatın eşqin.

***

109. Hər qara fikirlər ömrün biçini,
Qəlbdə yer eyləsən yeyər içini.

***

110. Qandan, kökdən gələn qəlbə tərbiyə,
Hər kəsin canına düşməyir niyə?

***

111. Pula hərisliyi eyləmə qida,
O sənin ömrünə tez edər vida.

***

112. Məhəbbətin şövqü könül hicranı,
O əlvan bəzəyir eşq ilə canı.

***

113. Nahaqqın ağrısı ədadan gəlir,
Haqqının doğrusu nidadan gəlir.

***

114. Zinəti eyləmə könlünə afət,
Şeytanın hüsünü bəzər qiyafət.

***

115. Sözün hər gəlişi, gedişi təbdə,
Onun qıfılının açarı Rəbdə.

***

116. Can bədəndə çəkir tale yükünü,
Ruha qovuşanda atır kürkünü.

***

117. Dəlilik ağılı qoyur yuxuda,
Hər insan ömürü qara-qorxuda.

***

118. Ağlın o üzündə divanəlik var,
Onun səcdəsinə pərvanəlik var.

***

119. Zülmətdən parlayan Ay bir günəşdir,
Gecənin sinəsin yaxan atəşdi.

***

120. Fikrini qərq edər ağlın nəş'əsi,
Dərinə enəndə udar nə'şəsi.

***

121. Taleyin çırağı hər ömrə səhər,
Səhər korlaşanda nur verir bəhər.

***

122. Diləyi olmayan ürək çağlamaz,
Deyirlər, «yıxılan özü ağlamaz».

***

123. Ürəyin yarası sözlə bitişmir,
Ağacın bəhəri vaxtsız yetişmir.

***

124. Dərinə gedəndə ağıl vaylanır,
Onun dövrəsində ürək haylanır.

***

125. Ürəkdə alışan közə sadiq ol,
Dildən çıxartdığın sözə sadiq ol.

***

126. Rəbbinə bağlıdır insanın ömrü,
Sonuna yetməyi Allahın əmri.

***

127. Biçarə ürəklə qurma nifaqı,
Allahdan aslıdır can ittifaqı.



***

128. Bəzə idrakınla mərcan evini,
Yaşat fitrətinlə o can evini.

***

129. Sanyənin harayı anda partlayar,
Ağılın cövhəri canda çatlayar.

***

130. İdrakın sütunu ürəyə çatar,
Sütunlar içində min gövhər yatar.

***

131. Zəkanın ağrısı ürəkdən keçir,
Ürəyin sədası diləkdən keçir.

***

132. O kəs ki, pul-varla bir ülfət qurdu,
Çapıb talayacaq gözünün qurdu.

***

133. Cana layla çalır tənin beşiyi,
Qoyma ki, şeytanlar çəkə keşiyi.

***

134. Can əyninə gəlməz iblisin donu,
Gəldisə, deməli yetişib sonu.

***

135. Ağlın həyasından hikmət doğulur,
Nadanlar içinə düşsə boğulur.

***

136. Bəlkə yaza bilər şeiri hamı,
Ancaq Rəbb hamıya vermir ilhamı.

***

137. Xilqətin əlində dünya bir şamdı,
Zülməti zəhərdi, işığı kamdı.

***

138. Çırpma qanadını, ey könül quşu,
Dağıdıb tökərsən qəlb uçulmuşu.

***

139. Hər zəka törədə bilər heyrəti,
Əgər kök atıbsa canda qeyrəti.

***

140. Səadət işığı cana düşməyir,
İnsan öz canıyla heç görüşməyir.

***

141. Kiminin ağrısı bəbəkdə yatır,
Kiminin ağrısı ürəkdə yatır.

***

142. Ağlının qapısın şeytana açma,
Hər parıltı gələn tərəfə qaçma.

***

143. Möhnət işığının çırağı olmaz,
Qəfil gələn dərdin sorağı olmaz.

***

144. İgidin qüvvəsi qolunda yatır,
Şeytanın tələsi yolunda yatır.

***

145. Sahiblik hissiylə ağlını qoru,
Könül ocağından itməsin qoru.

***

146. Hər kəsin tənində bir can yaşayır,
Hər canın içində hicran yaşayır.

***

147. Ağıldan itirmə Vətən eşqini,
Can necə itirmir o tən eşqini.

***

148. Çiçəyin solması fəsildən gəlir,
Ağılın solması nəsildən gəlir.

***

149. Ağıllı başlarda zillət görünür,
Ağılsız başlarda illət görünür.

***

150. Sadəlik böyüklük fövqündə durur,
Davranış hər kəsin zövqündə durur.

***

151. Eşqin ağrısını ürək, can çəkir,
Sözün doğrusunu həyəcan çəkir.

***

152. Lampanın piltəsi alovdan keçir,
Dəryanın balığı tilovdan keçir.

***

153. Əyrinin min rəngə çalır sifəti,
Yalandır, hiylədir nazlı afəti.

***

154. Qurdun yem ağrısı dişindən keçir,
Səhərdən qurduğu işindən keçir.

***

155. Vüqarı olanlar yay tək əyilməz,
Yaxşılıq edilər, dillə deyilməz.

***

156. Ömürün günləri darıya bənzər,
Vaxtın tarlasını sünbülü bəzər.

***

157. Məhəbbət Allahdan bir gül qoxusu,
Ürəyi behiştə atar yuxusu.

***

158. Saxta gələn gülüş dodaqda çatlar,
Sədası qulağın içində partlar.

***

159. Daxilin paklığı üzə işıqdır,
Necə ki, bədənə can yaraşıqdır.

***

160. Heç kəs eşitməyib Allahın səsin,
Fəqət Allah verir cana nəfəsin.

***

161. Ömürdə görərsən həyatın üzün,
Pərdətək bürüyüb hər cana özün.

***

162. Müdrikin boğçası başa bükülür,
Dayazın bağçası qıştək tökülür.

***

163. Qızılın saflığı əyyara bağlı,
Hər sözün qiyməti meyara bağlı.

***

164. Acını şirintək yemək olmayır,
Hər gələn kəlməni demək olmayır.

***

165. Sözlərin dəryası ağızda batır,
Dəryanın içində dalğalar yatır.

***

166. Günəşin şəfəqi atəşlər saçar,
Atəşdən yaxılan kölgəyə qaçar.

***

167. Ulduzun şöləsi zülmətə çıraq,
Hər çıraq planet eşqindən soraq.

***

168. Fırtına qopmamış yuxulu olur,
Çayın lal axması qorxulu olur.

***

169. Hörmətin cəlalı vardan başlayır,
Eşqin ucalığı yardan başlayır.

***

170. Hər kəsdə olmayır könül saflığı,
Ağılı qoruyur öz sərraflığı.

***

171. Hiyləyə qarışıb şahların başı,
Dünyanın naləsi çatladır daşı.

***

172. Hər bəxtə Xaliqdən işıq düşməyir,
Hər dolu qazana qaşıq düşməyir.

***

173. Beşiyin bəzəyi uşaqdan aslı,
Göyün yeddi qatı qurşaqdan aslı.

***

174. Səadət eşqiylə coşsa diləklər,
Heç zaman çirkaba batmaz ürəklər.

***

175. Eşqin ağırlığı saplanır qəlbə,
Sığışmır ölçüyə, meyara, qəlbə.

***

176. Bəşər Yaradanın hicran siniri,
Çəkdikcə titrəyir bu can siniri.

***

177. Sərvət meyarına salma qazancı,
Doğurar qarında sağalmaz sancı.

***

178. Ömür tale adlı nağıldan keçir,
Ürəyin ağrısı ağıldan keçir.

***

179. Ömürün fürsəti zaman içində,
Saatın zəmisi hər an biçində.

***

180. Hər kəsin ulduzu göylərdən baxır,
Haqqın dəryasından süzülüb axır.

***

181. Gözdən hər acını kirpik qovlayır,
Bəbəyin yaşını can alovlayır.

21.09.2008

***

182. Ocağın atəşi közlə bilinər,
İlhamın güclüsü sözlə bilinər.

***

183. Ağıl ucalığı beyindən başlar,
İnsanın kimliyi əyindən başlar.

***

184. Kəlmələr alışar şüurla köz-köz,
Bir atım barıtdı dildən çıxan söz.

***

185. Həyanın pərdəsi haqqın dilidir,
Üzdən çəkiləndə o da ölüdür.

***

186. İşığı olmayan ağıl çağlamaz,
Ürək bu ağıla peyman bağlamaz.

***

187. Başda nə var isə sayılar çəki,
Ömürlə ölçülür hər canın yükü.

***

188. Ürəyin ağrısı məzar kimidir,
Hicranın yuxusu azar kimidir.

***

189. Məhəbbət can içrə açılan sabah,
Onun sinəsini qanatmasın ah.

***

190. Millətin işığı özündən keçir,
Çatdığı ocağı közündən keçir.

***

191. Zaman arabası buraxmır izi.
Təkəri üstündə fırladır bizi.

***

192. İşığın ölçüsü sürətdən keçir,
Surətin elçisi heyrətdən keçir.

***

193. Mənbəyi olmayan bulaq çağlamaz,
«Özü yıxılanlar heç vaxt ağlamaz».

***

194. Dərənin çeşməsi dağlar içində,
Sözün sayılmasa ağlar içində.

***

195. Haqqın işartısı əzabdan keçir,
Səbirin ölçüsü min tabdan keçir.

***

196. Dilinin altından əskiltmə qəndi,
Onun dəryasında ağılın bəndi.

***

197. Möhnətin işığı qüdrətə bağlı,
İmtahana çəkir o min yol ağlı.

***

198. Beşikdən məzara yol gedirik biz,
Haqqın dərgahına qul gedirik biz.

***

199. Dünya eşq üstündə qurulan bir vaxt,
Ondan cövhər verir hər insana baxt.

***

200. İşığı olmayan ulduz görünməz,
Zülmət ayağına düşüb sürünməz.

***

201.Yaxşının kəlməsi ağızda qalır,
Deyilən hər misra kağızda qalır.

***

202. Güclü gücsüz əzir ömrü uzunu,
Tapşırma heç zaman qurda quzunu.

***

203. Əzabın hamısı ağılla ötmür,
Ömrə düşən qismət nağılla ötmür.

***

204. Hər ömrün ağappaq vərəqi vardır,
Vərəqə nur salan çıraqı vardır.

***

205. Ömür dəryalarda qayığa bənzər,
Suların üstündə harayı gəzər.

***

206. Allaha bağlanan ehkam kin deyil,
Ehkamın içində batan din deyil.

***

207. Millət ağrımasa Vətən doğulmaz,
Vətənin sədası içdə boğulmaz.

***

208. Yer-göy haray çəkir fələk içində,
Canın hər ağrısı ürək içində.

***

209. Qəlbə şölə saçır ağlın işığı,
Ağılla ölçülür can yaraşığı.

***

210. Təb ağıldan gələn ürəyə çeşmə,
O özü çağlayar, gözünü deşmə.

***

211. Haqqın işığının qəlbə nuru var,
Mənliyi olanın dağ qüruru var.

***

212. Hikmət bağçasında zəhmət görünür,
Zəhmətin içində nemət görünür.

***

213. Qayanın sədası dağı oynadır,
Çeşmənin ədası gözü qaynadır.

***

214. Zamanın dalında hər ömür yükü,
Ölçüyə, meyara sığmır bu çəki.

***

215. Nə qədər bədəni canı tərk etməz,
Gözdən həyat eşqi çəkilib getməz.

***

216. Dağın zərbəsini sal buzlar çəkir,
Sübhün keşiyini ulduzlar çəkir.

***

217. Günü xoş keçənin üzü ağ olar,
Ömrü qış keçənin qəlbi dağ olar.

***

218. Ağrıya can verib peyman istəmə.
Hər peyman içindən iman istəmə.

***

219. Zülmətlər qeyb olur işıq içində
Qazanın odu var qaşıq içində.

***

220. Vətənin sevdası qəlbdə aşınmaz,
Qürbətə torbayla heç yurd daşınmaz.

***

221. Buludun dolmağı yağışdan keçir,
Adamın solmağı baxışdan keçir.

***

222. Ürəyi ağradır canın ağrısı,
Sonda da çevrilib olur oğrusu.

***

223. Bir işıq sürəti insan ömürü,
Allahın dilindən aslı əmiri.

***

224. İlhamın işığın közə bağlama,
Hər cızma-qaranı sözə bağlama.

***

225. İlhama bağlanan könül tox olar,
Ələ qələm alıb yazan çox olar.

***

226. Ömrü axıb gedən vaxt, an yaşadır,
Hər kəsin ağrısın bir can yaşadır.

***

227. Hər kəsin qəlb bağı çiçək açmayır,
Çiçəklər yarpağa ürək açmayır.

***

228. Xainin dilinin cəzası böyük,
Haqqa dönüklərin qəzası böyük.

***

229. Beyini şeirlə açırsan, payız,
Könlümdə atəşlər saçırsan, payız.

***

230. Ocağın atəşdən qoru çatlayır,
Canın təndən ayrı goru çatlayır,

***

231. Bədən gəmisində qayıq görünür,
Can qayıq içində ayıq görünür.

***

232. Tərk edə bilmirəm bu canı, ey dil,
Canda qövr eləyən hicranı, ey dil.

***

233. Həyatın işığı çıraqdır ömrə,
Onun sevdası var Rəbb verən əmrə.

***

234. Tamahın sevdası gödəndən keçir,
Damarda qövr edib bədəndən keçir.

***

235. Dövrün dəryaları udur cahili,
Necə ki, dalğalar yuyur sahili.

***

236. İşığın zülmətdən qorxusu gəlir,
Zülmətin işıqdan yuxusu gəlir.

***

237. Həyatın zirvəsi ucada qalır.
O layiq olanı qoynuna alır.

26.09.2008

***

238. Dünyada heç kəsdən gözləmə kömək,
İnsanı qaldırar, endirər əmək.

***

239. Həyat duyanlara qapısın açar,
Ömrün sonunadək duymayan naçar.

***

240. Layiqsiz başına qoyulsa da tac,
Olar tac ona yox, o, taca möhtac.

***

241. Dilinə gəlmirsə həqiqət adı,
Gözləmə haqqından sən heç imdadı.

***

242. Ay öz işığıyla gecəni silməz,
Zülmətin üzünü ağarda bilməz.

***

243. Ağılın hiyləsi ürəyi əzir,
Hər kəsin vəfası gözündə gəzir.

***

244. Mənliyi olanın qürur zinəti,
Heç kim götürməsin gərək minnəti,

***

245. Ağlı işlətməyən ayaqda qalar,
Məskənin dərənin dibinə salar.

***

246. Yoxdur heç bir işdə yolun asanı,
Ağıl ayaqlara salmaz insanı.

***

247. Zaman vaxt atında ömürü qovar,
Adamın anlarla səadəti var.

***

248. Doğuldun, qədrini bil hər bir anın,
Ömür qulu olub müdrik olanın.

***

249. Sevgisi olanın ürəyi olar,
Sevgisi olmayan düzlərdə qalar.

***

250. Sabah eşqə tutar anları bir-bir,
Gecə sübh zəmisin ələyən xəlbir.

***

251. Dünya Yaradanın həyat naxışı,
Hərənin bir cürdür ona baxışı.

***

252. Günəş İlahinin ölçü qaşığı,
Odur ki, hələ də gəlir işığı.

***

253. Haqqın əlindədir səliqə-səhman,
Dünyanı boşuna fırlatmır zaman.

***

254. Haqqa tərəzidir alimin gözü,
Odur ki, dünyanı yaşadır özü.

***

255. Həyatın bir üzü, dərdin min üzü,
Salıb öz sehrinə gecə-gündüzü.

***

256. Dünya öz istisin günəşdən alır,
Ürək alovunu atəşdən alır.

***

257. Bədənin can ilə var bir ülfəti,
Can da hər bədənin nazlı afəti.

***

258. Eşqi ağılında gəzdirən kəsin,
Ağılı batırar ürəyin səsin.

***

259. Ay da hər gecənin zülmət nurudur,
Günəşin ağzından çıxan qorudur.

***

260. Hər kəsin ömürü bir şam işığı,
Şöləsi ölməmiş var yaraşığı.

***

261. Sübhün göz yaşını şəbnəmlər isər,
Hər şəbnəm səhərin bağrından keçər.

***

262. Zamanın hər anı vaxt nərdivanı,
Canın haqq gedişi tənin divanı.

***

263. Ağıldan yapışan elmə gedir,
Ürəklə tapışan ölümə gedir.

***

264. Mehrini kitaba salan uduzmaz,
Enişdən, yoxuşdan keçəndə azmaz.

***

265. Haqqı itirənin ürəyi olmaz,
Ürəyi olsa da çörəyi olmaz.

***

266. Kim ki, öz ömrünü sayır tamaşa,
Heç vura bilməyir rolunu başa.

***

267. Dərya sevdasına lazımdır üzgü,
Hər kəsin ömürü həyata güzgü.

***

268. Hər qəlbə od verir sevgi közündən,
Kim əzab çəkməyib eşqin üzündən?

***

269. Dilin mərhəməti qəlbə yetməyir,
Edilən yaxşılıq heç vaxt itməyir.

***

270. Ürəyə sitəmdir dilin ağrısı,
Kim yara görməyib ondan doğrusu?

***

271. Var-dövlət qulaqdan dincliyi alır,
Vaxt ötürən zaman, gəncliyi alır.

***

272. Hər almaz içində büllur arama,
Tutdan ipək alır zorla barama.

***

273. Yaxşının gözünə pis görünməyir,
Ocağın gözünə his görünməyir.

***

274. Buludu gizlədər dağın dumanı,
Ürəyi közlədər ahı-amanı.

***

275. Nə qədər alüdə olsa da zərə,
Can yükünü çəkir dünyada hərə.

***

276. İnsanın bədənin canı əridir,
Aləmdən hifz edən onu dəridir.

***

277. Könlün naləsinə ürək əl çalar,
Hiss üstün olanda ağıl alçalar.

***

278. Yolun yoxuşunu çıxarsa insan,
Enişə çatanda yol gəlir asan.

***

279. Çeşmənin gözündən hər arx su içmir,
Mərifət sahibi ağıldan keçmir.

***

280. Zülmətin işığı Günəşdən doğur,
O da Ay adıyla gecəni boğur.

***

281. Bəbəkdə doğulur hicran yağışı,
O bədən içində bir can yağışı.

***

282. Bu dünya bir üzük qaşına bənzər,
Qaşın parlaqlığı yaşına bənzər.

***

283. Hər ömrün taleyi an içindədir,
Hər kəsin ağrısı can içindədir.



***

284. Hər ağıl yiyəsi neçə dərd çəkir?
Dərdi də dünyada yalnız mərd çəkir.

***

285. Canın işığından ürək ovlanır,
Elə bu işığa düşüb tovlanır.

***

286. Vaxtın əlindədir ömrün açarı,
O, necə saxlasın əldən uçarı?

***

287. Ürəyin sədası ağıza qalır,
Ağızın qadası kağıza qalır.

***

288. Paxılın ürəyi azarlı olar,
Torpağın sinəsi məzarlı olar.

***

289. Çalış salmayasan ürəyi vaya,
Salsan da yetişən olmayır haya.

***

290. Dünya tarix olub nağıl üzündən,
Dil bəlanı çəkib ağıl üzündən.

***

291. Əgər gözləyirsən vəfa fələkdən,
Paxıllıq hissini çıxar ürəkdən.

***

292. Can çəkən ağrılar ürəkdən gəlir,
Həm yaxşı, həm yaman diləkdən gəlir.

***

293. Dil zəhər dadanda ürək vaylanır,
Can anın başına min yol haylanır.

***

294. Bədənin ağrısı cana zülümdü,
Zülümün sonunda qara ölümdü.

***

295. Ağıl çalxananda zehin açılar,
Bu zehin içindən hikmət saçılar.

***

296. Ağıla tapınan – məlalı olmaz,
Ürəyə sığınan – cəlalı olmaz.



***

297. Hər kəsin ağlında bir cürdür sevda,
Kiminə ədadı, kiminə qida.

***

298. Duyğular coşmasa şeir doğulmaz,
Kəsadlıq içində misra boğulmaz.

***

299. Ömürün möhləti an içindədir,
Əzabın möhnəti can içindədir.

***

300. Məhəbbət Yaradan mələyindədir,
Onu sevənlərin ürəyindədir.

***

301. Ürəyin şəfqəti ağızdan keçir,
İlhamın hikməti kağızdan keçir.

***

302. Dərdin böyüklüyü ürəkdən keçir,
Ürəyin ağrısı fələkdən keçir.

***

303. Hər kəsin könlündə həyat işığı,
Sağ ikən sayılır can yaraşığı.

***

304. Var ilə sayılmaz dostluğa vəfa,
Onun sınağının ölçüsü cəfa.

***

305. İstəyin qiyməti dillə bilinər,
Könül açıqlığı illə bilinər.

***

306. Səhərin açmağı zülümə bənzər,
Axşamın gəlməyi ölümə bənzər.

***

307. Beyinə gətirsən şövq ilə iman,
O, sənə şölələr saçar hər zaman.

***

307. Ürəyin kəhrizi hiss-həyəcandır,
Beyinin pəhrizi bir ovuc qandır.

***

308. Vicdanı arama qanlar içində,
Əgər o yoxdursa canlar içində.

***

309. Bərənin batmağı dəryadan gəlir,
Adamın batmağı həyadan gəlir.

***

310. Eyləmə ürəyi ağıla dəstək,
Heç kəsi axıra aparmıb istək.

***

311. Xətadan qayıtmaq – haqqı yaşatmaq,
Xətanı oyatmaq – haqqı uyutmaq.

***

312. Ağılın ağrısı başdan başlayır,
Çox ürək qüsuru yaşdan başlayır.

***

313. Eyləmə ömürü xətaya çıraq,
Xətalar həyatdan verməyir soraq.

***

314. Təbsiz söz vərəqin üstündə azır,
Hərə öz ağlının gücüylə yazır.

***

315. Ağılı olmayan həyata naşı,
Ürəyi olmayan qapının daşı.

***

316. Minnətə əyilən zirvədə uçar,
Büdrəsə, ayağı altından qaçar.

***

317. Ürəyin saflığı ağıldan gəlir,
Hissin sərrəflığı nağıldan gəlir.

***

318. Tənin hesabatı qanla ölçülür,
Allahın isbatı canla ölçülür.

***

319. Məhəbbət ürəkdən qəlbə süzülür,
Qədirsiz olanda qəlbdən üzülür.

***

320. Bəşərin sevdası Nuhdan başlayır,
Canın mövcudatı ruhdan başlayır.

***

321. Tən candan qopanda ruha şan verir,
Dərgah qapısına bir nişan verir.

***

322. Vəfatın anlamı – vəfayla bağlı,
Allah hüzuruna aparır ağlı.

***

323. Dünya nədir? Mənəviyyat-məkan yeri,
Haqqın sənə verdiyi vaxt-imkan yeri.

***

324. Gecə – dərd gətirən,
Gündüz – dərd itirən.

***

325. Qəlbi sındırarlar, əyə bilməzlər,
Can Allah sirridir dəyə bilməzlər.

***

326. Vəfasızla bu dünyamız doludu,
Vəfasızlıq hansı haqqın yoludu?

***

327. Məhəbbət şirindir, gah da ki acı,
Eşqin göylərdədir ilahi tacı.

***

328. Şair kəs çəkilər öz xanəsinə,
Çevrilər Allahın divanəsinə.

***

329. Halıma anamtək ağlayır gedir,
Dərd məni özünə bağlayır gedir.

***

330. Siz məni qınamın, ey bəni-bəşər,
Haqdan yazmaramsa qəlbə qan düşər.

***

331. Vətəndən qeyri mənə qürbətdi,
Vətənin zəhəri də şərbətdi.

***

332. Bu zaman ələnir haqq çıxır üzə,
Əsil şairləri çıxarır üzə.

***

333. Göz yaşımı bəbəyimdən asaram,
Ürəyimin ağzına daş basaram.

***

334. İnsan cilidinə girmiş iblis,
Bürüyübdü qəlbini bir pis hiss.

***

335. Hamını yola salan dünya,
Hamıdan dala qalan dünya.

12.09.2009

***

336. Hər kəs öz yerini bilsə, nə yaxşı,
Haqq qoyduğu yola gəlsə, nə yaxşı.

20.10.2011

MÜƏLLİF HAQQINDA

Şirinxanım Ağabala qızı Kərimbəyli (ədəbi təxəllüsü ŞADİMAN) 2 sentyabr 1955-ci ildə Siyəzən (keçmiş Dəvəçi

(indiki Şabran)) bölgəsinin Tağay kəndində anadan olub. Doğulduğu kənddə səkkizillik məktəbi, sonra Siyəzən şəhər

2 saylı orta məktəbi bitirib. 1973-75-ci illərdə Yenikənd üzümçülük sovxozunda fəhlə, 1975-77-ci illərdə Volodarski adına tikiş fabrikində tikişçi işləyib. 1977-ci ildə ADU-nun (indiki BDU) hazirliq şöbəsində dinləyici , 1978-\83-cü illərdə Kitabxanaçılıq(indiki İnformatika) fakültəsinin əyani şöbəsini bitirib. 1992-ci ildə Azərbaycan Jurnalist Sənətkarlığı İnstitutunun məzunu olub. 1984-cü ildə Dəvəçi rayonunun (indiki Şabran) hal-hazırda Siyəzən rayonun inzibati ərazisi sayılan Gilgilçay qəsəbəsində kitabxana müdiri vəzifəsində çalışıb. 1985-2007-ci illərdə ADNŞ-nin Mədəngeofizik idarəsinin "Neft Daşları" geofizik ekspedisyasında cizgiçi, texnik, mühəndis peşələrində çalışıb. 2007-ci ildən həmin idarədən əmək təqaüdünə çıxıb. Əmək fəaliyyəti ilə bərabər bədii yaradıcılığını davam etdirib. Dövrü mətbuatın mətbu orqanları olan "Neft Daşları", "Ədalət", "Çənlibel", "Azərbaycan müəllimi", "Bütöv Azərbaycan", "Kredo" , "Mütərcim" ,"Məhsəti" və sair qəzet-jurnallarda çap olunub. "Məcməüş-şüəra" ("Şairlər məclisi"), "Füzuli" ədəbi məclislərinin üzvü olub. AYB-nin üzvüdir. Hal-hazırda ədəbi fəaliyyətlə məşğuldur. "Kredo" qəzetinin əməkdaşıdır.

Müəllifin çapdan çıxmış kitabları:

1. «Ürək niyə ağrıyırsan?», (Şeirlər), Bakı-1991, «Azərnəşr», 56 səhifə, sayı 3000.
2. «Çəkənə qəm dünya, çəkməyənə dəm dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2000, AEK «Marfa press» nəşr., 400 səhifə, sayı 1000.
3. «Kiminə acı dünya, kiminin tacı dünya», (Şeirlər, poemalar, pyeslər), Bakı-2002, «Nurlan», nəşr., 566 səhifə, sayı 500.
4. «Ağıla bəhər dünya, ürəyə qəhər dünya» (Şeirlər, poema), Bakı -2007, «Nurlan» nəşr., 742 səhifə, sayı 500.
5. «Seçmələr» (1 cild), Bakı-2008, «Nurlan» nəşr., 292 səhifə, sayı 1200.
6. «Məni illərdən soruşun» (Publisist düşüncə), Bakı-2008, «MBM» 95 səhifə, sayı 500.
7. «Dünya mənə tanış gəlir» adı ilə «Ürək niyə ağrıyırsan?» və «Səkənə qəm dünya, çəkməyənə dəm dünya» kitablarının birlikdə təkrar nəşri, Bakı-2009, «Nurlan» nəşr., 522 səhifə, sayı1000.
8. «Tağayım», poema, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 56, sayı 500.

Müəllif və əsərləri haqqında çap olunmuş kitablar:

1. «Adı Şadiman olanın...», Əli Rza Xələfli, Bakı-2009, «Təknur» nəş., səhifə 256, sayı 1000.
2. «Axtala əfsanəsi», Əli Rza Xələfli, Bakı-2010, «Adiloğlu» nəşr., səhifə 144, sayı 500.
3. «Üç rəngli bayrağa bürünmüş şairə» Nəzirməmməd Zöhrablı, Bakı-2010, «Adiloğlu» nəşr., 148 səhifə, sayı 500.
4. «Qırmızı həqiqətlər», Əli Rza Xələfli, Bakı-2011, «Adiloğlu» nəşr., səhifə 130, sayı 500.

MÜNDƏRİCAT

QƏLƏMƏ VƏ SÖZƏ MƏCNUN ŞİRİN..... 3

SƏNƏ AÇILIBDI ƏLLƏR, İLAHİ

SƏCDƏ NƏ GƏRƏK HƏR BÜTƏ ALLAH OLAN YERDƏ? 13
İLAHİ, SƏN MƏNİ ODA SALMISAN 14
ALLAH ÖZ SİRRİNİ BİZƏ VERMƏYİR 14
BAĞIŞLA, ALLAHIM, BAĞIŞLA 16
ALLAH BİZİM YANIMIZDA 18
VAXTIMIZ DALIMIZCA GƏZİR 18
DOLAŞIR YERİ-GÖYÜ QƏM-QADALAR 21
ŞÜKÜR SƏNƏ, ALLAHIM 21
SƏNƏ AÇILIBDI ƏLLƏR İLAHİ 22

EY BİR DƏLİ SEVDA, DÜNYA

EY BİR DƏLİ SEVDA DÜNYA 23
DÜNYANIN QƏMİNƏ QƏM KİMİ BAXDIM 24
MƏHKUMAM BU DÜNYADA YAŞAMAĞA 24
BU DÜNYA ÜZÜ 26
ZAMAN YAŞDA 28
MİN BİR HALA DÜŞDÜ DÜNYA 29
EY EHRAMLAR GÖZƏLİ-ŞANLİ MİSİR 30
ADAMİN SÖZÜNÜ GÖYƏRDƏRLƏR 31
İLAHİ DÜNYANİN EŞQİ 32
DÜNYA YAMAN SİXİR MƏNİ 34
OLİMPİYA 35
BU DÜNYA BAŞI KƏSİLMİŞ AĞAC KÖTÜYÜ 36
AÇIN SƏRHƏDLƏRİ, QİRİN SƏDLƏRİ 37
QARA FİKİRLƏR OLMASA... 38
EY MAĞARALAR İNSANI 39
DÜŞÜB QANLAR GÖLÜNƏ ÜZÜR FƏLƏSTİN, AY AMAN 41
FƏLƏSTİN UŞAQLARI 42
BU FƏLƏSTİNLİ QIZI 43
QƏZZADA GÜLLƏ YAĞIŞI 44
XƏYALLARDA YAŞATDIĞIM TÜRKİYƏ 46
DÜNYANI LƏRZƏYƏ GƏTİRDİ SÖZÜN 48
AXDI KÜÇƏLƏRƏ QANI UYĞURUN 49
BİR UYĞUR ÇOCUĞU TƏPİKLƏR ALTDA 51
YARDIMA GEDƏN GƏMİ 52
İLAHİ, BU GÖRDÜYÜM HƏQİQƏT, YA YUXUMU? 54

YOXDUR HARAYINA GƏLƏN KƏRKÜKÜN....56
TÜRKİYƏ, TƏK QOYMA İRAQ TÜRKÜNÜ....58
HAQQLI OLMAQ İSTƏYİRSƏN, GÜCLÜ OL....60
BATABATDA....62
MƏDDAHLIQ ZAMANIN ÜRƏYİNƏ OX....63
AY ADAMLAR, QINAMAYIN SİZ MƏNİ....64
KİTAB BİR İŞIQDIR MƏNƏVİYYATA....65
CAN MƏKANI-DÜNYA ÖZÜ BİR YOLÇU....66
AXIR VAXTLAR ARTIB QƏFİL ÖLÜMLƏR....67
ƏRƏB ÖLKƏLƏRİ QALXIB AYAĞA....68
GÜNƏŞİSEVƏRLƏR DEYİLLƏR SƏNƏ....69
ÖLMƏKDƏN DƏ AĞIR YAŞAMAQ İMİŞ....70
DÜNYA MƏNLƏ HEÇ ÜLFƏTİN TUTMADI....72
MİN BİR NÖVDƏ İMİŞ İNSANLAR DEMƏ....73

KÖNLÜMÜN YUVASI VƏTƏN

AZƏRBAYCAN....74
ANA DİLİM....78
AH, YAZIQ MƏMLƏKƏT, AH, YAZIQ VƏTƏN....80
MƏN VƏTƏNƏM....82
QANLARA BOYANDI BAKI AH İLƏ....84
ZƏNCİRLƏNMİŞ PROMETEY....87
DİLİMİZİN DUASI....88
İNDİ HAMI VARLIYA, PULLUYA TƏ'ZİM EDİR....90
BİR TƏRƏFDƏ ŞƏHİDLƏR, BİR TƏRƏFDƏ DANIŞIQ....92
DÜŞMƏNİ KÖKSÜNDƏN VURDUN, MÜBARİZ....93
VƏTƏNDƏN YAZAQ....95
BİZİ BU DƏRD İLƏ BARIŞDIRMAYIN....97
MƏNƏ MEYDAN VERİN... 98
YOLUM DÜŞDÜ QARABAĞIN ELİNƏ... 99
TAĞAYIM /Poema/....101
BİRİNCİ HİSSƏ....101
İKİNCİ HİSSƏ....107
BALACA ŞƏHİD FARİZİN HEKAYƏTİ....135

İKİ MƏN ARASINDA

ÜRƏYİM BOŞ DƏYİRMANDIR 142
ÖMÜR QƏRİB DÜŞMÜŞ BİR QUŞA BƏNZƏR 143
HƏR SAAT VAXTDAN GEDİR 144
AĞILIM KƏNARDAN BOYLANIB BAXIR 145
ÜRƏYİM AĞLAYIR LAP UŞAQ KİMİ 146
BİR FIRTINA VAR CAN İÇİNDƏ 146
ELƏ DARIXIRAM ÖTƏN GÜNLƏRƏ 148
NƏDƏN MƏLALISAN SEVDALI ÜRƏK? 148
DƏRD MƏNİ SALIBDI AĞRIYA YAMAN 149
NƏ TEZ ÖTDÜ ZAMANIM? 150
ÜRƏYİM AĞLAYIR GÜNÜMƏ MƏNİM 151
İKİ MƏN ARASINDA 152
MƏN HARDA GİZLƏYİM İZTİRABIMI? 153
BİR GƏRİB ÖMRÜN YOL YOLDAŞIYAM 154
AĞRILARIM DOLAŞIB ÇİYNİMƏ 155
SEVDASI ÜRƏYİNDƏ BATMIŞLARA 156
VƏSFİ-HALIM 157
HAQQIMA AÇILAN QAPIM BAĞLI 159
KÖNÜL HÜCRƏM 160
ÖZÜNÜ ALLAH SAYAN 161
KİM DEYİR HEÇ NƏYİ APARMIR İNSAN? 162
EY MƏNİM RUHUMA CAN OLAN, FƏLƏK 163
HƏR GÜN ALLAHIMDAN BİR GÜN ALIRAM 164
SİRLİ KAİNATDAN ZƏRRƏ TƏK QOPDUM 164
GÖYLƏR, MƏNƏ QOLLARINI AÇ 165
ETDİYİM YAXŞILIQLAR QAPAZ OLDU BAŞIMA 166
EYLƏMƏ KÖNLƏ QADA 167
SALAMIN CƏFASI 168
İNSAN ELƏ XƏSİSDİR 168
DƏRD ÇƏKDİ MƏNİ İÇİNƏ 169
AĞRILAR İÇİNDƏ ALIŞIB YANDIM 170
DƏRYALAR İÇİNDƏ CAN AXTARIRAM 170
ÜRƏK VAR ABAD OLUR 171
AĞLIMIN SELLƏRİ APARIR MƏNİ 171
ÖMÜR AXIR SU KİMİ 172
NƏDİR BELƏ SİNƏMDƏ ÇIRPINIR İKİ SEVDA? 172
DÖZÜM İŞĞALDA 173
EY SİZƏ CAN DEDİKLƏRİM 174
BÜLBÜL TƏKİ ÖTÜR KÖNÜL 174
DEMƏ, ÖMRƏ NƏ VƏFA 175

UÇMA MÖHNƏT QUŞU BAŞIM ÜSTÜNDƏ 176
YENƏ SEVDALANIB UÇURSAN NƏDƏN? 176
AĞRILAR İÇİNDƏ NƏŞ`Ə SAÇIRAM 177
BİZ QAÇMARIQ, ZAMAN BİZDƏN QAÇAR 178
GƏL EY FƏLƏK....179
QADINLAR ÜRƏKDƏN ŞAİR OLURLAR 180
MƏN BELƏ DÜNYADA QALA BİLMİRƏM 180
ŞAİRİN VƏZİFƏSİ 181
İLAHİ, ETDİN NƏVA 182
NƏLƏRİ ÇƏKMİŞƏM MƏN 182
DƏRDİMLƏ TƏKMİŞƏM MƏN 182
MƏDDAHİ 183
İLAHİ, TƏNTİYƏN FƏRYADLARIMI....184
BOYNUMA DOLANIB ZAMANIN İPİ 185
SİZ EY QƏLBİM İLƏ DİLBİR OLANLAR....185
ÇƏKİR KÖNLÜM AĞRILAR 186
SÖZDÜ BİZİ NİZAMA SALAN 187
AĞLIM AH SÖYLƏYİR, ÜRƏYİM FƏĞAN....188
SİZ MƏNİ TANIMAQ İSTƏSƏZ ƏGƏR....188
NİFRƏT....190
NEYLƏYƏK, İNSANLARIQ....190
BU ADAM BAZARINDA İNSANLIĞA ACAM MƏN 191
ÜRƏYİN CAN SİRRİNİ KİMSƏYƏ AÇMAQ OLMUR....191
ŞAİRLƏR DÜNYANIN QƏM DAŞLARIDIR 192
ÜRƏYİMDƏN DAŞ ASILIB 193
DÜNYAYA TİKƏ DÜŞMÜŞƏM 193
FİKİRLƏR HÖRMÜRÇƏK TORU KİMİDİR....194
ÜZÜM DANNANA-DANNANA 194
GƏL TOXUNMA ÜRƏYİMƏ, EY BƏŞƏR 195
MƏNİ BU TALELƏ TƏK BURAXMAYIN 196
HİCRAN KÜLƏKLƏRİ ƏSİR BAŞIMDA 197
ÜZÜMƏ BAĞLANAN QAPILAR....197
YENƏ İLAHININ GƏLİR İŞİĞI 198
QƏMƏ DÜŞÜB QƏM AĞLAYIR 199
YUXUM QAÇIB, AĞLIM OLUB HAVALI....200
HİYLƏYƏ BATIBDI ADAM BAZARI 201
MƏNƏ PİNƏÇİLİK EYLƏMƏ ÜRƏK 202
LƏYAQƏT SATILMIR PULLA, PARAYLA....202
ÖMRÜMƏ YAĞAN YAĞIŞ 204
QAPIMA DÜŞMÜRSƏN MÖHLƏT AÇARI....204
DƏRDİMİ ÇƏKİRƏM DƏRMANƏ SARI....205

MƏNİM MƏZARIMI QAZIYIN UZUN 206
BU ÖMÜR DƏ BİR BƏLADIR BAŞIMA 206
APARIN BƏXTİMİ GÜLZARA SARI 207
BƏXTİMİN DAĞINA ÇIXA BİLMİRƏM 208
BİR SƏADƏT QUŞUYAM 208
BAŞ ÇIXARA BİLMƏYİRƏM 209
İTİRMİŞƏM BAŞIMI 210
NİYƏ BELƏ QOCALMISAN, AY ANA 210
ANLAYAN İNSANA ÇƏTİNDİR HƏYAT 212
YENƏ DƏ ÜRƏYİMDƏ MİN BİR DUYĞU ÇAĞLAYIR 212
MƏN NƏ DEYİM? 213

SIĞINMIŞAM İLHAM ADLI MƏKANIMA

MƏN DÜNYANIN SƏRHƏDLƏRİNİ AŞMIŞAM 214
GECƏNİN SÜKUTUNA XƏYALLARIM RƏQS EDİR 216
PƏNCƏRƏMƏ BİR QUŞ QONDU 217
NƏDİR BELƏ QƏLBƏ DÜŞƏN? 218
BİLMİRƏM NƏ GƏZİR BU CAN İÇİNDƏ? 219
ÖTÜB GETDİ ZAMANLAR 221
KÖNLÜM QƏRİB DÜŞMÜŞ BİR QUŞA BƏNZƏR 222
KÖÇ EDƏN XƏYALLARIM 222
BİR DƏLİ EŞQ İLƏ ÇIRPINIR CANIM 224
HİCRAN GİRİBDİ ÜRƏYƏ 225
ACI RÜZGARIM COŞUR 226
EY HƏYAT 227
ÜSTÜMƏ KƏDƏR YAĞIŞI YAĞIR 228
MƏNİM MÖHNƏTİMDƏN XƏBƏRSİZ GECƏ 229
MƏHBUSAM 230
GÖYÜN ULDUZLARI SAY-SAY DÜZÜLÜB 231
ALIN MƏNİ, EY DALĞALAR 232
ZÜLMƏTİN İÇİNDƏ 232
BAŞIN ATIB YATAN GECƏ 233
CANIM QANADLANIB UÇMAQ İSTƏYİR 234
KARVAN AĞRILARIM KÖÇ TUTUB GƏLİR 234
MƏNİ ÜRƏYİNDƏN ÇIXAR, EY FƏLƏK 235
DƏRYA KİMİ ARZULARIM ÜRƏYİMDƏ QAYNAYIR 235
İSTEDAD ALLAHDAN GƏLƏN MÜKAFAT 236
ÖZÜMÜ ÖZÜMDƏ TAPA BİLMİRƏM 236
VERDİN SƏS-SƏSƏ, ÜRƏYİM 238
YUXUM ÇƏKİLİB ƏRŞƏ 238

KƏDƏRİM BAŞDAN AŞIR 239
SIĞINMIŞAM İLHAM ADLI MƏKANIMA 240
ŞAİR – KAMERTON 240
ÜRƏYİMİN OCAĞI VAR 241
GÜNLƏRİMİN ƏZABINDAN BOYLANIRAM 242
RUHUN AĞRISINDAN OYLANIR ÜRƏK 243
TƏBİMİN QOYNUNDA YATAN MİSRALAR....244
EŞQİN CANA YAXAN TƏBİM 244
UÇAN KÖNÜL 245
GECƏNİN SAAT TIQQILTISI 246
FIRTINAYA BƏNZƏR ÜRƏYİM....246
ÜRƏKDƏ DÜNYA BOYDA AĞRIM 247
SÖZÜN MEYDANI SAVAŞ 248
ÇAĞLAYAN ALƏMLƏR İÇİNDƏ 249
ALIB AĞLIMI BAŞDAN 250
DƏRDƏ QAPI AÇIRAM 251
SƏN EY TALEYİMDƏN XƏBƏRSİZ GECƏ 252
MƏNƏ DİVANƏTƏK BAXIB, EY FƏLƏK 253
MƏNİM İDRAKIMDAN BOYLANAN CANIM 254
ÖLDÜRÜN, DİRİLDİN MƏNİ ADAMLAR 255
İÇİMDƏ DOLAŞIR ACI BİR HƏSRƏT....255
SEVDALARIN EŞQİNƏ 256
GÖRÜN NECƏ HALDAYAM?....257
BİR HƏSRƏT ACISI YANDIRAR MƏNİ 257
DƏLİ ƏSƏN KÜLƏKLƏR 258
AY ADAMLAR, MƏN BURDAYAM 258
YAZIQ ŞEİR....259

SEVDALI DÜNYAMIN NƏĞMƏLƏRİ

AH, MƏHƏBBƏT 260
QIZLAR ƏR EVİNDƏ ANA OLAYDI 261
ÜRƏYİM ÜŞÜYÜR QIŞTƏK 262
YENƏ DOLANIRSAN XƏYALLARIMDA 262
BU DÜNYAYA EŞQİN DƏYƏR 263
MƏNİM YOLLARIMI İZLƏMƏ DAHA....263
GÖZLƏRİM YOLLARINA BAXIR....264
SƏN MƏNİM SEVDALI DÜNYAMIN NƏĞMƏSİSƏN 264
BİR DƏRİN QUYUYA DÜŞÜB EŞQİMİZ....266
EŞQİN SALIB MƏNİ ODA....266
SƏN EY ÜRƏYİMİN MÖHNƏT YUVASI....267
SƏN YOXSAN....268

BU ACI HƏSRƏTLƏ QALDIM BAŞ-BAŞA 269
XƏYALIN OTAQDA UÇUR QUŞ KİMİ 269
MƏNİM SEVDA MƏLƏYİM 270
SƏN ORDA TƏK QALDIN 270
YOLLARIN ÜZÜMƏ GÜLMƏYİR DAHA 271
GÖZLƏRİNİN DƏNİZİNDƏ BATMIŞAM 272
ÜRƏYİN MƏNİM YANIMDA 272
BİR ÜRƏKDƏ İKİ CANIQ 273
BU AXŞAM TELEFON ÇALDI AHƏSTƏ 274
ELƏ SÜZGÜN-SÜZGÜN DOLAŞIR GENDƏ 274
HƏSRƏT VƏ SEVDA 275
EY MƏHƏBBƏT 276
MƏHƏBBƏT HƏR KƏSİN KÖNÜL MƏLƏYİ 278
EŞQİMƏ MİNNƏT ELƏMƏ 278
MƏN SƏNİ UNUTMARAM 279
ÜRƏYİNİN SƏDASI ÜRƏYİMƏ SƏS SALIR 279
YENƏ DÜŞÜB ARALIĞA AYRILIQ 280
EY KÖNLÜMÜN TACI 281
KƏSMƏ MƏNDƏN ÜLFƏTİNİ 281
GƏL, QƏLBİMDƏKİ BUZLARI ƏRİTMƏK ÜÇÜN 282
YAMAN AYRI DÜŞÜB KÖNLÜMÜZ İNDİ 282
BİTDİ GÖZLƏRİMİN GÖZÜNƏ BAXŞI 283
EY MƏNİM SEVİNCİM 284
XƏYALIN HƏR YANDAN ÜSTÜMƏ GƏLİR 284
BƏS NƏDİR? 285
SEVDA DOLU ÜRƏYİM AĞLAYIR SƏNİN ÜÇÜN 286
SƏNİ SEVİRƏM 286
EŞQİNƏ DÜŞƏN ÜRƏYİ 287
SƏNİ UNUTMAQ ÜÇÜN 288
GÜLƏ DÖNDÜ 289
EY MƏNİM İŞIĞIM 289
BU MƏHƏBBƏTİ UNUTMAQ ÜÇÜN 290
ELƏ QƏFİL GETDİN 290
MƏNİ HƏSRƏTLƏRDƏ QOYDU VƏFASIZ 291
AHIM ƏLÇİMLƏNİR AMANA MƏNİM 292
MƏNİM RUHUM – SƏNİN RUHUN 292
QÜSSƏ DOLU GÖZLƏRİN 293
YENƏ ÜRƏYİMDƏ BİR SEVDA GƏZİR 294
MƏHƏBBƏTİN BİR DİVANƏ 294
BİR SEVDANIN SORAĞINA DÜŞMÜŞƏM 295
EY MƏNİM KÖNLÜMÜ OVLAYAN 295
BİR AZCA İŞIQSAN... 296

GÖZÜNÜN HƏSRƏTİ GÖZÜMDƏN KEÇİR 296
MƏNDƏN NƏ İSTƏYİR SEVGİLİ DİLDAR 297
DEYİRLƏR DÜNYADA MƏHƏBBƏT QOŞA....298
NƏDƏN DOĞULMUSAN MEHRİ-MƏHƏBBƏT? 298
ÜRƏKDƏN GETMƏYƏN MƏHƏBBƏT İMİŞ 299
SEVGİLƏR AĞLAYAN UŞAĞA BƏNZƏR 299
YER ELƏDİN ÜRƏYİMDƏ....300
BİR İŞIQ İÇİNDƏ YUXU KİMİSƏN 300
BİZ MEHRİBAN OLANDA HƏYAT NƏ YAXŞI OLUR 301
GÖZÜ BULAMASIN KƏDƏR YAŞLARI 302
İLLƏRİN AĞRISI QALIB CANIMDA 302
SEVİNC GƏLİR AN İLƏ 303
SƏNİN ÇIRAĞININ PİLTƏSİYƏM MƏN....303
XƏZƏRƏ BƏNZƏRİ VAR... 304
ÜRƏYİMDƏN ÇIXARDA BİLMİRƏM BU EŞQİNİ....304
UZUN ƏHVALATDI SƏNİ SEVMƏYİM....305
ÖZÜMÜ SEVDİRƏ BİLMƏDİM SƏNƏ....307

QƏZƏLLƏR

BU FƏLƏK QOYMADI HEÇ KAMA ÇATAM DÜNYADA MƏN 309
DƏRDİM BÖYÜYÜB AH İLƏ ALƏMLƏRİ TUTDU....309
QALDI ÜRƏYİM AH İLƏ ALƏM ARASINDA....310
SÖZLƏ YARANIB CAN İLƏ DİLDƏN KEÇƏN ATƏŞ....310
AĞLAR GÖZÜMÜN YAŞLARI BİR ÇEŞMƏYƏ BƏNZƏR 311
GƏLDİ BAHARIM, BAĞÇADA GÜLLƏR TƏZƏLƏNDİ....311
KÖNLÜM DOLAŞIR AH İLƏ ALƏMLƏR İÇİNDƏ....312
DƏRDİM YIĞIŞIB EŞQİNƏ SƏCDƏYƏ GƏLİBDİ....312
AĞLAYIR GÖZDƏ YAŞIM AHU-FƏQAN ETMƏDƏYƏM 313
GƏLİRSƏN BADİ-SƏBA AÇMAĞA TƏLƏS QAPIMI....314
QADIN 314
GƏLİRƏM EŞQƏ SARI EŞQ MƏNƏ CAN ETMƏDƏDİ....315
DÜŞMÜŞƏM BİR DƏLİ SEVDAYA YENƏ 315
HƏR KƏSƏ HAQQ EVİNİN QAPISI AÇILMAYIR HEÇ 316
ÇƏKDİM AHI CANI-DİLDƏN AHIM ƏRŞƏ YAYILMAZMI?....316
GƏLİRSƏN ÖYLƏCƏ GƏL DÖNMƏ VƏFADAN GERİ YAR 317
FƏDA OLSUN CANIM SƏNƏ FƏDA BİLMƏZLƏR EŞQİNƏ....317
AXIR HƏR GÜN QƏDƏM-QƏDƏM GÖZÜM YAŞI BULAĞINA....318
CANIM UÇUR SABAHIMIN SORAĞINA GƏLƏR KİMİ....319

TƏBİƏT SEVDAYA ÇAĞIRIR MƏNİ

KÖNÜL BAĞININ QÖNÇƏLƏRİ GÜL GƏTİRİBDÜR 320
RUHUM QANAD AÇIR UÇMAĞA BU GÜN 321
GECƏNİN SÜKUTU 322
BİZİ YAŞADAN HƏYATDI 322
AL-ƏLVAN GEYDİRİB ÇÖLÜ- ÇƏMƏNİ 323
ƏLƏNİR GÖYDƏN YAĞIŞ 324
BULUDLAR KÖÇ EDİR GÖYÜN ÜZÜNDƏ 325
BAHAR, TƏBİƏTİN EY ŞILTAQ QIZI 326
TUTULUB GÖYLƏRİN SƏMASI YENƏ 327
GÖZƏL BAHAR, XOŞ GƏLMİSƏN 328
EY QƏDƏMLƏRİ MÜBARƏK 328
BAHAR FƏSLİ 329
NƏDƏN DİLDAR OLUB BAXIRSAN MƏNƏ? 330
BULUDLAR TOQQUŞDU 331
SƏNİN XİFFƏTİNİ ÇƏKİRƏM, XƏZƏR 332
HEYVA AĞACININ ÇİÇƏKLƏRİ 333
XƏZƏR QAYNAYIR 336
AĞACLAR SARI-SARI YARPAQLARIN ƏLƏYİR 337
TƏBİƏT ÖZÜ MƏLƏKDİ 338
QIŞ GƏLİB BULUD ÜSTƏ 339
UÇUŞUR KƏPƏNƏKLƏR 340
QUMRU 340
ALMA AĞACI 341
BİR TƏRƏFDƏ QIZILGÜL, BİR TƏRƏFDƏ LALƏDİR 342
NƏDƏN ÜRƏYİMİ YANDIRIB YAXDIN? 342
YENƏ GƏLİR BAHARIN YAZI TƏZƏ 343
TƏBİƏT SEVDAYA ÇAĞIRIR MƏNİ 344
BƏZƏYİB ÇÖLLƏRİ ƏLVAN LALƏLƏR 344
YENƏ ƏSİR DAĞLARINDA YELLƏRİN 345
FƏLAKƏT YÜRÜYÜR MƏMLƏKƏTLƏRƏ 346
YENƏ COŞDURURSAN DİLƏKLƏRİMİ 348
QIŞLA BAHAR DÖYÜŞÜR 348
ÇATLAYIR BAĞIRI DOLAN BULUDUN 350
ÇALXALANIR DAĞLAR, DÜZLƏR BAHARIN XOŞ TƏMASINDAN 351
ÜRƏYİN YOX OLUR AHI QUBADA 352
YENƏ SIZLAR ÜRƏYİMDƏ QÜRBƏTLƏR 353
QUŞLAR CƏH-CƏH VURUR, SABAH AÇİLİR 354
YENƏ DƏ TUTULUB SƏMANIN ÜZÜ 355
KİM KƏSİBDİ BU AĞACIN BAŞINI? 356
LALƏLƏR 357

XATİRATLAR

EY BÖYÜK SƏNƏTKAR, EY GÖZƏL İNSAN 358
İLYAS TAPDIQ 360
YANDIRDI KÖNLÜNÜ VƏTƏN HƏSRƏTİ 362
AŞIQ ULDUZ 363
ZƏLİMXAN 364
ÜRƏK TƏBƏSSÜMÜN ÜZÜNDƏ GƏZİR 366
SÖZÜNÜN SARAYI 367
QƏLƏMİN DAİMA DÜZLÜYƏ ÇALİR 368
ELOĞLU 369
EY KÖNÜL EVİ ZƏNGİN 370
EY BAHAR ÜRƏKLİ 372
SEVDALAR İÇİNDƏ GƏZƏN SALATIN 373
İLQAR HƏKİMİN 374
TÖKDÜN VƏRƏQƏ SÖZÜ 376
BU TALE YAZISI, BU QƏRİB DƏNİZ 377
BİR ŞAİRƏ XANIMA 378
XƏYALIN GÖZLƏRİM ÖNÜNDƏN GETMİR 379
YOXLUĞUN 380
ÖLÜMDƏN YÜKSƏKDƏ DURAN VƏTƏNDAŞ 381
GƏTİRİB MƏNİ BÜ GÜN MEHRİ-MƏHƏBBƏT, BU EVƏ 385
SƏNİN MAHNILARIN RUHU OXŞAYAR 386
BU DƏRDİ YAZMAĞA ƏLİM GƏLMƏYİR 388
SƏSİNİN SEHİRİ DÜŞDÜ ALƏMƏ 390
ÜZEYİR ELİMİZİN DAHİSİDİR 392
KÖÇDÜ HAQQ DÜNYASINA ŞEİRMİZİN BƏXTİYARI 394
ÇƏKDİ YAZIQ MİLLƏTİNİN AĞRISIN 396
EY ÜRƏYİ TALAN ŞAİRİMİZ 397
SUSDU QARABAĞIN SONA BÜLBÜLÜ 400
DOĞMANI DOĞMADAN AYIRAN FƏLƏK 402

ƏHVALATLAR

BİR KÜP QIZILIN ƏHVALATI 404
QU QUŞUNUN MƏHƏBBƏTİ 410
SUYUN DƏRDİ 414

İKİLİKLƏR 417

MÜƏLLİF HAQQINDA 443
MÜNDƏRİCAT 445

Şirin xanım Kərimbəyli Şadiman

Ay adamlar mən burdayam

Texniki redaktor: Aynur Əsgərli

Dizayner: Rafael Qasımov

Çapa imzalanmışdır: 06.02.2012
Kağız formatı: 60x84 1/16
Həcmi: 28,5 ç.v; Sifariş: 12; Sayı:500

«ADİLOĞLU» nəşriyyatında nəşrə hazırlanmış
və ofset üsulu ilə çap edilmişdir.
Ünvan: Bakı şəh., Şərifzadə küçəsi, 202
Tel.: 433 00 43, (050) 593 27 77
Web: www.adiloglu.az;
E-mail: adiloglu2000@gmail.com